Xalqın qəzeti!

# Xalq qəzeti

№ 01 (30970) 6 yanvar 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Prezident İlham ƏLİYEV: Biz daha güclü olmalıyıq!

## Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

REAL Televiziyasından **Mirşahin Ağayev:** ***Hər vaxtınız xeyir, cənab Prezident. Sizə bugünkü görüşə görə təkcə müsahibədə iştirak edən həmkarlarımız adından deyil, bütün Azərbaycan mediası adından təşəkkürümüzü bildiririk.***

**Prezident İlham Əliyev:** Sağ olun!

**Mirşahin Ağayev:** ***İnanırıq ki, həmişə olduğu kimi, bugünkü görüşdə də səsləndirdiyiniz fikirlər strateji gündəm yaradacaq və Azərbaycan mətbuatına, ictimai mühitə kifayət qədər mövzu verəcək.***

***2025-ci il masadakı nailiyyətlərinə görə, məncə, illərin 8 Noyabrı adlandırıla bilər və zirvə də yaqin ki, avqust ayında Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona tarixi səfərinizdir və heç şübhəsiz ki, BMT Baş Assambleyasındakı müraciətinizdir. Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında imzalanmış sənədlər, əldə olunmuş razılaşmalar nəinki Azərbaycan, bütöv region üçün əhəmiyyətlidir. Mən bu baxımdan istərdim ki, həm BMT-nin ali tribunasından dünyaya səslənişiniz barədə danışaq, həm də Amerika Birləşmiş Ştatları ilə imzalanmış sənədlər haqqında. Beləliklə, 8 avqustun Ağ Ev və 21 sentyabrın BMT günləri barədə, buyurun.***

**Prezident İlham Əliyev:** Sağ olun. Bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Hər ilin əvvəlində görüşərək Azərbaycan ictimaiyyətinə sizin vasitənizlə ilin yekunları ilə bağlı həm məlumat verilir, həm də ki, öz fikirlərimi bir də bölüşmək üçün imkan yaranır. Qeyd etdiyiniz kimi, keçən il doğrudan da tarixi il sayıla bilər. Çünki məhz keçən 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq. Sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik. Çünki müstəqillik əldə ediləndən sonra, hətta ondan da əvvəl Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşamışdır.

***(ardı 2-ci səhifədə)***

## Birinci vitse-prezident Mehriban Əliyeva Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə rəsmi sosial şəbəkə səhifələrində paylaşım edib.**

**Paylaşımda deyilir:** "Qoy Azərbaycan xalqının birliyi və həmrəyliyi, ölkəmizdəki sülh və əmin-amanlıq əbədi olsun! Yeni il hər bir ailəyə cansağlığı, sevgi, sevinc və xoşbəxtlik gətirsin! Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni iliniz mübarək!"

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 2026-cı ilin ilk günü ilə bağlı paylaşım edib



**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesabında 2026-cı ilin ilk günü ilə bağlı paylaşım edib.**

**Paylaşımda qeyd olunub:**

"Əziz həmvətənlərim, bacı-qardaşlarım!

Yeni 2026-cı ilin ilk günündə hər birinizə möhkəm cansağlığı, uğur və rifah arzulayıram. Qoy bu il ümidlərinizi doğrultsun, ürəyinizdəki bütün arzularınızı həyata keçirsin.

Hər birimizin yaşı bir il də artdı və inanıram ki, daha müdrik olduq. Qoy bu müdriklik bizə ən tutqun günlərdə belə işığı görməyə kömək etsin. Qoy qəlblərimizdə mərhəmət daha çox olsun. Qoy sevgimizin və xeyirxahlığımızın enerjisi ətrafımızı bürüsün.

Çünki təkcə bir yaxşı əməl belə hər tərəfə kök salır və həmin köklərdən yeni ağaclar – yeni xeyirxah əməllər və yaxşı işlər boy atır. Mərhəmət və xeyirxahlıq bizi daha güclü, daha yaxşı insanlara çevirir.

Qoy yeni ildə bizi yaxşılığa inam, bir-birimizə hörmət və doğma Vətənimiz qarşısında məsuliyyət hissi birləşdirsin. Qoy Uca Tanrı hər birinizi və hamımızı birlikdə qorusun, bizi bəlalardan saxlasın, xalqımıza sülh, həmrəylik və mənəvi güc bəxş etsin.

Qoy Allah mərhəmətini ailələrimizdən, övladlarımızdan və xalqımızdan əsirgəməsin, qəlblərimiz işığa, şəfqətə və sevgiyə açıq olsun.

Yeni iliniz mübarək – ümidlə, inamla və sevgi ilə,

Sizin MEHRİBAN".

## Haqq və ədalət güclünün tərəfindədir

*Azərbaycanın ordu siyasəti qlobal sistemə fundamental mesajlar verir*



**Otuzillik Qarabağ münaqişəsi açıq şəkildə nümayiş etdirdi ki, müasir beynəlxalq sistemdə hüquq artıq ədaləti təmin edən işlək mexanizm statusunu itirib və siyasi proseslərə real təsir imkanları məhdud formal normativ çərçivəyə çevrilib. Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən onlarla beynəlxalq sənəd, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi, habelə müxtəlif beynəlxalq tribunalların qərarları "27 sentyabr fazası"na qədər faktiki icra mexanizmi olmayan normativ bəyannamələr kimi qaldı. İşğal faktı yalnız real güc amili tətbiq edildiyi zaman aradan qaldırıldı. Qarabağ təcrübəsi göstərdi ki, mövcud beynəlxalq arxitekturada hüquq suverenliyi qoruya bilən dayağa çevrilmir. Suverenlik bu sistemdə yalnız öz sahibinin iradəsi, resurs potensialı və güc arxitekturası üzərindən qorunur.**

Bu, Prezident İlham Əliyevin dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində açıq ifadə olunur:

"Bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "Kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib".

***(ardı 11-ci səhifədə)***

## "907"nin ləğvi: etimad üçün zərurət və…



Səhifə ⇨ 12

## Gürcüstan balanslı siyasətlə manevr imkanı qazanır



Səhifə ⇨ 13

## Avrozonada genişlənmənin gözləntiləri



Səhifə ⇨ 15



## Zəngəzur dəhlizi Cənubi Qafqazı qlobal məkana qovuşduracaq

Səhifə ⇨ 17

## Azərbaycan liderinin postmünaqişə konsepsiyası

*Azərbaycan Prezidenti Yeni il müraciətində qələbə, hüquq və sülhdən danışdı*



**Prezident İlham Əliyevin xalqa ünvanladığı Yeni il müraciəti Azərbaycanın müasir siyasi tarixində yeni mərhələnin ideoloji və strateji konturlarını müəyyən edən konseptual sənəd kimi çıxış edir. Müraciət dövlət başçısının postmünaqişə dövrü üçün formalaşdırdığı siyasi doktrinanın əsas sütunlarını sistemli şəkildə ifadə edir və Azərbaycanın regional, eləcə də qlobal siyasi arxitekturadakı roluna dair aydın baxış ortaya qoyur.**

***(ardı 11-ci səhifədə)***

# Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

(əvvəli 1-ci səhifədə)

Müharibənin müxtəlif mərhələləri olub. Siz də bunu yaxşı xatırlayırsınız. Həm müharibənin fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr və bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu. Yəni Azərbaycan döyüş meydanında əldə etdiyi parlaq Qələbəyə siyasi müstəvidə və qeyd etdiyim kimi, dünyanın bir nömrəli ofisində siyasi möhür vurdu. Bu, təbii ki, müstəqillik tariximizdə yaddaqalan hadisələrdən biri olacaq, bəlkə də birincilər sırasında olacaq. Bu nöqteyi-nəzərdən keçən ili ölkəmiz üçün, xalqımız üçün çox uğurlu və tarixi il saymaq olar və əminəm ki, bundan sonra Azərbaycan xalqı sülh şəraitində yaşayacaq. Biz artıq cəmi beş ay bu şəraitdə yaşamağımıza baxmayaraq, bunun bəhrəsini görürük - həm siyasi, həm iqtisadi müstəvidə. Cəmiyyətdə mövcud olan xoş əhvali-ruhiyyə, sabitliyə və təhlükəsizliyə olan inamın artması, bütün bu amillər, əlbəttə, bizə imkan verir ki, uğurla irəliyə addımlayaq və ölkə qarşısında duran bütün vəzifələri bundan sonra da həll edək.

Azərbaycan-Amerika münasibətlərinin kontekstində də 2025-ci il tarixi il sayıla bilər. Çünki sirr deyil ki, Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra Amerika-Azərbaycan əlaqələrinin üzərində bir qara bulud kimi mənfur 907-ci düzəliş, necə deyərlər, fırlanırdı və Azərbaycan gənc, müstəqil ölkə olmasına baxmayaraq, Amerika kimi dünya miqyasında bir nömrəli dövlətlə lazımi səviyyədə münasibətlər qura bilməmişdi - Amerikadakı anti-Azərbaycan qüvvələrin fəaliyyəti, erməni lobbisinin fəaliyyəti nəticəsində. Azərbaycan tərəfindən belə cəhdlər dəfələrlə göstərilmişdir. Müəyyən mərhələlərdə münasibətlər müsbət istiqamətdə inkişaf edirdi. Ancaq mövcud məhdudiyyətlər, xüsusilə Ermənistan-Azərbaycan müharibəsinin davam etməsi Amerikadakı söz sahiblərinə imkan vermirdi ki, Azərbaycanla genişmiqyaslı münasibətlər qurulsun. Artıq bu məhdudiyyət də yoxdur və bunun təbii ki, iki əsas səbəbi var: birincisi, Ermənistan-Azərbaycan müharibəsinin rəsmən sona çatması, ikincisi, Amerikada Prezident Tramp administrasiyasının hakimiyyətdə olması. Bu administrasiya çox praqmatik, çox peşəkar və Amerikanın milli maraqlarının nə olduğunu çox yaxşı bilən üzvlərdən ibarətdir, Prezident başda olmaq şərti ilə. Təbii ki, Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir. Bizim üçün də. Ona görə bu nöqteyi-nəzərdən keçən il də dönüş ili sayıla bilər. Ağ Evdə Prezident Tramp mənim orada iştirakımla keçirilən mərasimdə 907-ci düzəlişə son qoydu, bunu aradan qaldırdı. Halbuki hələ Konqres bunu rəsmən aradan qaldırmalıdır. Amma xüsusilə mənim iştirakımla Prezident tərəfindən atılan bu addım, təbii ki, rəmzi məna daşıyır.

Bundan başqa, Amerika ilə Azərbaycan arasında strateji işçi qrupunun yaradılması sənədi imzalanmışdır. Bu işçi qrupunun əsas fəaliyyəti strateji tərəfdaşlıq xartiyasını hazırlamaqdır və artıq bu istiqamətdə də fəal iş başlamışdır. Təbii ki, uzun illər arzuladığımız Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasındakı coğrafi bağlantının yaradılması da məhz həmin gün reallaşdı. Yəni Zəngəzur dəhlizinin açılması artıq Amerika Prezidenti tərəfindən də təsdiqlənmişdir. Artıq mən də əminəm, Azərbaycan vətəndaşlarında şübhə yoxdur ki, Zəngəzur dəhlizi açılacaq. Onun adı fərqli ola bilər, amma mahiyyət dəyişmir. Beləliklə, bizə Ermənistanla normallaşma prosesi çərçivəsində lazım olan bütün məsələlər istədiyimiz kimi öz həllini tapdı. Əlbəttə, Ermənistanla Azərbaycan arasında paraflanmış sülh sazişinin əhəmiyyəti, imzaladığımız birgə Bəyannamə təbii ki, göz önündədir. Prezident Tramp şahid qismində bu Bəyannaməyə öz imzasını atdı. Bütün bunlar və digər önəmli hadisələr dediyiniz məsələyə bəlkə də daha geniş prizmadan aydınlıq gətirir.

Dediyim, sadaladığım bu məsələlər işlərin xronologiyasıdır. Bu, ictimaiyyətə açıq olan tərəfdir. Amma, eyni zamanda, bu gün çox fəal diplomatik hərəkət var. Azərbaycanla Amerika arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir. Oktyabr ayından bu yana mənim tərəfimdən Amerikaya nazirlərdən və özəl sektor nümayəndələrindən, digər məsul şəxslərdən ibarət dörd rəsmi heyət ezam edilmişdir. Demək olar ki, əsas istiqamətlər üzrə strateji xartiyanın hazırlanması və qarşılıqlı sərmayə qoyuluşu, onun təşkili və münasibətlərimizin iqtisadiyyat, ticarət, nəqliyyat, hərbi-sənaye istiqamətlərinin əhatə edilməsi məsələləri müzakirə olunur. Yəni ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir. Ona görə bu nöqteyi-nəzərdən 2025-ci ili təbii ki, çox uğurlu və tarixi il saymaq olar.

Azərbaycan Televiziyasından **Mümtaz Xəlilzadə:** ***Cənab Prezident, Siz 1992-ci ildə qəbul edilən həmin o ədalətsiz 907-ci düzəliş haqqında danışdınız. Əlbəttə ki, tarixi Amerika səfərinizdən sonra onun növbəti dəfə dondurulması haqqında da qərar qəbul edildi. Mən istərdim, onun birdəfəlik ləğvi perspektivləri haqqında Sizin fikirlərinizi öyrənək. Eyni zamanda, həmin 907-ci düzəlişin yalnız iqtisadi tərəflərini yox, siyasi və strateji tərəflərini də səciyyələndirəsiniz, əhəmiyyəti nöqteyi-nəzərdən.***

**Prezident İlham Əliyev:** Əlbəttə ki, bu düzəliş bizə qarşı tətbiq olunanda bu, çox böyük ədalətsizlik, eyni zamanda, ovaxtkı Azərbaycan rəhbərliyinin buna laqeyd yanaşması idi. O vaxt Azərbaycan hakimiyyəti və onun diplomatiyası hansı səviyyədə idi, yəqin ki, bunu ancaq Mirşahin burada oturanlardan yaxşı bilir. Siz o vaxt çox gənc idiniz, bəlkə də uşaq idiniz. Əlbəttə ki, bu, biabırçı bir mənzərə idi. Azərbaycan diplomatiyasına rəhbərlik edən insanlar heç bir dildə danışa bilmirdilər, hətta Azərbaycan dilində düz-əməlli danışa bilmirdilər və heç bir təcrübəsi olmadan, yəni hansısa diplomatiyaya, siyasətə aid olmayan sahələrdən gətirilərək bu mühüm vəzifələrə təyin olundular. Ovaxtkı AXC-Müsavat hakimiyyəti, ümumiyyətlə, peşəkarlardan ibarət deyildi, əksinə, çox təsadüfi insanlar hakimiyyəti zəbt etmişdilər və faktiki olaraq Azərbaycanı məhvə doğru aparırdılar. Ondan cəmi bir il sonra xalqın tələbi ilə hakimiyyətdən biabırcasına getməyə məcbur oldular. Ona görə bax, bu iki amil önəmli rol oynamışdır. Əgər Azərbaycan o vaxt öz haqq sözünü Amerika rəhbərliyinə çatdıra bilsəydi, əgər mübarizə aparsaydı, onda bəlkə də Konqresdə erməni lobbisi tərəfindən təşkil edilmiş bu məsələyə Amerika administrasiyası başqa prizmadan da baxa bilərdi. Hər halda Konqres müstəqil orqan olsa da, xarici siyasətlə bağlı olan məsələləri bir çox hallarda Prezident Administrasiyası ilə müzakirə edir. Məndə olan məlumata görə, o vaxt Azərbaycanda hakimiyyətdə olanlar heç bilmirdilər ki, gündəlikdə belə bir məsələ var, belə bir qanun qəbul olunacaq və Azərbaycana qarşı bu ədalətsiz düzəliş tətbiq ediləcək.

Məsələnin ikinci tərəfi o idi ki, bizə qarşı böyük ədalətsizlik olmuşdur. Çünki 907-ci düzəliş 1992-ci ilin oktyabrında qəbul edildi. O vaxt bizim torpaqlarımız artıq işğal altında idi, Şuşa, Laçın işğal altında idi. Ermənistan dövləti tərəfindən Xocalı soyqırımı törədilmişdi, xalqımıza qarşı hərbi cinayət törədilmişdi və Azərbaycanın torpaqlarının işğal altında olması, təbii ki, Ermənistanı blokadaya almaq imkanlarını da sıfra endirirdi. Yəni ki, hansı blokadadan söhbət gedə bilərdi?! Nəzərə alsaq ki, Ermənistanın Gürcüstanla, İranla sərhədləri açıq idi, hətta Türkiyə-Ermənistan sərhədi 1993-cü ildə bağlanmışdır. Ona görə hər hansı bir blokadadan söhbət gedə bilməzdi. Ancaq erməni lobbisi və onun əhatə dairəsində olan senator və konqresmenlər belə bir ədalətsiz düzəlişi qəbul etdilər.

Onu da deməliyəm ki, onların bir çoxu artıq həyatda deyil, amma həyatda olanlar arasında çox maraqlı adlar da var. Onları siz tapa bilərsiniz, amma bir ad çəkməklə kifayətlənəcəyəm, o da ovaxtkı keçmiş senator, ondan sonra vitse-prezident, ondan sonra Prezident Co Bayden. Co Bayden 907-ci düzəlişin qəbul edilməsində çox böyük fəallıq göstərmişdir. Təkcə bu fakt kifayətdir ki, hər kəs anlasın, nə üçün bizim, həm Obama-Bayden, həm Bayden-Blinken administrasiyası ilə münasibətlərimiz istənilən səviyyədə deyildi. Obama-Bayden administrasiyası ilə əlaqələr kifayət qədər məsafəli idi, Bayden-Blinken administrasiyası isə bizim əlaqələrimizi faktiki olaraq böhrana salmışdı.

O vaxt bu düzəlişin təbii ki, böyük təsiri var idi. Çünki Azərbaycan çox kasıb ölkə idi, xəzinə boş idi, valyuta ehtiyatlarımız yox idi. Bizi yardımdan məhrum etmək, əlbəttə ki, bizə böyük bir zərbə idi. Nəzərə alsaq ki, o vaxt minlərlə, on minlərlə köçkün artıq ağır şəraitdə yaşayırdı və bu, həm siyasi cəhətdən ədalətsiz idi, həm praktik nöqteyi-nəzərdən çox təsirli idi. Biz uzun illər çalışırdıq ki, bu 907-ci düzəlişi ləğv etdirək. Ancaq bu, çox çətin proses idi və sadəcə olaraq, 11 sentyabr 2001-ci il hadisələrindən sonra Amerika Prezidenti bu düzəlişi öz imzası ilə aradan qaldırdı və bu, 2024-cü ilə qədər davam edirdi. Çünki Əfqanıstandakı əməliyyatlarda Azərbaycan Amerikaya lazım idi, həm nəqliyyat, logistika, həm də digər məsələlərlə əlaqədar. Ancaq əfsuslar olsun ki, Amerikanın Əfqanıstandakı missiyası başa çatandan sonra, - hamımız onu xatırlayırıq necə başa çatıb, bu, Bayden-Blinken administrasiyasının növbəti rəzaləti sayıla bilər, onların Əfqanıstandan belə xaotik qaçışı və öz yaxın müttəfiqlərini orada faktiki olaraq, taleyin ümidinə buraxması, - Bayden administrasiyası bu düzəlişin aradan qaldırılmasını dayandırdı. Yəni artıq Azərbaycan onlara lazım deyildi, Əfqanıstandakı missiya başa çatmışdı və beləliklə, bu düzəliş yenidən tətbiq edilmişdi. Əlbəttə, bunun bizim iqtisadi inkişafımıza heç bir təsiri yoxdur və ola da bilməz. Ancaq bu, Bayden-Blinken administrasiyasının nə qədər naşükür və nankor olmasını bir daha göstərir. O vaxt administrasiyanın yüksəkvəzifəli şəxsləri ilə söhbət əsnasında mən demişdim ki, gün gələcək və biz sizə bir daha lazım olacağıq. Amma onda bizim qapımızı döyməyin. Əgər o administrasiya və onun nümayəndələri bu gün hakimiyyətdə qalsaydı, biz onların bir xahişini də yerinə yetirməyəcəkdik.



Tramp administrasiyası hakimiyyətə gəldi və vəziyyət tamamilə dəyişdi. Təbii ki, qeyd etdiyim kimi, indi Amerika-Azərbaycan münasibətləri yeni səviyyəyə qalxmışdır və əlbəttə, biz gözləyirik ki, Konqres bu ədalətsiz, keçmişdən qalan, bu gün tamamilə absurd sayılan düzəlişi aradan qaldıracaq. Çünki nə o vaxt blokada var idi, nə bu gün blokada var. Əksinə, bu gün Azərbaycan ərazisindən Ermənistana müxtəlif yerlərdən yüklər gedir, yollar açıldı və hətta Azərbaycanın neft məhsulları Ermənistana ixrac edilir. Hansı blokadadan söhbət gedə bilər?! Əgər 907-ci düzəlişin formal səbəbi blokada idisə, bu yoxdur bu gün. Ona görə əlbəttə, biz gözləyirik ki, Tramp administrasiyası öz imkanlarından istifadə edərək Konqres üzvlərini, xüsusilə Respublikaçılar partiyasının üzvlərini inandıra biləcək ki, bu düzəliş tamamilə aradan qaldırılmalıdır və buna ümid etmək üçün bizim kifayət qədər səbəblərimiz var. Bu gün bu, yenə də simvolik xarakter daşısa da, necə deyərlər, masanı tamamilə keçmişin bu qalıqlarından təmizləmək üçün Konqres bunu birdəfəlik ləğv etməlidir.

İctimai Televiziyadan **Murad Hüseynov:** ***Cənab Prezident, Birləşmiş Ştatlarla münasibətlərdən, - artıq toxundunuz, - burada əldə olunan uğurlardan danışdınız. Azərbaycanın xarici siyasəti üçün 2025-ci ildə uğur gətirən digər hadisə və prosesləri xarakterizə etməyinizi xahiş edərdim.***

**Prezident İlham Əliyev:** Mən hesab edirdim ki, böyük əhəmiyyət daşıyan hadisələrdən biri də bizim Çinlə olan strateji tərəfdaşlığımızdır. Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər.

Digər tərəfdən, biz D-8 təşkilatına üzv olduq. Mən bunu da çox böyük nailiyyət kimi qiymətləndirirəm. Çünki bu təşkilat 30 ilə yaxındır ki, yaradılmışdır və yarandığı gündən yeni üzv qəbul etməmişdir. Ona görə bu günə qədər adı da D-8-dir. Yeganə yeni üzv Azərbaycan olmuşdur. Nəzərə alsaq ki, bu təşkilatda müsəlman dünyasının ən böyük ölkələri birləşir, Azərbaycanı dəvət etmək və bizi seçmək, əgər belə demək mümkündürsə, əlbəttə ki, böyük uğur sayıla bilər. Təkcə onu demək kifayətdir ki, bu təşkilatda birləşən ölkələrin ümumi əhalisi bir milyarddan, ümumi iqtisadiyyatı dörd trilyondan çoxdur. Azərbaycan nə əhali, nə iqtisadiyyat baxımından böyük ölkə sayıla bilməz. Bizim orada artıq rəsmən iştirakımız, əlbəttə ki, bizə olan hörmətin əlamətidir və bizim apardığımız müstəqil siyasətin nəticəsidir və dərhal biz fəal işlərə başladıq. Bizim təşəbbüsümüzlə Azərbaycanda təşkilatın bir neçə mərkəzi yaradılmışdır - media, iqlim, ekologiya, energetika, nəqliyyat və biz də təbii ki, bu təşkilatda fəal üzv kimi iştirak edəcəyik.

Xarici siyasətlə bağlı digər önəmli nailiyyət Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməyimizdir. Hesab edirəm ki, bu da nadir hadisə sayıla bilər. Çünki təbii ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik. Mən Prezident kimi artıq iki il ardıcıllıqla fəxri qonaq kimi Zirvə görüşlərinə dəvət olunurdum. Amma iştirakımla keçirilən üçüncü Zirvə Görüşündə artıq tamhüquqlu üzv seçildik. Əlbəttə ki, bu gün təkcə bizim bölgəmiz üçün yox, dünya üçün Mərkəzi Asiya-Azərbaycan birliyi və C5-in C6-ya çevrilməsi böyük əhəmiyyət daşıyır. Çünki bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün böyük önəm daşıyır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi nöqteyi-nəzərdən birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır. Təbii ki, coğrafi nöqteyi-nəzərdən digər marşrutlardan da istifadə oluna bilər. Ancaq mövcud geosiyasi vəziyyəti nəzərə alaraq tam qətiyyətlə deyə bilərik ki, Qərb üçün alternativ marşrutlar məqbul sayıla bilməz. Ona görə bizim rolumuz, yəni canlı körpü və etibarlı tərəfdaş kimi, artıq böyük layihələri icra edə bilən ölkə kimi təbii ki, artacaq və biz bunu artıq praktik həyatda görürük. Ərazimizdən keçən yüklərin sayı artır. İlk dəfə olaraq artıq 100 min konteyner Azərbaycan ərazisindən keçib. Bu ancaq başlanğıcdır, onların sayı dəfələrlə artacaq və hazırda biz öz nəqliyyat infrastrukturumuzu genişləndirmək üçün fəal işləyirik. Halbuki hesab edirdik ki, yaratdığımız infrastruktur uzun illər ərzində bizə kifayət edəcək, ancaq görürük ki, yox. Ona görə əlavə vəsait qoyulur və qoyulacaq, burada təkcə yüklərdən söhbət getmir. Bildiyiniz kimi, 2024-cü ilin noyabrında Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri Bakıda enerji kabelinin tikintisi ilə bağlı müqavilə bağlamışlar. Yəni bu bağlantılar da olacaq - fiber-optik kabelin Xəzərin dibi ilə çəkilməsi və bir çox digər layihələr. Ona görə Azərbaycanı bu qrupa rəsmən qəbul etməklə Mərkəzi Asiya ölkələri, onların rəhbərləri həm bizə böyük hörmət göstərmiş oldular, həm də ki, öz uzaqgörənliklərini nümayiş etdirdilər. Çünki bu, bölgədə olan geosiyasi vəziyyəti tamamilə dəyişir.

Bir çox xarici səfərlərim olub, səhv etmirəmsə, 20-yə yaxın, bəlkə də çox. Bir çox xarici dövlət, hökumət başçıları Azərbaycana gəlmişlər. Ölkəmizdə beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında təbii ki, Xankəndidə keçirilən ECO Zirvə Görüşünü qeyd etməliyəm. Əsas tədbir orada - Xankəndidə keçirilmişdir, amma işğaldan azad edilmiş digər şəhərlərdə - Şuşada, Laçında, Ağdamda bizim təşəbbüsümüzlə üç forum keçirilmişdir: Biznes Forum, Gənclər Forumu, Qadınlar Forumu. Yəni biz istəyirdik ki, gələn qonaqlar azad edilmiş torpaqların bütün olmasa da, böyük hissəsini görsünlər və biz buna hazır idik. Doqquz dövlət və hökumət başçısını biz Xankəndidə, Ağdamda, Şuşada qəbul etməyə hazır idik. Mövcud olan infrastruktur, konfrans zalları, hotellər və digər lazım olan amillər bu imkanı bizə yaratmışdır.

Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünü də xüsusilə qeyd etməliyəm. Bu, bir daha Türk dünyasının birliyini əks etdirən bir Zirvə idi və bildiyiniz kimi, bizim təşəbbüsümüzlə qeyri-rəsmi Zirvə görüşləri də keçirilməyə başlamışdır. Birinci qeyri-rəsmi Zirvə Şuşada keçirilmişdir, rəsmi Zirvə Qəbələdə və bu ənənəni indi digər ölkələr də davam etdirirlər. Artıq qeyri-rəsmi Zirvə Görüşü Macarıstanda keçirilmişdir. Yəqin ki, bu il də keçiriləcək. Yəni xarici siyasət istiqamətində yekunlarla bağlı çox danışmaq olar. Bu yaxınlarda xarici işlər naziri mətbuat konfransı keçirmişdir, daha geniş məlumat vermişdir. Mən isə sadəcə olaraq, əsasən vacib hesab etdiyim məqamları işıqlandırmaq istədim.

**Murad Hüseynov:** ***Daha bir sual verim, Qəbələdə Türk Dövlətləri Təşkilatının Sammitində Sizin çıxışınızda türk dövlətləri arasında hərbi əməkdaşlıq elementi xüsusilə hiss olundu. Bu, Sizin təklif idi?***

**Prezident İlham Əliyev:** Bəli.

**Murad Hüseynov:** ***Yaşadığımız müasir dünyada bu əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?***

**Prezident İlham Əliyev:** Bəli, tamamilə haqlısınız. Mən bunu qeyd etdim. Birinci dəfə deyil ki, mən bu Zirvə görüşlərində bu məsələyə toxunuram. Çünki bilirəm və görürəm, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə ilk növbədə öz hərbi potensialını gücləndirməlidir, təhlükəsizliyini gücləndirməlidir. Hətta Yeni il bayramı ilə əlaqədar Azərbaycan xalqına təbrikimdə də demişdim, bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır. Mənim sözlərim indi demək olar ki, həftəlik formatda bu və ya digər bölgələrdə təsdiqlənir. Qəbələdəki Zirvə Görüşündə mən bu tezisdən daha da irəli gedərək təklif etdim ki, bu il Azərbaycanda üzv ölkələrin birgə hərbi təlimləri keçirilsin. Hesab edirəm ki, buna da ehtiyac var. Biz üzv ölkələrlə ikitərəfli formatda hərbi təlimlər keçiririk. Təbii ki, ən çox Türkiyə ilə, amma digər ölkələrlə də. Ancaq birgə hərbi təlimlərin keçirilməsində həm böyük rəmzi məna ola bilər, eyni zamanda, praktik nöqteyi-nəzərdən buna ehtiyac var. Çünki yenə də deyirəm, mən bunu artıq bir neçə ildir ki, dilə gətirirəm. Həm də ki, öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan. Heç bir ölkə, heç bir rəhbər nahaq iş görməməlidir, heç bir ölkənin ərazi bütövlüyünə göz dikməməlidir, heç bir ölkəni işğal etməməlidir. Bizim böyüklüyümüz və müdrikliyimiz, eyni zamanda, məsuliyyətimiz göz önündədir. Biz həm 2020-ci ildə, həm 2023-cü ildə, həm də bu illər arasındakı olan hadisələr zamanı güc tətbiq edərək Ermənistana, yəni onlara layiq olan cavabı verə bilərdik. Necə ki, bizim xalqımız əzab-əziyyət içində yaşayıb, necə ki, bizim ərazilərimiz viran olunub, necə ki, bizə qarşı hərbi cinayətlər törədilib, biz də onların şəhərlərini Ağdamın vəziyyətinə qoya bilərdik. Tam rahatlıqla və əminliklə deyə bilərəm ki, heç kim bizi dayandıra bilməzdi. Biz bunu etmədik. Çünki birincisi, bu, nahaq iş olardı. İkincisi, mən tam əmin idim və bilirdim ki, gec-tez müharibə, hərbi qarşıdurma dayanmalıdır və bunu biz dayandırmasaq, bu dayanmayacaq. Bunu güclü tərəf dayandırmalıydı və hətta bu artıq mətbuata da getmişdir, Prezident Trampın müşaviri cənab Vitkof müsahibəsinin birində demişdi ki, Ağ Evdə Prezident Tramp da məndən də soruşdu "Niyə siz dayandınız? Siz güclüydünüz". Mənim cavabımı da yəqin ki, eşitmisiniz. Ona görə, buna baxmayaraq, hərbi gücün olmalıdır ki, heç kim sənə xor baxmasın, heç kim sənə ziyan vurmasın. Hətta heç kim düşünməsin ki, sənə ziyan vura bilər və bunun cavabını ödəməyəcək.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

(əvvəli 2-ci səhifədə)

Ona görə biz gücümüzü artırırıq, o cümlədən hərbi gücümüzü. Biz Türkiyə ilə rəsmi müttəfiqlik formatında əməkdaşlıq edirik, o cümlədən hərbi müttəfiqlik, o cümlədən bir-birinə hərbi yardım çərçivəsində. Ancaq yaxşı olardı ki, ailəmiz olan türk dövlətləri bu istiqamətdə də əməkdaşlığa başlasınlar. Bunu təklif etməklə mən heç də hansısa hərbi təşkilatın yaradılmasını təklif etmirəm. Bəziləri bunu belə yozurlar. Yox, bu, tamamilə əsassızdır. Biz indi sadəcə olaraq, energetika sahəsində, nəqliyyat sahəsində, ticarət, investisiya qoyuluşu, bir çox sahələrdə əməkdaşlıq edirik. Nə üçün bu sahədə də əməkdaşlıq etməyək? Nəzərə alsaq ki, bu gün bütün ölkələr üçün bu, bir nömrəli məsələdir, ona görə təklifim qüvvədədir. Biz indi mesajlarımızı müxtəlif diplomatik kanallarla göndəririk. Əgər ümumi razılıq olarsa, onda biz bu il bu təlimləri görəcəyik. Əgər görsək ki, təlim keçirilmədi, deməli, gərək sual verəsiniz "Kim bunu dəstəkləmədi?". Amma mən ümid edirəm ki, bütün üzv ölkələr bunu dəstəkləyəcək.

CBC Televiziyasından **Elmira Musazadə:** ***Cənab Prezident, CBC rus dilində yayımlanan beynəlxalq kanaldır. İcazənizlə sualımı rus dilində verəcəyəm.***

**Prezident İlham Əliyev:** Buyurun.

**Elmira Musazadə:** ***Cənab Prezident, xarici siyasətdə prioritetlərdən danışarkən, Siz Çin Xalq Respublikasının əhəmiyyətini qeyd etdiniz və həqiqətən də son illərdə bizim ikitərəfli münasibətlərimiz xeyli güclənib. Bu, həm ən yüksək səviyyədə səfərlər, həm də müxtəlif sahələrdə, xüsusilə iqtisadiyyat, nəqliyyat, logistika və texnologiyalar üzrə razılaşmalarda özünü göstərir. Siz bu razılaşmaların əhəmiyyətini necə qiymətləndirirsiniz və onların Azərbaycanın regional və qlobal proseslərdə roluna təsiri nədən ibarətdir?***

**Prezident İlham Əliyev:** Zənnimcə, bizim aramızda imzalanan həmin siyasi sənədlər, - onların sayı isə ikidir və biri haqqında artıq danışmışam, - bu, hərtərəfli strateji tərəfdaşlıqdır, bundan bir il əvvəl isə biz strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə qəbul etmişik. Yəni bir il ərzində strateji, sonra isə hərtərəfli strateji tərəfdaşlıq haqqında iki sənəd imzalanıb, bu, ikitərəfli iqtisadi əlaqələrin inkişafına böyük təkan verib. İstər bizim tərəfimizdən, istərsə də Çin Xalq Respublikası tərəfindən biznes strukturlarına, dövlət strukturlarına əlaqələrimizi maksimum fəallaşdırmaq üzrə ciddi impuls verilib və biz bunu hətta qarşılıqlı səfərlərin, nümayəndələrin, artıq imzalanmış müqavilələrin sayında, o cümlədən investisiyaların nümunəsində də görürük.

Biz əmtəə dövriyyəsinin artdığını görürük. O, rekord həddə - 4 milyard dollara çatıb, hətta 20 faiz artaraq 4 milyard dolları da keçib. Bu, yəqin ki, bizim hər hansı bir ölkə ilə əmtəə dövriyyəmizdə ən böyük artımdır. Biz imzalanmış investisiya xarakterli müqavilələri görürük, Çin şirkətləri Azərbaycana fəal şəkildə investisiya qoymağa başlayıb, əvvəllər bu yox idi. Ayrıca investisiya layihələri var idi, amma belə böyük sayda və dövlət strukturları ilə bu cür koordinasiya şəraitində biz bunu müşahidə etmirdik. Yəni bu ondan xəbər verir ki, qarşılıqlı fəaliyyəti genişləndirmək üçün çox ciddi siqnal və impuls verilib.

Artıq indi Çin şirkətləri bərpaolunan enerji mənbələrinə investisiyalar qoyur. Elektrik, Günəş, külək stansiyalarının tikintisinə başlanılır və bu stansiyaların sayının artırılması üzrə müraciətlər var.

Günəş panellərinin istehsalı üzrə zavodun tikintisinə başlanılıb, elektrik avtobuslarının yığılmasına başlanılıb. Bununla bağlı deməliyəm ki, bu, Azərbaycan tərəfinin strateji qərarı olub, çünki biz təkcə yaşıl energetikanı deyil, həm də yaşıl nəqliyyatı inkişaf etdirmək qərarına gəldikdə, gündəmdə strateji tərəfdaş seçmək məsələsi dayandı və Çin şirkətlərini seçdik.

Bu seçim, həmçinin artıq qeyd etdiyim razılaşmaların nəticəsi idi və təbii ki, layihənin icrasının peşəkarlığı, keyfiyyəti və sürəti bu seçimin düzgünlüyünü təsdiqlədi. Buna görə də Bakıda gördüyümüz yaşıl avtobusların bəziləri satın alındı və onların yığılmasına bu il başlanacaq, gələcəkdə isə lokallaşdırma artacaq.

Nəqliyyat sektorunda artıq bəhs etdiyim fəal əməkdaşlıq fonunda yükdaşımaların əsas artım mənbəyi təbii ki, Çin olacaq. Çin Xalq Respublikası hazırda Xəzər dənizinə dəmir yolunun, Qırğızıstan və Özbəkistan vasitəsilə daha bir dəmir yolunun tikintisini maliyyələşdirir, milyardlarla dollar sərmayə qoyur. Orada relyef çox mürəkkəbdir və çoxsaylı tunellər və körpülər tikilməlidir. Bu fakt onu göstərir ki, onlar bu layihəni maliyyələşdirmək qərarına gəldikləri üçün həmin dəmir yolu boş qalmayacaq. Xəzər dənizinə və deməli, Azərbaycana yükdaşımaların həcmi artacaq. Mərkəzi Asiya ölkələri ilə yanaşı, Çindən əlavə yükdaşımalar təbii ki, Şərq-Qərb marşrutunu, Orta Dəhlizi tam işlək vəziyyətə gətirəcək.



Sözsüz ki, Çin və Orta Asiya ölkələrindən gələn yüklərin də Zəngəzur dəhlizi boyunca hərəkət edəcəyini gözləyirik. Təbii ki, biz buna ilk növbədə Naxçıvan Muxtar Respublikası ilə əlaqə kimi, həm də beynəlxalq nəqliyyat dəhlizi kimi baxırıq. Bu gün Azərbaycandan Qərbə doğru bir dəmir yolu marşrutu var, onların sayı iki olacaq. İki həmişə birdən yaxşıdır, xüsusilə açıq okeana çıxışınız olmadığı və qonşu ölkələrdən keçməli olduğunuz bir şəraitdə. Həmişə həcm üçün, rəqabətqabiliyyətlilik üçün, tranzit marşrutunun inhisarlaşdırılmasının qarşısını almaq və təbii ki, daha rəqabətli tariflər təmin etmək üçün alternativə sahib olmaq daha yaxşıdır.

Bu, bizim qarşılıqlı fəaliyyətimizin çox böyük sektorudur və təbii ki, belə olan halda düşünürəm, həm əmtəə dövriyyəsinin həcmi nöqteyi-nəzərindən, potensial baxımdan və belə demək mümkünsə, həm də Cənubi Qafqazdan axını sonrakı istiqamətlər üzrə bölüşdürəcək ölkə kimi, Çin Xalq Respublikası üçün burada, bu regionda Azərbaycan prioritet tərəfdaşdır.

Bu axınlar isə hamımızın bildiyi kimi, bir çox istiqamətdə hərəkət edə bilər. Buradan iki istiqamətdə qərbə, bir istiqamətdə və daha sonra iki istiqamətdə - yenidən Zəngəzur dəhlizi vasitəsilə cənuba, Yaxın Şərqə, Fars körfəzinə və əlbəttə ki, şimal istiqamətinə doğru axın olacaq ki, bu istiqamət də tam istifadəyə veriləcək.

Buna görə də Azərbaycan, belə demək mümkünsə, kommersiya səmərəliliyinə və bir çox digər amillərə əsaslanaraq, yükdaşımaların artmasına kömək edən, özünün və qonşu ölkələrin infrastrukturuna investisiya qoyan, axınların təminedicisi olacaq ölkə rolunu oynamalıdır. Bu səbəbdən də xüsusən də açıq dənizə çıxışı olmayan Azərbaycanın nəqliyyat mərkəzi kimi rolu təbii olaraq artacaq.

Əlbəttə ki, burada daha bir yeni əməkdaşlıq istiqamətini qeyd etməyə bilmərəm. Bu, hərbi-texniki əməkdaşlıqdır. Ona da, həmçinin əldə olunmuş siyasi razılaşmalar çərçivəsində başlanılıb. Bu, Çin və Azərbaycan arasında yeni bir qarşılıqlı fəaliyyət sahəsidir. Bu əməkdaşlığın bir hissəsi hərbi paradda nümayiş etdirilib, amma bu, yalnız başlanğıcdır.

Biz bu halda böyük qarşılıqlı maraq görürük. Bundan əlavə, hərbi texnikanın əldə olunması ilə kifayətlənməyərək, biz müştərək müəssisələrin yaradılması üzərində işləyirik və bu sahədə işlər artıq başlayıb. Bu, ümumiyyətlə, ictimaiyyətin diqqətindən gizli saxlanılır, necə ki, belə də olmalıdır, amma həm də hər iki ölkə tərəfindən verilən strateji xarakterli ciddi siyasi qərardır və böyük potensiala malikdir. Əminəm ki, yaxın gələcəkdə həm yeni müqavilələrin, həm də artıq prosesdəki layihələrin həyata keçirilməsinin şahidi olacağıq. Bu, təbii ki, Azərbaycana böyük fayda gətirəcək.

AnewZ Televiziyasından **Nadia Cani:** ***Cənab Prezident. Mən beynəlxalq ingilisdilli AnewZ kanalını təmsil edirəm. Ona görə bu sualı Sizə ingilis dilində ünvanlayacağam.***

***Azərbaycanın iqtisadi və regional inkişafından, xüsusilə Ermənistanla yeni sülh müqaviləsi kontekstində danışa bilərsinizmi? Bu, gələcək illərdə ölkə üçün nə məna kəsb edir? Azərbaycanın Cənubi Qafqazda əsas iqtisadi lider kimi mövqe tutmasına kömək etmiş bəzi nailiyyətlərini sadalaya bilərsinizmi?***

**Prezident İlham Əliyev:** Bəli, keçən ilin avqustunda Vaşinqtonda paraflanmış sülh sazişi, əlbəttə ki, investisiyalar üçün, xüsusilə Amerika Birləşmiş Ştatlarından gələn investisiyalardan danışdıqda, böyük imkanlar açır. Biz bunun üzərində fəal işləyirik. Eyni zamanda, Azərbaycanın Birləşmiş Ştatlara yatırdığı investisiyaların artıq müəyyən tarixi var. Biz əsasən qiymətli kağızlara investisiya yatırmışdıq. Lakin indi, iki ölkə arasında olan münasibətlərin bu yeni mərhələsindən sonra biz real iqtisadiyyatın layihələrinə investisiya yatırmaq üçün müxtəlif seçimləri nəzərdən keçiririk. Eyni zamanda, Azərbaycanın hədəflərindən biri də regional süni zəka qovşağına, IT mərkəzinə çevrilməkdir və hesab edirəm ki, bizim buna nail olmaq üçün potensialımız var. Biz indi tərəfdaşlarımızla məlumat mərkəzlərinin yaradılması üzərində çalışırıq. Bildiyiniz kimi, məlumat mərkəzlərinin çoxlu elektrik enerjisinə ehtiyacı var. Bu gün daha geniş regionda elektrik enerjisi üzrə əlavə imkanı olan yeganə ölkə Azərbaycandır. Beləliklə bu gün daxili məqsədlər üçün istifadə etmədiyimiz ixrac və ya burada istehlak oluna bilən əlavə 2000 meqavat və ya 2 giqavat həcm varımızdır.

Kibertəhlükəsizlik mərkəzinin yaradılması, mütəxəssislərimizin təlimi ilə bağlı planlarımız və artıq icra olunmuş layihələrimiz var - biz bir çox mütəxəssislərimizi xaricə təlimlərə göndəririk və eyni zamanda, Azərbaycanda təlimlər təşkil edirik - hədəfimiz, bağlılıqla yanaşı, süni zəka və IT üçün bir haba çevrilməkdir. Potensial mövcuddur. Güclü siyasi iradə mövcuddur. Əlbəttə ki, biz Amerika şirkətlərini əsas tərəfdaşlarımız hesab edirik. Qeyd etmək istəyirəm ki, Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması üzrə Prezident Trampla Anlaşma Memorandumunu imzaladıqdan sonra Avropanın bir neçə aparıcı ölkəsi bizimlə strateji tərəfdaşlıq münasibətləri qurmaq üçün müraciət etmişdir. Beləliklə, müəyyən mənada bu, Vaşinqtondan daxil olan siqnal idi. Buna baxmayaraq, bu vaxtadək biz demək olar ki, 30 ölkə ilə strateji tərəfdaşlıq üzrə bəyanat və müqavilə imzalayıb və bağlamışıq, – bu ölkələrdən 10-u Avropa İttifaqının üzvüdür, – lakin Vaşinqtondan daxil olmuş bu güclü mesaj ABŞ-ın müttəfiqi olduğu ölkələrdə yaxşı qarşılanmışdır.

İqtisadi fəaliyyətimizlə bağlı, ölkəmiz iqtisadi cəhətdən tamamilə müstəqil olduğuna və hər hansı bir dəstəkdən, istənilən kreditdən və ya nədənsə asılı olmadığına görə bugünkü vəziyyət bizi qane edir. Bir neçə il bundan əvvəl mən xarici borcumuzu azaltmaq üçün hökumətin qarşısına vəzifə qoydum və buna nail olduq. Biz borc götürməyi tamamilə dayandırdıq və beynəlxalq maliyyə təsisatları ilə bütün münasibətlərimizi, aktiv münasibətlərimizi bitirdik. İndi bizim xarici borcumuz ÜDM-in 6+ faizini təşkil edərək tarixdə ən aşağı səviyyədədir. Biz yenə də məhdud məbləğlərdə borc götürməyə başladıq. Lakin biz maliyyələşdirməyə ehtiyacı olan layihələri dəstəkləmək üçün yenə də 2-3, bəlkə də 4 milyard ABŞ dolları məbləğində borc götürməyə qərar vermişdik. Biz sosial sahəyə maliyyələşməni kəsmək istəmirik. Biz müdafiə sahəsinə, Qarabağın yenidən qurulmasına maliyyələşməni kəsmək istəmirik. Lakin bizə nəqliyyat layihələrimiz, su-kanalizasiya sistemi üçün və əsasən bağlılıq məsələlərində maliyyələşmə lazımdır. Bunun üçün biz borc götürəcəyik. Lakin bu gün bizim xarici borcumuz tarixdə ən aşağı səviyyədədir, hesablamalardan asılı olaraq ÜDM-in 6,3-6,4 faizini təşkil edir. Bizim ehtiyatlarımız xarici borcu 16 və ya 17 dəfə üstələdiyinə görə xarici borcumuzu geri ödəyə bilərik. Nəyə görə bir rəqəmi qeyd etmirəm, çünki ötən il biz həm də qızıl ehtiyatlarımızı artırmaq üçün strateji qərar qəbul etdik. Biz geosiyasi müstəvidə cərəyan edən hadisələri açıq-aydın görürdük və mən tamamilə əmin idim ki, qızılın qiyməti artacaq və qiymət kəllə-çarxa çıxdı. Beləliklə, bu qərar bizə çoxlu pul qazandırdı. Qızıl ehtiyatlarımızı artıraraq Dövlət Neft Fondu yalnız buna görə 10 milyard ABŞ dollarından artıq vəsait qazandı. Lakin qızılın qiyməti aşağı düşərsə, əlbəttə ki, bizim ehtiyatlarımız da azalacaq. Beləliklə, bu gün bizim ehtiyatlarımız hər gün dəyişir. Bu gün ola bilsin 84 və ya 83 milyarddır. Sabah 85 olacaq. Buna baxmayaraq, bu, dünyada adambaşına düşən ehtiyatlar nöqteyi-nəzərindən istənilən ölkədə olan ən yüksək göstəricilərdən biridir, 83-84 milyard ABŞ dolları.

Nəhəng investisiya layihələrini və Qarabağın yenidən qurulmasını nəzərə alsaq, bu, həqiqətən iqtisadiyyatımızın güclü dayanıqlılığını nümayiş etdirir. İki aparıcı reytinq şirkəti bizim kredit reytinqimizi yenilədi. Bunlar "Moody's" və "Fitch" şirkətləri idi və burada reytinq investisiya səviyyəsi yenilənərək, proqnoz da sabitdən müsbətə doğru yenilənmişdir. Mən tamamilə əminəm ki, bizim kredit reytinqi üzrə göstəricimiz olduğundan daha aşağı qiymətləndirilir, çünki bizim böyük ehtiyatlarımız var, aşağı xarici borcumuz var, özünü təmin edən iqtisadiyyatımız var və hesab edirəm ki, bir çox digər amillər bizə daha yüksək reytinqə malik olmağa imkan verir. Bizim müvafiq dövlət təsisatları fəaliyyətimiz haqqında daha çox məlumat vermək üçün bu reytinq agentlikləri ilə çalışır ki, Azərbaycanın həqiqi reytinqi lazımi şəkildə əks olunsun. Çünki bu, təkcə prestij məsələsi deyil, baxmayaraq ki, belədir. Bu, həm də bizə, xüsusilə indi borc götürməyə qərar verdiyimiz bir dönəmdə daha yaxşı şərtlərlə borc götürməyə imkan verir. Odur ki, mən hökumətə borc götürməyi dayandırmağı tapşıranda hədəfim xarici borcu ÜDM-in 10 faizindən daha aşağı səviyyəyə gətirmək idi və indi o, ÜDM-in 6,3-6,4 faizini təşkil edir.

Əlbəttə ki, bu baxımdan daha çox vəsait regional inkişafa ayrılacaq. Bu gün bizim iki investisiya proqramımız var - biri ənənəvi proqramdır, digəri isə Qarabağ və Şərqi Zəngəzur üçündür. Hər ikisi yüksək səviyyədə icra olunaraq uğurla həyata keçirilir. Biz bağlılıq, nəqliyyat məsələlərində daha çox iş görməliyik. Artıq qeyd etdiyim kimi, mən düşünürdüm ki, dəniz limanları və dəmir yolları ilə bağlı gördüyümüz işlər bir çox illər üçün kifayət edəcək. İndi isə görürəm ki, artan yükdaşımaların həcminə görə bunlar kifayət etməyəcək.

Biz tezliklə Bakı, Sumqayıt və Xırdalanın, bütün Abşeron yarımadasının su-kanalizasiya sistemləri üzrə irimiqyaslı proqram qəbul edəcəyik, çünki buna tələbat böyükdür. Bir çox iş görülüb, lakin hələ də çatışmazlıqlar var. Hələ də güclü yağışlar olanda problemlərlə üzləşirik. Beləliklə kanalizasiya-su sistemlərinin idarə olunması və içməli su, o cümlədən Azərbaycanda ilk dəfə qurulacaq duzsuzlaşdırma qurğusu içməli suya olan böyük tələbatı qarşılayacaq. Kənd təsərrüfatını daha çox su ilə təmin etmək məqsədilə yeni kanalların tikintisi, həmçinin, əlbəttə ki, Bakının nəqliyyat problemləri həll olunacaq.

Hamımız yaxşı bilirik ki, - bəlkə siz bunu məndən də yaxşı bilirsiniz, - yol hərəkəti bu gün həqiqətən də ciddi problemdir. Əvvəlki illərdə biz çox iş görmüşük, 50 tunel, 50-yə yaxın körpü inşa etmişik, yolları genişləndirmişik. Təkcə Bakıda 2500 kilometr yol salınmışdır. Təsəvvür edin, şəhərin daxilində 2500 kilometr yol. Hamımız, - bəlkə hamımız yox, - amma Mirşahin və mən buradan Bakı şəhərinə gedən yolun necə olduğunu çox yaxşı xatırlayırıq. O vaxt cəmi bir yol var idi. Bu sahədə görüləcək işlər hələ çoxdur. Biz artıq Bakıda əlavə 10 metro stansiyasının tikintisini nəzərdə tutan proqram qəbul etmişik. Mənim səlahiyyət müddətim ərzində yeddi stansiya tikilib, lakin bu, kifayət deyil. Buna görə də daha 10 metro stansiyası, eləcə də yeni körpülər və tunellər tikiləcək. Bütün bunlar üçün vəsait cəlb etməliyik, çünki bu, bizə xeyli maliyyə qənaəti edəcək və həmin vəsaiti Qarabağ üçün istifadə edə biləcəyik.

Mən, ümumilikdə, iqtisadi inkişafdan razıyam. Bəli, bizim bir problemimiz var, bu da neft hasilatının təbii azalmasıdır. Bu amil ÜDM göstəricilərinə müəyyən mənfi təsir göstərir. Lakin əgər qeyri-neft və qeyri-qaz sektorunda ÜDM-ə baxsaq görərik ki, 11 ay ərzində 3,2 faiz artım qeydə alınıb, bu da pis göstərici deyil. Bu artım daha yüksək ola bilər və böyük ehtimalla olacaq. Eyni zamanda, biz neft hasilatının sabitləşdirilməsi üzərində işləyirik, - bu, mümkündür, - və təbii qaz hasilatının artırılması istiqamətində də addımlar atırıq. Bu da iqtisadiyyatımıza əlavə dinamika verəcək və onun böyüməsinə töhfə olacaq. Lakin artım təbii olmalıdır.

Bilirsiniz, mən dəfələrlə Ermənistanı güclü şəkildə dəstəkləyən və daim Ermənistan üçün geosiyasi baxımdan çətinliklərdən, guya bəzi ölkələrin onun maraqlarına zərər vurmaq istəməsindən şikayət edən bir qrup ölkənin liderləri ilə görüşərkən həmişə deyirəm: "ÜDM-ə baxın və Rusiya ilə ticarət dövriyyəsinə baxın". Rusiya–Ukrayna müharibəsi başlayanda Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi təxminən 2 milyard ABŞ dolları idi. İki il sonra isə bu rəqəm 12 milyard dollara çatdı. Bu, artıq hər şeyi açıq şəkildə göstərir.

Bu, sanksiyalardan yayınma mexanizmidir - onların dediyi kimi, paralel idxal və ya "boz zona" idxalıdır. Lakin nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də Avropa Şurası Parlament Assambleyasında heç kim bu barədə bir söz belə demədi, nə Ermənistanı qınadı, nə də ümumiyyətlə, sanksiyalar mövzusuna toxundu. Çünki onlar üçün sanksiyalardan yayınma kanalı olmaq qəbuledilləndir. Bizim ÜDM-in artması isə kiməsə sanksiyalardan yayınmağa kömək etdiyimizə görə deyil, - biz bunu etmirik, - o, iqtisadi fəaliyyətimizin real nəticələri hesabına artır.

Rəqəmlərlə bağlı daha bir məqamı da qeyd etmək istərdim. Rəqəmlər, əlbəttə ki, vacibdir, lakin ən önəmlisi insanların gündəlik həyatı və ölkənin iqtisadi imkanlarıdır. Həmçinin aydındır ki, iqtisadiyyat nə qədər böyükdürsə, hər bir faiz artımının dəyəri də bir o qədər yüksək olur. Belə ki, iqtisadiyyatın həcmi təxminən 70–80 milyard ABŞ dolları olduqda, hər bir faiz artımı demək olar ki, 1 milyard dollar edir. Bu 1 milyard dolları cəmi bir il ərzində əldə etmək isə asan məsələ deyil. Bununla belə, mən hesab edirəm ki, göstəricilər daha yaxşı ola bilər. Neft hasilatı sabitləşdikdən sonra ÜDM üzrə daha yüksək rəqəmləri görəcəyimizi düşünürəm. Amma yenə də mənim üçün bu, nə rəqabətdir, nə də yarış. Əsas odur ki, iqtisadiyyatımız bizə inkişaf etməyə, əhali üçün daha yaxşı yaşayış şəraiti yaratmağa, azad edilmiş əraziləri bərpa etməyə, müdafiə qabiliyyətinə investisiya qoymağa və ümumilikdə, iqtisadiyyatımızı daha da gücləndirməyə imkan versin.

**Mümtaz Xəlilzadə:** ***Təşəkkür edirik, cənab Prezident. Siz Azərbaycan dövlətinin xarici siyasəti, regional inkişafı, iqtisadi göstəriciləri haqqında fikirlərinizi bölüşdünüz. Mənim növbəti sualım dövlətin sosial siyasətinin nəticələri ilə bağlı olacaq. Xahişim odur ki, həm 2025-ci ildə dövlətin sosial siyasətinin nəticələri, eyni zamanda, bu ildən tətbiqi nəzərdə tutulan, xüsusən də cəmiyyətin sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində həyata keçiriləcək layihələr barədə məlumat verəsiniz.***

**Prezident İlham Əliyev:** Bu, həmişə bizim siyasətimizin ana xəttini müəyyən edən istiqamətdir. Çünki mən uzun illərdir deyirəm və bunu əməli işlərdə də biz görürük ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu, sadəcə olaraq, şüar deyil. Bizim bütün siyasətimiz həm sosialyönümlüdür, həm də ki, investisiyayönümlüdür. Hər ikisi arasında çox həssas balans, tarazlıq olmalıdır. Əgər olmasa, onda heç bir ölkə uğur qazana bilməz, bu birincisi. İkincisi, həmişə çalışmışam və bu gün də çalışıram populizmdən uzaq olum və mümkün olmayan vədləri verməyim. Mümkün olan inkişafla bağlı Azərbaycan ictimaiyyətini müntəzəm olaraq məlumatlandırıram.

(ardı 4-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

**(əvvəli 3-cü səhifədə)**

Əgər son 20 ilin statistikasına baxsaq, təkcə onu demək kifayətdir ki, minimum əməkhaqqı Azərbaycanda 40 dəfədən çox artıb. Düzdür, ilkin baza çox aşağı idi, amma bu artım da əldə edilmiş vəsait hesabına mümkün olmuşdur. Yəni biz iqtisadi islahatları apararaq, neft-qaz layihələrini icra edərək, ilk növbədə əldə edilən gəlirləri sosial sahəyə yönəldirdik və bu gün də belədir. İşğal dövründə bizim əsas xərclərimiz hərbi təyinatlı xərclər idi, ondan sonra təhsil xərcləri idi, ondan sonra məcburi köçkünlər üçün nəzərdə tutulan xərclər idi. Yəni biz işğal dövründə 300 mindən çox köçkünü yeni evlərlə, mənzillərlə təmin etmişdik, 100-dən çox şəhərcik inşa olunmuşdur. Yəni bu, niyyətimizi əyani şəkildə göstərir və bu gün insanların rifah halını yaxşılaşdırmaq üçün sosial siyasət daha dəqiq aparılır. Yəni vaxtilə bu sahədə olan pozuntular aradan qaldırılır, ədalətsizliklər aradan qaldırılır, şəffaf mexanizm tətbiq olunur. Bu, bizə imkan verib ki, biz bir neçə ciddi sosial islahat paketi icra etmişik, daha doğrusu, son yeddi il ərzində 5 sosial islahat paketi icra edilmişdir. Bu islahatların əhatə dairəsi 4 milyon insandır və təqribən 8 milyard manata yaxın olan vəsaitdir. Təkcə keçən il 1,4 milyard büdcə vəsaiti bu məqsədlər üçün xərclənib. Yəni maaşlar, pensiyalar, müavinətlər müntəzəm olaraq artırılır, pensiyalar indeksləşdirilir.

Əlbəttə, istərdik ki, daha da çox olsun. Amma bir atalar sözü var: "Gərək ayağını yorğanına görə uzadasan". Yenə də deyirəm, biz heç vaxt populizmlə məşğul olmamışıq, heç vaxt həlli mümkün olmayan vədlər verməmişik, heç vaxt gələcək nəsilləri borca salmaq üçün haradansa böyük məbləğdə pul alıb onu paylamamışıq. Biz strateji inkişafla bağlı tam, necə deyərlər, aydın mənzərəyə sahibik. Ona görə ölkə iqtisadiyyatı inkişaf etdikcə, ölkənin valyuta ehtiyatları artdıqca, əlbəttə ki, sosial sahəyə daha da böyük vəsait ayrılacaq.

Biz bir neçə ildir ki, özünüməşğulluq proqramı ilə məşğuluq, əgər belə demək mümkündürsə və 100 mindən çox insan bu proqramla əhatə olunub. Yəni cəmiyyətdə ələbaxımlılıq olmamalıdır. Bunu tam aradan qaldırmışıq? Yox, yenə də var. İş yerləri yaradılır, o cümlədən Qarabağ və Şərqi Zəngəzur da böyük tikinti meydançasıdır. Yəni işləmək istəyən Azərbaycanda özü üçün iş tapa bilər, ya inşaatda, ya kənd təsərrüfatında, ya başqa sahələrdə. İşsizlik aşağı səviyyədədir, ancaq işsizlər var və bu, hər bir ölkədə var. İnkişaf etmiş ölkələrdə bizdən də böyük faizlə ölçülən işsizlik var. Amma mənim sözüm odur ki, bu gün Azərbaycan kimi ölkədə, geniş imkanları olan ölkədə iş tapmaq o qədər də çətin məsələ deyil. Sadəcə olaraq, bəziləri bəlkə də onlara təklif olunan işlərlə razı deyillər, ona görə iş axtarmağa davam edirlər. Özünüməşğulluq proqramı işsizliyin böyük hissəsini faktiki olaraq aradan qaldırır və bu insanlara verilən vasitələrlə onlar öz ailə büdcələrini təmin edə bilərlər.

Son illərdə 16 min şəhid ailəsinə və müharibə əlilinə, onların ailələrinə dövlət tərəfindən mənzillər verilmişdir. Burada da Azərbaycan qədər bu sahəyə diqqət yetirən ikinci ölkə yoxdur. Müharibələr olub, İkinci Dünya müharibəsi, ondan sonrakı müharibələr. Mən bilmirəm hansı ölkədə şəhid olanlara dövlət tərəfindən mənzillər verilir, bəlkə verilir, amma mən bilmirəm, eşitməmişəm. Minik avtomobilləri verilir. Biz müharibə zamanı əlil olmuş hərbçiləri dövlət tərəfindən ən müasir protezlərlə təmin etmişik. Beş yüzdən çox insan protezlərlə təmin edilib və normal həyata qayıdıblar. Bu, ən son model protezlərdir. Müntəzəm olaraq onlara xidmət göstərilməlidir, dəyişdirilməlidir. Çünki bunu fizioloji nöqteyi-nəzərdən dəyişməyə ehtiyac var. Əlbəttə, biz bunu edirik, o insanlar qarşısında bizim vətəndaşlıq borcumuzdur. Bir sözlə, bu istiqamətdə mən hələ sosial infrastruktur layihələrini qeyd etmirəm. Son 20 il ərzində Azərbaycanda 3 min 600 məktəb, yüzlərlə xəstəxana tikilib və əsaslı təmir edilib. Yəni bu, bizim siyasətimizin, o cümlədən iqtisadi siyasətin ayrılmaz hissəsidir və yenə də deyirəm, iqtisadiyyatımız nə qədər artsa, ilk növbədə o qədər də sosial məsələlərə diqqət yetiriləcək və maliyyə ayrılacaq.

**Murad Hüseynov:** ***Cənab Prezident, Siz Qarabağın və Şərqi Zəngəzurun bərpasını Azərbaycan dövlətinin ən prioritet istiqamətlərindən biri elan etmisiniz. Böyük Qayıdışa dair Birinci Dövlət Proqramının icrasını necə qiymətləndirirsiniz? İşğaldan azad edilən ərazilərin Azərbaycanın iqtisadi zəncirinə cəlb olunması üçün yeni institusional addımların atılması planlaşdırılırmı?***

**Prezident İlham Əliyev:** Bəli, təbii. Çünki, ilk növbədə, biz gərək bu bölgələr arasında bağlantılar yaradaydıq. Çünki işğal dövründə oradakı vəziyyət acınacaqlı idi. Siz hamınız - Azərbaycan vətəndaşları o bölgələrdə olarkən, xüsusilə işğaldan azad ediləndən sonrakı ilk aylar ərzində görürdük ki, vəziyyət çox acınacaqlı idi. Hətta mən özüm də dəfələrlə orada olarkən özümə sual verirdim: bəs bu qədər milyonlar, yüz milyonlarla telemarafonlar, - ermənilər hər il yüz milyonlarla pul yığırdılar, - bu pul hara gedirdi? Mən onu orada görmədim. Ancaq bəlkə də orada separatçıların villalarını saymaq olar, amma nə ictimai binalar, nə də hansısa yaşayış binaları var idi. Faktiki olaraq, orada həyat sanki XX əsrin 70-ci illərində dayanıb. Məndə belə təəssürat var idi. Mən 1970-ci illərdə dəfələrlə Azərbaycanın bölgələrində olmuşam və sanki o xatirələr qayıtmış oldu.



Ona görə biz bu bölgələri canlandırmaq üçün gərək bağlantılar, enerji təminatı yaradaydıq. Bu işlə məşğul olduq və azad edilmiş bütün bölgələri mərkəzlə, mərkəzi infrastrukturla faktiki olaraq birləşdirdik. Enerji sistemi - dairəvi enerji sistemi quruldu və bu gün mərkəzdən oraya yox, oradan mərkəzə enerji daxil olur. Çünki biz beş il ərzində 307 meqavat gücündə su elektrik stansiyaları yaratmışıq və əlbəttə ki, azad edilmiş bölgələrdə istehlak qat-qat aşağıdır. Ona görə biz bu dairəvi sistemi yaratmaqla bu gün enerji axınını ölkə üzrə lazımi səviyyədə bölə bilərik.

Su təchizatı olmadan heç kim oraya köçməz, orada yaşamaz. Bu məsələ də öz həllini tapır və su anbarları - bir neçə su anbarını yenidən qurmuşuq, sıfırdan qurulan, məsələn, Zabuxçay su anbarı, əsaslı təmir olunan Sərsəng, Suqovuşan, Köndələnçay-da üç, Xaçınçay. Bütün bunlar həm böyük vəsait, həm də işçi qüvvəsi tələb edir və onu da deməliyəm, bu işlər, əlbəttə ki, vəsait hesabına görülür. Əgər vəsait olsa, amma işçi qüvvəsi, yaxud da ki, hazırlıqlı kadrlar olmasa, biz bu işi görə bilməzdik. Bax, indi Kəlbəcər dağlarından elektrik xətləri çəkmək özlüyündə bir qəhrəmanlıqdır, özü də ağır hava şəraitində yollar, körpülər, misalçün, 70 kilometr uzunluğunda tunellər inşa edilir. Onların böyük əksəriyyəti başa çatıb. İlk növbədə, bu bölgə dəmir yolları - Bərdə-Ağdam, indi Ağdam-Xankəndi, avtomobil yolları, magistral, - yəni Zəngəzur dəhlizi öz yerində, - amma, eyni zamanda, Cəbrayıl, Hadrut, Laçın, Kəlbəcər bir-biri ilə bağlı olmalı idi. Mən birinci dəfə Kəlbəcərdən Laçına gedəndə həyatımda belə təhlükəli yol görməmişdim. Uzun illərdir ki, avtomobil sürürəm, o cümlədən vaxtilə müxtəlif ölkələrdə də olanda sürmüşdüm, təbii ki, Azərbaycanın hər bir yerində, amma mən elə təhlükəli yol görməmişdim. Bəlkə də Göygöl-Kəlbəcər yolu, Murov aşırımı, - tunel tikilənə qədər o yoldan istifadə edirdik, - ona bənzər ola bilər. Yəni indi bu dördzolaqlı körpülərlə, tunellərlə təmin olunan yollar - bütün bunlar imkan verəcək ki, bir yerdə yaşayan insan o biri yerdə işləyə bilsin. Misalçün, Xankəndi-Şuşa məsafəsi o qədər də böyük deyil. Amma yenə də bu məsafəni daha da qısaltmaq üçün o yol boyunca tunel tikirik. Ya da ki, Şuşa-Laçın, o məsafəni də indi 40 dəqiqəyə getmək olar. Amma bu, yeni tunellərlə, yolların genişləndirilməsi ilə 20-25 dəqiqəyə düşəcək. Yəni imkan verəcək ki, mobillik artsın, o cümlədən Ağdamda yaşayan Şuşada gedib işləyəcək və əksinə.

Bütün o bölgəni bir-biri ilə bağlamaq bizim əsas vəzifəmizdir. Bu bölgəni Azərbaycanın digər bölgələri ilə, - Kəlbəcər vasitəsilə Gəncə-Qərb istiqaməti, Tərtər-Bərdə-Bakı istiqaməti, Füzuli-Biləsuvar-Cənub istiqaməti ilə əlaqələndirməklə, ölkədə bağlantılar daha etibarlı olacaq, yola sərf olunan vaxt qısalacaq. Hamımız yaxşı bilirik ki, insanlar adətən yaşadıqları bölgələrdə yaşayırlar. Ancaq o bağlantılar - dəmir yolu, avtomobil yolları olan zaman, gələcəkdə hava yollarının istifadəsi ilə insanlar da ölkə daxilində miqrasiya edə bilərlər. Şərt deyil ki, hamı Bakıya gəlsin. Əksinə, bu gün, məsələn Xankəndi kimi şəhərə Bakıdan, Naxçıvandan, başqa yerlərdən gəlirlər. Xankəndi və Ağdam azad edilmiş bölgələrin əsas şəhərləri olacaq.

Bu mobillik cəmiyyətə yeni bir mədəniyyət gətirəcək. Yəni xüsusilə bugünkü internet dövründə harada iş var gedirəm, orada işləyirəm, orada yaşayıram, orada şərait olmalıdır. Bakıdakı kimi olmasa da, heç olmasa, Bakıya yaxın olan şərait olmalıdır. Yəni məqsəd budur. Bu, deyə bilərəm ki, bir yan məqsəddir. Təbii ki, əsas məqsəd keçmiş köçkünləri oraya qaytarmaqdır. Bu gün artıq 70 min insan orada yaşayır. Təbii ki, onların hamısı köçkün deyil. Ancaq işləyənlər və əksəriyyət köçkün deyil. Otuz iki şəhər və kənddə. Bu il biz orada yaşayanların sayını bir neçə dəfə artıra bilərik. Amma hələ ki, heç bir rəqəm demək istəmirəm. Çünki ola bilir, bəzi hallarda işin icrası uzanır. Amma hesab edirəm ki, ən azı 30-50 kənddə biz insanları yerləşdirə bilərik və beləliklə, ola bilər 120, 130, 140 min əhali bu ilin sonuna qədər orada yaşayacaq, çalışacaq.

İnfrastruktur layihələri icra edildikcə təbii ki, evlərin tikintisinə daha böyük vəsait veriləcək. Amma hər şey ardıcıllıqla, Baş plan əsasında edilir. Biz həm tələsirik, həm də tələsməməliyik. Çünki bəzi hallarda tələskənliyə yol verərkən keyfiyyət uduzur. Yaxud da ki, hansısa işi keyfiyyətsiz edənlər deyirlər ki, bəs tələsmişəm, mən bunu filan tarixdə təhvil verməli idim. Mən hamıya dedim, bax, ictimaiyyətə də deyə bilərəm ki, heç vaxt heç bir tarix qoymamışam. Bu il üçün də heç bir tarix qoymamışam. Nə vaxt hazır olacaq, o vaxt hazır olacaq. Amma hər şey gərək keyfiyyətli olsun və təbii ki, ictimai nəzarət də olmalıdır.

**Mirşahin Ağayev:** ***Cənab Prezident, mən elə buradan Zəngəzur dəhlizi mövzusuna keçmək istəyirəm. İndi onun bir adı da belədir: Amerika Birləşmiş Ştatları və Ermənistan arasında imzalanmış beynəlxalq sülh və rifah naminə Tramp marşrutu üzrə razılaşma. Naxçıvan istiqamətində görülən işləri artıq biz efirdə də təqdim etməyə başlamışıq. Bu istiqamətdə görülən işlərlə bağlı mövqeyiniz, münasibətiniz necədir və bizim bilmədiyimiz hansı məlumatlar var?***

**Prezident İlham Əliyev:** Biz əslində bu dəhlizi müharibədən - İkinci Qarabağ müharibəsindən bir neçə ay sonra icra etməyə başlamışıq. Səhv etmirəmsə, 2021-ci ilin əvvəlində artıq o dəmir yolunun təməli də qoyuldu. Yəni sözün düzü, məndə şübhə yox idi ki, bu yol açılacaq. Əgər şübhə olsaydı, yəqin ki, biz bu qədər vəsait qoymazdıq. Hətta müsahibələrin birində də demişdim ki, istənilən yolla açılacaq. Bəzən belə ritorikaya da ehtiyac var, çünki bu, qarşı tərəfi, necə deyərlər, yumşaq mənada həvəsləndirir. Amma əlbəttə ki, bu məsələnin Amerikada Trampın iştirakı ilə həll olunması bu məsələni artıq tamamilə həll edilmiş məsələ kimi ortaya qoydu.

Bizim Ermənistan sərhədinə gedən yollarımız - həm dəmir yolu, həm avtomobil yolu demək olar ki, tezliklə hazır olacaq. Avtomobil yolunun hazırlığı təxminən 95 faizdir. Dəmir yolunun fiziki hazırlığı 70 faizdir. Biz işi sürətləndirə də bilərik. Amma Ermənistan ərazisində hələ heç bir iş görülmədiyi üçün buna da böyük ehtiyac görmürük. Çünki Ermənistan ərazisində 42 kilometr yol inşa edilməlidir. Paralel olaraq Naxçıvan ərazisində, - bildiyiniz kimi, yolun uzunluğu təxminən 190 kilometrdir, - onun böyük hissəsi var. Düzdür, vəziyyəti o qədər də yaxşı deyil, ancaq bu gün mövcud ola biləcək yükləri aparmaq üçün o yol kifayət edir. Həm Ordubad, həm də Sədərək istiqamətində olmayan hissələr də var. İndi biz orada olmayan dəmir yollarını tikməyə başlamışıq və hesab edirəm ki, bir-iki ilə o da başa çatacaq.

O ki qaldı yolun qalan hissəsinə, burada biz xarici investorları da dəvət edirik, kim istəyir sərmayə qoysun. Bu sahəni də xarici investisiyalar üçün açıq etmişik. Beləliklə, bu layihə tam başa çatandan sonra onun yükötürmə qabiliyyəti 15 milyon tona bərabər olacaq və bayaq qeyd etdiyim kimi, həm Şərq-Qərb, həm də ki, Şərq-Cənub, bəlkə də Şimal-Cənub yolunun bir qolu olacaq. Çünki bu gün Şimal-Cənub layihəsi deyəndə, ilk növbədə, Rusiya-Azərbaycan-İran, yəni Rəşt-Astara yolu nəzərdə tutulur. Bu yol da vacibdir. Ancaq Zəngəzur dəhlizi açılandan sonra sovet vaxtı mövcud olmuş Sovet İttifaqı-İran yolu yenə də bərpa ediləcək. Yəni ki, Rusiya-Bakı-Ağbənd-Ermənistan-Naxçıvan-Culfa-Fars körfəzi – bu, Şimal-Cənub marşrutunun ikinci yolu olacaq. Bu, eyni zamanda, Orta Dəhlizin də ikinci yolu olacaq və təbii ki, yükaşırma qabiliyyəti artacaq. Yol Naxçıvandan iki istiqamət üzrə davam edəcək. Bir istiqamət Türkiyə-Avropa, bir istiqamət isə İran, Fars körfəzi və Yaxın Şərq. Qeyd etdiyim kimi, bunun əsas, necə deyərlər, istiqamətverici tərəfi də biz olacağıq. Yüklər Azərbaycanda cəmləşəcək və Azərbaycandan müxtəlif istiqamətlərə gedəcək. Ona görə də Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələ kimi qəbul edilməlidir. Mən inanmıram ki, Ermənistan bu məsələdən boyun qaçırsın, bu, özünəqəsd kimi qiymətləndirilə bilər. Xüsusilə nəzərə alsaq ki, Amerika Prezidenti Tramp bu yola öz adını verib, artıq bu, onun yoludur. Ermənistandan da gələn xəbərlər onu göstərir ki, bu il bu yolun fiziki tikintisi nəzərdə tutulur.

Bildiyiniz kimi, keçən il Qars-Naxçıvan dəmir yolunun tikintisi ilə bağlı Türkiyə tərəfi qərar qəbul etmişdir. Beləliklə, Naxçıvandan Qarsa qədər və faktiki olaraq Türkiyənin dəmir yolları şəbəkəsinə tam bağlantı olacaq və bu da çox önəmli layihə sayılmalıdır. Çünki Naxçıvanı Türkiyə ilə birləşdirə biləcək dəmir yolu mütləq olmalıdır və bütün bu layihələr təbii ki, koordinasiya şəklində aparılmalıdır. Azərbaycan ərazisində bütün bu yollar daha tez həll oluna bilər. Amma koordinasiya olanda xərclənən vəsaitə qənaət də olacaq. Çünki biz də bilməliyik, nə vaxt, hansı yolun seqmenti hazır olacaq ki, o vaxta qədər öz infrastrukturumuzu buna hazırlayaq. Amma yenə də deyirəm, bizim ərazimizdə Zəngəzur dəhlizi ilə bağlı artıq heç bir problem qalmayıb.

Onu da bildirməliyəm ki, bizim təşəbbüsümüzlə Ağbənd qəsəbəsində Arazın üzərindən körpü də inşa edilir. Yəni bizim o bölgədən Qərb istiqamətinə və Cənub istiqamətinə əslində iki yolumuz olacaq. Biri Zəngəzur dəhlizi - Ermənistan üzərindən, biri isə Araz dəhlizi - İran üzərindən. Bunun da təşəbbüskarı biz olmuşuq. Körpünü biz öz vəsaitimizlə inşa edirik. Hazırda Azərbaycanın əsas hissəsindən Naxçıvana getmək üçün Biləsuvardan uzun yol qət edilməlidir. İndi isə İran ərazisindən Naxçıvana cəmi 45-50 kilometr gediş olacaq. Beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında iki bağlantı olacaq, biri Ermənistan üzərindən, biri isə İran üzərindən. Biz faktiki olaraq Naxçıvanı, Şərqi Zəngəzuru və Qarabağı bir bölgə kimi birləşdirəcəyik.

Naxçıvanın Baş Planı da hazırlanır, həm şəhərin, həm də bütün şəhərlərin. Qarabağda və Şərqi Zəngəzurda gedən quruculuq işlərinə paralel olaraq Naxçıvan Muxtar Respublikasında da istər yaşıl enerji olsun, istər kənd təsərrüfatı, istər suvarma, - indi orada böyük suvarma layihələri icra ediləcək, - istər turizm, bu bölgəni biz birləşdirəcəyik. Mən bunu bir daha demək istəyirəm, biz bunu onsuz da edəcəkdik, amma yaxşı ki, bunu sülh yolu ilə edirik. Ermənistan da təbii olaraq bundan ancaq fayda görəcək. Çünki Ermənistan indiki dalan vəziyyətindən çıxa bilər və çıxacaq. Azərbaycanla Ermənistan arasında yollar açılacaq. Türkiyə ilə Ermənistan arasında yollar açılacaq. Ermənistan Naxçıvan vasitəsilə İranın dəmir yollarına, Azərbaycan vasitəsilə Rusiyanın dəmir yollarına çıxış əldə edəcək. Yəni bu, Ermənistan üçün də faydalıdır. Burada uduzan tərəflər olmamalıdır. Hər halda iqtisadi və nəqliyyat nöqteyi-nəzərindən uduzan tərəf olmayacaq. Əgər kimsə özünü siyasi cəhətdən uduzmuş hesab edirsə, bu, necə deyərlər, onun problemidir. Amma əgər hər kəs bu məsələyə praqmatizm nöqteyi-nəzərindən baxsa, burada özü üçün xeyirli bir iş görə bilər.

**Elmira Musazadə:** ***Cənab Prezident, biz, o cümlədən Ermənistanın da iştirak edəcəyi ilk belə regional layihələrdən danışırıq. Vaşinqton sazişindən sonra sülhə doğru kövrək də olsa, ilk addımları görürük. Lakin çıxışlarınızda dəfələrlə vurğuladığınız kimi, heç vaxt sayıqlığımızı itirməməliyik. Keçən il Vətən müharibəsinin, Azərbaycanın 44 günlük müharibədə Qələbəsinin beş ili tamam oldu. Noyabrın 8-də keçirilən parad təkcə Qələbənin rəmzi deyil, həm də yeni bir reallığın nümayişi oldu. Siz bu dövrü, bu beş ili Azərbaycanın, qalib ölkənin yeni Silahlı Qüvvələrinin formalaşdırılması və yeni təhlükəsizlik arxitekturasının yaradılması baxımından necə qiymətləndirirsiniz?***

**Prezident İlham Əliyev:** Bəli, bu beş il ərzində biz ordu quruculuğu ilə fəal şəkildə məşğul olmuşuq və necə deyərlər, qazandığımız uğurlardan arxayınlaşmamışıq. Mən şanlı Zəfərimizdən dərhal sonra demişəm ki, biz arxayınlaşmamalıyıq, həyatımızı bu Qələbəni bayram etməyə həsr etməməliyik. Bu, bizi heç yerə aparmayacaq. Ermənistanın nümunəsi də gözümüzün qabağındadır. Bu müştəbehlik və yalançı özünütərif onların 2020-ci ildə, daha sonra isə 2023-cü ildə torpaqlarımızdan rüsvaycasına qaçmağa məcbur olmaları ilə nəticələndi. Buna görə də dərhal Silahlı Qüvvələrimizi gücləndirməklə məşğul olmağa başladıq. Xüsusilə İkinci Qarabağ müharibəsi həm güclü tərəflərimizi, həm də daha yaxşı nəticələr əldə etmək üçün fəal şəkildə işləməli olduğumuz sahələri açıq şəkildə nümayiş etdirdi. Çünki hətta Zəfərlə nəticələnsə və bizimki kimi müzəffər olsa belə, nəticə çıxarmaq üçün həmişə əvəzsiz bir təcrübədir. Məhz bunu əsas götürdük.

Güclü tərəfləri gözəl bilərək, eyni zamanda, biz lazım olanları düzəltməklə məşğul olduq. Hərçənd onların sayı az idi. Amma, necə deyərlər, mükəmməlliyin sərhədi yoxdur. Ona görə də bu beş il ərzində Silahlı Qüvvələrimiz təkmilləşirdi. Həmçinin bu beş ildə 2023-cü il hadisələrini və 2022-ci il hadisələrini, məhz Ermənistanın Qarabağı Azərbaycanın ərazisi kimi tanımasını mahiyyətcə müəyyənləşdirən bir neçə mühüm hərbi əməliyyat oldu. Axı, bu, könüllü surətdə baş vermədi. Bu, ona görə baş verdi ki, biz 2020-ci ildən buna siyasi yolla nail olmağa çalışmışıq.

Başqa vasitələrə əl atmaq lazım gələndə biz bunu etdik, amma ölçülü və nəzarətli şəkildə. 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər atdığımız heç bir addım kortəbii, emosional və ya reallıqdan kənar deyildi. Hər şey tək bir məqsədə tabe idi: Ermənistanı "Miatsum siyasəti"ni davam etdirməyin fəlakətli olduğuna inandırmaq. Müəyyən dərəcədə bu, uğurlu oldu və 2022-ci ilin oktyabrında Ermənistan Qarabağı rəsmi olaraq Azərbaycanın bir hissəsi kimi tanıdı.

Bu, vacib idi, amma hələ hər şey deyildi, çünki hamısı, sadəcə, sözdə idi, lakin əməldə hər şey davam edirdi. Mina tədarükü, hərbi qulluqçuların rotasiyası, ordunun maliyyələşdirilməsi, silah tədarükü - bütün bunlar Qarabağın rəsmi olaraq Azərbaycanın bir hissəsi kimi tanınmasına baxmayaraq davam edirdi. Sonra həm Ermənistanla şərti sərhəddə, həm də Rusiya sülhməramlılarının yerləşdiyi ərazidə başqa tədbirlər görməyə məcbur olduq. Həm də bunu heç kimə və heç nəyə məhəl qoymayaraq etdik, çünki etməli olduğumuzu bilirdik. Əgər bunu etməsəydik, heç bir 8 avqust olmazdı. İndiyədək heç bir sülh də olmazdı və separatçılar bu günədək özlərini qorunmuş hiss edərək və Azərbaycan dövlətinə meydan oxuyaraq sərbəst hərəkət edərdilər.

***(ardı 5-ci səhifədə)***

# Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

**(əvvəli 4-cü səhifədə)**



Təbii ki, biz buna dözmək fikrində deyildik. Brüsseldəki görüşlərdə erməni həmkarıma dəfələrlə demişdim ki, səbrimizi sınamaq lazım deyil, orada kimin olmasından və ya başqalarının nə deməsindən asılı olmayaraq, istənilən an "Laçın dəhlizi" adlanan əraziyə nəzarəti tamamilə ələ keçirə bilərik. Təəssüf ki, arqumentlərim istənilən effekti vermədi, biz bunu 2023-cü ilin sentyabrında nümayiş etdirməli olduq. Lakin 2023-cü ilin sentyabr ayına hazırlıq görülməli idi və hələ nəzarətimiz altında olmayan ərazi də daxil olmaqla, yerində buna hazırlıq görülməli idi.

Ona görə də Qarabağda strateji yüksəkliklərin ələ keçirilməsi üzrə aparılan həmin əməliyyat tədbirləri mahiyyətcə ona gətirib çıxardı ki, sentyabrın 19-20-də separatçıları kapitulyasiyaya məcbur etmək üçün bizə cəmi bir neçə saat lazım oldu. Yəni demək istəyirəm ki, bu 5 il ərzində biz, sadəcə, hazırlıq görmürdük, həm də hərəkət edirdik. Ermənistanda bu gün deyilənləri anladıqları zaman, - düzgün də deyirlər, hesab edirəm ki, bu, çox məntiqlidir, - belə ki, öz sərhədləri ilə real Ermənistan var və biz bu sərhədləri tanımadığımız müddətdə onlar mövcud deyil. Əgər xatırlayırsınızsa, onları nizamlamaq lazım gəldiyi zaman mən deyirdim ki, sərhəd bizim lazım bildiyimiz yerdə olacaq.

Bununla paralel olaraq yenidən silahlanma, yeni silahlı dəstələrin yaradılması prosesi gedirdi, mən bu barədə paradda çıxışımda qısaca danışmışam. Onların bir hissəsi nümayiş etdirilib, bir hissəsi nümayiş etdirilməməlidir, amma zamanı gələcək. İstənilən halda biz potensialımızı xeyli gücləndirmişik. Əgər Azərbaycan Ordusunu bu gün və Vətən müharibəsində qalib gəldiyimiz həmin vaxtın silahları və döyüş qabiliyyəti ilə müqayisə etsək, hazırda biz bir neçə dəfə güclüyük. Zənnimcə, bu, vəziyyəti qiymətləndirmək üçün kifayətdir. Neçə dəfə olduğunu deməyəcəyəm, amma bir neçə dəfə. Əlbəttə ki, bu, bizə öz gücümüzə inanmağa əsas verir.

Axı, bu müddət ərzində regionumuzda Azərbaycanın iştirakı ilə bir çox həyəcanlı proseslər də baş verib, diplomatik olaraq qeyd edim ki, onlar Ermənistanla bağlı deyil və biz bütün bu ağır sınaqlardan layiqincə, öz vicdanımızla, ilk növbədə, ləyaqətimizlə kompromisə getmədən çıxdıq. Hamıya, kimə lazımdırsa sübut etdik ki, bizə hörmətlə yanaşmaq lazımdır və biz kobudluğa, həyasızlığa və diktə cəhdlərinə dözməyəcəyik. Bunun üçün döyüş qabiliyyəti olan orduya malik olmaq lazımdır. Mən Yeni il müraciətimdə bildirdim ki, biz müharibəyə hazırlaşmırıq və bu, həqiqətən də belədir. Hesab edirəm və ümidvaram ki, müharibələr arxada qalıb, amma heç kim zəmanət verə bilməz. Axı, biz dünyada hadisələrin necə dəyişdiyini görürük.

Bir daha dediklərimə qayıdaraq qeyd edirəm ki, beynəlxalq hüquq, Birləşmiş Millətlər Təşkilatı - onların hamısı artıq rudimentə çevrilib. Hər şey o qədər köhnəlib ki, onlara istinad etmək, sadəcə, qeyri-ciddidir, bundan yapışıb qalanlar isə, sadəcə, köhnə reallıqda yaşayırlar. İndi yeni reallıq mövcuddur, əlbəttə ki, onu böyük ölkələr yaradır, amma əgər ölkə çox böyük deyilsə, o cümlədən siyasi, hərbi və iqtisadi potensiala malikdirsə, onda o da yeni reallığın yaradılmasına öz töhfəsini verə bilər. Zənnimcə, bizim İkinci Qarabağ müharibəsindəki Qələbəmiz, - mən bunu bir dəfə demişəm, - həm siyasi, həm də xarakterli çox böyük layları yerindən oynadıb. Yəqin ki, bir çoxları bizim uğurumuzu təkrar etmək istərdi, amma bu, heç kimə müyəssər olmayıb. Ümidvaram ki, bu gün hələ də döyüşən tərəflər anlayacaqlar ki, müharibə bir ölkə və yaxud insanın başına gələcək ən pis şeydir. Mən bunu tam məsuliyyətlə deyirəm. Bu, ən pis sayılmalıdır. Ən yaxşı isə, sülhdür. Amma sülh olması üçün güclü olmalısan, beləliklə, bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik.

**Mirşahin Ağayev:** ***Cənab Prezident, əslində, mən moderator olaraq səlahiyyətlərimdən sui-istifadə etməli olacağam. Ona görə ki, indi bu sualı verməsəm, sonradan bu mövzuya qayıtmaq çətin olacaq. Elə bu kontekstdə soruşmaq istəyirəm, Azərbaycanda müdafiə sənayesinin inkişafı - həm daxili tələbatın ödənilməsi, həm də ixrac baxımından hərbi təyinatlı məhsulların istehsalı sahəsində vəziyyətimiz necədir?***

**Prezident İlham Əliyev:** Biz son vaxtlar bu istiqamətə yeni prizmadan yanaşmağa başlamışıq və mənim göstərişimlə özəl şirkətlər bu sahəyə cəlb olunublar. Bildiyiniz kimi, mənim Sərəncamımla hələ 20 il bundan əvvəl Müdafiə Sənayesi Nazirliyi yaradılanda, o vaxt biz bunu dövlət inhisarında olan sahə kimi qiymətləndirirdik. Ancaq illər keçdikcə və xüsusilə beynəlxalq təcrübəyə baxdıqda gördük ki, bir çox ölkələrdə aparıcı rollarda özəl şirkətlərdir. Bir də ki, özəl şirkətləri bu işə cəlb etməklə biz dövlət üzərinə düşən yükü də, maliyyə yükünü də azaltmış ola bilərik. Ona görə son iki il ərzində dövlət şirkəti ilə bərabər özəl şirkətlərə də imkanlar verildi. Bu günə qədər 15 şirkətə lisenziya verilib, təbii ki, bu sahə lisenziya tələb edən sahədir. Artıq 7 özəl şirkət hərbi təyinatlı məhsulun istehsalına başlayıb. Əgər biz qoyulan sərmayənin həcminə baxsaq görərik ki, yeni istehsal sahələri yaratmaq və mövcud olanları genişləndirmək üçün 2024-2025-ci illərdə bir milyard manat dəyərində sərmayə qoyulub. Bunun da yarısı özəl sektor tərəfindən qoyulubdur. Yenə də bu sahə ictimaiyyət üçün bir qədər qapalı olduğu üçün geniş məlumat verilmir. Ancaq bu proses çox geniş vüsət alıb.

Biz keçən il 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal etmişik. Onun böyük hissəsi Azərbaycan Silahlı Qüvvələrinə verilib, bir hissəsi isə ixrac edilib. Bu gün Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.

Yeniliklərdən biri də odur ki, biz böyük, dünyanın aparıcı müdafiə sənayesi şirkətləri ilə Azərbaycanda birgə müəssisələr yaratmışıq. Burada həm pilotsuz uçuş aparatları, artilleriya qurğuları, digər vasitələr, silah-sursat istehsalı nəzərdə tutulur. Biz bu sahəyə bir neçə prizmadan baxırıq. Birincisi, daxili istehlakı daxili istehsalla maksimum təmin etmək. İkincisi, böyük sənaye sahəsi yaratmaq. Üçüncüsü, müasir kadr potensialı yaratmaq və ixrac imkanlarımızı genişləndirməkdir ki, bu sahəyə, eyni zamanda, gəlir gətirən sahə kimi baxmağa başlamışıq.

Yenə də deyirəm, ilkin mərhələdə məqsəd ancaq idxaldan asılılığı azaltmaq idi. Bu gün isə biz buna, o cümlədən biznes istiqaməti kimi baxırıq. Çünki dünyada, əfsuslar olsun ki, müharibələrin sayı artır, hərbi təyinatlı məhsullara tələbat artır. Onların qiyməti kəskin artıb. İlk növbədə, sursatların qiyməti kəskin artıb. Ona görə bu, bizim üçün alternativ valyuta mənbəyi ola bilər və qoyduğum qısamüddətli hədəf ixracı bir milyard dollara çatdırmaqdır. Hesab edirəm ki, biz bu rəqəmə üç-dörd ilə çata bilərik. Bu, tam realdır. Xarici şirkətlərdən də çox böyük maraq var, yerli şirkətlər də fəal işləyirlər. Yəni əminəm ki, yaxın gələcəkdə Azərbaycan ictimaiyyəti bu sahədə gedən işlərlə tanış olacaq.

**Nadia Cani:** ***Cənab Prezident, mən əslində ordu ilə bağlı cavabınıza qayıtmaq istəyirəm. Çünki Siz Yeni il müraciətinizdə Azərbaycanın müasir silahlar hesabına hərbi imkanlarını gücləndirdiyini qeyd etdiniz, eyni zamanda, müharibənin artıq keçmişdə qaldığını dediniz. Dünyada bir çox ölkənin "güc haqlıdır" şüarını əsas götürərək silahlanmanı artırdığı bir şəraitdə bu mesajlar arasında tarazlığı necə qoruyursunuz?***

**Prezident İlham Əliyev:** Bildirdiyim kimi, təəssüf ki, beynəlxalq hüququn norma və prinsipləri faktiki olaraq işləmir. Azərbaycan isə beynəlxalq hüququn işləməməsinin ilk qurbanlarından biri olmuşdur. Torpaqlarımız işğal edildikdən sonra Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Lakin bu qətnamələr 27 il ərzində kağız üzərində qaldı və əgər biz öz torpaqlarımızı güc yolu ilə azad etməsəydik, onlar əbədi olaraq icrasız qalacaqdı. Bizim müharibəmiz ədalətli müharibə idi və biz öz ərazimizdə vuruşurduq. Biz heç bir başqa ölkəni işğal etməmişik, heç bir ölkəyə hücum etməmişik. Hərbi əməliyyatları BMT Nizamnaməsinin 51-ci maddəsinə, xüsusilə özünümüdafiə hüququna əsaslanaraq həyata keçirmişik.

İkinci Qarabağ müharibəsindən beş il keçdiyini nəzərə alsaq, aydın şəkildə görürük ki, bütün dünya, beynəlxalq ictimaiyyət, o cümlədən aparıcı ölkələr və nüfuzlu beynəlxalq təşkilatlar yeni reallıqları qəbul edib. Beləliklə, biz yerindəcə reallıq yaratdıq. Mən bunu artıq bir neçə dəfə xatırlatmışam - ovaxtkı ATƏT-in Minsk qrupu ilə çoxsaylı görüşlərim zamanı onlar Azərbaycana reallıqları qəbul etməyi tövsiyə edirdilər. Təhlükəsizlik Şurasının qətnamələri, beynəlxalq hüquq və beynəlxalq hüququn pozulması ilə bağlı bütün arqumentlərim isə yenə də qəti səssizlik ilə qarşılanırdı.

Beləliklə, "yerdəki reallıqlar" məsələsi ortaya qoyulmuşdu. Mən də dedim: yaxşı, onda biz bu reallıqları dəyişəcəyik. Biz bunu etdik və bu gün bütün dünya bunu tanıyır. Qondarma "Dağlıq Qarabağ Respublikası" heç kim tərəfindən tanınmamışdı, bu, qeyri-qanuni bir qurum idi. Lakin bizim Qələbəmiz və azad edilmiş ərazilər üzərində suverenliyimiz bütün dünya, eləcə də Ermənistan tərəfindən tanınır.

Eyni zamanda, beynəlxalq münasibətlər son dərəcə gözlənilməz şəkildə inkişaf edir. Beynəlxalq hüquq faktiki olaraq işləməsə də, beynəlxalq arenadakı əsas oyunçular, - ən azı zahirən, - beynəlxalq hüquqa sadiq olduqlarını nümayiş etdirməyə çalışırdılar və qeyri-qanuni addımlar atarkən həmişə terminologiya ilə manipulyasiya etməyə can atırdılar, öz müqəddəratını təyinetmə anlayışından istifadə edilirdi, lakin bu prinsipin dövlətlərin ərazi bütövlüyünə xələl gətirməməli olduğu isə ya nəzərə alınmır, ya da bilərəkdən gözardı edilirdi.

Amma hər hansı ərazi iddiası üçün "öz müqəddəratını təyinetmə" bəhanəsi Azərbaycan üçün çox yaxşı tanışdır. Biz haqlı olduğumuzu dünyaya izah etməyə çalışarkən, "öz müqəddəratını təyinetmə prinsipi dövlətin ərazi bütövlüyünə qarşı qoyula bilməz və təcavüzkar separatizm qınanmalıdır" deyərkən, yenə qəti səssizlik, laqeydlik və bəlkə də bir qədər də təkəbbürlə üzləşirdik, ta ki biz torpaqlarda vuruşub düşməni məğlub edənə qədər. Ondan sonra vəziyyət dəyişdi.

Amma bir daha deyirəm, bir neçə il əvvəl bəzi düşməncəsinə hərəkətləri yarım-beynəlxalq hüquq düsturları ilə ört-basdır etməyə cəhdlər olurdusa, indi belə deyil. İndi isə heç kəs kim nə deyir, hansı təşkilat hansı qətnaməni qəbul edir kimi məsələlərə əhəmiyyət vermir. Dünyada baş verən hadisələr - müharibələr, münaqişələr göz önündədir. Bəs, guya demokratik Avropada nə deyirlər? "Biz narahatıq, vəziyyəti izləyirik, mövqeyimizi nəzərdən keçiririk". Beynəlxalq hüquq pozulanda güclü olan haqlıdır. Bu, bizim seçimimiz deyil. Biz hər zaman həqiqətə sadiq olmuşuq, həmçinin hər zaman ədalətə sadiq olmuşuq. Biz heç vaxt ədalətə uyğun olmayan heç bir şey etməmişik. Gördüyümüz bütün işlər tarixi, hüquqi və insani ədalətə əsaslanıb. Lakin dünya dəyişib. Biz kağız - BMT Nizamnaməsi üzərində olan dünyada yaşamırıq, torpaq üzərində yaşayırıq. Ona görə də, güclü olmalıyıq, biz də bunu etməyə çalışırıq. Mən hər bir ölkəyə bunu tövsiyə edirəm.

**Elmira Musazadə:** ***Cənab Prezident, icazənizlə, regional münaqişələrə aid daha bir sual verim. Yəqin son zamanların ən kəskin münaqişəsi Yaxın Şərqdəki vəziyyətdir və sözsüz ki, Qəzza sektorundakı şəraitdir. Azərbaycan çox az ölkələrdən biridir, ola bilər hətta yeganə dövlətdir ki, həm İsraildə, həm də ərəb, İslam dünyasında bərabərhüquqlu tərəfdaş kimi qəbul edilir. Azərbaycanın vəziyyətin sabitləşməsi üzrə hər hansı əməliyyatlarda potensial iştirakı nəzərdən keçirilir? Ola bilər ki, beynəlxalq mandat və hər iki tərəfin razılığı olacağı təqdirdə Azərbaycan sülhməramlı qüvvələrinin iştirakı mümkündür?***

**Prezident İlham Əliyev:** Bizə belə müraciətlər daxil olub. Təbii, bununla bağlı qərar qəbul etməzdən əvvəl biz aydın şəkildə başa düşməliyik ki, əməliyyatların mandatı necə olacaq və hansı növ əməliyyatlar ola bilər. Bizim İraqda, buna qədər isə həm Kosovoda, həm də özlüyündə Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etmək təcrübəmiz var, ona görə də fəaliyyətin strukturunu çox gözəl bilirik.

Qəzza sektorunda vəziyyətə gəldikdə, zənnimizcə, kimin mandat verəcəyi və onun necə olacağı indiyədək aydın deyil. Bu, sülhməramlı əməliyyatlar, yaxud sülhün bərqərar olması - ingiliscə deyildiyi kimi, "peacekeeping" və ya "peace enforcement" olacaq. Bunlar iki ayrı-ayrı məfhumlardır. Təbii ki, biz ikinciyə hazır deyilik və hətta heç vaxt öz iştirakımızı nəzərdə tutmamışıq. Əfqanıstanda bizim sülhməramlı missiyamıza gəldikdə, xoşbəxtlikdən və o cümlədən mövqeyimiz sayəsində bizim heç bir zərərçəkənimiz olmadı. Yəni bütün bu illər ərzində qurban vermədik, məhz ona görə ki, öz funksiyamızı strateji obyektlərin qorunmasında görürdük. Biz heç vaxt döyüş əməliyyatlarında iştirak etmədik və Azərbaycanın hüdudlarından kənarda döyüşlərdə iştirak etmək mənim tərəfimdən, ümumiyyətlə, nəzərdə tutulmur.

Amerikalı tərəfdaşlarımızın diqqətinə çatdırdığımız ikinci amil ondan ibarət idi ki, mənim ölkəm təcavüzdən zərər görüb, Birinci Qarabağ müharibəsində böyük qurbanlar verib. Bununla belə, az olmasına baxmayaraq, İkinci Qarabağ müharibəsində də qurbanlar olub. Azərbaycanın hər bir vətəndaşı bizim üçün qiymətlidir. Biz kiminsə naminə azərbaycanlıların həyatını və sağlamlığını riskə atmaq niyyətində deyilik. Bizim başımız bəlada olanda öz taleyimizin hökmünə buraxılmışdıq. Heç kim bizi müdafiə etmirdi. O cümlədən Fələstinə bütün hörmətimə və dərdlərinə şərik olmağıma rəğmən. Axı, Fələstin də bizi elə də müdafiə etmirdi. Bəli, İslam Əməkdaşlıq Təşkilatının hamının dəstəklədiyi qətnamələri var idi. Biz buna görə bütün ölkələrə minnətdarıq, eynilə Azərbaycan da həm BMT-də, həm Qoşulmama Hərəkatında, həm də İslam Əməkdaşlıq Təşkilatında həmişə Fələstini və Fələstin dövlətinin yaradılmasını dəstəkləyib. Azərbaycanda Fələstinin səfirliyi də fəaliyyət göstərir, həm də Azərbaycanın maliyyə yardımı sayəsində. Ona görə də mənim mövqeyim həmişə ondan ibarət olub ki, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir. İndiyədək dərindən inanıram ki, qeyri-ərəb müsəlman ölkələr parovozun önündə qaçmamalıdır. Bu, heç bir yaxşı nəticə verməz. Ərəb Liqası var, Ərəb Liqasının mövqeyi mövcuddur, o, yetərincə aydındır və biz buna uyğun hərəkət edirik. İslam Əməkdaşlıq Təşkilatının qərarları var və biz də, o cümlədən bu qərarları qəbul etmişik və buna əməl edirik. Ona görə də lazımsız fəallıq göstərmək və yenə də parovozun önündə qaçmaq o qədər də yaxşı məşğuliyyət deyil.

Yaxın Şərqdə hansısa fəaliyyətlərdə mümkün iştiraka gəldikdə, ABŞ-ın BMT-dəki səfirliyinin Azərbaycanın razılıq verməsi ilə bağlı bəyanatı bizi təəccübləndirdi. Biz razılıq verməmişik və diplomatik kanallarla Amerika administrasiyasına çatdırdıq ki, bu cür yalan bəyanatlar qəbuledilməzdir, onlar yanlış mənzərə yaradır. Ola bilər ki, belə bir cəhd olub, kimi isə bu prosesə cəlb etmək üçün Azərbaycanın razılıq verdiyini deyiblər. İstisna etmirəm ki, əgər belə olubsa, bu, ümumiyyətlə heç bir vəchlə qəbul edilə bilməz. Biz 20 sualdan ibarət müraciət tərtib etdik və onu Amerika tərəfinə çatdırdıq. Bu məsələlərə aydınlıq gətirilməyincə, Azərbaycanın hər hansı missiyada heç bir iştirakı nəzərdə tutulmur. Beləliklə, sağ olun ki, siz bu sualı verdiniz, çünki xarici mətbuatda bu mövzuda çoxlu sayda şayiələr dolaşır. Xüsusilə Amerika diplomatiyasının yüksəkrütbəli məmurunun bu cür məsuliyyətsiz və yalan bəyanatlar verdiyi vaxt. Bu, həm də mənə imkan verdi ki, istər bizim, istərsə də beynəlxalq auditoriyanın diqqətinə bu məsələ ilə bağlı bizim mövqeyimizi çatdırım.

**Murad Hüseynov:** ***Cənab Prezident artıq bir neçə ildir ki, Azərbaycan bərpaolunan enerji mənbələrinə xüsusi önəm verir, bu istiqamətdə işləyir. Sizin fikrinizcə, Azərbaycanın gələcək inkişaf modelində bərpaolunan enerji mənbələri hansı rolu oynayacaq? Bir az əvvəl həmkarımın sualına cavab verəndə Siz informasiya texnologiyalarına, süni intellekt texnologiyalarına toxundunuz. Bərpaolunan enerjinin bu sahəyə töhfəsi varmı?***

**Prezident İlham Əliyev:** Bəli, mütləq var. Biz bu prosesə başlayanda, əlbəttə ki, əsas güddüyümüz məqsəd təbii imkanlarımızdan maksimum istifadə etmək idi. Çünki beynəlxalq təşkilatlar artıq bizim potensialımızı dərindən təhlil edərək təsbit ediblər. Bizim təkcə külək enerjisi potensialımız 150 giqavatdan çoxdur. Günəşli günlər də, Allaha şükür, çoxdur, həm Bakıda, həm bütün bölgələrimizdə. Xəzər dənizinin külək enerjisi potensialı kifayət qədər böyükdür. Ona görə bundan istifadə etməmək günah olardı.

Biz bu imkanları dünya energetika aləminə təqdim edəndə onlardan böyük maraq gördük. Bu gün bizim əsas investorumuz Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətidir, hansı ki, birinci Günəş elektrik stansiyasını inşa edib, 230 meqavat gücündə. İkinci stansiya yaxın günlərdə istismara veriləcək. Burada da investor Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətidir. O da 240 meqavat gücündə olan stansiyadır. Üçüncü böyük stansiyanı bp şirkəti Cəbrayıl rayonunda inşa etməyə başlayıb, o da 240 meqavatdır. Bu, sadəcə olaraq, başlanğıcdır. Eyni zamanda, Çin və Türkiyə şirkətləri də maraq göstərirlər. Biz Azərbaycan şirkətlərinə də müraciət etdik və bu sahə gəlirli olduğu üçün və ölkəyə lazım olduğu üçün onlara da müraciət etdik və artıq yerli şirkətlər də bu işlərə qoşulublar. Hətta keçən ilin sonunda mən Cəbrayılda iki stansiyanın təməlini də qoydum.

Günəş və külək elektrik stansiyalarının xəritəsi təsdiqlənib, həm quruda, həm də dənizdə, o cümlədən azad edilmiş torpaqlarda. Hazırda bizim əsas vəzifəmiz enerji mənbələrini qəbuletmə imkanlarını genişləndirməkdir. Çünki mövcud olan planlara görə, 2030-cu ilə qədər 6000 meqavat, 2032-ci ilə qədər isə 8000 meqavat Günəş, külək və su enerjisi bizim sistemimizə daxil ediləcək. Yəni bunu qəbul etmək, həzm etmək üçün biz enerji sistemimizi gücləndirməliyik. Buna "Energy Grid" deyirlər.

Bununla paralel olaraq batareya saxlanc sistemləri də qurulmalıdır. Biz ilkin mərhələdə xarici şirkətlərə müraciət etdik ki, onlar investor kimi bu işi görsünlər. Amma gördük ki, böyük maraq yoxdur. Yəni dövlət xətti ilə təxminən 250 meqavat gücündə birinci batareyalar artıq quraşdırılır, amma daha da çox olacaq. Çünki bizim, yenə də deyirəm, qısamüddətli planlarımız 8 giqavat enerji əldə etməkdir.

Əminəm ki, biz bunu edəcəyik. Çünki artıq kontraktlar imzalanıb, anlaşma memorandumları yox, kontraktlar, bu, artıq hüquqi öhdəlikdir. Bu, bizə nə verəcək? Təbii ki, enerji üçün istehlak olunan qaza qənaət və mövcud olan qazı da ixrac etmək üçün imkanlar olacaq. Biz bunun üçün də mövcud qaz infrastrukturumuzu genişləndiririk, Azərbaycanda yox, başqa yerlərdə. Bu, imkan verəcək ki, biz təmiz enerjini ixrac edə biləcəyik və bildiyiniz kimi, Qara dəniz kabel layihəsi var. Onun texniki-iqtisadi əsaslandırması hazır olsa da, maliyyə mənbələri hələlik aydın deyil. Bizim mövqeyimiz belədir ki, biz enerjini burada istehsal edirik, yeni ötürücü xətləri Gürcüstan sərhədinə qədər çatdırırıq. Çünki yeni xətlər lazımdır. Qalanı isə artıq o biri ölkələrin maliyyə öhdəliyi olmalıdır. Bunu nəzərə alaraq, qeyd etdiyim kimi, Qazaxıstan və Özbəkistan ilə Xəzər dənizinin altı ilə kabelin tikintisini də razılaşdırdıq. Burada da indi texniki-iqtisadi əsaslandırma gedir.

***(ardı 6-cı səhifədə)***

# Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

*(əvvəli 5-ci səhifədə)*



Üçüncü mümkün olan variant, ya da hər bir variant birlikdə də mümkündür, bu, enerjini burada istehlak etməkdir. Burada da yenə də deyirəm, süni intellekt və data mərkəzləri ən çox enerji tələb edən layihələrdir. Yenə də nə Cənubi Qafqazda, nə Orta Asiyada, nə yaxın qonşuluqda bizim qədər sərbəst enerji gücü ola biləcək ikinci ölkə yoxdur. Çünki bəzi ölkələr elektrikə çevirmək üçün xaricdən təbii qaz alır, bəzi ölkələr xaricdən elektrik enerjisi alır, çünki özləri üçün çatmır. Biz isə həm enerji satırıq, həm ixrac edirik - həm qaz, həm neft, həm neft məhsulları, həm neft-kimya məhsulları, həm də əsas xammal olan təbii qaz gübrələri. Yəni bizdə bütün sikl tam formalaşıb: həm daxili istehlak, həm ixrac.

Ona görə biz, əlbəttə ki, bu istiqamətdə öz fəaliyyətimizi davam etdirəcəyik. Bu gün bu sahəyə sərmayə qoymaq istəyən şirkətlərin sayı o qədərdir ki, yenə də deyirəm, bax, bizim bu enerji mərkəzlərimiz bunu həzm edə bilmir. Ona görə biz "Energy Grid", yəni enerji mərkəzlərini o qədər gücləndirməliyik ki, nəinki 8, gələcəkdə hətta 20, 30, 40 giqavat qəbul edə bilək və ötürə bilək.

**Mümtaz Xəlilzadə:** ***Cənab Prezident, Azərbaycanın müasir nəqliyyat infrastrukturu. Siz həmkarımın suallarını cavablandırarkən bu məsələyə qısaca da olsa toxundunuz. Mən istərdim, daha geniş şərh verəsiniz. Çünki həm Azərbaycanın müasir nəqliyyat infrastrukturu, xüsusən də Bakının nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində hansı işlər görüləcək, hansı tədbirlər nəzərdə tutulub? Zəhmət olmasa, bu barədə də məlumat verərsiniz.***

**Prezident İlham Əliyev:** Bəli, biz Bakıda bir çox önəmli nəqliyyat layihələrini icra etdik, mən onların bəzilərini sadaladım. Bu, bizə imkan verdi ki, müəyyən mərhələdə özümüzü tıxaclardan sığortalayaq. Ancaq inkişaf göz qabağındadır, əhali artır, maşınların sayı artır. Hər il ölkəmizə on minlərlə yeni avtomobil gətirilir. Onların istismar müddəti ilə bağlı indi müəyyən məhdudiyyətlər də qoyulur. Yerli avtomobil istehsalı artır. Ona görə mövcud yol infrastrukturu artıq bizə kifayət etmir.

Onu da bilməliyik ki, biz Bakının tarixi memarlıq ansamblını dəyişdirə bilmərik. Yol-nəqliyyat sisteminin idarə edilməsi və mikromobillik, yəni ictimai nəqliyyata üstünlük verilməsi bir çıxış yolu ola bilər. Bu istiqamət üzrə bizim Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi beynəlxalq mütəxəssisləri cəlb etməklə fəal işləyir. Artıq Bakının yeni yol infrastrukturunun xəritəsi təsdiqləndi. Qeyd etdiyim kimi, 10 yeni metro stansiyasının yeri də müəyyən olundu. O yerlər artıq onların sərəncamına verildi. Bundan başqa, əlavə iki depo da tikiləcək. Mövcud olan metro stansiyalarında optimallaşma layihələri icra edilir. Mən qeyd etdim, son 20 il ərzində yeddi metro stansiyası tikilib. Əgər onlar tikilməsəydi, görün, indi vəziyyət necə olacaqdı?

Mikromobillik, piyadalar üçün daha geniş məkanın verilməsi və bəzi küçələrin ancaq piyadalar üçün təşkili prosesi davam edir və yaxın aylarda ictimaiyyət bunu görəcək. Eyni zamanda, Bakıda yeni ictimai yerlərin yaradılması çox geniş vüsət alıb. Yeni parklar, ictimai zonalar, istirahət zonaları yaradıldıqda mütləq onun nəqliyyat infrastrukturu da paralel olaraq öz həllini tapır. Misal üçün, biz bunu Mərkəzi Parkın timsalında görə bilərik. Vaxtilə çox ensiz, dar küçələr idi. İndi çox geniş küçələr və faktiki olaraq bu istiqamətdə, yəni Heydər Əliyev Sarayından da yuxarı istiqamətə getmək üçün çox geniş imkanlar yaradılıb.

"Sovetski" adlandırılan ərazinin köçürülməsi prosesi davam edir və orada da ancaq ictimai yerlər, parklar salınmalıdır. Süni göllər yaradılacaq və nəqliyyat sistemi qurulacaq, o cümlədən metro stansiyaları, Ağ Şəhərdə metro stansiya. İndi velosiped zolaqlarının yaradılmasına başlanılmışdır. Bilirəm, bəziləri bundan narazıdır. Amma inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, bu da bir çıxış yoludur. Çünki bu, həm sağlamlıqdır, həm də ki, tıxaclara qarşı önəmli bir vasitə olacaq. Təbii olaraq ictimai nəqliyyat istədiyimiz səviyyədə olan zaman, əlbəttə, ictimai nəqliyyatdan istifadə etmək ən yaxşı variant ola bilər. Biz bunu etməyə çalışırıq. Yenə də deyirəm, hər il Bakıya yüzlərlə yeni avtobus gətirilir. Hazırda havanı çirkləndirməyən elektrobuslar istehsal olunur. Həm dövlət, həm də özəl şirkətlər tərəfindən hər il yüzlərlə yeni avtobus gətiriləcək. Biz Bakının tıxac problemini belə həll edə bilərik.

Təbii ki, dəmir yolları da öz rolunu oynamalıdır. Bu gün Bakı-Sumqayıt dəmir yolu fəal işləyir. Əgər o yol olmasa, indi təsəvvür edin, nə ola bilərdi? Yaxud da ki, Bakıda 50 tunel, ya 50-yə yaxın körpü tikilməsəydi. Vaxtilə o dairələr var idi, yadınızdadır, neçə dairə idi?! Elə buradan şəhərə gedəndə bəlkə üç-dörd dairə var idi. İndi onların hamısı yox olub, əvəzinə yol ötürücüləri yaradılıb.

Yəni bu, ciddi məsələdir və biz ciddi məşğuluq, proqram qəbul edilib, vəsait səfərbər olunub. Hesab edirəm ki, növbəti beş il ərzində bu əsas problemlər öz həllini tapmalıdır.

**Nadia Cani:** ***Cənab Prezident, mən enerji mövzusuna qayıtmaq istərdim. Çünki ötən ilin dekabrında biz ölkə üçün bir ilkin şahidi olduq – yanacaq daşıyan yük qatarı Azərbaycandan Gürcüstan vasitəsilə Ermənistana keçdi. Həmçinin Azərbaycan infrastrukturunun yenidən qurulmasına yardım etmək üçün Türkiyə vasitəsilə Suriyaya enerji ixrac etdi. Ona görə də mən bilmək istəyirəm, Azərbaycanın enerji daşıyıcılarının paylanması və təbii qaz istehsalı ilə bağlı strategiyası nədən ibarətdir? Bu qaz dəhlizləri regional inkişaf və iqtisadi artım üçün nə dərəcədə vacibdir?***

**Prezident İlham Əliyev:** Həcm və coğrafiya baxımından bizim qaz ixracımız artır. Biz indiyədək 11-i müntəzəm əsasda olmaqla, 14 ölkəni qazla təchiz etmişik. Elə ölkələr var ki, onlar 2024-cü ildə bizdən qaz əldə edib, lakin sonra başqa mənbələrlə əlaqədar dayandırıb. Bu, bir növ tələbata əsaslanır, onların ehtiyacı olanda biz təchizata başlayırıq, ehtiyacı olmayanda dayandırırıq. Lakin ümumilikdə Azərbaycanın boru kəməri vasitəsilə qaz nəqlinin coğrafi əhatə dairəsi 14 ölkədən ibarətdir. Bu il onlara daha iki Avropa ölkəsi əlavə olunacaq. Ümumilikdə 16 ölkə olacaq, bu, boru kəməri qazı ilə bağlı ən böyük rəqəmdir. Dünyada heç bir ölkə Azərbaycan kimi bu qədər ölkəni boru kəməri vasitəsilə qazla təchiz etmir. Ötən il bizim ixracımız artım potensialına malik olmaqla, 25 milyard kubmetrdən çox olub. Bu artımın iki mənbəyi var. Birincisi, mən söylədiyim kimi, bərpaolunan enerji. Bərpaolunan enerjimiz nə qədər çox olsa, biz ixrac üçün o qədər çox qaza qənaət edə bilərik. İkincisi, mövcud və yeni yataqlardan yeni hasilat. Bunların arasında biz "Azəri-Çıraq-Günəşli" dərin qaz yatağından yeni hasilat gözləyirik. Bildiyiniz kimi, bu yataqdan çoxlu neft hasil edilir, həmçinin dərində böyük qaz yataqları var. Məhz buna görə onu "dərin qaz yatağı" adlandırırlar. Hasilatın bu il başlanmasını gözləyirik. Biz, həmçinin qarşıdakı illərdə "Şahdəniz"də əlavə həcmdə qaz təmin edəcək yeni mərhələnin başlanmasını gözləyirik, bu, "Şahdəniz Kompressiya" adlanır. Həmçinin "Babək" yatağı var, çox böyük və ümidvericidir, bir sıra şirkətlər investor olmaq istəyir. Sözsüz ki, ölçüsünə görə "Şahdəniz"lə müqayisə oluna biləcək yataq "Abşeron"dur. Hazırda orada birinci mərhələ üzrə hasilat həyata keçirilir ki, biz bunu yerli istehlak üçün əldə edirik. "Abşeron"un ikinci mərhələsi bizə ola bilsin bugünkündən 3 dəfə daha çox qaz təmin edəcək ki, bazarlar üçün daha çox olsun. Bizim qazımız onu artıq əldə edən və həcmi artırmaq istəyən ölkələrə, həmçinin onu hələ əldə etməmiş ölkələrə lazımdır.

Suriya ötən il bizim yeni tərəfdaşımız oldu. Biz şadıq ki, Suriya hökumətinə elektrik enerjisi çatışmazlığını azaltmağa kömək edirik. Çünki müxtəlif hesablamalara görə, bizim qazımız onlara elektrik enerjisi çatışmazlığını gündə təxminən 4 saatadək azaltmaq imkanı verir. Biz təchizatı artırmaq variantını nəzərdən keçiririk. Şaxələndirilmiş boru kəməri sistemi və etibarlı təchizatçı kimi yaxşı nüfuza, yaxşı siyasi əlaqələrə malik olan Azərbaycanın qazı bir çox ölkələr üçün enerji təhlükəsizliyində mühüm rol oynayır. Çünki müştərilərimizin əksəriyyəti Avropa İttifaqının üzvləridir. Bütün bunlar çox müsbət amillərdir.

Həmçinin faydalı qazıntı allergiyasına gəldikdə, siz yəqin ki, dəyişikliyi görürsünüz. Biz bunu bir neçə il öncə müşahidə etdik, o vaxt hamı faydalı qazıntıya zidd mövqedən çıxış edirdi, hər kəs bərpaolunan enerji haqqında danışırdı. Prezident Tramp və onun administrasiyası bu yanaşmanı dəyişdi. Bildiyiniz kimi, o, bərpaolunan enerjiyə qəti şəkildə qarşıdır və faydalı qazıntının tərəfdarıdır. Birləşmiş Ştatlar isə birmənalı olaraq dünyanın aparıcı ölkəsidir və orada baş verən hadisələr müxtəlif istiqamətlərə təkan verir.

Bilirəm ki, Avropanın bəzi maliyyə təsisatları əvvəlcə tam qadağan edilən faydalı qazıntılara aid siyasətinə yenidən baxmağa başlayıblar. İndi isə onlar faydalı qazıntı layihələrinin maliyyələşdirilməsini nəzərdən keçirməyə başlayıblar. Aparıcı enerji şirkətləri, sadəcə, əsas tendensiyaya uyğun gedirdi və bəziləri hətta adlarından "neft" sözünü çıxarırdı. İndi isə onlar yenidən faydalı qazıntıya qayıdırlar. Bu, bəlli məsələdir və açığını desək, gülünc idi.

2024-cü ilin noyabrında burada, Bakıda COP29-a ev sahibliyi edən ölkənin rəhbəri kimi çıxışımda bildirdim ki, - təkrar olmasın - bu reallıq kənara qoyula bilməz. Bütöv yaşıl hərəkat qrupları mənə hücum çəkdi və dedi ki, COP29-a ev sahibi olan ölkə faydalı qazıntını necə təşviq edə bilər?! Mən bunlara, sadəcə, reallığa əsaslanaraq söyləyirdim. Heç kəs hazırda faydalı qazıntını inkar edə bilməz. Onlar nə dərəcədə xoşunuza gəlməsə belə, siz onlarsız yaşaya bilməzsiniz. Əgər yaşaya bilərsinizsə, onda irəli! Lakin biz məsələyə realist yanaşmalıyıq.

Neft və qazla zəngin olan ölkələrin məsuliyyətinin olması Azərbaycan və digər ölkələr kimi misallarda görünür, çünki onlar, həmçinin yaşıl enerjiyə sərmayə yatırırlar. Beləliklə, düşünürəm ki, hazırda Avropa təsisatları anlayırlar ki, faydalı qazıntıya münasibətdə qorxu aradan qalxmalıdır və praqmatik, realist yanaşma əsas götürülməlidir.

Azərbaycan bu gün və gələcək illərdə Avropa istehlakçıları üçün mühüm tərəfdaşdır. Enerji təhlükəsizliyi baxımından etibarlı təchizatçı kimi rolumuz yalnız artacaq, azalmayacaq, artacaq. Elektrik enerjisini, yaşıl enerjini, hidrogeni, eləcə də yaşıl hidrogeni əlavə etsək, rolumuz daha da böyük olacaq.

**Mirşahin Ağayev:** ***Cənab Prezident, ingilis dilində, rus dilində mükəmməl danışırsınız, amma Azərbaycan dili Sizdən ötrü həyati əhəmiyyətə malik bir anlayışdır. Noyabr ayının 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən iclasda Siz yenidən bu mövzunu qaldırdınız və Azərbaycan dilinin, ədəbi dilinin saflığının qorunması istiqamətində mediaya, ziyalılarımıza çox ciddi tapşırıqlar verdiniz. Ümumiyyətlə bu, yəqin ki, yalnız "Ayrılarmı könül candan? Azərbaycan, Azərbaycan!" deyəndə qəhərlənən Heydər Əliyevin Sizin təhtəlşüurunuzda buraxdığı iz deyil, bu, yalnız qrammatika deyil, yalnız leksika, nə bilim, morfologiya deyil. Burada ola bilər ki, orta statistik azərbaycanlının başa düşmədiyi bir dərin mətləb var. Niyə bu qədər Siz Azərbaycan dilini qorumağı tapşırırsınız, hər dəfə təkidlə, təkidlə, təkidlə? Nə təhlükə var?***

**Prezident İlham Əliyev:** Bilirsiniz, ilk növbədə, dil insanları birləşdirir, əhalini birləşdirir. Dil dövlətçiliyin əsas atributlarından biridir, bəlkə də birincisidir, təbii ki, bayraqla, gerblə, himnlə birlikdə. Xalqımızın taleyini hamımız yaxşı bilirik, ağır taledir. Əsrlər boyu müstəqillik eşqi ilə yaşamış xalqıq, əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamış xalqıq. Bunun adları fərqli ola bilər, amma mahiyyət etibarilə bu, müstəmləkəçilikdir. İstər qədim dövrlərdə, istər Rusiya imperiyası dövründə, fars imperiyası dövründə, Sovet İttifaqı dövründə bu, müstəmləkəçilikdən başqa bir şey deyildi. Müstəqillik tariximiz də zəngin olub. Dövlətçilik əsasları olub. Fəxr edirik o dövlətlərlə. Amma başqa imperiyaların, ölkələrin tərkibində yaşadığımız üçün istər-istəməz xalqımızın psixologiyasına da müəyyən təsir buraxıb. Bu psixologiyanın fəsadları bu gün də var. Azalır, amma var. Nə qədər az olsa, o qədər də yaxşıdır. Yəqin ki, nəsillərin dəyişməsi ilə, başqa amillərlə bağlıdır. Ancaq dil o amildir ki, milləti millət edir. Biz bütün dövrlər ərzində dilimizi qorumuşuq və bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı Azərbaycan dilindən fərqlənmir. Bu, böyük nailiyyətdir. Mən hesab edirəm ki, xalqımızın böyüklüyüdür ki, biz başqa dillərin təsirinə düşməmişik. Düzdür, sovet vaxtında bizim leksikonumuza bəzi kəlmələr daxil olmuşdur. Mən beynəlxalq leksikondan gələn kəlmələri nəzərdə tutmuram. Amma prinsip etibarilə müstəqillik dövründə biz özümüzü onlardan təmizləyə bildik.

İkincisi, biz böyük xalqıq, 10 milyondan çoxu ancaq müstəqil Azərbaycanda yaşayır, amma dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Yəni bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən, istənilən şeiri yaza bilərsən. Çox zəngin, çox melodik və gözəldir, təkcə ona görə yox ki, bu, bizim dilimizdir. Mən bir çox həmkarlarımdan, bir çox insanlardan eşitmişəm ki, doğrudan da çox zəngin və gözəl dildir. Mən düşünürəm və əminəm ki, Azərbaycan xalqı bu fikirləri tamamilə bölüşür. Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün bu dilimizi qorumayaq? Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir. Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm. Nə üçün mübarizə? Çünki bugünkü dünyada sən qapalı məkanda yaşaya bilməzsən. Sən dəmir pərdə ilə özünü bağlaya bilməzsən - istər-istəməz təmaslar, ondan sonra internet resursları, sosial şəbəkələr və sair. İstər-istəməz xarici kəlmələr daxil olur və sonra orada həzm olunur və ondan sonra istifadə edilir. Mən bunun əleyhinəyəm.

Mən heç bir dilin əleyhinə deyiləm, hər bir dilə də hörmət edirəm və mən daha çox dil bilsəydim, ancaq xoşbəxt olardım. Ancaq biz Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir. Dünyada 50 milyon azərbaycanlı yaşayır, amma əzəli, əbədi, ədəbi dili qoruyan bizik və çox istəyirəm ki, xaricdə yaşayan azərbaycanlılar da Azərbaycan dilini mükəmməl bilsinlər. Məişət səviyyəsində yox, mükəmməl bilsinlər. Buna böyük ehtiyac var. Azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan məktəbləri yoxdur. Bu, böyük ədalətsizlikdir və bu ədalətsizliyə son qoyulmalıdır. Biz imkan daxilində təsir etməyə çalışırıq, amma imkanlarımız da çox geniş deyil. Bunun üçün də mənim göstərişimlə artıq onlayn məktəblər açılır və onların sayı da çoxalmalıdır, əhatə dairəsi çoxalmalıdır. Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər. Çünki üçüncü-dördüncü nəsil azərbaycanlıların uşaqlarının artıq bəziləri ana dilini bilmirlər. Burada bir çox amillər birləşir. Əsas amillər əvvəl dediyim məsələdir və böyük xalq olduğumuz üçün mən çox istəyirəm ki, bütün azərbaycanlılar Azərbaycan dilində, bax, bizim kimi danışsınlar. Bu, mənim arzumdur. Bu, əlbəttə ki, çətindir, çünki xaricdə yaşayan azərbaycanlıların, təbii ki, hər birinin imkanı yoxdur. Amma arzum budur və burada jurnalistlərdən çox şey asılıdır. Çünki, necə deyərlər, efir məkanında ən çox danışan jurnalistlərdir və onlardan da xahiş edirəm, xarici kəlmələrdən istifadə etməsinlər. Mən hərdənbir eşidirəm televiziya verilişlərində, sizə aid deyil. Təbii ki, bizim ziyalılarımız, şairlərimiz, yazıçılarımız onların da sözünə böyük ehtiyac var, onlar da biganə qalmasınlar bu işə. Mən akademiyadakı çıxışımda bu məsələyə qısaca toxundum. Bu gün çərçivələri daha da açıram. Bu, ayrıca bir müsahibənin mövzusu ola bilər, çünki doğrudan da çox geniş mövzudur və sadəcə olaraq, biz hamımız vətəndaşları çağırmalıyıq ki, diqqətli olsunlar. Bu, sadəcə olaraq, belə demədim, elə dedim, deyil. Bunun çox dərin, necə deyərlər, layları var və dilimizi nə qədər çox qorusaq, nə qədər saf, təmiz saxlasaq, o qədər də millətimiz, necə deyərlər, saf olacaq və milli kimliyimiz həmişə bərqərar olacaq.

**Murad Hüseynov:** ***Cənab Prezident, bu mövzunun davamı olaraq, dövləti, milləti güclü edən həm də elm və təhsildir. Bir neçə il bundan əvvəl Sizin savadlı millət, "qara qızıl"ı insan kapitalına çevirmək ilə bağlı konsepsiyanız var idi. Azərbaycanda elm və təhsil sahəsində mövcud vəziyyəti necə dəyərləndirirsiniz? Hansı addımlar atılmalıdır? Sizin gənclərə bu baxımdan tövsiyəniz nədən ibarət olardı?***

**Prezident İlham Əliyev:** Bilirsiniz ki, biz artıq struktur dəyişiklikləri də etdik, Elm və Təhsil Nazirliyi yaradıldı. Nə üçün? Çünki faktiki olaraq elm dövlət strukturlarından kənarda qalmışdı. Elmlər Akademiyası təbii ki, artıq uzun illərdir fəaliyyət göstərir və mən də yubiley tədbirlərində iştirak etmişəm. Amma, eyni zamanda, dövlət siyasətini daha dolğun şəkildə həyata keçirmək üçün elm və təhsil bir yerdə olmalıdır. Çünki inkişaf etmiş ölkələrin təcrübəsini bilirik. Orada elm daha çox ali məktəblərlə bərabər, yaxud da ki, onların nəzdində inkişaf edir və biz də bu modeli seçmişik. İndi struktur islahatları gedir. Bir çox elmi-tədqiqat institutları bir-biri ilə birləşdirilir. Struktur islahatları ilə paralel olaraq, kadr islahatları da gedir, daha müasir, daha gənc kadrlar önə çəkilir. Burada keyfiyyət əmsalını da tapmaq o qədər də çətin deyil. Bu, dünya təcrübəsində var. Sənin elmi əsərlərin hansı elmi jurnallarda, hansı dərgilərdə nə qədər çap olunub və sənin elmi potensialın bugünkü reallıqlara nə dərəcədə uyğundur. Əgər biz doğrudan da elmi inkişaf etdirmək istəyiriksə, sadəcə, elmi işçiləri işlə təmin etmək yox, elmi inkişaf etdirmək istəyiriksə, bu islahatlara getməliyik. Bu, qaçılmazdır. Biz bunu etməsək, onda inkişafın da müəyyən məhdudiyyətləri olacaq. Çünki mən bunu dəfələrlə demişəm, bir daha deyirəm tam şüurlu şəkildə, inkişaf etmiş ölkələrin inkişafı ancaq zəka, ağıl, təhsil, elmlə bağlıdır, neftlə, qazla yox. Baxın, neftlə, qazla zəngin olan ölkələrin və inkişaf etmiş ölkələrin vəziyyətinə. Bəli, neftlə, qazla zəngin olan ölkələr arasında uğurlu ölkələr var, çox deyil, amma var. Onların texnologiyaları haradan gəlir? Onlar özləri onları icad edir? Yox, o, beyin mərkəzlərindən, texnoloji mərkəzlərdən gəlir. O da nəyə bağlıdır? Təhsilə, elmə. Sadə məsələdir. Ona görə də biz bu istiqamətdə fəal işləməliyik.

Son 20 il ərzində Azərbaycanda 10 yeni ali təhsil müəssisəsi, - onların bir neçəsi xarici tərəfdaşlarla birlikdə, - yaradılıb. Məsələn, ikisi Rusiya, biri Fransa, biri Türkiyə, biri də İtaliya ilə – beş. Qalanını da özümüz, o cümlədən Xankəndi Universiteti. Bu, dövlətin niyyətidir, dövlətin siyasətidir. Təhsilin keyfiyyətinin, müəllimlərin sosial təminatının və peşəkarlığın artırılması, test sistemi və sair. Bütün bu amillər bir məqsəd güdür ki, cəmiyyət savadlı və bilikli olsun. Ancaq o halda biz uzunmüddətli inkişafa nail ola bilərik. Yox, olmazsa, neftimiz, qazımız qurtarandan sonra biz çox ağır vəziyyətə düşə bilərik. Amma indi biz xalqımızın, dövlətimizin gələcəyini onilliklər, yüzilliklər bundan sonra görməyə çalışmalıyıq. Ona görə bu, həddindən artıq vacib sahədir və ümid edirəm ki, aparılan islahatlar yaxşı nəticələrə gətirib çıxaracaq.

***(ardı 7-ci səhifədə)***

# Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

(əvvəli 6-cı səhifədə)

Bizim çoxlu istedadlı gənclərimiz var. İndi həm xaricdə, həm də Azərbaycanda təhsil almış çoxlu gənc mütəxəssisimiz var. Müxtəlif dövlət proqramları tətbiq olunur. Onlardan biri də bu "Yüksəliş" proqramıdır. Bu da gəncləri daha çox həvəsləndirmək, təşviq etmək, sonra isə dövlət strukturlarına, özəl strukturlara cəlb etmək üçün çox vacibdir. Vaxtilə mənim göstərişimlə xaricdə təhsil alanlar artıq çoxdan qayıdıblar. Çoxları qayıdıb burada çalışır və görürük ki, məsələn, rəhbər vəzifəsinə müasir, bilikli kadr gələndən sonra vəziyyət tamamilə dəyişir. Mən 22 ildir bu kürsüdəyəm. Bütün bu hadisələr mənim gözümün qabağında baş verir və həm yaxşı, həm də pis təcrübə, hamısı məndədir. Mən onun hamısını yaşamışam və bu da mənə bu gün bu sözləri deməyə imkan verir. Kadr islahatı, elm-təhsil, cəmiyyətin ümumi intellektual səviyyəsi - çünki bunlar olmasa, onda nadir hallarda hansısa istedadlı şəxs meydana gələ bilər. Cəmiyyətin ümumi intellektual səviyyəsi, bilik səviyyəsi yüksək olanda, orada, necə deyərlər, pleyadalar, belə istedadlı şəxsiyyətlər yaranır. Əlbəttə, hər birimiz ölkəmiz üçün ancaq yaxşı günlər arzulayırıq və verdiyiniz bu sual da çox vaxtında verilən sualdır. Bu da ayrıca bir danışığın, yəni söhbətin mövzusudur. Ancaq hesab edirəm ki, biz düzgün yoldayıq və islahatlar davam etdiriləcək.

**Nadia Cani:** ***Cənab Prezident, ötən il mənim "Kəskin Səyahət" Beynəlxalq Qrupunun göndərdiyi bir səyyahdan müsahibə götürmək fürsətim oldu. O və bir sıra digər şəxslər bölgəni təşviq etmək, yenidənqurma layihələrini müşahidə etmək məqsədilə Laçın, Xankəndi və Ağdamda əsas məkanlara səfər etdilər, yenidənqurma layihələrinə xüsusi maraq göstərdilər. Azərbaycan turizm imkanlarını əlavə olaraq necə daha səmərəli təşviq edə, zəngin mədəniyyətini necə nümayiş etdirə, turistləri nəinki paytaxta, eləcə də azad edilmiş ərazilərə necə cəlb edə bilər?***

**Prezident İlham Əliyev:** Bəli, COVID-dən əvvəl bizdə turizm sahəsində kifayət qədər böyük artım var idi. Gələnlərin sayı hər il artırdı, sonra birdən-birə kəsildi. İndi biz həmin rəqəmləri bərpa edirik. Düşünürəm ki, bir neçə meyar Azərbaycanı cəlbedici edə bilər. Birincisi, təbii ki, təhlükəsizlik və sabitlikdir. Bu gün dünyada insanlar səyahət etmək qərarına gəldikdə onlar hər zaman ölkənin təhlükəsizliyini və sabitliyini nəzərə alırlar. Bir sözlə, Azərbaycan qlobal səviyyədə ən təhlükəsiz məkanlardan biri hesab edilə bilər.

İkincisi, onun yerləşməsidir. Ölkəmiz həm Asiyaya, həm də Avropaya yaxındır, bir növ onların qovuşduğu yerdədir. Əlbəttə ki, meyarlar sırasında zəngin mədəniyyət, tarixi abidələr, təbiətin müxtəlifliyi, doqquz iqlim tipi və inkişaf etmiş paytaxt var. Özü də təkcə paytaxt deyil, eləcə də bir çox turizm məkanları, doqquz beynəlxalq hava limanı, dəmir yolları və təbii ki, iqlim var. Bakıda və həmçinin bölgələrdəki iqlimi çox bəyənirəm. Xizəksürmə turizmi, çimərlik turizmi, piyada gəzinti, meşələr və xüsusən də nadir və bənzərsiz mətbəxi də əlavə etmək olar. Ölkəmizin çox qonaqpərvər, ənənələri sevən insanları var. Bilirəm ki, Azərbaycanda yaşayan bir çox əcnəbilər özlərini evlərindəki kimi hiss edir.

Bir sözlə, ölkədə çox müsbət mühit, çox pozitiv insanlar var. Azərbaycan xalqı çox mehriban xalqdır. Ölkəmizə ilk dəfə səfər edən qonaqların, demək olar ki, hamısı Bakının gözəlliyi haqqında danışır. Görürük, onların çoxu deyir ki, insanlar gülərüzdür. Bir çox insanın üzündə təbəssüm var. Cəmiyyətdə yaxşı əhvali-ruhiyyə mövcuddur. Biz daha çox turist cəlb etmək üçün daha fəal olmalıyıq. Biz müxtəlif tədbirləri təşkil etməklə, bunları yerli səviyyədə və beynəlxalq arenada həyata keçirməyə çalışırıq. Misalçün, yarım milyard auditoriyası olan bir nömrəli idman tədbiri - Formula 1 yarışları təşkil olunur. Artıq on ildir ki, bu yarışlar keçirilir. Turistlərin də sayı ilbəil artır.

Bu il, iki aydan sonra Şahdağda ilk dəfə olaraq Xizəksürmə üzrə dünya çempionatı keçiriləcək. Həmin istirahət guşəsini ən yüksək beynəlxalq səviyyədə inkişaf etdirmək həm də bizim hədəfimizdir. Hazırda enişlərin təxminən 50 kilometri artıq hazırdır. Məsafə, ola bilsin, 55 və ya 60 kilometr olacaq. Dünya çempionatı Şahdağda ilk dəfə keçiriləcək. Ölkəmiz Beynəlxalq Xizək Federasiyasının təqviminə artıq daxil edilib. Azərbaycan cənub ölkəsidir. Çimərliklər buradan uzaqda deyil. Öz həcminə, miqyasına və gözəlliyinə görə nadir olan "Sea Breeze" böyük tikinti layihəsi həyata keçirilir. Dünyanın heç bir yerində buna oxşar layihə yoxdur. Bir məkanda həm mehmanxana, həm əyləncə, həm yaşayış yerləri və digər imkanlar mövcuddur.

Qarabağ və Zəngəzura gəldikdə, bura cənnətdir. Həqiqətən təbii cənnətdir. Bir sözlə, orada turizmin inkişafı prioritetlərdən biridir. Şuşada və Laçında bir sıra mehmanxanalar artıq var. Biri Zəngilanda tikilir. Bu yaxınlarda, Kəlbəcərdə, İstisuda mehmanxana açılacaq. Ola bilsin, gələn il və hətta bu il Xankəndidə yeni mehmanxana açıla bilər. Bu, turizm üçün mühüm məkan olacaq. Bununla yanaşı, Qəbələ, Lənkəran, Gəncə və bir çox digər məkanlar kimi ənənəvi turizm yerləri də mövcuddur.

Çox məsələlər hava xətlərindən asılıdır. Bu sahədə, həmçinin bir çox islahatlar həyata keçirilir. Hazırda nəinki milli hava şirkətimiz, bir çox digər beynəlxalq hava şirkətləri, eləcə də büdcəli hava şirkətləri Azərbaycanda fəaliyyət göstərir. Uçuşların coğrafiyası genişlənir. Bəli, quru sərhədlər indiyə qədər bağlı qalır. Düşünürəm ki, bunun səbəbi anlaşılandır. Bununla belə, əminəm ki, turist sayını iki dəfə artırmaq, onu 5-6 milyona çatdırmaq tamamilə real görünür.

Planlaşdırdığımız işlər arasında Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni terminalın tikintisi də var. Ötən il üçün rəqəmləri hələ almamışam, amma düşünürəm ki, sərnişinlərin sayı 7 milyonu ötəcək. Bizə 15 milyonluq, ola bilsin, 20 milyonluq sərnişin tutumlu terminal lazım olacaq. Bir sözlə, biz burada yeni terminalın yeni konsepsiyası üzərində artıq işləyirik.

Bütün bunlar və öncədən qeyd etdiyim kimi, müharibənin bitməsi meyarı tamamilə yeni vəziyyət yaradır. Bu yük çiyinlərimizdən götürülüb. Bu yükü biz 30 ildən artıq daşımışıq. Beynəlxalq münasibətlər, biznes, səyahət və turizm baxımından bu, tamamilə yeni vəziyyətdir. Beləliklə, mən böyük perspektivlər görürəm. Biz biznes turizmi və potensial qaydada sağlamlıq turizmi haqqında düşünə bilərik. Hazırda onun üzərində çalışırıq. Bəlkə də bir şey söyləmək vaxtından əvvəl olardı. Lakin istirahət məqsədilə turizm artıq mövcuddur: Naftalan, Qalaaltı və ya Duzdağ və bir çox digər yerlər var. Lakin səhiyyə turizminə də nail olmaq mümkündür. Planlar çoxdur. Ümid edirik ki, onların hamısı həyata keçiriləcək.

**Murad Hüseynov:** ***Cənab Prezident, Siz söylədiniz, çoxlu planlar var və bildirdiniz ki, onlar həyata keçiriləcək. Biz bu qədər vaxtınızı aldığımıza görə Sizdən üzr istəyirik və həmkarların icazəsi ilə son sualımı verim. Dinc, gözəl Azərbaycan qurmaqda olduğunuzu Siz təsvir etdiniz və bu işin görülməsi üçün yerlərdə yaxşı icraçılar lazımdır. Sizin dövlət məmurları, icra başçıları ilə bağlı ötən il verdiyiniz tapşırıqların hamısı cəmiyyətdə geniş müzakirə olundu. Sizin fikrinizcə, müasir dövrün dövlət məmuru, icra başçısı necə olmalıdır? Eləcə də biz işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəlikləri institutunun fəaliyyətini görürük. Bu fəaliyyət gələcəkdə bütün respublika ərazisinə sirayət edə bilərmi? Bununla bağlı hansısa planlar varmı?***

**Prezident İlham Əliyev:** Bəli, ola bilər, çünki Qarabağ və Şərqi Zəngəzurda artıq yeni üsuli-idarə nəzərdə tutulub və tətbiq edilir. Hesab edirəm ki, bu, özlüyündə daha çevik idarəetmə üçün daha əlverişlidir. Amma yenə də əsas məsələ, kadr məsələsidir. Məsələn, mən Naxçıvanda da xüsusi nümayəndə institutu yaratmışam. Ancaq əfsuslar olsun ki, oraya təyin etdiyim kadr etimadımı doğrultmayıb və buna görə vəzifəsindən çıxarılmışdır. Bu yaxınlarda Bakının rayonlarının birinə icra başçısı təyin edilmişdir. Özü də noyabr ayındakı o təyinatda qrup şəklində bir neçə icra başçısı təyin edildi. İnsanlara diqqət, iş adamlarına dəyməmək, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə, sosial ədalət barədə mənim verdiyim tapşırıqlar, sözlər mətbuatda gedib. Amma təyin etdiyim adamlardan birini mən bir aydan sonra vəzifəsindən çıxartmışam. Yəni bu, məni çox məyus edir. Çünki bilirsiniz, mən artıq 22 ildir ki, bu vəzifədəyəm və bu illər ərzində bir çox kadrları vəzifəyə təyin etmişəm, etimad göstərmişəm. Hər dəfə yeni təyin edilən icra başçısı ilə mənim ya görüşlərim, ya telefonla söhbətim olur. Onların bəziləri televiziyaya, mətbuata verilir, bəziləri verilmir və tövsiyələrim də təxminən çox da dəyişmir. Məyus edən də odur ki, əfsuslar olsun, gənc kadrlar arasında da pozuntulara yol verənlər var. Yəni burada gənc nəsil, yaşlı nəsil söhbəti getmir. İnsanların keyfiyyətindən söhbət gedir, ailədə, məktəbdə, cəmiyyətdə aldığı tərbiyədən söhbət gedir. Ona görə etimad göstərilir, onu doğruldan həmişə dəstəklənir. Mən həmişə kadrlara ədalətli olmuşam. Amma etimadı doğrultmayan, əyri yola gedənlər, əlbəttə ki, ya cinayət məsuliyyətinə cəlb edilir, - bəlkə hallar kifayət qədər çoxdur, - ya da ki, inzibati qaydada cəzalandırılır. Nə deyə bilərəm, mən davam edəcəyəm, bu proses hamar deyil. Struktur islahatlarının aparılması təbii ki, vacibdir. Amma saf, təmiz kadrların yetişdirilməsi ondan daha vacib məsələdir və mənim təcrübəm onu göstərir ki, bu, daha vacib məsələdir, nəinki struktur dəyişiklikləri.

Halbuki Qarabağda və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modeli bir gün ölkənin müxtəlif yerlərinə, bəlkə də bütövlükdə ölkəyə tətbiq oluna bilər. Çünki bu da operativ, çevik və daha az məmurun iştirakını tələb edən üsuli-idarə metodudur. Hər halda azad edilmiş ərazilərdə özünü doğruldub, yəni gələcək göstərər.

Hər halda ümumi inkişafımız üçün bilirsiniz, hər bir insan, xüsusilə vəzifə sahibi ürəklə işləməlidir, xüsusilə belə möhtəşəm və tarixi Zəfərdən sonra cəmiyyətdə indi bu qədər xoş əhvali-ruhiyyə var. Biz hamımız son beş ili, necə deyərlər, qürurlu, xoşbəxt insanlar kimi yaşayırıq. Ona görə biz hamımız cəmiyyətdə olan problemlərə, kadrlarla bağlı məmur özbaşınalığına - buna daha dözülməz olmalıyıq, mən başda olmaqla, hamımız daha dözülməz olmalıyıq.

Bizim cəmiyyətimiz çox gözəl cəmiyyətdir. Ölkədə işlər müsbət istiqamətdə gedir, ölkəmiz dünya arenasında görün, nə qədər böyük uğurlara nail olubdur. Bax, dediyim xarici siyasətlə bağlı olan məsələlər hələ işlərin bir hissəsidir. İqtisadi inkişafla bağlı heç bir narahatlıq yoxdur. Ancaq etibar etdiyim kadrlar və bütün dövlət məmurları öz fəaliyyətini bu prinsiplər əsasında qurmalıdırlar. Yenə də qayıdıram ictimai nəzarətə, çünki mənim qərarlarımın bir çoxu məhz ictimai nəzarət nəticəsində verilibdir. Bunu indi ictimaiyyət bilmir, amma yerlərdən gələn siqnallar yoxlanılır və qeyd etdiyim bu uğursuz təyinatlarla bağlı siqnallar yerlərdən gəlir. Əgər yerlərdən siqnal gəlməsə, onda mən haradan biləcəyəm? Onlar bir neçə dəfə yoxlanılır və bir neçə qurum tərəfindən, bir qurum yox, bir neçə qurum ki, burada şəxsi-qərəz olmasın. Ondan sonra bu, öz təsdiqini tapanda artıq qərar qəbul edilir və bütün məmurlar onu bilməlidirlər. Vəzifəyə təyin etmək böyük etimaddır. Ancaq bu etimad əgər məmur tərəfindən doğrulmasa, onda sərəncam da özünü çox gözlətməyəcək.

**Mirşahin Ağayev:** ***Cənab Prezident, mənim Sizə verəcəyim sualın 28 yaşı var. Mən bu sualı 1998-ci ildə Ulu Öndərimiz Heydər Əliyevə vermişəm. O sual onda yarımçıq idi. Heydər Əliyev nə qədər ətraflı cavab versə də, hesab etdik ki, o, yarımçıqdır, bu gün də. İndi mənim Sizə verəcəyim sualla və Sizin verəcəyiniz cavabla o sual da, cavab da mükəmməl olacaq, bütöv olacaq. Mənə elə gəlir ki, burada Ulu Öndər Heydər Əliyev bizə qulaq asır.***

***Sual onda belə idi, "Bəlkə də ərazisinin 20 faizini itirmiş, əldən getmiş bir dövlətin vətəndaşının sualı bir az gülməli çıxır, amma istənilən halda torpağa münasibətiniz necədir? Sizdən ötrü torpaq nədir?". Ulu Öndər onda sualı cavabı belə başlamışdı: "Torpaq çox geniş anlayışdır". Sonra izah etmişdi, torpaq onun həyatında hansı rol oynayır? Hətta işğal altında olan torpaqlarımızın nə qədər əziz olduğundan da danışmışdı. Amma razılaşaq ki, torpaqlar işğal altında idi və bu sual tam Azərbaycanı əhatə etmirdi. İndi mən bu sualı artıq ərazi bütövlüyünü bərpa, dövlət suverenliyini təmin etmiş Müzəffər Ali Baş Komandan İlham Əliyevə verirəm və əminəm ki, cavabdan Ulu Öndərin ruhu da şad olacaq.***



**Prezident İlham Əliyev:** Bilirsiniz, bizim hamımız üçün torpaq anlayışı, ilk növbədə, itirilmiş torpaqlarla bağlı idi. Çünki bu haqda sual işğal dövründə veriləndə hər birimiz itirilmiş torpaqlar haqqında düşünürdük və əminəm ki, cəmiyyətimizin əksəriyyəti inanırdı ki, biz bu torpaqlara qayıdacağıq. Düzdür, illər keçdikcə bu inam da tükənirdi və mən bunu hiss edirdim. 2020-ci ilə qədər keçmiş köçkünlərlə keçirdiyim çoxsaylı görüşlər əsnasında mən hər zaman deyirdim ki, biz o torpaqlara qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Amma bəziləri görürdüm ki, gözlərindən hiss olunurdu, buna inanmırlar və onları da qınamaq olmaz. Çünki 30 il ərzində torpaqları itirilmiş insanlar hansı hisslər keçirə bilər? Bu, başadüşüləndir. Ancaq mən daxilən hər zaman inanırdım ki, biz buna nail olacağıq. Birinci mərhələdə inanırdım ki, - bəlkə də bir az sadəlövh idim, - bunu sülh yolu ilə həll etmək mümkün olacaq. Xarici tərəfdaşları inandırmağa çalışırdım. Hesab edirdim ki, onlar bu işin mahiyyətinə o qədər də varmırlar, bilmirlər ki, haqlıyıq, Ermənistan nahaq iş görüb. Amma sonra illər keçdikcə gördüm ki, yox, hər şeyi yaxşı bilirlər. Sadəcə olaraq, onların böyük əksəriyyəti hesab edirdilər ki, belə də olmalıdır: bu torpaqlar ermənilərə çatmalıdır. Yəni bu, onların dünyagörüşü idi. Bunlar bilmirəm haradan gələn, hansı qaynaqlardan gələn bir fikir idi və xüsusilə bu, Qərb həmkarlarıma aid olan məsələdir. Onlar hesab edirdilər ki, belə də olmalıdır. Qeyd etdiyim kimi, bəziləri deyirdilər ki, siz gərək realliqlarla barışasınız. İllər keçdikcə hərbi variantın labüd olması ilə bağlı da məndə heç bir şübhə qalmamışdı. Sadəcə olaraq, hazırlıq işləri lazımi səviyyədə görülməli idi.

Vətən müharibəsi dövründə torpaq mənim üçün hər azad edilmiş kəndin timsalında, necə deyərlər, ortalığa çıxırdı və hər bir şəhidin şəhid olduğu yer torpaq idi mənim üçün. Hər gün itkilərlə bağlı məlumat alanda hansı hissləri keçirirdim, bunu sözlə demək mümkün deyil. Artıq hamı yaxşı bilir ki, bir neçə dəfə əməliyyatın istiqamətinin dəyişdirilməsi də mümkün ola biləcək böyük itkilərlə bağlı idi ki, bu itkilər olmasın və müharibənin 10 noyabrda dayandırılması da bununla bağlı idi. Müharibə dayanmasaydı, itkilər qat-qat çox olacaqdı. Hər dəfə bayrağımız bir kəndə, şəhərə sancılanda, mənim üçün Azərbaycan məhz o torpaq idi. Nə deyim, noyabrın 8-dən sonra nəzarətdə olmayan torpaq mənim üçün Azərbaycan idi. O torpağı qaytarmaq necə? Bəziləri deyirdilər ki, heç kim imkan verməz. Bəziləri deyirdilər ki, bu qədər iş görmüsünüz də, bəsdir. Bəziləri deyirdilər ki, Sizin adınız tarixə yazılıb da, heç nə lazım deyil. Bir çox şeylər deyilib. Yəni pis niyyətlə yox. Sadəcə olaraq, bəzi insanlar belə düşünürdü. Mən də düşünə bilərdim ki, indi Şuşa bizdədir, müharibədə qalib gəlmişik, Ermənistanı məğlub etmişik, orada 2000 rus zabiti, əsgəri yerləşib, qalsın sonraya, bəziləri qalsın sonraya. Mən də elə düşünə bilərdim. Amma mənim üçün torpaq o vaxt o idi, Azərbaycan o idi, Xankəndi idi, Xocalı idi. O da artıq azad olundu. İndi, necə deyərlər, torpaq deyəndə, sözün düzü, mən daha çox torpağın keyfiyyətinə baxıram, harada daha münbit torpaq var, harada yaxşı əkin aparmaq olar. Qarabağa gedəndə baxıram, görürəm, orada qara torpaqdır. Deyirəm, nə gözəl məhsuldar torpaqdır. Artıq o torpaq anlayışı, yəni o zədəli, yaralı torpaq anlayışı yoxdur. Bu da yaxşı haldır. Çünki artıq sülh dövründür, quruculuq dövrüdür. Biz bu dövrü yaşayırıq. Biz hamımız cəmi beş ay əvvələdək bunu bəlkə də axıra qədər dərk etməmişik: Sülh şəraitində yaşamaq nə deməkdir? Amma, eyni zamanda, yenə də qayıdıram danışdığımız məsələyə. Hər an ayıq olmalıyıq, güclü olmalıyıq. Hər an öz torpağımızı müdafiə etmək üçün güclü olmalıyıq, hazır olmalıyıq və əminəm ki, bundan sonra heç vaxt bir qarış torpağımız heç kimin tapdağı altına düşməyəcək. Bunun üçün həm güc var, həm iradə var, xalqın birliyi var. Güclü Azərbaycan dövləti var.

**Mirşahin Ağayev:** ***Mən təşəkkür edirəm, bütün həmkarların adından minnətdaram. Dövlət böyük ailədir. Biz Sizə ailə səadəti arzulayırıq.***

**Prezident İlham Əliyev:** Sağ olun.

**Mirşahin Ağayev:** Sağ olun.

# Azərbaycan Prezidenti İlham Əliyev ABŞ nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 4-də ABŞ nümayəndə heyətini qəbul edib.**



Nümayəndə heyətinə ABŞ Senatının Silahlı Qüvvələr Komitəsinin üzvü, Oklahomadan respublikaçı senator Markveyn Mallin, Nümayəndələr Palatasının üzvü və həmin qurumun Gəlirlər Komitəsinin sədri, Missuridən respublikaçı Ceyson Smit, Nümayəndələr Palatasının və həmin qurumun Silahlı Qüvvələr Komitəsinin üzvü, Texasdan respublikaçı Ronni Cekson, Nümayəndələr Palatasının və həmin qurumun Gəlirlər Komitəsinin üzvü, Kaliforniyadan demokrat Cimmi Panetta daxildir.

Qəbula görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirən qonaqlar Bakıda gördükləri inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdıqlarını dedilər.

Qonaqlar ötən ilin avqustunda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdılar.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyən dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın rolunu xüsusi vurğuladı. Azərbaycan Prezidenti regional sülh gündəliyinin irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini bildirdi. Dövlətimizin başçısı artıq Azərbaycanla Ermənistan arasında ticarət münasibətlərinin yaradıldığını deyərək, bu xüsusda Azərbaycanın neft məhsullarının Ermənistana ixrac edildiyini, həmçinin Qazaxıstan və Rusiyadan buğdanın Azərbaycan ərazisindən keçməklə Ermənistana ixracının həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev TRIPP dəhlizinin regional nəqliyyat bağlantıları baxımından yeni imkanlar yaradacağına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı "Azadlığa Dəstək Aktı"na ədalətsiz 907-ci düzəlişin ölkələrimiz arasında əlaqələrin bugünkü inkişafının mahiyyətinə uyğun olmadığını dedi. Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Tramp tərəfindən bu düzəlişin fəaliyyətinin dayandırılmasını yüksək qiymətləndirərək, onun tamamilə ləğv edilməsi istiqamətində konqres üzvlərinin də bundan sonra səylərini davam etdirəcəyinə ümidvar olduğunu vurğuladı.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, siyasi, iqtisadi, enerji, müdafiə və müdafiə sənayesi, təhsil, informasiya texnologiyaları, süni intellekt və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Söhbət zamanı ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti



**Əziz həmvətənlər.**

2025-ci il arxada qaldı. Bu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu il olmuşdur. Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamışdır. Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir. Əminəm ki, qarşıdan gələn 2026-cı il də ölkəmiz üçün uğurlu olacaq, ölkə qarşısında duran bütün vəzifələr həmişəki kimi uğurla icra ediləcəkdir.

Bu il biz şanlı Zəfərimizin beşinci ildönümünü böyük fəxarət hissi ilə qeyd etmişik. Beş il bundan əvvəl Vətən müharibəsi zamanı əldə etdiyimiz tarixi Zəfərimiz bizimlə əbədi olacaq. Azərbaycan xalqı bu Qələbə ilə əbədi olaraq fəxr edəcəkdir. Biz otuzillik erməni işğalına son qoyduq, ərazi bütövlüyümüzü, suverenliyimizi, milli ləyaqətimizi bərpa etdik. Bu il Zəfərimizin beşinci ildönümünə həsr olunmuş hərbi paradda son illər ərzində ordu quruculuğunda görülmüş işlərin bir hissəsi xalqımıza və bütün dünyaya nümayiş etdirildi. Son 5 il ərzində Azərbaycan Silahlı Qüvvələri öz gücünü böyük dərəcədə artırmışdır. Yeni silahlar və texnika ilə təchiz edilmiş Ordumuz bu gün istənilən vəzifəni icra etməyə qadirdir. Biz son 5 il ərzində həm yerli istehsal olan silah və texnikadan istifadə edərək, eyni zamanda, xaricdən aldığımız silah və texnikanı Ordumuzun potensialına əlavə edərək hərbi gücümüzü böyük dərəcədə gücləndirə bildik. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artdı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı, yeni yaradılmış Komando Qüvvələrinin say tərkibi minlərlə əsgər və zabitdən ibarətdir. Biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qaldı. Ancaq bugünkü dünyada hər bir ölkə, ilk növbədə, öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir. Bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "Kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda, biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq. Vətən müharibəsi dövründə hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı, xalqımızın yumruq kimi birləşməsi bizim Qələbəmizi şərtləndirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır.

Biz Vətən müharibəsindəki Zəfərimizdən sonra yorulmadan bu Zəfəri beynəlxalq və siyasi müstəvidə möhkəmləndirmək və təsdiqləmək üçün çalışmışıq və buna nail olmuşuq. Bütün dünya bizim Zəfərimizi qəbul edir və bizim haqlı olduğumuzu əyani şəkildə görür. Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün mandat almış Minsk qrupu isə tarixin arxivinə göndərildi. Beləliklə, Qarabağ münaqişəsi artıq beynəlxalq gündəlikdən tamamilə silinmişdir. Zəfər çalmış ölkə kimi biz məğlub edilmiş Ermənistana sülh əlimizi uzatdıq. Bu da bizim uzaqgörən siyasətimizin təzahürüdür. Biz əbədi müharibə aparmaq fikrində deyilik. Bizim başqa ölkələrin torpaqlarında gözümüz yoxdur. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək üçün silahdan istifadə edərək, BMT Nizamnaməsi çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz suveren hüquqlarımızı təmin etmişik. Vətən müharibəsindən cəmi beş il keçəndən sonra Ermənistanla paraflanmış sülh müqaviləsi bir daha xalqımızın böyüklüyünü və bizim siyasətimizin müdrikliyini göstərir. Biz cəmi beş ilə yaxındır ki, de-fakto sülh şəraitində yaşayırıq. Biz döyüş meydanında qan tökərək, şəhidlər verərək şanlı Qələbə qazanmışıq və bu Qələbəni dünyanın ən mötəbər yeri olan Amerikanın Ağ Evində, Amerika Prezidentinin iştirakı ilə möhürlədik. Beləliklə, 30 il ərzində əsas vəzifəmiz olan ərazi bütövlüyümüzün bərpası və bütün dünya tərəfindən bunun qəbul edilməsi məsələsi öz həllini tapmışdır.

Bu gün isə bütün ölkə üzrə geniş quruculuq işləri aparılır, hər bir bölgədə inkişaf müşahidə olunur. Biz beynəlxalq mövqelərimizi böyük dərəcədə möhkəmləndirə bildik. Bu gün Azərbaycana dünyada böyük hörmətlə yanaşırlar. Təsadüfi deyil ki, dünyanın aparıcı beynəlxalq aktorları Azərbaycanla əməkdaşlıq etmək üçün müxtəlif təkliflər irəli sürürlər. Bizim xarici siyasətimiz çoxşaxəlidir, bu siyasət bir çox istiqamətlər üzrə uğurla aparılır. Biz bu il D-8 beynəlxalq təşkilatına üzv olduq. Onu da bildirməliyəm ki, 8 böyük müsəlman ölkəsini birləşdirən və 30 ilə yaxın fəaliyyət göstərən bu təşkilatın ilk yeni üzvü məhz Azərbaycan olmuşdur. Yəni bu ölkələr tərəfindən bizə göstərilən hörmət və etimad göz qabağındadır. Biz bu il Orta Asiya ölkələrinin Məşvərət Şurasının tamhüquqlu üzvü seçildik. Hesab edirəm ki, bu da tarixi nailiyyətdir. Çünki coğrafi nöqteyi-nəzərdən biz Cənubi Qafqazda yerləşirik. Ancaq Orta Asiya ölkələrinin Məşvərət Şurasına yekdilliklə tamhüquqlu üzv seçilməyimiz bizim həm bu ölkələrlə səmimi münasibətlərimizdən xəbər verir, həm də ki, Azərbaycanın bu gün nə qədər önəmli ölkə olduğunu əyani şəkildə göstərir.

Bu il ölkəmizdə bir çox mötəbər beynəlxalq tədbir keçirilmişdir. Bunların arasında işğaldan azad edilmiş Xankəndidə ECO-nun Zirvə Görüşünü xüsusilə qeyd etməliyəm. Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşü də bizim ailəmiz olan Türk dünyasının birləşməsi istiqamətində bir daha önəmli addım olmuşdur. Bir çox beynəlxalq təşkilatlarla sıx əlaqələrimiz bizim maraqlarımıza uyğundur. Biz hər zaman bərabərhüquqlu tərəfdaşlığın tərəfdarı olmuşuq. Biz heç vaxt imkan verməmişik ki, kimsə bizim işimizə qarışsın, kimsə bizə nəyisə diktə etsin, kimsə bizə yuxarıdan aşağı baxsın. Biz müqavimət göstərmişik, biz ciddi iradəmizi ortaya qoymuşuq, heç kimin qarşısında baş əyməmişik, heç kimə imkan verməmişik və verməyəcəyik ki, bizim işimizə qarışsın. Tədricən hər kəs görür ki, belə cəhdlərin sayı da kəskin azaldı. Çünki bunun heç bir mənası yoxdur. Bizə təzyiq etmək üçün heç kimin əlində heç bir vasitə yoxdur. Bizim güclü siyasi iradəmiz, xalq-iqtidar birliyi, hərbi gücümüz, iqtisadi potensialımız, enerji siyasətimiz, nəqliyyat imkanlarımız və digər amillər bizi o qədər gücləndirib ki, heç kim bizə öz iradəsini diktə edə bilməz.

İqtisadi inkişafa gəldikdə, biz bu il əldə olunmuş uğurlarla fəxr edə bilərik. Bizim valyuta ehtiyatlarımız tarixi rekord həddə çatıb - 80 milyard dollardan artıqdır. Bizim xarici borcumuz daha da aşağı düşüb, bu gün ümumdaxili məhsulumuzun cəmi 6,3 faizini təşkil edir. Bir halda ki, bəzi inkişaf etmiş ölkələrdə bu rəqəm 100 faizdir, ondan da çoxdur. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 16 dəfə üstələyir və təsadüfi deyil ki, dünyanın aparıcı reytinq agentlikləri Azərbaycanın kredit reytinqini qaldırıblar - investisiya reytinqini müsbət reytinq səviyyəsinə qaldırıblar.

Biz "Böyük Qayıdış" Proqramını uğurla icra edirik və işğaldan azad edilmiş ərazilərdə bu gün böyük quruculuq işləri aparılır və artıq 70 minə yaxın insan orada yaşayır, çalışır, təhsil alır. Keçmiş köçkünlər 32 kənd, qəsəbə və şəhərdə yerləşiblər və onlar üçün ən gözəl şərait yaradılmışdır.

Bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bu münasibətlə dünyada yaşayan bütün azərbaycanlıları ürəkdən təbrik etmək istəyirəm. Onlar bilməlidirlər və bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanıb. 2025-ci ildə olan bəzi hadisələr bir daha göstərdi ki, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının taleyi bizim üçün qiymətlidir, önəmlidir və bizi - azərbaycanlıları ortaq tarix, dilimiz, köklərimiz, mədəniyyətimiz birləşdirir. Azərbaycanlılar hansı ölkədə yaşamalarından asılı olmayaraq, bilirlər və bilməlidirlər ki, onların Ana Vətəni müstəqil Azərbaycan dövlətidir.

Əziz həmvətənlər, mən sizi bir daha Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm, Yeni il bayramı münasibətilə təbrik etmək istəyirəm. Dünyada yaşayan bütün azərbaycanlılara, Azərbaycan vətəndaşlarına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram. Bayramınız mübarək olsun!

# Azərbaycanın pravoslav xristian icmasına

**Hörmətli həmvətənlər!**

Sizi və Azərbaycanın bütün xristian icmasını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycanda yüz illərdir ki, ayrı-ayrı xalqlar və etiqadlar arasında qarşılıqlı hörmət və etimada, mehriban dostluq və qardaşlığa əsaslanan milli-mənəvi həmrəylik mühiti hökm sürür.

Cəmiyyətimizdə yüksək birgəyaşayış mədəniyyətinin, mənəvi-əxlaqi normaların, multikultural dəyərlərin və dözümlülük prinsiplərinin təbliği və təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin prioritet xəttini təşkil edir.

Zəngin tolerantlıq ənənələri ilə tanınan Azərbaycanda bu gün hər kəs mədəni özünüifadə imkanlarına malikdir. Dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına, o cümlədən xristian icmasına etnik-mədəni özünəməxsusluğunu qoruyub saxlamaq və daha da inkişaf etdirmək üçün hərtərəfli demokratik-hüquqi şərait yaradılmışdır. Təqdirəlayiq haldır ki, xristian həmvətənlərimiz ictimai-siyasi, sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edir, ümumi evimiz Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə səylərini əsirgəmirlər.

Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gündə bir daha hamınıza bayram təbriklərimi çatdırıram, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

**Bayramınız mübarək olsun!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 yanvar 2026-cı il**

# Kuba Respublikasının Prezidenti Zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə

**Hörmətli cənab Prezident,**

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, xoş ənənələr üzərində qurulmuş Azərbaycan-Kuba münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli, həm də çoxtərəfli əsasda bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək Yeni, 2026-cı il münasibətilə də Sizə təbriklərimi və ən xoş arzularımı çatdırır, möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar, dost Kuba xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 dekabr 2025-ci il**

# Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Zati-aliləri cənab Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhana

**Hörmətli cənab Sədr,**

Sudan Respublikasının müstəqilliyinin 70-ci ildönümü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Sudan arasında münasibətlərin və əməkdaşlığın xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 dekabr 2025-ci il**

# İsveçrə Konfederasiyasının Prezidenti Zati-aliləri cənab Qi Parmölənə

**Hörmətli cənab Prezident.**

Kran-Montanada baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İsveçrə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 yanvar 2026-cı il**

# Latviya Respublikasının keçmiş Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Zati-aliləri xanım Vayra Vike-Freyberqaya

**Zati-aliləri,**

Həyat yoldaşınız, ömür-gün dostunuz İmants Freyberqsin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Sizinlə birlikdə, çiyin-çiyinə böyük həyat yolu keçmiş İmants Freyberqs hər zaman Sizin yanınızda olmuş sadiq silahdaşınız idi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyirik.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti və***
***Mehriban ƏLİYEVA,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***

**Bakı şəhəri, 2 yanvar 2026-cı il**

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Omanda

## Turizm və mədəni irs naziri ilə görüş







**Oman Sultanlığı Hökumətinin dəvəti ilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu ölkədə səfərdədir. Maskat Beynəlxalq Aeroportunda Leyla Əliyevanı Omanın turizm və mədəni irs nazirinin müşaviri Azzan Al Busaidi qarşılayıb.**

Səfər çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Oman Sultanlığının turizm və mədəni irs naziri Salim bin Məhəmməd Al Mahruqi ilə görüşüb. Görüşdə Azərbaycan ilə Oman arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğu vurğulanıb, xüsusilə turizm və mədəni irs sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib. Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Leyla Əliyeva bu cür görüşlərin Azərbaycan–Oman münasibətlərinin inkişafına mühüm töhfə verdiyini vurğulayıb.

Leyla Əliyeva Azərbaycanın zəngin tarixi-mədəni irsi, turizm potensialı, o cümlədən sağlamlıq, ekoturizm, mədəni və qış turizmi imkanları barədə ətraflı məlumat verib. Heydər Əliyev Fondunun vitse-prezidenti Azərbaycanın tarixi abidələrinin qorunması, bərpası və UNESCO çərçivəsində həyata keçirilən layihələr barədə danışaraq, bu sahələrdə Omanla təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətinə toxunub.

Söhbət zamanı iki ölkə arasında turist axınının artırılması, turizm qurumları və özəl sektor arasında birbaşa əlaqələrin qurulması, birgə layihələrin və tanıtım tədbirlərinin təşkili məsələləri barədə fikir mübadiləsi aparılıb.

Salim bin Məhəmməd Al Mahruqi Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildirərək, mədəni irsin qorunması və turizmin dayanıqlı inkişafı sahələrində təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb. Nazir Azərbaycanın Oman turistləri üçün cəlbedici istiqamət olduğunu qeyd edərək, qarşılıqlı səfərlərin və rəsmi nümayəndə heyətləri arasında təmasların fəallaşdırılmasını müsbət qiymətləndirib.

Görüşdə gələcəkdə turizm sərgilərində birgə iştirak, media və tanıtım səfərlərinin təşkili, eləcə də mədəni tədbirlər vasitəsilə xalqlar arasında əlaqələrin daha da möhkəmləndirilməsi barədə razılıq əldə olunub.

***XQ***

## Omanın birinci xanımı ilə görüş



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Maskat şəhərində Oman Sultanlığının birinci xanımı Ülyahəzrət Sayyida Ahad bint Abdullah bin Hamad Al Busaidiyah ilə görüşüb.**

Leyla Əliyevanı Omanda görməkdən məmnunluğunu bildirən Sayyida Ahad bint Abdullah bin Hamad Al Busaidiyah onun ictimai fəaliyyətinin Azərbaycanla yanaşı, bir çox ölkələrdə, o cümlədən Körfəzin ərəb ölkələrində yüksək qiymətləndirildiyini vurğulayıb.

Omanın birinci xanımı Heydər Əliyev Fondunun vitse-prezidentinin ətraf mühitə, incəsənətə, mədəniyyətə, eyni zamanda xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstəyi, xeyriyyə aksiyalarında yaxından iştirakı barədə məlumatlı olduğunu bildirib. O, həmçinin Azərbaycanda sənətkarlıq, xalçaçılıq, toxuma sənəti barədə də zəngin məlumatının olduğunu deyib.

Bu ölkədə olmağından məmnunluğunu bildirən Leyla Əliyeva görüşə, göstərilən diqqət və qayğıya görə təşəkkürünü ifadə edib. Heydər Əliyev Fondunun vitse-prezidenti Omana ilk dəfə səfər etdiyini vurğulayaraq, bunun ölkələrimizin mədəniyyət, incəsənət, xalçaçılıq, toxuculuq kimi sahələrdə fəaliyyət göstərən qurumları arasında gələcək əlaqələrə təkan verəcəyinə əminliyini bildirib. Azərbaycanın xalçaçılıq və toxuculuq sahələrində zəngin ənənəsinin olduğunu bildirən Leyla Əliyeva bu xüsusda təcrübə mübadiləsinin önəminə toxunub.

Söhbət zamanı Azərbaycanla Oman arasında qeyd edilən sahələrdə birgə layihələrin işlənib hazırlanması barədə razılıq olunub.

***XQ***

## Sultan Opera Evində







**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Maskatda Sultan Opera Evində olub.**

2011-ci ildə rəsmi açılışı olan Opera Evi Omanın mədəniyyət və incəsənət sahəsində ən mühüm məkanlarından biridir. Musiqi gecələri, teatr tamaşaları, eləcə də konfrans və digər tədbirlərin təşkil olunduğu Opera Evində rəsm qalereyası da fəaliyyət göstərir. Sultan Opera Evi tərəfindən təqdim olunan müxtəlif əsərlər Omanın, həmçinin bir çox ölkələrin bədii yaradıcılıq cəhətdən zənginliyini və rəngarəngliyini nümayiş etdirir.

Qeyd edək ki, bura ərəb dünyasında ikinci ən böyük Opera Evi hesab olunur.

Sultan Opera Evi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı arasında əməkdaşlıq mövcuddur.

***XQ***

## Xərçəngin Kompleks Müalicəsi və Tədqiqatı Mərkəzini ziyarət





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Omanın paytaxtı Maskat şəhərində Sultan Qabus adına Xərçəngin Kompleks Müalicəsi və Tədqiqatı Mərkəzini ziyarət edib.**

Leyla Əliyevanı Mərkəzdə tibb şəhərciyinin icraçı direktoru xanım Siham Sinaniyya qarşılayıb. O, Mərkəzin müxtəlif bölmələrini gəzib, burada xəstəliyin müalicəsində istifadə olunan müasir tibbi avadanlıqlara baxıb.

Sonda burada müalicə alan xəstələr üçün Leyla Əliyevanın adından tibb mərkəzinə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, bu kompleks mərhum Sultan Qabus bin Səidin göstərişi ilə xərçəng xəstələrinə tibbi xidmət göstərmək məqsədilə yaradılıb. Bu tibb ocağı 2023-cü ildə “Joint Commission International” (JCI) tərəfindən beynəlxalq akkreditasiya sertifikatı alıb. Kompleks Omanda tibb ocaqları arasında qısa müddətdə bu cür beynəlxalq akkreditasiya əldə edən ilk dövlət səhiyyə müəssisəsidir.

***XQ***



## Milli Muzeydə və Mutrah bazarında









**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Oman Sultanlığının paytaxtı Maskat şəhərində Oman Milli Muzeyində və Mutrah bazarında olub.**

Leyla Əliyeva əvvəlcə Oman Milli Muzeyini ziyarət edib. O, burada müxtəlif guşələri gəzib, nümayiş etdirilən eksponatlarla tanış olub, onların tarixi haqqında ətraflı məlumat alıb.

Bu muzey Omanın tarixi və mədəni irsini əks etdirən əsas mərkəzlərdən biridir. Rəsmi olaraq 2016-cı ildə fəaliyyətə başlayan muzeydə arxeologiya, dənizçilik, silahşünaslıq, etnoqrafiya, İslam mədəniyyəti və s. üzrə zəngin kolleksiyalar nümayiş etdirilir. Burada hər biri Omanın mədəni irsinin fərqli aspektlərini əhatə edən 14 daimi qalereya mövcuddur, həmçinin müvəqqəti sərgilər üçün əlavə sahələr ayrılıb.

7000-dən çox əşyanın qorunub saxlanıldığı muzeydə rəqəmsal immersiv təcrübə qurğuları, kinoteatr və uşaqlar üçün kəşf sahələri var. Yaxın Şərqdə görmə qabiliyyəti zəif olanlar üçün ərəb Brayl əlifbası ilk dəfə burada tətbiq edilib.

Memarlıq həlli milli ənənələrlə müasir üslubun vəhdətini əks etdirən Oman Milli Muzeyi həm yerli əhali, həm də xarici turistlər üçün mühüm maarifləndirici platforma rolunu oynayır.

Muzeylə tanışlıqdan sonra Leyla Əliyevaya hədiyyə təqdim olunub, xatirə şəkli çəkdirilib.

*

**Heydər Əliyev Fondunun vitse-prezidenti sonra Mutrah bazarında olub, burada satılan əşyalara baxıb, satıcılarla səmimi söhbət edib.**

Qeyd edək ki, bu, ərəb dünyasının ən qədim və məşhur bazarlarından biridir. Tarixi bir neçə yüz il əvvələ gedib çıxan bu bazar Hindistan, Çin, Avropa və Yaxın Şərq ölkələrindən Maskat limanına gələn mallar üçün ticarət mərkəzi olub. Mutrah bazarı dar, üstüörtülü küçələri və ərəb memarlığı ilə seçilir. Bazarda ənənəvi tekstil, geyim, zərgərlik məmulatları, suvenirlər, ədviyyatlar, buxur, o cümlədən Omani buxuru, ətirlər, əl işləri ilə yanaşı, meyvə, tərəvəz, müalicəvi otlar və digər yerli məhsullar satılır.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 403** **18 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Dövlət qulluqçularının reyestrinin aparılması ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 may tarixli 395 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət qulluqçularının reyestrinin aparılması ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 may tarixli 395 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547 (Cild I); 2024, № 1, maddə 87, № 4, maddə 470, № 11, maddə 1263; 2025, № 7, maddə 715) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

"5. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı" üzrə:

1.2.1. 22.1-ci bənddə "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestri" sözləri "Dövlət qulluqçularının reyestri" sözləri ilə əvəz edilsin;

1.2.2. "Qeyd" hissəsi ləğv edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in "Qeyd" hissəsi ləğv edilsin.

**2.** "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 aprel tarixli 89 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 393 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

2.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası"nın 4.27-ci bəndinin ikinci cümləsində, 4.28-ci bəndində və 6.5.6-cı yarımbəndində "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinə" sözləri "Dövlət qulluqçularının reyestrinə" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 oktyabr tarixli 289 nömrəli, 13 oktyabr tarixli 298 nömrəli, 21 oktyabr tarixli 305 nömrəli və 28 noyabr tarixli 350 nömrəli qərarları) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 8.2.3-cü yarımbəndində "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrində" sözləri "Dövlət qulluçularının reyestrində" sözləri ilə əvəz edilsin.

**4.** "Dövlət orqanlarının kadr siyasəti və insan resurslarının idarə edilməsi sahəsində illik iş planlarının və həmin planlara əsasən illik hesabatların tərtib edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 dekabr tarixli 447 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1551 (Cild I); 2024, № 5 (II kitab), maddə 576) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

4.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət orqanlarının kadr siyasəti və insan resurslarının idarə edilməsi sahəsində illik iş planlarının və həmin planlara əsasən illik hesabatların tərtib edilməsi Qaydası"nın 2.5.2-ci yarımbəndinin 5-ci abzası aşağıdakı redaksiyada verilsin:

"5. dövlət qulluqçuları barədə məlumatların Dövlət qulluqçularının reyestrinə daxil edilməsinin Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 may tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluqçularının reyestrinin aparılması Qaydası"na uyğun olaraq təmin olunması;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 404** **19 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 237-VIIQD nömrəli Qanununun tətbiqi və "Polis haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 11 noyabr tarixli 205 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 avqust tarixli 468 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 405** **19 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 26 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 55 (Cild I); 2024, № 12 (I kitab), maddə 1316) ilə təsdiq edilmiş "Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı"nın "Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti" bölməsinə aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 2. | "Gəncə Müalicə Diaqnostika Mərkəzi" MMC-nin qanköçürmə şöbəsi |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 406** **19 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Azərbaycan", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzeti redaksiyalarına maliyyə yardımı barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 215 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin strukturunun təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 oktyabr tarixli 1465 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 435 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzeti redaksiyalarına maliyyə yardımı barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 215 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1350 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında ", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzeti redaksiyalarına" sözləri "qəzeti redaksiyasına, "Xalq" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinə və "Bakinski raboçi" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinə" sözləri ilə əvəz edilsin.

**2.** Preambulada "Xalq qəzeti", "Respublika" sözləri "Xalq" sözü ilə əvəz edilsin.

**3.** 1-ci hissədə ", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzeti redaksiyaları" sözləri "qəzeti redaksiyası, "Xalq" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Bakinski raboçi" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

**4.** Həmin Qərara əlavə – "Dövlət sifarişlərinin yerinə yetirilməsi üçün "Azərbaycan", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzeti redaksiyalarına dövlət büdcəsinin vəsaiti hesabına alınacaq qəzet kağızının norması" aşağıdakı redaksiyada verilsin:

**Dövlət sifarişlərinin yerinə yetirilməsi üçün "Azərbaycan" qəzeti redaksiyasına, "Xalq" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinə və "Bakinski raboçi" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinə dövlət büdcəsinin vəsaiti hesabına alınacaq qəzet kağızının norması**

| Qəzet redaksiyaları | Qəzetlərin illik tirajı (nüsxə ilə) | Hər bir nüsxənin həcmi (səhifə ilə) | Qəzet kağızına illik tələbat (tonla) |
|---|---|---|---|
| "Azərbaycan" | 2100 min | 10 | 148 |
| "Xalq" qəzetinin redaksiyası" MMC | 1700 min | 10 | 123 |
| "Bakinski raboçi" qəzetinin redaksiyası" MMC | 166 min | 10 | 12 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində Yeni il süfrəsi



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram şənliyi təşkil olunub. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.**

Leyla Əliyeva və Arzu Əliyeva sosial xidmət müəssisəsinin sakinləri ilə görüşüb, onlarla birlikdə bayram süfrəsi arxasında səmimi söhbət ediblər. Ahıl şəxslər ölkəmizdə yaşlı insanlara, onların problemlərinin həllinə hər zaman qayğı göstərildiyini söyləyib, burada onlar üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə və Birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.





Bayram proqramı çərçivəsində bədii hissə də təqdim olunub. Ahıl şəxslər musiqilər ifa edib, şeirlər söyləyib, səhnəcik nümayiş etdiriblər.

Leyla Əliyeva və Arzu Əliyeva ahıl şəxsləri Yeni il münasibətilə təbrik edib, onlara cansağlığı arzulayıblar.

Ziyarət zamanı onlar sosial xidmət müəssisəsində ahıllar üçün yaradılan şəraitlə də tanış olublar.

Tədbirin sonunda sosial xidmət müəssisəsinin sakinlərinə bayram hədiyyələri paylanılıb.

***XQ***

# "Tut Əlimdən" Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzində bayram şənliyi





**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü və təşkilatçılığı ilə "Tut Əlimdən" Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram şənliyi təşkil olunub.**

Bayram tədbirində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova mərkəzin əsas fəaliyyət istiqamətləri barədə məlumat verib. Bildirilib ki, "Tut Əlimdən" Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzi çətin həyat şəraitində olan, valideyn himayəsindən məhrum və risk qrupuna aid uşaqların təhlükəsiz, sağlam və qayğı ilə əhatə olunan mühitdə reabilitasiyasını, sosial adaptasiyasını və cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə fəaliyyət göstərir. Qeyd olunub ki, uşaqların psixososial rifahının gücləndirilməsi və onların gələcək müstəqil həyata hazırlanması mərkəzin əsas prioritetləri sırasındadır.

Tədbirin sonunda uşaqlara bayram hədiyyələri təqdim olunub, onların Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və



Yeni il münasibətilə bayramları səmimi təbriklərlə qeyd edilib.

Tədbir uşaqlar üçün əsl bayram ovqatında keçib. Şaxta baba və Qar qızın iştirakı ilə təşkil olunan proqram çərçivəsində uşaqlar şeirlər səsləndirib, mahnılar ifa edib, müxtəlif bədii kompozisiyalarla çıxış edərək bayram sevincini bölüşüblər.

Leyla Əliyeva və Arzu Əliyeva mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olub, uşaqlar üçün formalaşdırılan sosial-psixoloji mühit, reabilitasiya və inkişafyönümlü xidmət modelləri ilə maraqlanıb, mərkəzin fəaliyyəti ilə bağlı ətraflı məlumat alıblar. Onlar uşaqlarla səmimi ünsiyyət quraraq onların istək və arzuları ilə maraqlanıb, bayram sevincini bölüşüblər.

Tədbir çərçivəsində Leyla və Arzu Əliyevalar "AzərEnerji" ASC tərəfindən mərkəzin ehtiyacları nəzərə alınaraq hədiyyə edilən avtomaşına da baxış keçiriblər. Qeyd olunub ki, nəqliyyat vasitəsi mərkəzin fəaliyyətinin operativliyinin artırılmasına, uşaqların müxtəlif reabilitasiya və sosial xidmətlərə çıxışının daha səmərəli təşkilinə töhfə verəcək.

Yekunda belə mərkəzlərin işinin gücləndirilməsi və fəaliyyət şəbəkəsinin genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan liderinin postmünaqişə konsepsiyası

(əvvəli 1-ci səhifədə)

Müraciətdə səsləndirilən tezislər onu göstərir ki, Azərbaycan üçün 2020-ci il Vətən müharibəsi hərbi əməliyyatların uğurla başa çatması ilə məhdudlaşmadı. 44 günlük müharibə ölkənin 30 il ərzində üzləşdiyi status-kvonun dəyişdirilməsi, beynəlxalq hüququn selektiv tətbiqinə son qoyulması və regional güc balansının yenidən qurulması baxımından başlanğıc nöqtəsi kimi dəyərləndirilir.

Dövlət başçısının vurğuladığı əsas məqamlardan biri odur ki, hərbi qələbə birbaşa siyasi nəticə doğurmur. Qələbənin real və davamlı strateji üstünlüyə çevrilməsi üçün onun beynəlxalq legitimlik müstəvisində tanınması və qəbul edilməsi zəruridir. Məhz bu baxımdan Prezident İlham Əliyevin vurğuladığı mövqe Azərbaycanın postmüharibə strategiyasının mahiyyətini aydın şəkildə ortaya qoyur. Dövlət başçısının yanaşmasına görə, Vətən müharibəsindən sonrakı mərhələdə əsas hədəf qələbənin beynəlxalq və siyasi müstəvidə davamlı legitimliyinin təmin edilməsi olub. Məhz ardıcıl və məqsədyönlü diplomatik fəaliyyət nəticəsində Azərbaycanın haqq mövqeyi qlobal miqyasda qəbul edilib, müharibənin nəticələri beynəlxalq ictimaiyyət tərəfindən hüquqi və siyasi reallıq kimi tanınıb. Burada diqqətçəkən əsas siyasi məqam ondan ibarətdir ki, rəsmi Bakı müharibədən sonrakı mərhələdə emosional revanşizm və ya daxili auditoriyaya yönəlik populist ritorika xəttini seçmədi. Əvəzində, məqsədyönlü, ardıcıl və hüquqa əsaslanan diplomatik strategiya formalaşdırdı. Strategiyanın əsas məqsədi Qarabağ məsələsini siyasi manipulyasiya predmetindən çıxararaq beynəlxalq hüququn fundamental prinsipləri – dövlətlərin ərazi bütövlüyü və suverenliyi çərçivəsində qapadılmış məsələ statusuna gətirmək oldu.

Məhz bu yanaşmanın nəticəsidir ki, Qarabağ münaqişəsi artıq “mübahisəli ərazi”, “status məsələsi” və ya “dondurulmuş konflikt” kimi təqdim edilmir. Qarabağ problemi beynəlxalq hüquqi baxımdan tam həll olunub, siyasi müstəvidə isə bağlanmış məsələ kimi qəbul edilir. Bütün bunlar Azərbaycanın uzun illər qarşılaşdığı ikili standartlar siyasətinin iflasa uğradılmasının göstəricisidir.



Prezident İlham Əliyevin Yeni il müraciətində xüsusi vurğulanan məqamlardan biri ATƏT-in Minsk qrupunun, faktiki olaraq, tarix səhnəsindən çəkilməsi ilə bağlıdır. “Tarixin arxivinə göndərilməsi” 30 ilə yaxın müddətdə fəaliyyət göstərmiş, lakin real nəticə ortaya qoymamış beynəlxalq vasitəçilik mexanizminin siyasi-hüquqi iflasının açıq etirafıdır. Minsk qrupunun münaqişənin həllinə deyil, idarə olunan qeyri-müəyyənliyə xidmət etməsi postmüharibə reallığında beynəlxalq ictimaiyyət tərəfindən də qəbul edilən faktdır.

Müraciətdə yer alan digər fundamental siyasi mesaj Azərbaycanın postmüharibə davranış modelinə aiddir. Tarixi və müasir beynəlxalq təcrübə göstərir ki, qalib dövlətlərin müharibədən sonrakı davranışı regional təhlükəsizlik mühitinin formalaşmasında həlledici rol oynayır. Qeyd etməliyik ki, Prezident İlham Əliyevin revanşist ritorikadan qəti şəkildə imtina edərək rasional sülh siyasətini ön plana çıxarması strateji seçim kimi dəyərləndirilməlidir.

Azərbaycan əldə etdiyi güc üstünlüyünü dayanıqlı sülh və təhlükəsizlik mühitinin qurulmasına yönəldir. Bu mövqe göstərir ki, Bakı üçün postmünaqişə mərhələsinin əsas hədəfi güc balansını qorumaqla yanaşı, regionda qarşılıqlı tanınma və sabitliyə əsaslanan siyasi münasibətlər sistemini formalaşdırmaqdır. Beynəlxalq sistemdə, xüsusilə postmünaqişə dövründə legitimliyin əsas ölçülərindən biri qalib tərəfin davranış modelidir. Bakı hərbi qələbəni diplomatik təzyiq və ya ərazi genişlənməsi vasitəsinə çevirmədən, onu hüquqa əsaslanan sülh gündəliyi ilə tamamlayır.

Müraciətdə xüsusi yer tutan əsas istiqamətlərdən biri Azərbaycanın Vətən müharibəsi zamanı həyata keçirdiyi hərbi-siyasi addımların beynəlxalq hüquqa tam uyğunluğunun normativ və siyasi müstəvidə təsdiqlənməsidir. Postmünaqişə dövründə qalib dövlətin legitimliyi məhz gücdən istifadə çərçivəsinin hüquqi əsaslarla məhdudlaşdırılması ilə ölçüldüyündən, bu vurğu xüsusi siyasi əhəmiyyət kəsb edir. Azərbaycanın müharibə zamanı gücdən istifadəsi beynəlxalq hüququn fundamental prinsipləri — dövlətlərin ərazi bütövlüyü, suverenliyi və özünümüdafiə hüququ əsasında həyata keçirildi. Burada diqqətçəkən əsas siyasi məqam odur ki, Azərbaycan uzun illər beynəlxalq sənədlərdə mövcud olsa da, icra olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələrini faktiki siyasi iradə və real güc vasitəsilə həyata keçirdi. Belə bir hal beynəlxalq hüququn selektiv tətbiqindən fərqli olaraq onun praktik icrasına əsaslanan nadir presedent kimi çıxış edir və Azərbaycanın postmüharibə diskursunu əhəmiyyətli dərəcədə gücləndirir.

Müraciətin ən strateji məqamlarından biri Ermənistanla sülh prosesi ilə bağlı səsləndirilən fikirlərdir. “Vətən müharibəsindən cəmi beş il keçəndən sonra Ermənistanla paraflanmış sülh müqaviləsi bir daha xalqımızın böyüklüyünü və bizim siyasətimizin müdrikliyini göstərir” ifadəsi müharibədən sonra seçilmiş siyasi kursun mahiyyətini açıq şəkildə ortaya qoyur. Azərbaycanın yanaşması münaqişəni “dondurmaq” və ya qeyri-müəyyən statusda saxlamaq deyil, onu hüquqi sənədlər və beynəlxalq tanınma əsasında yekunlaşdırmaqdır. De-fakto sülh şəraitinin formalaşması isə regionda yeni təhlükəsizlik arxitekturasının qurulması üçün real zəmin yaradır.

Prezident İlham Əliyevin “Biz döyüş meydanında qan tökərək, şəhidlər verərək şanlı Qələbə qazanmışıq və bu Qələbəni dünyanın ən mötəbər yeri olan Amerikanın Ağ Evində, Amerika Prezidentinin iştirakı ilə möhürlədik” fikri Azərbaycanın qələbəsinin qlobal siyasi məkanda da tanındığını göstərən strateji tezisdir. Bu fakt Bakının xarici siyasət manevr imkanlarını genişləndirir və onu regionda mühüm güc mərkəzinə çevirir. Vaşinqtonda imzalanan bəyannamə həm qlobal siyasi legitimliyi, həm də regionda uzunmüddətli sabitliyi təmin etmək baxımından mühüm addım hesab olunur. Əvvəla, qlobal supergücün vasitəçiliyi Azərbaycanın diplomatik səylərini beynəlxalq səviyyədə təsdiqləyir, ölkənin siyasi və strateji mövqeyini möhkəmləndirir. İkincisi, üçtərəfli sazişin məzmunu Azərbaycanın hərbi və siyasi qələbəsinin sülh mexanizmlərinə çevrilməsini təmin edir, münaqişənin institusional bağlanmasını və regionda dayanıqlı sülhün formalaşmasını təsdiqləyir.

Son olaraq qeyd edək ki, Prezident İlham Əliyevin Yeni il müraciəti Azərbaycanın son otuz il ərzində qarşıya qoyduğu əsas milli hədəfin – ərazi bütövlüyünün bərpası və bu reallığın beynəlxalq səviyyədə qəbul etdirilməsi missiyasının siyasi baxımdan tamamlandığını rəsmiləşdirir. Dövlət başçısının “Beləliklə, 30 il ərzində əsas vəzifəmiz olan ərazi bütövlüyümüzün bərpası və bütün dünya tərəfindən bunun qəbul edilməsi məsələsi öz həllini tapmışdır” fikri uzunmüddətli strateji məqsədin yekun siyasi ifadəsidir.

Hazırkı mərhələ Azərbaycanın artıq münaqişə kontekstində tanınan və status-kvo ilə



məhdudlaşan ölkə deyil, postmünaqişə dövrünün regional gündəliyini müəyyən edən, normativ və siyasi çərçivələri özü formalaşdıran suveren aktor kimi çıxış etdiyini təsdiqləyir. Azərbaycan bu mərhələdə regional proseslərin istiqamətini müəyyən edən və yeni siyasi reallıqlar yaradan dövlət statusunu möhkəmləndirib.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Suverenlik təntənəsindən intibahın yeni mərhələsinə

**2025-ci il Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində suverenliyin tam və qəti şəkildə bərqərar olduğu, milli qürurumuzun ən uca zirvəyə çatdığı şanlı bir salnamə kimi tarixə düşdü. Dekabr ayının yekun mənzərəsi bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən uzaqgörən siyasət kursu ölkəmizi regionun mütləq liderinə və qlobal proseslərin fəal oyunçusuna çevirib.**



***Əziz ƏLƏKBƏRLİ,***
***Milli Məclisin deputatı,***
***Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri***

Dövlət başçısının polad iradəsi sayəsində Azərbaycan 2025-ci ili onilliklər boyu davam edən münaqişələrin tamamilə qapandığı və yeni bir intibah dövrünün başladığı strateji mərhələ kimi tamamladı. Siyasi müstəvidə bu il diplomatiyamızın növbəti təntənəsi ilə yadda qaldı. Dekabr ayında artıq tarixin arxivinə göndərilmiş ATƏT-in Minsk qrupu kimi fəaliyyətsiz bir strukturun rəsmi şəkildə ləğv edilməsi Azərbaycanın regionda yaratdığı yeni ədalət nizamının beynəlxalq səviyyədə təsdiqi idi. Vaşinqtonun vasitəçiliyi ilə aparılan sülh danışıqları dekabrda özünün ən kritik mərhələsinə qədəm qoyarkən, Bakının nümayiş etdirdiyi qətiyyət sülh sənədinin məhz Azərbaycanın milli maraqları və beynəlxalq hüquq normaları çərçivəsində formalaşmasını təmin etdi. ehtiyatlarımızın 75 milyard dollar həddini aşması ölkənin iqtisadi müstəqilliyini sarsılmaz edib.

Azərbaycanın iqtisadi qüdrəti özünün ən bariz ifadəsini işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən nəhəng bərpa-quruculuq işlərində tapdı. Cənab Prezidentin şəxsi nəzarəti altında reallaşan "Böyük Qayıdış" proqramı çərçivəsində artıq 20 mindən çox ailə öz doğma yurdunda – müasir "Ağıllı kənd və şəhər" konsepsiyası ilə qurulan evlərində məskunlaşıb. Eyni zamanda, bu ərazilərin "Yaşıl Enerji Zonası" elan edilməsi və bərpaolunan enerjinin ümumi balansdakı payının sürətlə artması Azərbaycanın ekoloji təmiz dünya hədəflərinə sadiqliyini sübut etdi. Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının mərkəzinə çevirdi. Azad edilmiş torpaqlarda fəaliyyətə başlayan Qarabağ Universiteti isə Zəfərin intellektual müstəvidə davamı olaraq, gələcəyin müasir Azərbaycanını quracaq yeni nəsil kadrların yetişdirilməsində mühüm mərhələ oldu.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordu quruculuğu prosesi 2025-ci ildə özünün ən müasir texnoloji mərhələsinə qədəm qoydu.



Bu, Ermənistanın ərazi iddialarından tamamilə imtina etməsi şərti ilə reallaşan və kənar güclərin diktəsi ilə deyil, regionun sahibi olan Azərbaycanın şərtləri ilə qurulan sülhün qələbəsidir.

İqtisadi və strateji sahədə 2025-ci ilin ən böyük nailiyyətlərindən biri Zəngəzur dəhlizi (TRIPP) məsələsindəki dönüş nöqtəsi oldu. Şuşa Bəyannaməsinin ruhuna uyğun olaraq, bu dəhliz artıq sadəcə bir nəqliyyat yolu deyil, Türk dünyasını birləşdirən geosiyasi körpü kimi rəsmiləşdi. Dekabrda regional güc balansının dəyişməsi, xüsusilə İranın müqavimət imkanlarının zəifləməsi dəhlizin açılması qarşısındakı maneələri minimuma endirdi. Bakı Limanının yükaşırma qabiliyyətinin 25 milyon tona çatdırılması ilə sinerji yaradan bu dəhliz, ölkəmizin tranzit həcminin növbəti ildə rekord həddə çatacağına zəmin yaradır. Cənab Prezidentin uzaqgörən maliyyə siyasəti nəticəsində strateji valyuta tam gücü ilə fəaliyyət göstərməsi regionun dünya üçün açıq strateji turizm və logistika mərkəzinə çevrilməsini tamamladı.

Azərbaycanın 2025-ci ildəki uğurları təkcə hərbi-siyasi qələbələrlə məhdudlaşmır, həm də qlobal humanitar və ekoloji gündəliyin müəyyən edilməsində ölkəmizin həlledici rolunu ön plana çıxarır. Bakının ev sahibliyi etdiyi COP29 sammitindən sonra 2025-ci il boyu Azərbaycanın Yaşıl dünya naminə həmrəylik strategiyası beynəlxalq səviyyədə real layihələrlə dəstəkləndi. Bu çərçivədə Xəzər dənizindən Avropaya çəkilən Yaşıl Enerji Koridoru və rəqəmsal data ötürülməsini təmin edən Rəqəmsal İpək Yolu layihələri Azərbaycanın sadəcə enerji ixracatçısı deyil, həm də qitələrarası texnoloji və ekoloji qovşaq olduğunu təsdiqlədi. Eyni zamanda, Türk Dövlətləri Təşkilatı daxilindəki inteqrasiya proseslərinin dərinləşməsi Bakını böyük bir ailənin siyasi Ordumuzun komando birlikləri və yerli müdafiə sənayesinin məhsulları ilə gücləndirilməsi təhlükəsizliyimizi sarsılmaz edib. Regional güc balansının Türkiyə və Azərbaycanın xeyrinə dəyişməsi Bakının həm hərbi, həm də diplomatik baxımdan bütün təhdidləri neytrallaşdırmaq gücündə olduğunu göstərdi. 2025-ci ilin nəticələri sübut edir ki, cənab Prezident İlham Əliyevin polad iradəsi və strateji zəkası Azərbaycanı məğlubedilməz bir dövlətə çevirib. Xalq-iqtidar birliyindən güc alan Azərbaycan 2026-cı ilə sadəcə öz taleyini deyil, bütün regionun gələcəyini müəyyən edən bir güc mərkəzi kimi qədəm qoyur. Bu, müasir Azərbaycanın əbədi suverenlik və intibah salnaməsidir. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə 2025-ci ildə atılan hər bir addım ölkəmizi 2026-cı ilin daha böyük hədəflərinə hazırlayan sarsılmaz bir təməldir.

# Haqq və ədalət güclünün tərəfindədir



(əvvəli 1-ci səhifədə)

Bu fikirlər qlobal sistemin siyasi diaqnozudur. Beynəlxalq hüquq artıq qoruyucu qalxan rolunu, qətnamələr real təsir gücünü itirib, qərarlar icra mexanizmi olmayan sənədlərə çevrilib, BMT tribunasından səslənən çağırışlar həmin divarlar arxasında qalır.

Demək yerinə düşər ki, son beşillik mərhələ rəsmi Bakının təhlükəsizlik düşüncəsinin planlı və ardıcıl şəkildə institusionallaşdırıldığı dövr kimi formalaşıb. Bu mərhələ proqnozlaşdırılan reaksiyalar üzərindən deyil, əvvəlcədən hesablanmış, uzunmüddətli strateji xəttə söykənən qərar arxitekturası ilə xarakterizə olunur. Prezident İlham Əliyevin müraciətində səsləndirdiyi tezislər bu modelin əməliyyat müstəvisində artıq tamamlanmış fazaya daxil olduğunu açıq göstərir: “Biz son 5 il ərzində həm yerli istehsal olan silah və texnikadan istifadə edərək, eyni zamanda, xaricdən aldığımız silah və texnikanı ordumuzun potensialına əlavə edərək hərbi gücümüzü böyük dərəcədə artıra bildik. Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı, yeni yaradılmış Komando Qüvvələrinin say tərkibi minlərlə əsgər və zabitdən ibarətdir”.

Bu, artıq əməliyyat mühitində təsdiqini tapıb. Silahlı Qüvvələr keyfiyyət parametrləri baxımından yeni mərhələyə yüksəlib. Struktur mexanizmləri yenilənib, Komanda–idarəetmə arxitekturası çevikləşdirilib, döyüş hazırlığı müasir əməliyyat modellərinə uyğunlaşdırılıb. Texnologiya isə təhlükəsizlik arxitekturasının əsas dayaqlarından birinə çevrilib. Bu səbəbdən ötən il noyabrın 8-də tarixi Zəfərin beşinci ildönümünə həsr edilən hərbi parad Azərbaycanın son illər formalaşdırdığı təhlükəsizlik arxitekturasının əyani təqdimatı oldu. Meydana çıxarılan şəxsi heyət və texnika ordunun mövcud güc konfiqurasiyasını nümayiş etdirdi. Parad kolonnalarında T-72M1 və T-90S tankları, BTR-82A zirehli transportyorları, piyadaların döyüş maşınları, xüsusi əməliyyat nəqliyyat vasitələri “VAŞAQ”, zirehli tibbi təxliyə maşınları “COBRA-II”, tank əleyhinə “SKİF” raket kompleksləri, eləcə də hava hücumundan müdafiə xəttini formalaşdıran “S-125 TM”, “BUK-MB”, “S-300 Favorit” və “TOR-2M” sistemləri yer aldı. Bu xətt paradı siyasi məna verən güc vitrininə çevirdi. Sərgilənən arsenal bölgədə formalaşan hərbi balansın konturlarını açıq göstərdi. Təqdim olunan imkanlar isə Azərbaycanın təhlükəsizlik xəritəsində tutduğu mövqenin real çərçivəsini ortaya qoydu.

Son illər müdafiə sənayesi xəttində istehsal imkanları genişləndirilib və milli platformalar döyüş arsenalına mərhələli şəkildə daxil edilib. Xaricdən əldə olunan müasir texnoloji sistemlər vahid əməliyyat məkanına inteqrasiya olunub. Təchizat arxitekturası yenidən qurulub, döyüş hazırlığı mexanizmləri daimi nəzarət rejiminə keçirilib. Xüsusi Təyinatlı Bölmələrin struktur tərkibi genişləndirilib, yeni Komando Qüvvələri formalaşdırılıb. İlk komando hərbi hissəsi 2021-ci il dekabrın 21-də Hadrut istiqamətində azad edilmiş ərazilər üzrə əməliyyat mühiti nəzərə alınaraq yaradılıb. Altı ay sonra Kəlbəcər bölgəsində növbəti komando birləşməsinin açılışı həyata keçirilib. Bu mərhələlər ordu strukturunda keyfiyyət transformasiyasının əsas fazalarından biri kimi dəyərləndirilir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2023-cü il iyunun 23-də Silahlı Qüvvələr Günü ərəfəsində növbəti komando hərbi hissəsinin açılışında səsləndirdiyi fikirlər bu reallığı siyasi səviyyədə dəqiqləşdirdi: “Bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür”.

Prezident İlham Əliyev xalqa Yeni il müraciətində açıq şəkildə bildirdi ki, Azərbaycan yeni müharibə ssenariləri axtarmır, silahlı qarşıdurmalar mərhələsi artıq geridə qalıb. Lakin müasir beynəlxalq mühitdə hər bir dövlət öz təhlükəsizlik arxitekturasını real risklər üzərindən qurmağa məcburdur. Silahlanma tempinin yüksəldiyi, geosiyasi blokların sərtləşdiyi, regional risklərin çoxaldığı konfiqurasiyada hazırlıqsız qalmaq strateji boşluq yaradır. Dövlət bu şəraitdə öz suverenliyini və ərazi bütövlüyünü normativ bəyanatlar üzərindən deyil, real imkanlar üzərindən qoruyur. Vətən müharibəsində əldə edilən nəticə bu modelin əməliyyat müstəvisində işləkliyini təsdiqləyib.

Bu gün Azərbaycan regionda balans formalaşdıran aparıcı aktor statusunda çıxış edir. Mövcud mövqe ardıcıl güc quruculuğu strategiyasının məhsulu kimi formalaşıb və gələcək nəsillər üçün təhlükəsizlik baxımından dayanıqlı miras yaradır.

***Tacir SADIQOV***
***XQ***

## *Ekspert rəyi*



**Arzu NAĞIYEV,**
**Milli Məclisin deputatı**

Müasir beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindən keçir. Qlobal qaydalar zəiflədikcə, beynəlxalq hüququn normativ çərçivəsi selektiv şəkildə tətbiq olunduqca, dövlətlərin təhlükəsizlik anlayışı mahiyyətcə dəyişir. Prezidentin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində yer alan fikirlər məhz bu reallığın fonunda Azərbaycanın son beş ildə keçdiyi hərbi-siyasi yolun həm yekunu, həm də gələcəyə yönəlik strateji baxışının ifadəsidir.

Sözsüz ki, burada söhbət təkcə silahlanmadan, texniki modernizasiyadan getmir. Ölkə başçısı, əslində, bu çıxışı ilə təhlükəsizlik anlayışının yeni dövrdə necə qəbul olunduğuna dair konseptual mesaj verir. Prezidentin vurğuladığı əsas məqamlardan biri Azərbaycan Silahlı Qüvvələrinin son beş ildə keçdiyi keyfiyyət sıçrayışıdır. Ordunun yeni silah və texnika ilə təchiz olunması hərbi transformasiyanın təzahürüdür. Yerli hərbi sənaye məhsullarının döyüş arsenalına daxil edilməsi, paralel şəkildə xaricdən alınan yüksəktexnologiyalı silah sistemləri ilə inteqrasiya olunması Azərbaycan Ordusunun çoxşaxəli və çevik strukturunu formalaşdırıb.

Burada mühüm məqam ondan ibarətdir ki, Azərbaycan silahlanmanı vasitə kimi görür. Məqsəd isə təhlükəsizliyin təminatı və siyasi seçimlərin qorunmasıdır. Ölkə başçısının qeyd etdiyi Xüsusi Təyinatlı Qüvvələrin say tərkibinin bir neçə dəfə artırılması və yeni yaradılmış Komando Qüvvələrinin minlərlə əsgər və zabiti əhatə etməsi Azərbaycan Ordusunun həm klassik müdafiə, həm də qeyri-konvensional təhlükələrə cavab vermək qabiliyyətini gücləndirib. Məhz bu reallıq regional təhlükəsizlik mühitində ciddi balans yaradan faktordur.

Ölkə başçısının da qeyd etdiyi kimi, bu gün beynəlxalq hüquq çox zaman siyasi maraqların kölgəsində qalır və “kim güclüdürsə, o da haqlıdır” prinsipi faktiki davranış modelinə çevrilir. Belə bir mühitdə neytrallıq və ya zəiflik təhlükəsizlik təminatı üçün riskə çevrilir. Azərbaycan bu reallığı vaxtında dərk edərək özünün təhlükəsizlik arxitekturasını real güc balansı üzərində qurur.

# Həmrəylik: dövlətçiliyin birlik fəlsəfəsi



## II MƏQALƏ

### Həmrəyliyin yeni səviyyəsi və miqyası

Maraqlıdır ki, 2020-ci il Vətən müharibəsindən sonra azərbaycanlıların həmrəyliyi coğrafi sərhədləri tam aşaraq etnosun birgəyaşamının psixoloji və sosial hüdudları ilə müəyyən olunmağa başladı. Bu transformasiya hamar baş verdi, çünki bünövrəsində zəngin tarixi və şüuri təcrübə dayanır. Hətta bir dönəmdə tədqiqatçılar azərbaycanlıları "sərhədsiz universallıqda" günahlandırırdılar. Müasir dövrdə bu "ittiham" azərbaycanlıların dünyanı əhatə edən təsir dairəsinə canatmaqla bağlı idi. Əlbəttə, güclü dövlət olmadan nəinki qlobal, hətta regional miqyasda hansısa geniş təsir dairəsinə ümid etmək absurddur. Lakin azərbaycanlı şüurundan "ilahi ədalət və nizamı Yer üzündə təmin etmək missiyası" kimsə çıxara bilməz – o, psixologiyada, təfəkkürdə və davranışda "kristallaşmış həqiqətimiz"dir!

Ulu öndər Heydər Əliyev müasir şərtlər kontekstində müstəqil dövlətçiliyi tam gözləməklə həmin şüuri təcrübəyə məharətlə məfkurəvi məzmun verdi. Məhz bu proses 2020-ci il Vətən müharibəsindəki möhtəşəm Zəfərlə özünün növbəti fazasına – mərhələsinə qədəm qoydu.

Həmrəyliyin coğrafi hüdudu aşaraq azərbaycanlıların birgəyaşam fəlsəfəsinin məna hüdudlarına proyeksiya etməsi etnosun birliyinin yeni nümunəsinin konseptual obrazını yaratmağı tələb edir. Nəzəri olaraq bu transformasiya dərin və əhatəli prosesdir – o, çoxaspektlidir və bir qəzet məqaləsinin imkanlarını aşır. Ancaq Prezident İlham Əliyev Azərbaycan xalqına Həmrəylik günü və Yeni il münasibətilə etdiyi müraciətdə elə bir incə məqama vurğu etmişdir ki, onun fonunda mövzu daha aktual anlam kəsb edir.

### "Bizim böyük ailəmiz"

Dövlət başçısı müraciətinin bir yerində vurğulamışdır: "Bizim xaricdə yaşayan böyük ailəmiz vardır, bu, azərbaycanlılardır. Onlar öz doğma Vətəninə bağlı olan adamlardır. Bizi fərqləndirən əlamət ondan ibarətdir ki, harada yaşamağımızdan asılı olmayaraq, öz Vətənimizə bağlıyıq.

Bura bizim vətənimizdir, hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var - Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi!

Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər".

Bu dərin mənalı fikirlərin semantikasında həmrəyliyin psixoloji və emosional mühitinin təhtəlşüur qatı ilə rasional-intellektual xüsusiyyətləri vəhdətdə ifadə edilmişdir. İlkin baxışda onun bir neçə vacib aspektini anlamaq olar.

Birincisi, azərbaycanlıların təhtəlşüurunda yaşadığı coğrafiyadan deyil, etnomədəni mənsubluğundan "azərbaycançılıq obrazı" mövcuddur ki, onun başlıca əlaməti Vətənə bağlılıqdan ibarətdir. Doğrudan da el arasında "ölməyə Vətən yaxşı" deyimi sübutsuz qəbul edilir. Onun "həqiqiliyi" məntiqdə deyil, təhtəlşüurun dərin tarixi-psixoloji qatındadır. Burada "ölmək" məcazdır və həyatdan getməyin fiziki anlamına aid deyildir. "Ölmə"yin həmin deyimdə mənalarından biri "azərbaycanlı harada yaşamasından asılı olmayaraq Vətən üçün fəda olmağa hazırdır" deməkdir. Bunun müasir dönəmdə əyani sübutu II Qarabağ müharibəsi zamanı Azərbaycan Respublikasının siyasi-coğrafi və dövlət kimi hüquqi sərhədlərinin "hər istiqamətdəki o tayında" (Prezident İlham Əliyev anlamında) yaşayan soydaşlarımızın müharibəyə getmək üçün hətta bəzən yalvarışla müraciət etməsində aksini tapmışdır. İndiki mərhələdə azərbaycanlıların Həmrəyliyi vurğulanan aspektdə tamdır!

İkincisi, bu əsasda Azərbaycan lideri məharətlə Həmrəylik anlayışından Vətənçilik və ya Vətənsevərliyə, bütövlükdə azərbaycanlıların Vətən anlayışına müasir baxışlarını ifadə etmişdir. Bu məna bir cümlədə yığcam ifadə olunmuşdur: "Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir"! Yəni harada yaşamağımızdan asılı olmayaraq "Bizim bir vətənimiz var - Azərbaycan!".

Əhəmiyyətli məntiqi keçid və ümumiləşdirmədir. Yeni tarixi mərhələdə Zəfər fəlsəfəsinin mərkəzi tezislərindən biridir. Çünki bu tezisin məna yükünün bünövrəsində "XXI əsrin milləti" anlamı dayanır. "Millət" anlayışı XXI əsr Azərbaycanında mədəniyyət, ortaq tarix və Vətən anlayışına dayanır. Bu üç anlayış müasir dövlətçilik şüurumuzun əsas komponentləri sırasındadır. Onun elmi obrazı isə "dövlət millətçiliyi" ifadəsi ilə müəyyən olunur.

Deməli, Azərbaycan Respublikası coğrafi hüdudla deyil, mədəniyyət, ortaq tarix və Vətən anlayışlarının qarşılıqlı əlaqəsi fonunda formalaşan "millət" anlayışları üzərində bərqərar olan nəzəri-konseptual obrazdır. İndiki tarixi mərhələdə məhdud coğrafi-siyasi sərhədlərə malik olması onun millət kimi təsir sahəsinin hüdudlarını müəyyən etmir – azərbaycanlılar ənənə ilə müasir rasional qiymətləndirmə əsasında dünyanın əhatə edə biləcək Həmrəylik psixologiyasına və onu təmin edən məfkurəyə sahibdirlər. Dil və azərbaycançılıq bu anlamda həlledici faktorladır! Biz dünyaya Azərbaycan dili ilə "açılırıq". Bu dildə azərbaycanlılığımızı və milli identikliyimizi təsbit və təşviq edirik!

Üçüncüsü, azərbaycanlıların dünya miqyasında həmrəyliyi və birliyi modeli onların arxalarında güclü Azərbaycan dövlətinin dayanması inancına əsaslanır. Buna görə də dünyanın hər guşəsində yaşayan azərbaycanlılar həmişə bir yerdə olmaq təcrübəsini daha da zənginləşdirməkdədirlər. Azərbaycanlılar hüquqlarının, haqlarının, milli identikliklərinin təminində Azərbaycan Respublikası dövlətinin müvəkkil olduğunu artıq mentalitetin vacib elementi kimi dərk etməkdədirlər!

### Həmrəylik və milli ləyaqət

Milli ləyaqətin birbaşa sosial-siyasi və sosial-mədəni münasibətlərə aidiyyəti vardır. Müasir elmi ədəbiyyatda milli ləyaqət qürura, millətə hörmət duyğusuna, toplumun tarixinə, mədəniyyətinə, ənənəsinə, nailiyyətlərinə sıx bağlı anlayış kimi tərif edilir. Bu sırada identiklik və suverenlik xüsusi yer tutur. Sonuncu anlayışlar şərəf və rifahla yanaşı, başqaları tərəfindən xalqın aşağılanmasına və saymazlığına qarşı dözümsüzlüyü də ehtiva edir. Bunları ümumiləşdirərək tədqiqatçılar belə qənaətə gəlirlər ki, milli ləyaqət insanın milli-etnik və milli-vətəndaşlıq identikliyinə dayanır. Həmin keyfiyyət də, faktiki olaraq, bu iki aspektin vəhdəti üzərində bərqərar olur.

Bu qısa izahdan aydın görünür ki, xalq miqyasında münasibətlərin formalaşmasında insanların həmrəyliyi çox ciddi yer tutur. Yuxarıda milli ləyaqətlə əlaqəli vurğuladığımız özəlliklərin faktiki predmetləşməsi böyük ölçüdə həmrəyliyin təmini ilə bağlıdır. Yəni milli ləyaqət azərbaycanlıların həmrəyliyinin mühüm komponentinə çevrilmişdir. Bu, kollektiv davranışın sosial, siyasi, mədəni və mənəvi tərəflərinin qarşılıqlı münasibətlərində bir xüsusiyyəti aktuallaşdırır.

Biz bu mövzuda I məqalədə dövlət başçısının ifadə etdiyi fikirlərdən gətirdiyimiz iqtisabların bir qisminə yenidən müraciət edə bilərik. Prezident İlham Əliyev demişdir: "...biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar. Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar. Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq".

"Bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında" azərbaycanlılar əzəli tarixi torpaqlarında ləyaqətlə yaşayırlar. Yəni onlar "heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar". Yaşadıqları ölkələrin dövlətçiliyinə töhfələr vermişlər və bu mənada "heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq"lar. Azərbaycanlılar tarix boyu ləyaqətlərinin bu özəlliyini saxlamışlar və indi onu müasir tarixi mərhələyə tam adaptasiya edə bilmişlər.

Müstəqil dövlət identikliyi kontekstində həmrəyliyin vurğulanan dəyər kimi anlamı prinsipial əhəmiyyət daşıyır. Çünki qloballaşma dövründə milli həmrəyliklə dövlətlərarası həmrəylik daha sıx qarşılıqlı əlaqədə olmağa başlayırlar. Bu qabiliyyətə isə yalnız yüksək inkişaf etmiş, müasir dövr üçün qəbul edilən olan birlik nümunəsi göstərən cəmiyyətlər qadirdirlər. Onları obrazlı desək, "bəşəri müstəqil dövlətlər" adlandıra bilərik. Çünki həmin dövlətlərin cəmiyyətlərində həmrəylik etnik məhdud baxışlara, lokal psixoloji faktorlara və başqalarına qarşı şovinist yanaşmalara deyil, ümumbəşəri faydası olan davranış nümunələrinə əsaslanır. Azərbaycan məhz həmin dövlətlər sırasındadır!

### Həmrəylikdən Türk birliyinə

Öncə, onu vurğulayaq ki, burada ənənəvi "türk həmrəyliyi" ifadəsi nəzərdə tutulmur. Keçən əsrin 40-cı illərində Türkiyədə başlamış möhtəşəm türk həmrəyliyi hərəkatının tarixdə yeri və rolu unudulmazdır. Alparslan Türkeş kimi milli siyasi xadimlər həmin hərəkatda yetişmişdilər. Bununla yanaşı, indiki tarixi mərhələdə "türk həmrəyliyi" dünya miqyasında türk etnosunun və onun yaratdığı dövlətlərin (Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan), həmçinin müxtəlif dövlətlərin tərkibində olan türk xalqlarının münasibətlərinin qurulması məsələsi olduqca aktualdır.

Türklər artıq qlobal miqyasda siyasi aktor olmaq üçün dövlətlərarası münasibətlərini həmrəylik fəlsəfəsi əsasında qurmalıdırlar. Bu isə həm tarixi yenilik, həm də həmrəylik fəlsəfəsinə siyasi və dövlət səviyyəsində yeni yanaşma tələb etməkdədir. Həmin kontekstdə müasir mərhələdə azərbaycanlıların həmrəylik modeli bütöv Türk dünyasının həmrəyliyinin bazasını təşkil edə bilər. Çünki türk dövlətləri sırasında azərbaycanlıların dünya miqyasında həmrəyliyinin aydın nəzəri, ideoloji, konseptual və onun praktiki reallaşma proqramları qədər mükəmməl ikinci modelə sahib olanı yoxdur. Dünya üzrə türk diasporalarının əməkdaşlıq fəlsəfəsi də dünya azərbaycanlılarının həmrəyliyinin təməl prinsipləri üzərində bərqərar olmaqdadır.

### 3 baza prinsipi

Onun 3 mühüm müəyyənedici və istiqamətverici baza prinsiplərini vurğulaya bilərik. Birincisi, ortaq dövlətçilik fəlsəfəsi. İkincisi, qövm olaraq ortaq tarixə və birgəyaşam fəlsəfəsinə malik olmaq. Üçüncüsü, ortaq mədəniyyətdən ortaq sivil dəyərlərə keçid fəlsəfəsini hazırlamaq.

Bu yanaşmanın bir sıra aspektlərini Azərbaycan Prezidenti müxtəlif tədbirlərdə irəli sürdüyü tezislərdə konkret ifadə etmişdir. Dövlət başçısı 2025-ci il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa etdiyi müraciətdə xüsusi vurğulamışdır: "Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşü də bizim ailəmiz olan Türk dünyasının birləşməsi istiqamətində bir daha önəmli addım olmuşdur". Həmin müraciətin sonunda isə, faktiki olaraq, türk birliyinin fəlsəfəsinin əsas şərtlərini azərbaycanlıların həmrəyliyi nümunəsi fonunda ifadə etmişdir: "...bizi - azərbaycanlıları ortaq tarix, dilimiz, köklərimiz, mədəniyyətimiz birləşdirir. Azərbaycanlılar hansı ölkədə yaşamalarından asılı olmayaraq, bilirlər və bilməlidirlər ki, onların Ana Vətəni müstəqil Azərbaycan dövlətidir".

Ortaq tarix, kök, dil, mədəniyyət birliyindən Türk dünyasının yeni ortaq sivil dəyərlər yaratmaq imkanları keçidi perspektivli görünür. Çünki bu zaman həm ənənəvi dəyərləri qorumaq, həm də dünya miqyasında substantiv və funksional aktuallığı olan, müasir tələblərə uyğun sivil dəyərlər yaratmaq əsasında birləşmək imkanı yaranır! Burada "yeni ortaq sivil dəyərlər" (birləşdirici mənəvi, mədəni, əxlaqi, ideoloji, siyasi, geosiyasi və s.) ifadəsi geniş və dərin anlama malikdir. Onun xüsusi təhlilə ehtiyacı vardır.

Türk Dövlətləri Təşkilatı bu proyeksiyanı reallaşdırmağın əsas siyasi-təşkilati mexanizmi kimi təsəvvür edilə bilər! O mənada ki, azərbaycanlıların həmrəyliyi modelinin mühüm tərkib hissəsi olan yuxarıdakı tezisi "harada yaşamağımdan asılı olmayaraq hər bir türk bilməlidir ki, onun ümumi Vətəni Türk dünyasıdır" tezisinə uğurla transformasiya etmək olar!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# "907"nin ləğvi: etimad üçün zərurət və…

*Prezident İlham Əliyevin növbəti mesajları nəyə hesablanıb?*

**Prezident İlham Əliyev yanvarın 4-də ABŞ nümayəndə heyətini qəbul edərkən, "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişdən söz açdı. O düzəlişdən ki, ədalətsizdir və "Bakı–Vaşinqton münasibətlərinin hazırkı inkişafının mahiyyətinə qətiyyən uyğun deyil". Yazımız bu barədədir, amma digər məqamlardan da söz açacağıq.**

Əvvəla, ondan başlayaq ki, son zamanlar Birləşmiş Ştatlardan ölkəmizə səfərlərin sayında intensivlik müşahidə olunmaqdadır və bu, özlüyündə müsbət haldır. Nəzərə alaq ki, Azərbaycana təşrif buyurmuş ABŞ nümayəndə heyətinə Senatın Silahlı Qüvvələr Komitəsinin üzvü, Oklahomadan respublikaçı senator Markveyn Mallin, Nümayəndələr Palatasının üzvü və həmin qurumun Gəlirlər Komitəsinin sədri, Missuridən respublikaçı Ceyson Smit, Nümayəndələr Palatasının və həmin qurumun Silahlı Qüvvələr Komitəsinin üzvü, Texasdan respublikaçı Ronni Cekson, Nümayəndələr Palatasının və həmin qurumun Gəlirlər Komitəsinin üzvü, Kaliforniyadan demokrat Cimmi Panetta kimi mötəbər şəxslər daxil idi.

Ötən ilin noyabrında Oklahoma Milli Qvardiyasının Birləşmiş Qərargahının direktoru, briqada generalı Kolbi Uayattın, dekabrda isə ABŞ Avropa Komandanlığının (EUCOM) Tərəfdaşlıq, Təhlükəsizlik, Əməkdaşlıq və Kütləvi Qırğın Silahlarının Qarşısının Alınması üzrə direktor müavini, briqada generalı Kris Makkin başçılıq etdiyi nümayəndə heyətlərinin ölkəmizə səfərləri gerçəkləşmişdi. Siyahıya bir neçə iqtisadi missiyanı da əlavə etmək mümkündür və bütün bunlar Bakı–Vaşinqton təmaslarındakı pozitiv dinamikanı vurğulayır. O dinamikanı ki, əsası 2025-ci il avqustun 8-də qoyuldu. Ona görə də Prezident İlham Əliyev amerikalı qonaqlarla görüşdə ilk növbədə özünün ABŞ-a səfərini xatırlatdı.

Həm ABŞ-dan Azərbaycana səfərlərin artan dinamikası, həm də ölkəmizin regional sülh gündəliyinə sadiqliyini vurğulayan məqamlar göstərir ki, Bakı sözündə qətidir. Əgər regional sülh gündəliyinin ilk təzahürləri fayda gətirirsə, deməli, həmin gündəliyi tam şəkildə başa çatdırmaq, onun ruhuna uyğun hərəkət etmək mütləqdir. Hər halda, Prezident İlham Əliyev TRIPP ilə bağlı nəqliyyat bağlantıları baxımından yeni imkanlar yaradacağına ümidvar olduğunu təsadüfən dilə gətirmir. Dövlətimizin başçısının mesajı kifayət qədər konkretdir. Birləşmiş Ştatlar TRIPP-in reallaşmasının vacibliyinə adekvat reaksiya verməlidir. Əlbəttə ki, Prezident İlham Əliyevin fikirlərində Ermənistana da mesaj payı var. Ölkə üzərinə düşən öhdəliyi yerinə yetirməlidir. İrəvanda nəzərə almalıdırlar ki, regional gündəliyin fundamentallığından – TRIPP-dən, yəni Naxçıvana maneəsiz yol məntiqindən, başqa sözlə desək, Zəngəzur dəhlizi ideyasından uzaq durulacağı təqdirdə, rəsmi Bakı fərqli davranacaq.

Digər tərəfdən, Prezident İlham Əliyev mesajları ilə ölkəmizin ABŞ–Azərbaycan münasibətlərinin hazırkı yüksək trayektoriyasına uyğun davranış nümayiş etdirdiyini vurğulayır. O trayektoriya ki, özünü ötən il avqustun 8-də Vaşinqtonda imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasındakı Anlaşma Memorandumunda göstərib. Həmin gün dövlətimizin başçısı "33 il davam edən sanksiyaların sonu Prezident Trampın sayəsində mümkün oldu" demişdi.

Haşiyə çıxaq ki, Strateji Tərəfdaşlıq Xartiyasında gələcək əməkdaşlıq istiqamətləri kimi qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, bağlantılar, tranzit, təhlükəsizlik, süni intellekt, müdafiə sənayesi və müdafiə sahələrində əməkdaşlığı və digər məsələlər var. Bu barədə Prezident İlham Əliyev Vaşinqtonda ölkəmizin media vasitələrinə müsahibəsində söz açmışdı: "Yəni, sadəcə olaraq, bu istiqamətlərin sadalanması onu göstərir ki, ölkəmiz qarşısında nə qədər böyük imkanlar açılır və artıq mənim göstərişimlə Azərbaycan tərəfini təmsil edəcək tərkib müəyyən olunub. Biz öz təkliflərimizi irəli sürəcəyik. Artıq mənim səfərim çərçivəsində Amerikanın bir neçə aparıcı şirkəti ilə görüşlər keçirilmişdir. Yəni biz vaxt itirmək istəmirik. Onsuz da əvvəlki administrasiya dövründəki dörd ili mən itirilmiş illər kimi qiymətləndirirəm".

Bəli, vaxt itirmək olmaz. ABŞ–Azərbaycan münasibətləri yeni dövrün ahənginə uyğun qurulmalıdır. Bu baxımdan ən önəmli məsələ ölkəmizin liderinin "Azadlığa Dəstək Aktı"na ədalətsiz 907-ci düzəlişi yada salmasıdır. Yəni əlaqələrin davamlılığı baxımından heç hir risk pəncərəsi olmamalıdır. Deməli, "907" tamamilə tarixin arxivinə göndərilməlidir. Ona görə də Prezident İlham Əliyev amerikalı qonaqları qəbul edərkən, ABŞ Prezidenti Donald Tramp tərəfindən düzəlişin fəaliyyətinin dayandırılmasını yüksək qiymətləndirdiyini deyib. Xatırladaq ki, dövlətimizin başçısı bununla bağlı mövqeyini avqustun 8-dəki müsahibədə daha parlaq şəkildə ifadə etmişdi: "Əlbəttə ki, "Azadlığa Dəstək Aktı"na edilən bu ədalətsiz 907-ci düzəlişdən mənim iştirakımla oval ofisdə imtina çox rəmzi məna daşıyır. Prezident Tramp bunu başqa formada da edə bilərdi. O, bunu daha sonra da imzalaya bilərdi. Amma bunu hələ 1992-ci ilin oktyabrından bəri Konqres tərəfindən haqsız olaraq sanksiyaya məruz qalan Azərbaycanın Prezidentinin qarşısında etmək qərarına gəldi. O zaman təbii ki, Konqres üzvlərinin Azərbaycandan, Cənubi Qafqazda baş verənlərdən xəbəri yox idi. Onlar erməni lobbi qruplarının təsiri altına düşüb və qurban Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Beləliklə, bu düzəliş bizi həmin o illərdə çox ehtiyac duyduğumuz birbaşa Amerika yardımından məhrum etmişdir".



Məlum olduğu kimi, ötən ilin dekabrında ABŞ Nümayəndələr Palatasının üzvü Anna Paulina Luna 907-ci düzəlişin tam ləğvini nəzərdə tutan qanun layihəsini təqdim edib. Bu barədə məlumat Konqresin rəsmi saytında yayımlanıb. Sözügedən qanun layihəsinin mətnində qeyd olunub ki, müstəqillik əldə etdikdən sonra Azərbaycan ABŞ və onun müttəfiqlərinin etibarlı tərəfdaşı olaraq qalıb, həm müharibə, həm də sülh dövrlərində mühüm əməkdaşlıq təmin edib. Layihədə, həmçinin, ölkəmizin Cənubi Qafqazda sülhü prioritet hesab etdiyini açıq şəkildə göstərdiyi, nəticə olaraq, Bakı və İrəvan arasında müvafiq sərhədlərin və ərazi bütövlüyünün qarşılıqlı şəkildə razılaşdırıldığı sülh sazişinin əldə olunduğu vurğulanıb. Buna görə də "907" ləğv edilməli və həmin maddə ilə bağlı müddəa qanundan çıxarılmalıdır.

907-ci düzəliş həm də ona görə ləğv edilməlidir ki, sənəd ABŞ-ın Azərbaycana qarşı ədalətsizliyinin təzahürüdür və bu barədə Prezident İlham Əliyevin diqqətə çatdırdığımız iqtibasında söz açılıb. Əlavə olaraq onu da deyək ki, müxtəlif dövrlərdə sözügedən düzəlişdən qaynaqlanan sanksiya siyasəti də Vaşinqtonun Bakıya münasibətdəki riyakarlığının göstəricisi olub. Məlum olduğu kimi, 2001-ci ildə bu sanksiyalar dayandırılmışdı. Çünki ABŞ Hökumətinin Əfqanıstanda Azərbaycanın köməyinə ehtiyacı var idi. Həmin vaxt ölkəmiz vacib nəqliyyat yollarını, "Şimal Paylayıcı Şəbəkə" adlanan əlaqəni təmin etmişdi. Sonra hər il Amerika prezidentləri "907"nin qüvvəsini dayandırırdılar və bu, 2023-cü ilə qədər davam etdi. Amma Co Bayden administrasiyası dövründə Vaşinqton tamam fərqli kurs götürdü. Ədalətsiz maddənin qüvvəsi dayandırılmadı. Çünki Birləşmiş Ştatlar Əfqanıstanda missiyasını başa vurmuş və Azərbaycana ehtiyac qalmamışdı. Əlbəttə, belə yanaşma dünyanın supergücünə qətiyyən yaraşmırdı. Üstəlik, Bayden administrasiyası ABŞ-a yaraşmayan bir çox hərəkət və davranışlar gerçəkləşdirdi. Nəticədə Bakı–Vaşinqton münasibətləri pisləşdi, hətta böhran dövrünü yaşadı.

Tam əminliklə demək olar ki, 907-ci düzəliş özündə həm də ABŞ–Azərbaycan münasibətlərindəki keçmişin böhran mahiyyətini yaşadır və onun tam ləğvi həm də bu səbəbdən vacibdir. Ona görə də Prezident İlham Əliyev Bakıda səfərdə olan Konqres üzvlərinin mövcud istiqamətdə səylərini davam etdirəcəyinə ümidvar olduğunu vurğulayıb. İnanmaq istərdik ki, ilk günlərini yaşadığımız 2026-cı ildə Azərbaycanın ümidləri özünü doğruldacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Logistik hegemonluq uğrunda mübarizə

## *Kreml TRIPP layihəsində iştirakla regiona təsirini qorumağa çalışır*




**XXI əsrin üçüncü onilliyinin geosiyasi mənzərəsi göstərir ki, böyük dövlətlərin nüfuz dairəsi nəzarət etdikləri ticarət dəhlizlərinin effektivliyi, diversifikasiyası və təhlükəsizliyi ilə ölçülür. Məhz bu reallıq fonunda Avrasiyanın strateji nəqliyyat qovşağı hesab edilən Cənubi Qafqaz regionu qlobal güclərin strateji maraqlarının həm kəskin şəkildə toqquşduğu, həm də paradoksal formada uzlaşdığı unikal məkana çevrilib.**

Son dövrlərdə regionun siyasi leksikonuna daxil olan və ABŞ-ın yeni xarici siyasət doktrinasının tərkib hissəsi kimi xarakterizə edilən TRIPP layihəsi mövcud status-kvonu dəyişdirməyə, regionun iqtisadi arxitekturasını yenidən şəkilləndirməyə iddialı yeni geosiyasi vasitəyə çevrilib. Məsələnin maraqlı tərəfi ondan ibarətdir ki, Rusiya Qərb mənşəli hesab edilən sözügedən layihəni birmənalı şəkildə inkar etmək əvəzinə, orada iştirak payını təmin etməklə regiondakı dayaqlarını möhkəmləndirmək, prosesi daxildən idarə etmək və nəzarət mexanizmlərini əlində saxlamaq xəttini seçib.

Moskvanın nümayiş etdirdiyi bu davranış modeli ilk baxışda ənənəvi anti-Qərb ritorikası və müqavimət doktrinası ilə ziddiyyət təşkil edə bilər. Amma dərin siyasi təhlil göstərir ki, Kremlin TRIPP layihəsində iştirak cəhdləri heç də təsadüfi xarakter daşımır, əksinə, dəqiq hesablanmış praqmatizmə və uzunmüddətli dövlət maraqlarının qorunmasına əsaslanır. Şimal qonşumuz olduqca yaxşı anlayır ki, Cənubi Qafqazda formalaşan yeni nəqliyyat arxitekturasından, qlobal ticarət yollarının şaxələndirilməsi prosesindən kənarda qalmaq perspektivdə regionun tamamilə itirilməsi, təsir imkanlarının minimuma enməsi ilə nəticələnəcək. Odur ki, Kreml "prosesi dayandıra bilmirsənsə, ona rəhbərlik et və ya ən azından prosesin mərkəzində yer al" prinsipinə sadiq qalaraq TRIPP çərçivəsində təhlükəsizlik qarantı rolunu oynamağa, xüsusilə Zəngəzur dəhlizi boyu nəzarət mexanizmlərini əlində saxlamağa, bununla layihənin həm də siyasi tənzimləyicisi olmağa çalışır.

Vaşinqton TRIPP layihəsi vasitəsilə regionda Çin və Rusiya təsirini balanslaşdırmağı, Avrasiyanın mərkəzində Qərbmeyilli sabitlik zonası yaratmağı planlaşdırır. Layihənin sülh və rifah şüarı altında təqdim edilməsi ona beynəlxalq legitimlik qazandırır. Region ölkələri üçün cəlbedici investisiya imkanları vəd edir və ictimai rəydə müsbət imic formalaşdırır. Rusiya üçün vəziyyət kifayət qədər həssasdır. Çünki Moskva ənənəvi olaraq postsovet məkanında infrastruktur layihələrinə qısqanclıqla yanaşmış, kənar aktorların, xüsusilə Qərbin regiona daxil olmasını milli təhlükəsizliyinə təhdid kimi qiymətləndirmişdir. Lakin son illərin geosiyasi təlatümləri, xüsusilə sanksiya rejimi və iqtisadi izolyasiya təhlükəsi Kremlin baxış bucağını köklü şəkildə dəyişməyə məcbur edib. Qərbin ağır sanksiyaları altında qalan Rusiya iqtisadiyyatı üçün cənub istiqamətli marşrutlar, alternativ ticarət yolları və yeni bazarlara çıxış imkanları həyati əhəmiyyət kəsb edir.

Kreml artıq TRIPP layihəsinin tərkib hissəsi olan kommunikasiyaların açılması prosesində aktiv iştirakçı və həlledici tərəf qismində çıxış etməyə qərar verib. Burada əsas istinad nöqtəsi 2020-ci il 10 noyabr Bəyanatının müvafiq bəndləridir. Həmin sənədə əsasən Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasındakı nəqliyyat əlaqəsinin təhlükəsizliyinə Rusiya Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Qoşunları nəzarət etməlidir. Rusiya diplomatiyası Qərbin TRIPP təşəbbüsünü rəsmən dəstəkləməsə də, faktiki olaraq, marşrutun təhlükəsizlik memarı olmaq iddiasını irəli sürür. Beləliklə, Moskva layihənin iqtisadi dividendlərindən, yəni tranzit gəlirləri və malların sərbəst hərəkətindən yararlanmaqla yanaşı, regiondakı hərbi-siyasi mövcudluğunu da beynəlxalq hüquqi əsaslarla qoruyub saxlamağı hədəfləyir.

Şimal-Cənub dəhlizi Rusiya üçün geosiyasi nəfəslikdir. Sankt-Peterburqdan Mumbaya qədər uzanan, Azərbaycan və İran ərazisindən keçən marşrut Rusiyanın Qərb bazarlarından asılılığını azaltmaq, Qlobal Cənuba çıxış əldə etmək və Hind okeanına birbaşa yol açmaq üçün əvəzsiz vasitədir. Son illər Azərbaycan və İran arasında dəmir yolu infrastrukturunun inkişafı ilə bağlı əldə olunan razılaşmalar, Moskvanın Cənub vektoruna verdiyi önəmi təsdiqləyir. Kreml anlayır ki, TRIPP layihəsi reallaşsa belə, həmin marşrut əsasən Şərq–Qərb istiqamətində yükdaşımalara xidmət edəcək, Rusiya isə şaquli istiqamətdə hərəkət edən müstəqil arteriyaya sahib olmalıdır. Burada maraqlı məqam ondan ibarətdir ki, TRIPP və Şimal–Cənub layihələri Cənubi Qafqazda, konkret olaraq, Azərbaycan ərazisində kəsişir. Ölkəmiz hər iki layihənin mərkəzi ölkəsi kimi çıxış edir. Rusiya isə Azərbaycanla strateji tərəfdaşlıq əlaqələrini dərinləşdirməklə, hər iki dəhlizin işlək vəziyyətdə qalmasını, maraqlarının nəzərə alınmasını və regional sabitliyin qorunmasını təmin etməyə çalışır.

Bu, çevik diplomatiyanın bariz nümunəsidir. Proses rəqibin gücündən, resurslarından və investisiyasından istifadə edərək şəxsi mövqeyini möhkəmləndirmək taktikasını ehtiva edir. Rusiyanın TRIPP layihəsində iştirak cəhdlərinin bir neçə mühüm səbəbi aydınlaşır ki, bunlardan ilki hərbi-siyasi mövcudluq amilidir. Ermənistan ərazisindən keçəcək kommunikasiya xətlərinə nəzarət Rusiyaya regionda fiziki hərbi mövcudluğunu davam etdirmək üçün hüquqi zəmin yaradır. Xüsusilə Ermənistanın Qərbə inteqrasiya kursu götürdüyü indiki həssas məqamda Rusiya üçün İrəvan üzərindəki təsir rıçaqlarını saxlamaq, onu nəzarətdən buraxmamaq həyati əhəmiyyət kəsb edir. Əgər TRIPP layihəsi tamamilə Qərb standartları və təhlükəsizlik arxitekturası əsasında qurularsa, Rusiya Ermənistandan tədricən sıxışdırılıb çıxarıla bilər. Buna görə də Kreml layihənin təhlükəsizlik operatoru olmağa, sərhəd və gömrük nəzarətini, faktiki olaraq, həyata keçirməyə can atır. İkinci mühüm səbəb tranzit asılılığının idarə edilməsidir. Moskva yaxşı bilir ki, Azərbaycan regionun əsas tranzit habına çevrilib və enerji resurslarının, yüklərin Qərbə daşınmasında onun rolu əvəzsizdir.

Üçüncü amil İran faktorunun balanslaşdırılması ilə bağlıdır. Tehran rejimi TRIPP layihəsinə skeptik münasibət bəsləyir. Bunu NATO-nun regiona gəlişi, sərhədlərinin dəyişdirilməsi cəhdi kimi qiymətləndirir. Rusiya burada incə oyun aparır. TRIPP layihəsində iştirak etməklə, faktiki olaraq, İrana mesaj verir ki, əgər nəzarət Moskvada olarsa, həmin marşrut Tehran üçün təhlükə yaratmayacaq. Beləliklə, Rusiya İranı tam narazı salmadan regionda Türkiyə və Qərblə əməkdaşlıq edə biləcəyi ortaq məxrəc axtarır.

Gələcək proseslərin inkişafı böyük ölçüdə ABŞ-ın yeni administrasiyasının Cənubi Qafqaz siyasətindən, Türkiyə–Rusiya münasibətlərinin dinamikasından, İranın davranışından və Azərbaycanın strateji qərarlarından asılı olacaq. Hazırkı mənzərə onu deməyə əsas verir ki, Rusiya TRIPP layihəsini passiv müşahidəçi kimi izləməyəcək, əksinə, bütün siyasi, iqtisadi və kəşfiyyat resurslarını səfərbər edərək qlobal nəqliyyat habında şəxsi maraqlarına uyğun olan parçanı yerləşdirməyə çalışacaq. Bu, Rusiyanın böyük dövlət kimi cənub cinahdakı varlığının təminatı, təhlükəsizlik qurşağının qorunması məsələsidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Rusiyada azərbaycanlı miqrantlar niyə sıxışdırılır?

**2026-cı ildən Rusiyada əmək miqrantlarına və onları işə işəgötürənlərə tətbiq olunan yeni tələblər və məhdudiyyətlər qüvvəyə minir. Bu dəyişikliklər, xüsusilə postsovet məkanından gələn yüz minlərlə əmək miqrantına, o cümlədən Azərbaycan vətəndaşlarına birbaşa təsir göstərir. Yeni qaydaların əsas məqsədi regional büdcələrin doldurulması, əmək bazarının "yerliləşdirilməsi" və sosial yükün azaldılmasıdır. Amma eyni zamanda miqrant əməyini daha bahalı, daha riskli və qeyri-sabit vəziyyətə gətirir.**

Rusiyada patent haqlarının artması dəyişikliklərdən biridir. Moskva üçün patent qiyməti 10 min, Sankt-Peterburq üçün 8 min, Krasnodar regionunda isə 27 min rubldur. Beləliklə, patent haqları regiondan asılı olaraq dəyişir. Yada salaq ki, tələb olunan sənədlər paketinin xərci isə əlavə 30 min rubldur. Bu, patentin miqrant üçün, sadəcə, işləmək icazəsi olmaqdan çıxaraq davamlı maliyyə yükünə çevrilməsi deməkdir. Tikinti, xidmət, ticarət və nəqliyyat sektorlarında çalışan Azərbaycanlı miqrantların gəlirlərinin böyük hissəsi dövlət xərclərinə yönəlir. Nəticədə miqrantlar daha ağır və riskli iş şərtlərini qəbul etməyə, bəziləri isə qeyri-leqal məşğulluğa meyillənməyə məcbur olurlar.

Tibbi xidmətlərə çıxış da məhdudlaşdırılıb. Pulsuz tibbi yardıma çıxış müddəti 3 ildən 5 ilə qaldırılıb, icbari tibbi sığortaya (OMS) sahib olmaq üçün isə miqrantların Rusiyada qanuni işləmə müddəti 5 ildir. Bu, ilk beş il ərzində miqrantların yalnız pullu tibbi xidmətlərdən və ya könüllü sığortadan istifadə etməsi deməkdir. Ağır fiziki əmək, istehsalat riskləri və qeyri-sabit yaşayış şəraiti fonunda tibbi xidmətin əlçatan olmaması miqrantların sağlamlığını uzunmüddətli risk altına qoyur. Azərbaycanlı miqrantların əksəriyyəti ailəsini ölkədə saxladığı üçün öz sağlamlığını ikinci plana keçirir, xəstəlikləri gizlədir və tibbi yardımdan imtina edir. Bu, həm fərdi, həm də ictimai səviyyədə təhlükələr yaradır.

Yeni ildən tətbiq olunan ən həssas yeniliklərdən biri regional kvotalara görə işdən çıxarılmanın qanuniləşdirilməsidir. Sərnişin və yük daşımaları sahəsində miqrantların payı işçilərin ümumi sayının 24 faizindən artıq ola bilməz. Tikinti sektorunda xarici işçilərin sayı əvvəlki 80 faiz əvəzinə 50 faizlə məhdudlaşdırılıb. Kənd təsərrüfatı və meşə təsərrüfatında isə bu göstərici 50 faizdən 40 faizə endirilib. Bundan başqa, Moskva istisna olmaqla, miqrantlara spirtli içkilər və tütün məmulatlarının satışı qadağan edilir. Oxşar qadağa artıq dərman satışları, qeyri-stasionar pərakəndə satış məntəqələri və bazarlar üçün də qüvvədədir.



Əgər müəssisədə xarici vətəndaşların sayı icazə verilən həddi aşarsa, işəgötürən onları işdən azad etməlidir, əks halda, cərimə ilə üzləşəcək. Beləliklə, martın 1-dən etibarən işəgötürənlər kvotalara riayət etmək məqsədilə miqrantları işdən çıxara biləcəklər. Bu addım işəgötürənləri hüquqi məsuliyyətdən qorusa da, miqrantların "müvəqqəti işçi" statusunu dəyişdirmir. Artıq sənədlərin qaydasında olması, əmək intizamı və peşəkarlıq iş yerinin qorunmasına zəmanət vermir. Bir regionda qəbul edilən inzibati qərar miqrantı birdən-birə işsiz və gəlirsiz qoya bilər. Bu vəziyyət xüsusilə ailəsini dolandırmaq üçün Rusiyada çalışan azərbaycanlılar üçün ciddi sosial təhlükə yaradır. Hazırda Rusiyada 10 minlərlə Azərbaycan vətəndaşı rəsmi əmək fəaliyyəti ilə məşğuldur. Qanunun qüvvəyə minməsi azərbaycanlı ailələr üçün yalnız sosial deyil, həm də psixoloji və humanitar çətinliklər yaradacağı şübhəsizdir. Çünki bir çox ailələr uzun illərdir Rusiyada birgə yaşayır, uşaqlar orada orta məktəbə gedir, şəxsi həyatlarını həmin ölkədə qurublar. Lakin yeni hüquqi çərçivə bu nizamı pozacaq.

Miqrant uşaqları da yeni qaydaların təsir dairəsindədir. Yanvarın 28-dən tətbiq olunacaq yeni məlumat mübadiləsi mexanizmi çərçivəsində Daxili İşlər Nazirliyi və ümumtəhsil müəssisələri arasında daimi məlumat mübadiləsi aparılacaq. Məqsəd faktiki yaşayan, lakin təhsildən kənarda qalan miqrant uşaqlarının sayını müəyyən etməkdir. Lakin sistem valideynlərin miqrasiya statusunda problemləri olan uşaqlar üçün əlavə inzibati maneələr yaradır. Bəli, bu gün azərbaycanlı miqrant ailələrinin bir hissəsi uşaqlarını Rusiyada saxlayaraq yerli məktəblərə göndərməyə çalışır. Lakin dil baryeri, adaptasiya problemləri, sosial ayrı-seçkilik və valideynlərin hüquqi statusunun qeyri-müəyyənliyi uşaqların tam inteqrasiyasına mane olur. Ailələrin daimi köç riski uşaqların psixoloji vəziyyətinə və gələcək inkişafına mənfi təsir göstərir. Təhsil hüququ kağız üzərində mövcud olsa da, faktiki olaraq, davamlılıq və keyfiyyət təmin olunmur, nəticədə miqrant ailələrinin sosial təcridi daha da dərinləşir.

Rus dili testlərinin tətbiqi uşaqların məktəbə davamlılığını çətinləşdirir. 2025-ci ildə 30 mindən çox əcnəbi uşaq məktəbə qəbul üçün müraciət etsə də, onların yalnız 12,6 faizi testdən uğurla keçib. Nəticədə bu ölkədə miqrant ailələrinin uşaqları həm sosial, həm də təhsil baxımından təcridə məruz qalırlar.

Bu baxımdan valideynlərin miqrasiya statusunun qaydasında olması, uşaqların vaxtında məktəbə cəlb edilməsi və dil biliklərinin artırılması əvvəlkindən daha çox əhəmiyyət kəsb edir. Yeni mexanizm miqrant uşaqlarının təhsil hüququnun qorunması ilə dövlət nəzarəti arasında balansın necə qurulacağını yaxın dövrün əsas müzakirə mövzularından birinə çevirir.



Mövzu ilə bağlı **iqtisadçı Mahir Zeynalov** XQ-yə bildirdi ki, bütün bu proseslər Rusiyanın miqrasiya siyasətində yeni mərhələyə keçidini göstərir: "Dövlət prioriteti artıq miqrant əməyinin sosial inteqrasiyası deyil, onun sərt nəzarət altında saxlanılması və iqtisadi cəhətdən daha "bahalı" hala gətirilməsidir. Bu yanaşma qısamüddətli dövrdə regional büdcələrə gəlir gətirsə də, uzunmüddətli perspektivdə sosial gərginlik, qeyri-leqal məşğulluq və miqrant icmalarının təcridi kimi problemləri dərinləşdirəcək.

Ümumilikdə yeni qaydalar Rusiyanın miqrasiya siyasətində prioritetlərin dəyişdiyini açıq göstərir. Bu, ucuz və çevik miqrant əməyindən tədricən imtina, sosial yükün miqrantların üzərinə keçirilməsi və regionların fiskal maraqlarının ön plana çəkilməsidir. Bu proses miqrant ixrac edən ölkələr üçün də mühüm mesajdır. Miqrantların hüquqi maarifləndirilməsi, onların alternativ məşğulluq imkanlarına yönləndirilməsi və geridönüş üçün iqtisadi mexanizmlərin gücləndirilməsi artıq zərurətdir".

Beləliklə, 2026-cı ildən etibarən Rusiyada əmək miqrantının statusu əvvəlkindən daha baha, daha kövrək və daha qeyri-müəyyən olacaq.

***P.ƏFƏNDİYEV***
***XQ***

# Gürcüstan balanslı siyasətlə manevr imkanı qazanır

**ABŞ-ın 2025-ci il üçün açıqladığı yeni Milli Təhlükəsizlik Strategiyası Gürcüstanın həm xarici, həm də daxili siyasətində əhəmiyyətli dönüş nöqtəsi yaradır. Sənəd Tbilisiyə milli maraqlarını ön planda tutaraq strateji qərarlar qəbul etmək və geosiyasi manevr imkanlarını genişləndirmək üçün yeni perspektivlər təqdim edir. ABŞ-ın mövqeyi, faktiki olaraq, Gürcüstanın Avro-Atlantik inteqrasiyaya yönələn siyasətini yenidən nəzərdən keçirməyə məcbur edir, eyni zamanda, ölkəyə daha sərbəst və çevik manevr imkanları yaradır. Bu vəziyyət Tbilisiyə yalnız xarici siyasətdə deyil, daxili idarəetmədə də strateji üstünlük təmin edir və milli maraqların qorunmasını gücləndirir.**



Xarici siyasət baxımından, yeni strategiya NATO-nun Şərqə genişlənmə prosesinə faktiki dəstəyin azaldığını ortaya qoyur. Bu, Gürcüstanın Avro-Atlantik inteqrasiya perspektivlərini qeyri-müəyyən vəziyyətə gətirir. Qeyri-müəyyənlik, eyni zamanda, Tbilisiyə daha sərbəst manevr imkanları təqdim edir. ABŞ-ın mövqeyi, Brüsselin sərt tənqidlərinə baxmayaraq, Tbilisiyə milli maraqlar əsasında müstəqil qərarlar qəbul etmək üçün əlavə arqumentlər verir. Baş nazir İrakli Kobaxidze NATO-nun "açıq qapılar" siyasətini qeyri-müəyyən adlandıraraq Alyansın perspektivini şübhə altına alıb. O, keçmiş Gürcüstan prezidenti Eduard Şevardnadzenin sözlərini xatırladıb: "Bizi çox uzun müddət açıq qapıda saxlamayın, çünki layihədə soyuqdəymə tutmaq asandır".

Rusiya ilə münasibətlər də yeni formatda dəyişir. Moskva Gürcüstanı Cənubi Qafqazda strateji tərəfdaş kimi qəbul edir və 2008-ci il hadisələrindən sonra ön plana çıxan şərtləri, o cümlədən Abxaziya və Cənubi Osetiyanın tanınması tələblərini önə çıxarmır. Bu, Tbilisinin Rusiya ilə balanslı və pragmatik əməkdaşlıq aparmasına şərait yaradır və ölkənin regional tranzit layihələrindən faydalanmasına imkan verir. ABŞ və Rusiya arasında formalaşan yeni geosiyasi balans Gürcüstanın həm ticarət, həm də təhlükəsizlik sahələrində sərbəst qərarlar qəbul etməsinə zəmin yaradır. Eyni zamanda, 2008-ci il hadisələrinə görə Gürcüstana ödənilməmiş kompensasiyaların tələbini hüquqi çərçivədə irəli sürmək imkanı da yaranır ki, bu da strateji baxımdan ölkənin mövqeyini gücləndirir.

Avropa İttifaqı (Aİ) ilə münasibətlər isə Gürcüstanın avrointeqrasiya prosesində müəyyən çətinliklər yaradır. Aİ-nin hesabatlarında Gürcüstan hakimiyyətinin namizəd ölkədən gözlənilən standartlara uyğun olmadığı vurğulanır. Buna baxmayaraq, ölkə deputatları və ekspertlər sənədlərin qərəzli olduğunu və Ukrayna və Moldova üçün eyni standartların tətbiq edilmədiyini qeyd edirlər. "Gürcüstana qarşı açıq qapı siyasəti layihə siyasətinə çevrildi və Avropaya inteqrasiya məsələsi yalnız ölkəmizə qarşı şantaj vasitəsi kimi istifadə edildi. Biz Ukrayna, Moldova, Bosniya və bütün digər namizədlərdən irəlidəyik, amma bizə münasibət tamamilə fərqlidir",– Kobaxidze qeyd edib. Avrointeqrasiya komitəsinin sədri Levan Maxaşvili isə Avropa Komissiyasının sənədləri siyasi təzyiq aləti kimi istifadə etdiyini bildirir. Gürcüstan isə milli maraqlarını ön planda saxlayaraq vizasız rejimlə bağlı təzyiqləri siyasi müdaxilə kimi qiymətləndirir. Bu yanaşma, həmçinin Rusiya ilə konfrontasiya səviyyəsini artırmaq və ölkəni müəyyən hərbi risklərlə üz-üzə qoymaq cəhdlərinə qarşı strateji cavab kimi də qiymətləndirilir.

Daxili siyasət baxımından, strategiya hökumətə milli maraqları qorumaqda, daxili stabilliyi təmin etməkdə və hüquq-mühafizə orqanlarının fəaliyyətini gücləndirməkdə əlavə dəstək təqdim edir. 2024-cü il parlament seçkilərindən sonra Tbilisidə baş verən etiraz aksiyalarına dair yayılan məlumatların dezinformasiya xarakterli olduğu, Dövlət Təhlükəsizlik Xidməti (DTX) və Daxili İşlər Nazirliyinin araşdırmaları ilə təsdiqlənib. Onu da qeyd edək ki, strateji manevr imkanlarının genişlənməsi Tbilisiyə regional tranzit və ticarət layihələrindən maksimum dərəcədə faydalanmaq imkanı verir. Gürcüstan Cənubi Qafqazda yalnız siyasət yürüdən deyil, həm də iqtisadi və təhlükəsizlik sahələrində mühüm oyunçu kimi çıxış edir. ABŞ-ın dəstəyi, Rusiyanın balanslı yanaşması və Aİ ilə mövcud çətinliklərin idarə olunması Gürcüstanın regional və qlobal siyasətdə çevik, pragmatik və müstəqil mövqe tutmasına şərait yaradır. Bu, ölkənin həm strateji, həm də iqtisadi üstünlüyünü möhkəmləndirir.

Şübhəsiz, milli maraqların qorunması və hüquq-mühafizə orqanlarının gücləndirilməsi yalnız daxili siyasət üçün deyil, xarici siyasət üçün də önəm daşıyır. Hökumətin daxili sabitliyi təmin etməsi, hüquq-mühafizə sisteminin beynəlxalq standartlara uyğun fəaliyyət göstərməsi və dezinformasiyaların qarşısının alınması Gürcüstanın diplomatik manevr qabiliyyətini artırır. Bu, Tbilisinin həm Aİ, həm də ABŞ-la münasibətlərdə strateji üstünlük əldə etməsinə şərait yaradır, eyni zamanda, Rusiya ilə balanslı əməkdaşlıq imkanlarını genişləndirir.

Beləliklə, ABŞ-ın yeni strategiyası Gürcüstana yalnız siyasət yürütmək deyil, həm də iqtisadi, tranzit və təhlükəsizlik sahələrində sərbəst qərarlar qəbul etmək imkanı verir. Bu vəziyyət Tbilisini Cənubi Qafqazın etibarlı və strateji oyunçusuna çevirir, ölkənin həm daxili, həm də xarici siyasətində milli maraqların qorunmasını təmin edir. Bununla bağlı **gürcüstanlı politoloq Bəhram Mehdiyev** XQ-yə bildirdi ki, Gür-



cüstan hökuməti ölkənin hüquq-mühafizə sisteminə güvənir və əsassız ittihamlara qarşı prinsipial mövqe tutur: "ABŞ, Rusiya və Avropa arasında formalaşan balans ölkəyə strateji üstünlük, regional təsir və geosiyasi manevr imkanları verir. Bu, Tbilisinin regional əməkdaşlıq layihələrində, ticarət və tranzit sahələrində rolunu artırmaqla yanaşı, beynəlxalq aləmdə müstəqil və çevik mövqe tutmasına şərait yaradır. Hökumət milli maraqları qoruyur, daxili sabitliyi təmin edir və hüquq-mühafizə sistemi beynəlxalq standartlara uyğun fəaliyyət göstərir. Eyni zamanda, Avropa İttifaqının siyasi təzyiqləri və vizasız rejimlə bağlı çağırışlar Gürcüstanın milli maraqlar əsasında sərbəst qərarlar qəbul etməsinə səbəb olur. Bu vəziyyət ölkənin strateji çevikliyini artırmaqla yanaşı, Avrointeqrasiya prosesində müəyyən çətinliklərin idarə olunmasını təmin edir. Aİ sənədləri qərəzlidir və siyasi təzyiq aləti kimi istifadə edilir. Ammai hakimiyyət ölkənin milli maraqlarını ön planda saxlayır".

Politoloq daha sonra dedi ki, Rusiya ilə normallaşma perspektivləri Gürcüstan üçün əlavə strateji üstünlüklər yaradır: "Moskva ilə balanslı əməkdaşlıq tranzit, ticarət və regional layihələrdə iştirak imkanlarını artırır. Bu da ölkəmizə geosiyasi manevr və strateji üstünlük verir. ABŞ-ın dəstəyi isə Tbilisinin milli maraqlar əsasında müstəqil qərarlar qəbul etməsinə imkan yaradır və Avropa ilə münasibətlərdə əlavə arqument təqdim edir".

Ümumilikdə, ABŞ-ın 2025-ci il üçün açıqladığı Milli Təhlükəsizlik Strategiyası Gürcüstanın həm xarici, həm də daxili siyasətində əhəmiyyətli dönüş nöqtəsi rolunu oynayır. Strategiya ölkəyə çevik, müstəqil və strateji mövqe tutmaq imkanları verir, milli maraqları qoruyur, daxili stabilliyi təmin edir və regional tranzit, ticarət və əməkdaşlıq imkanlarını genişləndirir. Gürcüstan həm ABŞ, həm Rusiya, həm də Avropa İttifaqı ilə münasibətlərdə strateji üstünlük əldə edir, milli maraqlarını ön planda saxlayaraq regional və qlobal siyasətdə müstəqil mövqe ortaya qoyur. Bu, ölkənin uzunmüddətli geosiyasi əhəmiyyətini möhkəmləndirir və Tbilisiyə strateji manevr imkanlarını artırmaqla yanaşı, milli maraqların qorunmasını təmin edir.

***Ə.PÜNHAN***
***XQ***

*Keçən ilə yeni ildən baxış*

# "Konstitusiya və Suverenlik İli" Azərbaycan dövlətçiliyinin konseptual mərhələsi oldu

**Müasir dövlət idarəçiliyində siyasi qərarların effektivliyi təkcə normativ aktların mövcudluğu ilə deyil, onların cəmiyyət tərəfindən necə qavranılması, hansı ideoloji və dəyər çərçivəsində təqdim olunması ilə də müəyyən edilir. Bu baxımdan Prezidentin sərəncamı ilə ayrı-ayrı illərin konkret sahələrə və ya anlayışlara həsr edilməsi praktikası Azərbaycan Respublikasında artıq təsadüfi siyasi jestdən çox, institusional fəaliyyətin koordinasiyası və ictimai şüurun istiqamətləndirilməsi baxımından kompleks hüquqi-siyasi mexanizm kimi formalaşmışdır.**




## "Tematik illər" ənənəsinin hüquqi-siyasi mahiyyəti

Siyasi və ideoloji funksiyasına gəldikdə, bu model dövlətin prioritetlərini ictimai şüura kodlaşdırır, cəmiyyətdə vahid dəyər diskursu yaradır, siyasi legitimliyi tarixi və hüquqi arqumentlərlə möhkəmləndirir, eyni zamanda, dövlətin ideoloji kommunikasiya mexanizmi kimi çıxış edir. Məsələn, "Multikulturalizm ili", "İslam Həmrəyliyi ili", "Şuşa ili" və "Heydər Əliyev ili" kimi qərarlar hüquqi mətn olmaqla yanaşı, cəmiyyət üçün dəyər yönümlü mesajlar daşıyır. Beləliklə, hüquq və ideologiya arasında qarşılıqlı əlaqə yaranır və dövlət siyasəti normativ çərçivədən çıxaraq konseptual idarəetmə modelinə çevrilir.

Yola saldığımız "Konstitusiya və Suverenlik İli"nin elmi-siyasi mahiyyəti yalnız hüquqi nizamın bərpası ilə məhdudlaşmır. Bu il, eyni zamanda, Azərbaycanın xarici siyasət, iqtisadi inkişaf və beynəlxalq mövqelərinin keyfiyyətcə yeni mərhələyə keçdiyi tranzit dövrü kimi xarakterizə olunur. Dövlət suverenliyi burada real siyasi, iqtisadi və diplomatik fəaliyyətin nəticəsi kimi təzahür edir.

## Konstitusiya və real dövlət suverenliyi

Azərbaycan Respublikasının 1995-ci il tarixli Konstitusiyası dövlətin suverenliyini və ərazi bütövlüyünü aydın şəkildə təsbit etsə də, uzun müddət bu normaların bütün ölkə ərazisində tam tətbiqi mümkün olmamışdır. Bu mərhələdə konstitusion suverenlik hüquqi ideal kimi mövcud idi. Beynəlxalq hüquq Azərbaycanın ərazi bütövlüyünü tanıyırdı, lakin faktiki idarəetmə reallığı bu tanınma ilə üst-üstə düşmürdü.

2020-ci ildə baş vermiş hərbi-siyasi hadisələr və onların nəticələri bu ziddiyyəti aradan qaldırdı. Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasında (Nyu-York, 24 sentyabr 2020-ci il) səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi!" bəyanatı yalnız siyasi ritorika deyil, Konstitusiyada təsbit olunmuş ərazi bütövlüyü prinsipinin beynəlxalq hüquqi müstəvidə qəti və açıq ifadəsi idi. Bu çıxış konstitusion normanın faktiki siyasi fəaliyyətə çevrilməsinin başlanğıc nöqtəsi kimi çıxış etdi.

Beləliklə, Azərbaycan dövlətçiliyində normativ suverenlik mərhələsindən funksional suverenlik mərhələsinə keçid baş verdi. Dövlət hakimiyyəti öz yurisdiksiyasını bütün ölkə ərazisində real şəkildə bərpa etdi, konstitusion normalar faktiki idarəetmə alətinə çevrildi. Bu proses "Konstitusiya və Suverenlik İli" çərçivəsində hüquqi baxımdan yekunlaşdırıldı və suverenliyin artıq yalnız tanınan deyil, reallaşdırılan anlayış olduğunu təsdiqlədi.

## Vaşinqton görüşləri: sülh, strateji tərəfdaşlıq və yeni siyasi legitimlik müstəvisi

Müasir beynəlxalq münasibətlər sistemində suverenlik yalnız daxili hüquqi aktlarla deyil, eyni zamanda, beynəlxalq tanınma, legitimlik və müqavilə öhdəlikləri ilə möhkəmləndirilir. Postmünaqişə mərhələsində Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti bu baxımdan konstitusion suverenliyin beynəlxalq müstəvidə təsdiqi kimi çıxış edir.

Ötən 2025-ci il xarici siyasət müstəvisində Azərbaycan balanslaşdırılmış və prinsipial xəttini qoruyaraq, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirmişdir. ABŞ, Avropa İttifaqı, Rusiya, Çin, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı ilə paralel və qarşılıqlı maraqlara əsaslanan əlaqələr Azərbaycanın müstəqil və çoxvektorlu xarici siyasət kursunun praktik təsdiqidir.

Prezident İlham Əliyevin ABŞ Prezidentinin dəvəti ilə Vaşinqtona işgüzar səfəri (7 avqust 2025) bir neçə paralel xətt üzrə dəyərləndirilə bilər: dövlətlərarası siyasi dialoq; enerji–iqtisadi əməkdaşlıq; regional təhlükəsizlik və normallaşma gündəliyi. Rəsmi məlumatda səfərin məhz ABŞ Prezidentinin dəvəti ilə baş tutması, səfərin dövlət protokolu baxımından yüksək səviyyəsini göstərir.

Dövlət başçısının Vaşinqtonda keçirdiyi yüksək səviyyəli görüşlər Azərbaycanın postmünaqişə dövründə beynəlxalq münasibətlərdə tutduğu mövqenin keyfiyyətcə dəyişdiyini nümayiş etdirməklə qalmamış, regional təhlükəsizlik, enerji və nəqliyyat layihələrində əsas aktor kimi qəbul edildiyini göstərmişdir. Bu görüşlər Azərbaycanın artıq regional problemlərin müzakirə obyekti deyil, regional və qlobal gündəliyin formalaşmasında iştirak edən və hətta bəzən "oyun qaydalarını" müəyyənləşdirən siyasi aktor olduğunu bir daha bəyan edir.

Ermənistanla sülhyaratma prosesində Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı "Sülh yalnız qarşılıqlı suverenliyin və ərazi bütövlüyünün tanınması əsasında mümkündür" mövqeyi danışıqların hüquqi çərçivəsini aydın şəkildə müəyyən etmişdir. Belə bir yanaşma beynəlxalq hüququn əsas prinsipləri ilə – dövlətlərin suveren bərabərliyi, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmama prinsipləri ilə tam uzlaşmaqla sülhü siyasi kompromis kimi deyil, konstitusion və beynəlxalq hüquqa əsaslanan normativ proses kimi təqdim edir. Bu, Azərbaycanın sülh təşəbbüslərinin taktiki deyil, strateji və normativ xarakter daşıdığını göstərir.

Vaşinqton görüşləri eyni zamanda, Azərbaycanın enerji təhlükəsizliyi, nəqliyyat-logistika dəhlizləri və regional sabitlik məsələlərində etibarlı tərəfdaş kimi qəbul edildiyini təsdiqləmişdir. Bu amil suverenliyin yalnız hüquqi deyil, geosiyasi və iqtisadi ölçülərə malik olduğunu sübut edir.

Əgər Vaşinqton diplomatik xəttinin bir cinahını sülh gündəliyinin institusional çərçivəsi təşkil edirdisə, ikincisini ABŞ–Azərbaycan strateji dialoqunun yeni formatının təşkil etdiyini söyləmək mümkündür. Həmin günlərdə Vaşinqtonda ABŞ–Azərbaycan strateji işçi qrupu mexanizmi formalaşdı. Birincisi, 2025-ci il avqustun 8-də Azərbaycan Prezidenti, Ermənistanın Baş naziri və ABŞ Prezidentinin iştirakı ilə görüşün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması, sülh prosesinin "epizodik diplomatiya"dan çıxıb mətn, prosedur və beynəlxalq müşahidə müstəvisinə keçirilməsi kimi qəbul edilir. Bəyannamədə sülh sazişinin razılaşdırılmış mətninin paraflanmasına şahidlik, sonda imzalanma və ratifikasiya üçün əlavə addımların davam etdirilməsi, eləcə də regional kommunikasiya xəttinin açılması kimi müddəalar sülhün "niyyət" deyil, hüquqi nəticə doğuran proses kimi təqdim edildiyini göstərir.

İkincisi, həmin günlərdə Vaşinqtonda ABŞ–Azərbaycan strateji işçi qrupu mexanizmi formalaşdı. 29 avqust 2025-ci il tarixli mətnləşdirilmiş Anlaşma Memorandumu bu mexanizmin "nəyə xidmət etdiyini" açıq ifadə edir: Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün işçi qrupun yaradılması və əsas fokusun üç blokda cəmlənməsi – enerji-ticarət-tranzit və regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayələr, təhlükəsizlik əməkdaşlığı. Bu, "Konstitusiya və Suverenlik" konseptini beynəlxalq tərəfdaşlıq dilində belə tərcümə edir: suverenlik = bağlantı + enerji + təhlükəsizlik + texnoloji dayanıqlılıq.

Nəticə etibarilə, Vaşinqton xətti "Konstitusiya və Suverenlik İli"nin beynəlxalq ölçüsünü gücləndirdi.

## Türk dünyası platforması və suverenliyin sivillik ölçüsü

Qloballaşma, regional inteqrasiya prosesləri və çoxtərəfli platformaların artan rolu dövlətləri suverenlik və əməkdaşlıq arasında tarazlıq axtarışına sövq edir. Bu baxımdan Azərbaycan Respublikasının Türk dünyası ilə əlaqələri çərçivəsində formalaşdırdığı siyasət suverenliyin sivilizasion ölçüsünü üzə çıxaran mühüm model kimi qiymətləndirilə bilər.

Azərbaycanın Türk Dövlətləri Təşkilatı çərçivəsində fəallığı klassik siyasi və ya hərbi ittifaq məntiqinə əsaslanmır. Burada söhbət ortaq tarixi-mədəni yaddaş, dil birliyi və sivilizasion yaxınlıq əsasında qurulan əməkdaşlıq platformasından gedir. Bu əməkdaşlıq modelində suverenlik zəifləyən yox, əksinə, möhkəmlənən kateqoriya kimi çıxış edir.

Prezident İlham Əliyevin hələ 2024-cü ildə Türk Dövlətləri Təşkilatının zirvə görüşlərində səsləndirdiyi "Türk dünyasının gücü suveren dövlətlərin həmrəyliyindədir" fikri suverenlik anlayışının yalnız milli deyil, regional-sivilizasion dəyər kimi təqdim olunduğuna ismarışdır. Bu tezis göstərir ki, Azərbaycan üçün inteqrasiya milli suverenliyin alternativi deyil, onun genişlənmiş təsir mühitidir.

Klassik suverenlik modeli əsasən ərazi, sərhəd və siyasi hakimiyyət üzərində qurulursa, sivilizasion ölçü mədəni özünüdərk, tarixi davamlılıq və kollektiv identiklik elementlərini ön plana çıxarır. Azərbaycan bu iki ölçünü qarşı-qarşıya qoymur, əksinə, onları tamamlayan komponentlər kimi təqdim edir.

Bu yanaşma suverenliyin təcrid olunma deyil, qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq üzərində qurulduğunu sübut edir. Azərbaycan bu platformada təşəbbüskar rol oynayaraq Türk dünyasında siyasi dialoq, iqtisadi əməkdaşlıq, nəqliyyat və enerji layihələrinin koordinasiyası istiqamətində mühüm addımlar atmışdır.

Xüsusilə postmünaqişə dövründə Türk dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstək sivilizasiya həmrəyliyin praktiki ifadəsi kimi çıxış etmişdir. Bu dəstək təkcə siyasi bəyanatlarla məhdudlaşmamış, beynəlxalq platformalarda Azərbaycanın mövqeyinin güclənməsinə real töhfə vermişdir.

Beləliklə, Azərbaycan modeli göstərir ki, postmünaqişə dövründə regional birliklər dövlət suverenliyini zəiflətmir, əksinə onu kollektiv legitimlik və strateji dərinliklə gücləndirir. Türk dünyası kontekstində bu, yalnız siyasi deyil, eyni zamanda, mədəni və tarixi bağlılıq əsasında formalaşan sivilizasion platformadır. "Konstitusiya və Suverenlik İli" çərçivəsində bu siyasət Azərbaycanın dövlətçilik modelinin regional deyil, sivilizasion miqyasda aktuallıq qazandığını göstərdi.

## "Konstitusiya və Suverenlik İli"ndə Azərbaycanın beynəlxalq nüfuzu

"Konstitusiya və Suverenlik İli"nin məzmunu və siyasi-fəlsəfi mahiyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin sistemli təhlili olmadan tam şəkildə açıla bilməz. Çünki 2025-ci il təkcə institusional proseslərin məcmusu deyil, mərkəzində Prezidentin siyasi iradəsinin, əzm və qətiyyətinin, müzəffər sərkərdə və lider şücaətinin dayandığı dövlətçilik mərhələsidir.

Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik ili" çərçivəsindəki fəaliyyəti, ilk növbədə, konstitusion suverenliyin praktik təminatı ilə səciyyələnir. Dövlət başçısının rəhbərliyi ilə Konstitusiyanın bütün ölkə ərazisində real icrası, dövlət hakimiyyətinin vahidliyi və hüquqi nəzarət mexanizmlərinin işlək vəziyyətə gətirilməsi suverenliyin artıq hüquqi prinsip yox, faktiki dövlət vəziyyəti olduğunu göstərdi. Bu mərhələdə Prezident institusional sabitliklə strateji idarəetməni uzlaşdıran əsas siyasi fiqur kimi çıxış edir.

Xarici siyasət müstəvisində Prezident İlham Əliyevin fəaliyyəti, qeyd etdiyimiz kimi, Azərbaycanın beynəlxalq münasibətlərdə müstəqil və prinsipial aktor kimi mövqeyini daha da möhkəmləndirmişdir. ABŞ, Avropa İttifaqı, Rusiya, Çin, İslam dünyası və Türk dövlətləri ilə paralel və balanslaşdırılmış siyasi dialoq Azərbaycanın suveren xarici siyasət modelinin yetkin mərhələyə daxil olduğunu göstərdi. Xüsusilə Ermənistanla sülhyaratma prosesində Prezidentin hüquqa əsaslanan mövqeyi Azərbaycanın regional liderlik iddiasını deyil, regional məsuliyyət daşıyan dövlət statusunu ön plana çıxarmışdır.

Region miqyasında Azərbaycan artıq yalnız geosiyasi obyekt deyil, regional siyasi və iqtisadi arxitekturanın formalaşmasında iştirak edən subyekt kimi çıxış etməyə başlamışdır. Cənubi Qafqazda təhlükəsizlik, nəqliyyat və enerji gündəliyinin təşəbbüskarı kimi Prezident İlham Əliyev Azərbaycanın mövqeyini uzunmüddətli sabitlik konsepsiyası üzərində qurmuşdur. Bu, suverenliyin yalnız müdafiə deyil, yaradıcı və konstruktiv siyasi kateqoriya olduğunu nümayiş etdirir.

MDB məkanında Azərbaycanın nüfuzu isə xüsusilə diqqətəlayiqdir. Postsovet dövlətləri arasında Azərbaycan nadir nümunədir ki, ərazi bütövlüyünü bərpa etdikdən sonra suverenliyini revizionist deyil, hüquqa əsaslanan model üzərindən möhkəmləndirmişdir. İlham Əliyevin liderliyi ilə Azərbaycan güc tətbiqindən sonra belə hüquqi çərçivəyə qayıdan və regionda sabitliyi təşviq edən dövlət kimi qəbul olunur.

Beynəlxalq miqyasda isə Azərbaycan Prezidentinin fəaliyyəti ölkəni enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları və sülh diplomatiyası sahəsində etibarlı tərəfdaş statusuna yüksəltmişdir. Avropa enerji bazarındakı rolu, qlobal logistika marşrutlarındakı mövqeyi və çoxtərəfli diplomatik platformalarda tutduğu prinsipial xətt Azərbaycanın suverenliyinin beynəlxalq legitimliyini daha da möhkəmləndirmişdir.

Əldə edilmiş siyasi, hüquqi və beynəlxalq uğurların mühüm mənbələrindən biri də Azərbaycan cəmiyyətində formalaşmış xalq–dövlət–lider etimad üçbucağıdır. Dövlətçilik təcrübəsi göstərir ki, konstitusion suverenliyin real həyata keçməsi yalnız hüquqi mexanizmlərlə deyil, eyni zamanda, xalqın dövlətə və ali siyasi rəhbərliyə olan inamı ilə mümkün olur. Prezident İlham Əliyevin siyasi kursunun cəmiyyət tərəfindən qəbul edilməsi, onun qərarlarının milli iradənin ifadəsi kimi dərk olunması dövlət suverenliyinə daxili legitimlik qazandırmışdır. Bu legitimlik isə Azərbaycanın həm müharibə, həm də postmünaqişə mərhələsində vahid siyasi iradə ilə hərəkət etməsini təmin etmiş, ölkənin beynəlxalq nüfuzunun möhkəmlənməsində həlledici rol oynamışdır. Dövlət başçısının "Konstitusiya və Suverenlik ili"ndəki fəaliyyəti Azərbaycan dövlətçiliyinin siyasi iradə, hüquqi əsas və beynəlxalq legitimlik vəhdətində inkişafını nümayiş etdirmişdir.

## Xalq–dövlət–lider etimad üçbucağı

"Konstitusiya və Suverenlik İli"nin siyasi-fəlsəfi mahiyyətini Prezident İlham Əliyevin fəaliyyəti və cəmiyyətdə formalaşmış xalq–dövlət–lider etimad münasibətləri kontekstindən kənarda təhlil etmək mümkün deyil. Bu mənada, 2025-ci ili təkcə hüquqi və institusional hadisələrin məcmusu deyil, liderlik, legitimlik və milli iradənin institusionallaşdığı mərhələ kimi səciyyələndirə bilərik.

Azərbaycan kontekstində bu, təbiri caizsə, həndəsi fiqurun özəlliyini araşdırmağa çalışaq. Keçdiyimiz müstəqillik yolunun təcrübəsi göstərir ki, Azərbaycan təcrübəsində xalq – suverenliyin mənbəyi; dövlət – suverenliyin institusional forması; Prezident İlham Əliyev – suveren iradənin siyasi daşıyıcısı kimi çıxış edir. Bu, siyasi-hüquqi təlimlər nəzəriyyəsindəki klassik "lider mərkəzli" modeldən fərqlənir. Belə ki, Azərbaycan nümunəsində lider xalqdan ayrı deyil, dövlət xalqdan uzaq mexanizm deyil və siyasi iradə etibar üzərində qurulub. Elə məhz buna görə də 44 günlük II Vətən savaşında, postmünaqişə mərhələsində, eləcə də sülh və bərpa proseslərində dövlət qərarları kütləvi ictimai müqavimətlə yox, kütləvi ictimai dəstəklə müşayiət olundu.

Xankəndi şəhərindəki çıxışında Prezidentin "verdiyi vədlərin icra edilməsi" xəttini bir "liderlik hesabatı" kimi səciyyələndirmək mümkündür. Bu, siyasi liderliyin legitimlik mexanizmini aydın göstərir: liderlik yalnız iradə deyil, nəticə ilə ölçülən ictimai müqavilədir.

Yenə də bəhsi gedən üçbucağın sosial-psixoloji laylarına nüfuz edərək söyləməliyik ki, onun əsas meyarı inam və etibardır. Belə ki, əgər suverenliyin hüquqi sütunu Konstitusiyadırsa, suverenliyin sosial sütunu etimaddır, xalqın dövlət institutlarına inanması, dövlətin isə xalqın iradəsini dövlət siyasətinə çevirməsidir.

Prezident İlham Əliyevin qeyd etdiyimiz çıxışında "burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır" ideyası, suverenliyin yalnız "institusional güc" deyil, həm də "xalq enerjisi və razılığı" ilə möhkəmləndiyini göstərir.

Xalq–dövlət–lider münasibətləri Azərbaycan nümunəsində iyerarxik deyil, qarşılıqlı etimad üzərində qurulmuş funksional sistem kimi çıxış edir. Xalq dövlətin strateji məqsədlərini öz milli maraqlarının ifadəsi kimi qəbul edir, dövlət isə bu iradəni institusional mexanizmlər vasitəsilə həyata keçirir. Prezident İlham Əliyev isə həmin prosesdə xalqın siyasi iradəsini konstitusion və beynəlxalq müstəvidə təmsil edən əsas siyasi subyekt rolunu oynayır. Məhz bu etimad modeli sayəsində Azərbaycan həm müharibə, həm də postmünaqişə mərhələsində vahid siyasi iradə, ictimai səfərbərlik və strateji davamlılıq nümayiş etdirmişdir.

Dövlət başçısının ötən il ərzindəki fəaliyyəti konstitusion suverenliyin praktik təminatçısı kimi səciyyələnir. Konstitusiyanın bütün ölkə ərazisində real icrası, dövlət hakimiyyətinin vahidliyi, inzibati və hüquq-mühafizə institutlarının tam fəaliyyəti suverenliyin artıq deklarativ deyil, faktiki dövlət vəziyyəti olduğunu təsdiqləyir. Prezident bu prosesdə normativ hüquqla strateji idarəetmə arasında əlaqə yaradan əsas siyasi mərkəz rolunu oynayır.

Beləliklə, xalq–dövlət–lider etimad üçbucağı Azərbaycan dövlətçiliyinin müasir mərhələsində konstitusion suverenliyin mənəvi-siyasi dayağı kimi çıxış edir və əldə edilmiş nəticələrin təsadüfi deyil, sistemli və davamlı xarakter daşıdığını elmi baxımdan əsaslandırır.

Ötən ilin yekunları göstərdi ki, "Konstitusiya və Suverenlik İli" ölkənin siyasi-hüquqi inkişafında təqvim xarakterli təşəbbüs deyil, dövlətçilik konsepsiyasının yeni mərhələsini ifadə edən ideya-kateqorial çərçivədir, Azərbaycan dövlətçiliyi isə formal suverenlik mərhələsindən çıxaraq funksional, institusional və legitim suverenlik mərhələsinə daxil olmuşdur.

Konseptual baxımdan bu mərhələ üç əsas ölçüdə təhlil oluna bilər.

Birinci ölçü konstitusion reallıqdır. Azərbaycan Konstitusiyası ilk dəfə olaraq bütün ölkə ərazisində tam və fasiləsiz şəkildə icra olunan ali hüquqi akt statusu qazanmışdır. Bu fakt Konstitusiyanın normativ mətn olmaqdan çıxaraq real idarəetmə sənədinə çevrildiyini göstərir. Beləliklə, hüquqi dövlət prinsipi abstrakt ideya deyil, faktiki reallıq kimi təzahür edir.

İkinci ölçü siyasi suverenliyin institusionallaşmasıdır. Dövlət hakimiyyətinin bölünməzliyi, mərkəzləşdirilmiş idarəetmə, hüquq-mühafizə və inzibati institutların bütün ərazi üzrə fəaliyyəti suverenliyin yalnız elan edilmiş deyil, praktiki şəkildə təmin olunduğunu sübut edir. Prezidentin siyasi iradəsi bu prosesdə normativ hüquqla strateji idarəetmə arasında əlaqə yaradan əsas mexanizm kimi çıxış edir.

Üçüncü ölçü isə beynəlxalq və sivilizasion legitimlikdir. Azərbaycan "Konstitusiya və Suverenlik İli" çərçivəsində beynəlxalq münasibətlərdə subyekt statusunu daha da möhkəmləndirmiş, sülh quruculuğu, enerji təhlükəsizliyi və regional əməkdaşlıq sahələrində təşəbbüskar mövqe tutmuşdur.

Bu üç ölçünün vəhdəti Azərbaycan dövlətçiliyinin yeni konseptual modelini formalaşdırır. Bu modeli "postmünaqişə konstitusion suverenlik modeli" kimi xarakterizə etmək mümkündür. Sözügedən modelin əsas xüsusiyyəti ondan ibarətdir ki, burada: suverenlik hüquqi norma statusu almış, Konstitusiya siyasi reallıq kəsb etmiş, dövlətçilik isə institusional praktikaya çevrilmişdir.

2025-ci ildə Prezident İlham Əliyevin dövlətçilk fəaliyyəti aşağıdakı ideoloji-fəlsəfi xüsusiyyətlərlə xarakterizə oluna bilər: dövlətin tarixi subyekt kimi dərk edilməsi; zaman fəlsəfəsinə əsaslanan strateji səbir; qələbənin hüquqi və normativ legitimliyə çevrilməsi; inkişaf dövləti və məsuliyyətli kapitalizm ideologiyası; xarici siyasətdə suveren rasionalizm və nəhayət, siyasi millətə əsaslanan milli ideya.

Bu kontekstdə İlham Əliyevin liderliyi situativ siyasət yox, dövlətçilik fəlsəfəsinin praktiki reallaşması kimi qiymətləndirilə bilər.

Nəticə etibarilə, "Konstitusiya və Suverenlik İli" Azərbaycan tarixində yalnız bir mərhələ deyil, Prezident İlham Əliyevin liderliyi ilə formalaşmış yeni dövlətçilik paradiqmasının yekun ifadəsi kimi çıxış edir. Bu paradiqma Azərbaycanı regionda lider, MDB məkanında etibarlı tərəfdaş və beynəlxalq aləmdə suveren, məsuliyyətli və nüfuzlu dövlət kimi möhkəmləndirmişdir.

***Xalid NİYAZOV,***
***Əməkdar jurnalist,***
***siyasi elmlər doktoru***

# Avrozonada genişlənmənin gözləntiləri

## *Bu, Bakı–Sofiya tərəfdaşlığının siyasi çəkisini artırır*

**Avropa İttifaqının (Aİ) institusional inkişaf trayektoriyasında Avrozonanın genişlənməsi iqtisadi inteqrasiyadan daha çox, siyasi koordinasiyanın dərinləşdirilməsi mexanizmi kimi çıxış edir. Çünki avro pul vahidi Aİ-yə üzv dövlətlərin fiskal, monetar və qismən də siyasi qərarvermə proseslərini ortaq normativ çərçivəyə tabe edən struktur elementi kimi dəyərləndirilir. Təsadüfi deyil ki, bir sıra dövlətlər sözügedən istiqamətdə addımlar atırlar.**



Bu günlərdə Bolqarıstan Avropanın 21-ci Avrozonasına daxil oldu və milli valyutası levi avro ilə əvəzlədi. Bununla rəsmi Sofiya Aİ daxilində mövqeyini yenidən müəyyənləşdirməklə daha sıx inteqrasiya modelinə keçid etdi. Bununla Bolqarıstan Avropa institusional sisteminə uyğunlaşma iradəsini nümayiş etdirməklə yanaşı, milli suverenlik, daxili siyasi legitimlik və qərarvermə müstəqilliyi ilə bağlı mübahisələri aktuallaşdırdı. Proses Bolqarıstan timsalında Aİ daxilində mərkəzləşmə meyilləri ilə milli dövlətlərin siyasi muxtariyyəti arasındakı tarazlığın necə formalaşdığını analiz etmək üçün mühüm empirik baza yaradır.

Bir daha xatırladaq ki, avroya keçid Bolqarıstan üçün siyasi oriyentasiyanın rəsmi təsdiqi kimi dəyərləndirilir. Daha dəqiq desək, qərar rəsmi Sofiyanın Avropa layihəsinin "kənar perimetri"ndən çıxaraq qərarların qəbul olunduğu mərkəzi platformalara yaxınlaşmaq niyyətini ortaya qoyur. Uzun illər Avropa institutları tərəfindən islahatların yetərsizliyi, korrupsiya ilə mübarizənin zəifliyi və hüquqi mexanizmlərin kövrəkliyi səbəbilə tənqid edilən Bolqarıstan üçün Avrozonaya üzvlük bir növ siyasi etimad sınağından keçmək anlamı daşıyır. Lakin bu etimadın bir bədəli var. Avrozonaya daxil olmaq Bolqarıstanın monetar siyasət üzərində müstəqil qərarvermə imkanlarının əhəmiyyətli hissəsini itirməsi deməkdir. Bu isə ölkə daxilində siyasi narahatlıq doğurur. Çünki pul siyasəti dövlətin suverenliyinin əsas alətlərindən biridir. Levi avro ilə əvəzləmək dövlətin öz siyasi iradəsinin bir hissəsini kollektiv Avropa mexanizmlərinə təhvil vermək mənasına gəlir. Bu məqam Bolqarıstan daxilində siyasi qütbləşməni dərinləşdirir. Hakim dairələr avronu Avropa ailəsinə "tam mənsubiyyətin rəmzi" kimi təqdim etsə də, müxalif və avroskeptik qüvvələr bu addımı milli qərarvermə imkanlarının daraldılması kimi qələmə verirlər. Xüsusilə populist ritorikada avro Brüsselin suverenliyə müdaxiləsinin simvolu kimi göstərilir.

Əslində, Bolqarıstanın Avrozonaya daxil olması Avropa İttifaqı daxilində daha böyük siyasi sualın aktuallaşmasına səbəb olur. Maraqlıdır, ittifaq gələcəkdə federativ struktura doğru irəliləyəcək, yoxsa milli dövlətlərin siyasi muxtariyyətini qoruyan çevik model saxlanılacaq? Məsələyə geosiyasi aspektdən yanaşdıqda qərar daha aydın başa düşülür. Bolqarıstan Balkanlar və Qara dəniz regionunda strateji mövqeyə malik ölkədir və burada təsir uğrunda müxtəlif qlobal mərkəzlər arasında rəqabət mövcuddur. Avrozonaya üzvlük Sofiyanın digər ölkələrlə rəqabətdə mövqeyini Qərb siyasi blokuna bağladığını açıq şəkildə göstərir. Bu isə təhlükəsizlik və xarici siyasət kontekstində əhəmiyyətli mesajdır.

Yeni mərhələ regional tərəfdaşlığa da təsirsiz ötüşmür. Azərbaycan ilə Bolqarıstan arasında son illər formalaşan münasibətlər praqmatik və strateji xarakter daşıyır. Enerji sahəsində qurulan əməkdaşlıq fonunda iki ölkə arasında siyasi dialoq da sabit və qarşılıqlı hörmət üzərində inkişaf edib. Bolqarıstanın Aİ daxilində siyasi çəkisinin artması dialoqun Avropa platformalarında daha görünən hala gəlməsinə imkan yarada bilər. Avrozonaya üzvlük Bolqarıstanın Brüssel institutlarında təsir imkanlarını genişləndirdikcə, Sofiya Azərbaycanın Avropa ilə münasibətlərində daha funksional tərəfdaş rolunu oynaya bilər. Bu, xüsusilə regional təhlükəsizlik, enerji marşrutlarının siyasi təminatı və Avropa–Cənubi Qafqaz əlaqələrinin institusional səviyyədə möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir. Azərbaycanın balanslı xarici siyasət kursu çərçivəsində Bolqarıstan kimi Avropa daxilində mövqeyi güclənən tərəfdaşlarla əməkdaşlıq strateji önəm kəsb edir. Sözügedən konfiqurasiyada Türkiyə amili də xüsusi diqqətə malikdir. Rəsmi Ankara son illər Balkanlar, Qara dəniz hövzəsi və Cənubi Qafqaz arasında formalaşan siyasi və təhlükəsizlik arxitekturasında mərkəzi aktorlardan birinə çevrilib. Türkiyə həm NATO üzvü, həm Aİ ilə institusional əlaqələri olan, həm də regiondaxili proseslərdə müstəqil siyasi xətt yürüdən aktor kimi çıxış edir. Bu çoxqatlı mövqe qardaş ölkəni Avropa–Avrasiya kəsişməsində əvəzolunmaz siyasi körpüyə çevirir və onun tərəfdaşlıq qurduğu ölkələrin regional çəkisini artırır. Bu baxımdan Azərbaycan–Türkiyə strateji müttəfiqliyi Bolqarıstan üçün də siyasi kontekst formalaşdırır. Bolqarıstanın Avrozonaya üzvlük yolu ilə Aİ daxilində mövqeyini möhkəmləndirməsi Sofiyanı Türkiyə–Avropa dialoqunda daha çevik və funksional aktora çevirə bilər. Xüsusilə Ankara–Brüssel münasibətlərinin mürəkkəb, bəzən də gərgin xarakter aldığı mərhələlərdə Bolqarıstan kimi həm regional, həm də institusional baxımdan balanslı mövqedə dayanan ölkələr vasitəçi rolunu gücləndirmək potensialına malikdir. Türkiyənin Cənubi Qafqazda artan siyasi təsiri və Azərbaycanın bu xətt üzrə əsas tərəfdaş kimi çıxış etməsi fonunda Bolqarıstan üçtərəfli siyasi koordinasiya üçün əlverişli platformaya çevrilir. Həmin koordinasiya formal alyans xarakteri daşımadan, Avropa institutları ilə region arasında əlaqələndirici mexanizm kimi formalaşa bilər. Bolqarıstanın İttifaq daxilində siyasi çəkisinin artması bu mexanizmin legitimliyini və qəbulolunma imkanlarını daha da yüksəldir.

### *Ekspert rəyi*



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Bolqarıstanın Avrozonaya daxil olması ölkənin strateji-siyasi oriyentasiyasının dəqiqləşməsi kimi qiymətləndirilməlidir. Baş verən hadisə bir neçə mühüm siyasi müzakirəni paralel şəkildə aktivləşdirir. Şübhəsiz ki, ilk olaraq, suverenlik və milli qərarvermə imkanları mövzusu gündəmə gəlir. Avrozonaya üzvlük maliyyə siyasətinin mühüm alətlərinin Avropa Mərkəzi Bankı ilə paylaşılması deməkdir. Bu isə Bolqarıstan daxilində "milli maraqlar, yoxsa Avropa maraqları" dilemmasını gücləndirir. Bu da öz növbəsində siyasi spektrdə Avropaya inteqrasiyasını dəstəkləyən qüvvələrlə daha ehtiyatlı və ya skeptik qruplar arasında polemikanı dərinləşdirə bilər. İkinci mühüm müzakirə Bolqarıstanın geosiyasi mövqeyinin möhkəmlənməsi ilə bağlıdır. Avrozonaya üzvlük ölkəni Aİ-nin qərarverici dövlətlərinə bir addım da yaxınlaşdırır. Bu isə Bolqarıstanın regional siyasətdə, Balkanlar, Qara dəniz hövzəsi və enerji marşrutları kontekstində daha fəal rol iddiasını gücləndirəcək. Digər vacib müzakirə enerji və təhlükəsizlik siyasəti ilə bağlıdır. Avrozonaya daxil olan ölkələrdən Aİ-nin ümumi enerji strategiyasına daha sıx inteqrasiya gözlənilir. Bu, Bolqarıstanın enerji təchizatının şaxələndirilməsi, sabit və etibarlı mənbələrə üstünlük verilməsi xəttini gücləndirəcək. Məhz bu məqamda Azərbaycan amili xüsusi əhəmiyyət qazanır. Azərbaycanla münasibətlər baxımından proses ümumilikdə müsbət impuls yarada bilər. Ölkəmiz Avropanın etibarlı enerji tərəfdaşıdır və Bolqarıstan artıq Azərbaycan qazını alan ölkələr sırasındadır. Avrozonaya üzvlük Bolqarıstanın enerji siyasətini daha çox Aİ prioritetləri ilə uzlaşdıracağı anlamına gəlir.

Bununla yanaşı, Avrozonaya daxil olmuş Bolqarıstan Aİ-nin ümumi xarici siyasət mövqelərinə daha həssas yanaşmalı olacaq. Proses ikitərəfli münasibətlərdə müəyyən hallarda manevr imkanlarını daraltsa da, ümumi mənzərədə Azərbaycan–Bolqarıstan əməkdaşlığının institusional xarakter almasına şərait yarada bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Bakının siyasi iradəsi kənar təzyiqdən güclüdür

## *Prezident İlham Əliyev Azərbaycana yuxarıdan aşağı baxmaq istəyənləri bir daha cavablandırdı*

**Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciəti 2025-ci ilə siyasi-məntiqi yekun vurması ilə yanaşı, qarşıda duran məqsədlərə çatmaq üçün dövlətin həyata keçirəcəyi işlərin miqyası, bu yolda maneələr yaratmaq arzusuna düşənlərə ismarış-xəbərdarlıqları ilə yadda qaldı. Proqram xarakterli müraciətin əsas motivləti son bir ildə əldə olunmuş uğurlardan, "Böyük Qayıdış"dan tutmuş, 2026-cı ildə regionda və qlobal miqyasda reallaşdırılacaq planlara qədər geniş spektrli məsələləri əhatə edirdi.**



Dövlətimizin başçısının müraciətində diqqəti cəlb edən əsas məqamlardan biri Azərbaycanın bir çox beynəlxalq təşkilatlarla sıx əlaqələrinin milli və dövlət maraqlarımıza uyğunluğu prinsipinin daim gözlənilməsi kontekstində söylədikləri idi. Bu zaman Prezidentin geridə qoyduğumuz ildə ölkəmizin çox mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsini xatırlatması təsadüfi deyildi. Onun işğaldan azad edilmiş Xankəndidə ECO-nun Zirvə görüşünün, Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün keçirilməsini xüsusi vurğulaması isə sonra deyəcəkləri üçün bir növ preambula məqsədi daşıyırdı. Qəbələ Zirvə görüşünü "bizim ailəmiz olan Türk dünyasının birləşməsi istiqamətində daha bir önəmli addım" kimi səciyyələndirən Azərbaycan Prezidenti bu qardaşlıq birliyinə və tərəfdaşlığına xor baxanların, üstümüzə yeriməyə cürət edənlərin cavabını verməyi nə unutmadı. Bu zaman cavab məhz Azərbaycanın timsalında nümunə olaraq bütün çalarları ilə ortaya qoyuldu: "Biz heç vaxt imkan verməmişik ki, kimsə bizim işimizə qarışsın, kimsə bizə nəyisə diktə etsin, kimsə bizə yuxarıdan aşağı baxsın. Biz müqavimət göstərmişik, biz ciddi iradəmizi ortaya qoymuşuq, heç kimin qarşısında baş əyməmişik, heç kimə imkan verməmişik və verməyəcəyik ki, bizim işimizə qarışsın".

Prezidentin bu mesajında konkret ünvan göstərilməsə də, burada söhbətin hansı dövlətdən və həmin dövlətin son 5 ildə Azərbaycana qarşı sərgilədiyi yolverilməz siyasi davranış və hərəkətlərindən, eləcə də onun bütün təxribatçı cəhdlərinin qarşısının qətiyyətlə alınmasından və bu zaman dövlət başçımızın nümayiş etdirdiyi dəyişməz mövqeli siyasi iradəsindən getdiyini diletantlar da başa düşdü. Hər şeyi öz adı ilə çağırmağı leksikonunun daimi ünsürünə çevirmiş İlham Əliyev bununla bir daha böyük siyasətdə təsadüfi iştirakçı olmadığını, qlobal şahmat lövhəsində dəqiq və düşünülmüş diplomat-qrossmeyster gedişləri etməyə qadir beynəlxalq miqyaslı oyunçu statusunu hamının nəzərinə çatdırmış oldu.

Əlbəttə ki, bu zaman Azərbaycanın yeni münasibətlər qurduğu tərəfdaşları ilə yanaşı, dünənki bədxahları da qarşılarındakının gücünü və qabiliyyətini düzgün dəyərləndirməyə məcburdurlar. Bu, onlar üçün həm də gələcəkdə də diqqətdə saxlayacaqları məqsədli ismarışdır. Axı illərlə davam edən və heç bir faydası olmayan təzyiq vasitələrindən onların özləri də yorulublar. Bunu Azərbaycan Prezidenti xalqa müraciətində olduqca dəqiq ifadə etdi: "Tədricən hər kəs görür ki, belə cəhdlərin sayı da kəskin azaldı. Çünki bunun heç bir mənası yoxdur".

Bəli, nə zaman 30 il əvvəlki zamandır, nə də oyunçular o dövrün oyunçularıdır. Məqsədə çatmaq üçün köhnəlmiş metodlara da korrektələr edilməyin vaxtı çatıb. Bu məsələdə ləngimək olmaz. İndi ləngimək sərnişinlərini sülhə, əməkdaşlığa və tərəqqiyə aparacaq zamanın qatarına gecikməyə bərabərdir.

Yazımıza Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin son gecəsində xalqına və dünyaya ünvanladığı müraciətindən ibrətamiz iqtibasla nöqtə qoyuruq: "Bizə təzyiq etmək üçün heç kimin əlində heç bir vasitə yoxdur. Bizim güclü siyasi iradəmiz, Xalq-İqtidar birliyi, hərbi gücümüz, iqtisadi potensialımız, enerji siyasətimiz, nəqliyyat imkanlarımız və digər amillər bizi o qədər gücləndirib ki, heç kim bizə öz iradəsini diktə edə bilməz".

***İmran BƏDİRXANLI***
***XQ***

### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**

Azərbaycan Prezidenti artıq neçənci dəfədir ki, siyasi iradə məsələsini dilə gətirir. Bəli, iradəsiz nə həyatda, nə də dövlətin başında hansısa nəticəni əldə etmək mümkün deyil. Çünki ətrafda hamı – həm şəxsi zəmində, həm şirkət, həm də dövlət kimi – birinci növbədə öz maraqlarını təmin etməyə çalışır. İlham Əliyev bütün müstəvilərdə yalnız xalqın, dövlətin maraqlarını həyata keçirmək barədə düşünür. Bu zaman maraqlar toqquşur, müxtəlif təzyiq rıçaqları işə düşür. Məhz bu zaman həmin təzyiqlərin qarşısında durmaqdan ötrü böyük iradə tələb olunur. Amma onu da mütləq qeyd etməliyəm ki, Rusiyanın, Fransa başda olmaqa Avropa İttifaqının, İranın təzyiqlərini neytrallaşdırmaq üçün təkcə siyasi iradə kifayət eləmirdi. Bundan ötrü həm də düşünülmüş, praqmatik və uzunmüddətli siyasət, strategiya lazım idi. Dediklərimizi həyata keçirməkdən ötrü düzgün taktika seçilməlidir. Azərbaycan Prezidenti hakimiyyətdə olduğu 22 il ərzində, xüsusilə son 5 ildə bunların hamısını əyani şəkildə nümayiş etdirdi. Ölkənin mövcud imkanlarını və potensialını düzgün idarə etmək. Burada söhbət yalnız neftdən getmir. İran, Venesuela, İraq, Liviya və Suriyanın "qara qızıl"ı Azərbaycanınkından dəfələrlə çoxdur. Amma baxın, bu dövlətlər indi hansı gündədir. Bəli, söhbət dediyimiz imkanları düzgün və lazımi istiqamətə yönəltməyi bacarmaqdan gedir. Dövlətimizin başçısı bu siyasəti ardıcıl surətdə həyata keçirir. Təkrar edirəm, bu zaman uzunmüddətli strategiyaya malik olmaq çox vacibdir. Bütün bu amillər Qarabağ münaqişəsinin Azərbaycanın qalibiyyəti ilə başa çatmasını şərtləndirdi. Tarixi ədalətin bərpa edilməsi prosesində Ermənistanı himayə edənlərin ölkəmizə qarşı total təzyiqləri başlayanda Prezident İlham Əliyev təkcə siyasi iradəsini deyil, Azərbaycanın güc və imkanlarını düzgün səfərbər etməyin və yönəltməyin sayəsində təzyiqlərə sinə gərməyi bacardı. Çünki arxasında xalqın dəstəyini hiss edirdi. Bunlar olduqca vacib amillərdir.

Bu gün heç bir xarici qüvvə Azərbaycanı tutduğu düzgün yoldan yayındırmağı, azdırmağı bacarmır. Buna cənab Prezident imkan da vermir. Təzyiq mexanizmlərindən istifadəyə öyrəncəli dövlətlər isə nəhayət, anladılar ki, Azərbaycanla bu dildə nə danışmaq, nə də nəticə əldə etmək olar.

# Ermənistan iqtidarının katalikos üzərinə yürüşü

## *Paşinyanın milad aksiyasının pərdəarxası məqamları*

**"Yanvarın 6-sı saat 13:30-da hamınızı milad yürüşündə iştirak etməyə dəvət edirəm". Bu sözləri Ermənistanın Baş naziri Nikol Paşinyan özünün "Facebook" səhifəsində yazıb və videomüraciət də paylaşıb. O qeyd edib ki, yürüş İrəvandakı Maarifçi Qriqori kilsəsinin həyətindən başlayacaq. Kilsə İrəvandakı Tiqran Mets (Böyük Tiqran) prospektində yerləşir və yürüş Sayat Nova və Abovyan küçələrinin kəsişməsində yerləşən Müqəddəs Ana katolik kilsəsinə doğru davam edəcək.**

Paşinyan yürüşün məramı barədə bunları deyib: "Yürüş nə deməkdir? Bu, birincisi, rəbbimizi və xilaskarımız İsa Məsihin müqəddəs mövludunu xatırladır. İkincisi, Erməni Apostol Kilsəsinin müqəddəs ənənəsinə sadiqliyimizi sübut edir. Üçüncüsü, vacib məsələ yanvarın 4-də axşam Erməni Apostol Kilsəsinin bir qrup yepiskopu ilə birlikdə yaydığımız bəyanatda bildirdiyimiz kimi, kilsənin islahatına dəstəyimizi ifadə etməkdir. Növbəti mesaj dövlətçiliyimizə dəstəyimizi və Erməni Apostol Kilsəsinin faktiki rəhbərinin (katolikos II Qaregini nəzərdə tutur–S.H.) və onun yaxın çevrəsinin suverenliyə və dövlət müstəqilliyimizə qarşı hibrid mübarizə aləti kimi Erməni Apostol Kilsəsindən istifadə etməsi əleyhinə mövqeyimizi bildirməkdir. Bu cür hərəkətlər qəbuledilməzdir və biz bənzər təcrübələrin davam etməsinə icazə verməyəcəyik".

Ermənistan Baş naziri qeyd edib ki, bu, xüsusilə yürüş xarakterli aksiyanın məntiqi baxımından vacibdir: "Təkrar edirəm, bu yürüşlə biz Erməni Apostol Kilsəsinin faktiki rəhbərinin və onun yaxın çevrəsinin Erməni Apostol Kilsəsini xarici qüvvələrin Ermənistan Respublikasına, onun müstəqilliyinə, suverenliyinə və dövlətçiliyinə qarşı hibrid mübarizə aləti kimi istifadə etməsi ilə bağlı mövqeyimizi bildirməliyik. Biz bu cür təcrübələrin qəbuledilməzliyini və onların davam etməsinə artıq icazə verməmək iradəmizi açıq şəkildə bəyan etməliyik. Vurğulamaq istərdim ki, yürüş təbii olaraq dinc, xristian sevgisi ilə dolu və Erməni Apostol Kilsəsini islah etmək əzmi ilə dolu olacaq. Əlbəttə, yürüş Sayat Nova və Abovyan küçələrinin kəsişməsində başa çatacaq və burada qısa, çox qısa yığıncaq keçiriləcək. Hava soyuq olacaq və mən sizdən, birincisi, iştirak etməyinizi, ikincisi, qalın geyinməyinizi xahiş edirəm".

Paşinyan yanvarın 6-sı saat 10:30-dan başlayaraq Maarifçi Qriqori kilsəsində milad liturgiyasında iştirak edəcəyini də bildirib: "Liturgiyaya gəlmək istəyənlər güc toplayıb həm liturgiyada, həm də yürüşdə iştirak edəcəklər. İştirak etmək istəməyənləri isə mən indidən saat 13:30-da başlayacaq yürüşə çağırıram. Mən bu yürüşə rəhbərlik edəcəm və ümid edirəm ki, Siz də iştirak edəcəksiniz, gəlin, iştirak edin, çünki bu, çox vacib tədbirdir və hamınızı dəvət edirəm".

*

Məhz bu mənəvi və sakral zaman kəsiyində baş verən ictimai-siyasi hadisələr cəmiyyətdə fərqli və bəzən ziddiyyətli reaksiyalar doğura bilir. Paşinyan da milad günündə yürüşə çağırış etməklə bu həssas tarixin ictimai rəyə təsir gücündən istifadə etməyə çalışır. Onun mesajları dini dəyərlərə sədaqətlə siyasi məqsədlərin bir araya gətirildiyini göstərir. Baş nazir yürüşü iman və kilsə ənənələrinə bağlılıq kimi təqdim etsə də, açıqlamaların mərkəzində kilsə rəhbərliyi ilə açıq siyasi polemika dayanır. Bu isə dini bayramın siyasi müzakirə müstəvisinə daşınması kimi qiymətləndirilə bilər. Belə bir yanaşma baş nazirin tərəfdarları tərəfindən dövlətçiliyin müdafiəsi kimi qəbul edilsə də, əleyhdarları üçün müqəddəs günün siyasiləşdirilməsi təsiri bağışlayır. Nəticədə Paşinyanın addımı təkcə kilsə–hakimiyyət münasibətlərini deyil, həm də cəmiyyətin dəyərlər balansını sınağa çəkir.

Nikolun məhz milad günündə – kilsə üçün xüsusi məna daşıyan tarixdə şəxsən rəhbərlik edəcəyi yürüşə



çağırış etməsi təsadüfi addım sayıla bilməz. Burada həm zamanlama, həm məkan seçimi, həm də səsləndirilən arqumentlər siyasi baxımdan diqqətlə ölçülüb-biçilmiş mesajlar toplusudur. Əvvəla, Paşinyan yürüşü sırf dini ayin və ya iman nümayişi kimi təqdim etməyə çalışsa da, müraciətin məzmunu göstərir ki, əsas hədəf kilsədaxili islahatlar deyil, Erməni Apostol Kilsəsinin rəhbərliyi ilə siyasi qarşıdurmanın ictimai fazaya çıxarılmasıdır. Baş nazirin "kilsənin xarici qüvvələrin Ermənistanın suverenliyinə qarşı hibrid mübarizə alətinə çevrilməsi" iddiası artıq dini müstəvidən çıxaraq təhlükəsizlik və dövlətçilik diskussiyasına daxil olub. Bu isə kilsəni təkcə mənəvi institut yox, potensial siyasi risk faktoru kimi təqdim edir.

Paşinyanın davranışındakı maraqlı məqam ondan ibarətdir ki, o, özünü kilsəyə qarşı yox, kilsənin faktiki rəhbərliyinə qarşı mövqedə göstərməyə çalışır. Bu yanaşma klassik siyasi texnikadır: institutun özünü qoruyub, rəhbərliyini hədəfə almaqla geniş dindar kütlənin etirazını neytrallaşdırmaq. Lakin Ermənistan kimi kilsənin milli identikliyin əsas sütunlarından biri sayıldığı cəmiyyətdə bu xəttin nə dərəcədə işlək olacağı sual altındadır. Çünki Erməni Apostol Kilsəsi sadəcə dini qurum deyil, eyni zamanda, xalqın kollektiv özünüdərkinin daşıyıcısıdır.

Digər tərəfdən, kilsə rəhbərliyinin son illərdə tutduğu mövqe də qəbuledilməzdir. Revanşist ritorika, siyasi bəyanatlara yaxın çıxışlar, seçkiöncəsi proseslərdə dolayı müdaxilələr kilsənin klassik "mənəvi neytrallıq" statusunu ciddi şəkildə zədələyib. Bu baxımdan, Paşinyanın kilsəni siyasi proseslərdən kənarlaşdırmaq cəhdi müəyyən auditoriya üçün məntiqli görünə bilər. Xüsusilə də İkinci Qarabağ müharibəsindən sonra kilsənin bəzi nümayəndələrinin açıq şəkildə hökumət əleyhinə siyasi mövqe tutması, kilsə ilə dövlət arasındakı münasibətləri daha da pisləşdirib.

Yürüşün məhz milad günündə keçirilməsi simvolik risklər daşıyır. Dini bayramın siyasi mesaj tribunasına çevrilməsi kilsə-hökumət qarşıdurmasını daha da kəskinləşdirə bilər. Paşinyan yürüşün "xristian sevgisi ilə dolu" olacağını vurğulasa da, Ermənistanın daxili siyasi reallıqları fonunda bu cür aksiyaların emosional reaksiyalar doğuracağı istisna deyil. Xüsusən kilsəyə sadiq olan və hökuməti milli maraqlardan uzaqlaşmaqda təqsirləndirən dairələr bunu açıq təxribat kimi də qavraya bilərlər. Bu addımın mümkün nəticələrindən biri kilsə daxilində parçalanmanın dərinləşməsidir. Artıq bir qrup yepiskopun Paşinyanın islahat çağırışlarını dəstəkləməsi göstərir ki, Erməni Apostol Kilsəsi monolit struktur olmaqdan çıxıb. Bu isə uzunmüddətli perspektivdə kilsənin ictimai nüfuzuna ciddi zərbə vura bilər. Digər tərəfdən, hökumətin kilsədaxili proseslərə bu dərəcədə açıq müdaxiləsi gələcəkdə dövlətin digər müstəqil institutlara münasibəti ilə bağlı da suallar yaradır.

Nəticə etibarilə, yanvarın 6-da planlaşdırılan yürüş Ermənistan üçün sadəcə dini-siyasi aksiya deyil, dövlət–kilsə münasibətlərinin yeni mərhələyə keçdiyini göstərən hadisədir. Bu proses nə tam şəkildə demokratik islahat kimi, nə də sırf dini dəyərlərə hücum kimi qiymətləndirilə bilər. Daha çox postmüharibə Ermənistanında legitimlik, suverenlik və identiklik uğrunda gedən mürəkkəb mübarizənin növbəti epizodu təsiri bağışlayır. Bu yürüşün cəmiyyətdə konsolidasiya yaradacağını, yoxsa parçalanmanı daha da dərinləşdirəcəyini hadisələrin inkişafı göstərəcək.

***Səxavət HƏMİD***
***XQ***

# “Abşeron” qazı Türkiyədə alovlanacaq

## *Qardaş ölkə ilə 15 illik müqavilə imzalanıb*



**Azərbaycanla Türkiyə arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Abşeron" yatağından hasil edilən təbii qaz tədarükünə dair ümumi həcmi 33 milyard kubmetr olan yeni uzunmüddətli müqavilə imzalanıb. Bu barədə Türkiyənin enerji və təbii ehtiyatlar naziri Alparslan Bayraktar “Kanal 7” telekanalına müsahibəsi zamanı məlumat verib.**

Nazirin sözlərinə görə, “Abşeron” yatağından ildə 2,25 milyard kubmetr olmaqla 15 il ərzində Türkiyəyə qaz tədarük ediləcək. Müqaviləyə əsasən, tədarük 2029-cu ildə başlayacaq və 2040-cı illərə qədər davam edəcək. O deyib ki, Bakı-Tbilisi-Ərzurum boru kəməri vasitəsilə nəql olunacaq qaz mövcud infrastrukturdan istifadə edilərək Türkiyəyə çatdırılacaq. “Uzunmüddətli müqavilələr və mənbələrin şaxələndirilməsi strategiyası Türkiyənin enerji təchizatının təhlükəsizliyini gücləndirir və qazın rəqabətqabiliyyətli qiymətlərlə təmin olunmasına imkan yaradır”, – deyə o əlavə edib.

`Qeyd edək ki, “Abşeron” yatağı ötən əsrin 60-cı illərində Azərbaycan geoloqları tərəfindən kəşf edilib. O zaman mövcud texnika və texnologiyalar Xəzər dənizinin dərinliklərində qazma işlərinə imkan vermə由diyindən yatağın istismarı mümkün olmayıb. Nəhayət, 1997-ci ildə “Abşeron” yatağı üzrə hasilatın pay bölgüsünə dair birinci beynəlxalq müqavilə imzalanıb. Layihə çərçivəsində görülən işlər uğursuz nəticələndiyindən 2005-ci ildə müqavilə xitam verilib. Bununla belə, Azərbaycan geoloqları, Azərbaycan Dövlət Neft Şirkətinin mütəxəssisləri “Abşeron” yatağında məhsuldar layların olması ilə bağlı fikirlərində israrlı idilər. Eyni zamanda, xarici tərəfdaşlar da burada kifayət qədər karbohidrogen ehtiyatlarının olmasına inanırdılar.

Məhz bu inamın nəticəsi olaraq 2009-cu il fevralın 27-də Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın “Total” şirkəti arasında “Abşeron” yatağı üzrə yeni müqavilə imzalanıb. 2015-ci ildə isə “SOCAR” və “Total” birgə “JOCAP” (Joined Operating Company Absheron Petroleum) əməliyyat şirkətini yaradıblar. Beləliklə, “SOCAR Absheron” və “Total E&P Absheron” törəmə şirkətlərinin bərabər paylarla iştirak etdiyi JOCAP (Joined Operating Company Absheron Petroleum) birgə müəssisəsi “Abşeron” yatağının operatoru elan olunub. 2023-cü ilin avqustun 4-də isə Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) ilə “Abşeron” qaz-kondensat yatağında 30 faizlik iştirak payının alınmasına dair saziş imzalanıb. Sazişə əsasən, SOCAR və “TotalEnergies” şirkətlərinin hər birinin iştirak payları isə müvafiq olaraq 35 faiz təşkil edir.

Müqavilənin 30 il müddətinə həyata keçirilməsi nəzərdə tutulur. 747 kvadratkilometr ərazini əhatə edən müqavilə sahəsində aparılan ilkin kəşfiyyat işləri uğurla nəticələnib. 2011-ci ilin sentyabr ayında “Abşeron”da çox böyük qaz ehtiyatlarının aşkar olunması rəsmən elan edilib. 2023-cü il iyulun 9-da isə yatağın birinci işlənmə mərhələsi çərçivəsində ilk quyu istismara verilib. Hasilata başlandığı vaxtdan 2025-ci ilin sonlarınadək isə buradan 3,5 milyard kubmetrdən çox qaz çıxarılıb.

Xatırladaq ki, Xəzər dənizində, “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşən “Abşeron” yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 100 milyon tona yaxın kondensat həcmində qiymətləndirilir. Elə bu zənginliyinə görə də “Abşeron” yatağının bir neçə mərhələdə işlənməsi nəzərdə tutulur.

Yatağın işlənməsinin birinci mərhələsində ildə 1,5 milyard kubmetr qaz və 750 min ton kondensat hasilatı nəzərdə tutulur. Növbəti işlənmə mərhələsi çərçivəsində isə burada illik hasilatın, ən azı, 4 milyard kubmetrə qədər artırılacağı gözlənilir. Bütövlükdə, yatağın istismarı Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının ödənilməsi ilə yanaşı, ölkəmizin ixrac potensialının artmasına da əhəmiyyətli töhfə verəcək.

Qeyd etdiyimiz kimi, artıq Türkiyənin “Abşeron” qazının ilk alıcı olacağı dəqiqləşib. Bununla da, yaxın illərdə Azərbaycandan qardaş ölkəyə “mavi yanacaq” ixracı əhəmiyyətli dərəcədə artacaq. Yeri gəlmişkən, hazırda Azərbaycan Rusiyadan sonra Türkiyəyə təbii qaz ixrac edən ikinci ölkədir. Məlum olduğu kimi, Türkiyə “Şahdəniz” yatağının işlənməsinin 1-ci və 2-ci mərhələləri çərçivəsində hasil edilən qazın əsas alıcısıdır.

Xatırladaq ki, qardaş ölkə 2007-ci ilin əvvəllərində istismara verilmiş Cənubi Qafqaz boru kəməri (Bakı-Tbilisi-Ərzurum) ilə “Şahdəniz” yatağının birinci işlənmə mərhələsi çərçivəsində hasil edilən təbii qazın idxalına başlayıb. 2018-ci il iyunun 30-da isə Azərbaycan qazını Türkiyənin Avropa sərhədlərinə çatdıran Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) istifadəyə verilməsi ilə qaz nəqlinin həcmi xeyli artıb. Bununla, həm də “Şahdəniz-2” layihəsi çərçivəsində hasil edilən təbii qazın Avropaya yolu açılıb.

Azərbaycan və Türkiyənin birgə reallaşdırdığı ən uğurlu enerji layihələrindən biri olan TANAP regionun və Avropanın enerji xəritəsini yenidən formalaşdıran, beynəlxalq əməkdaşlığın uğurlu nümunəsi sayılan Cənub Qaz Dəhlizi layihəsinin əsas seqmentlərindən birini təşkil edir. “Şahdəniz” qazının kommersiya məqsədli nəqlinə başlanmasından bəri bu boru kəməri ilə nəql olunmuş ümumi qazın, təqribən, 37 milyard kubmetri Türkiyəyə satılıb. 2025-ci ilin sonlarınadək isə qardaş ölkə Azərbaycandan, ümumilikdə, təqribən, 87 milyarda kubmetr “mavi yanacaq” alıb.

Bu günlərdə Türkiyənin Enerji Bazarı Tənzimləmə Qurumu qaz idxalı ilə bağlı yaydığı yeni hesabatda bildirilib ki, 2025-ci ilin yanvar–oktyabr aylarında Azərbaycan Türkiyəyə 9 milyard 798,4 milyon kubmetr təbii qaz ixrac edib. Bu isə əvvəlki ilin müvafiq dövrünün göstəricisindən 3,5 faiz çoxdur. Qurumun məlumatına görə, Azərbaycan 2024-cü ildə Türkiyəyə 11 milyard 478,4 milyon kubmetr qaz ixrac edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Ölkəmizdə LED lampalara maraq artır

**“Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” qanuna edilmiş dəyişikliklərə uyğun olaraq, Azərbaycanda enerji səmərəliliyinin artırılması məqsədilə közərmə lampaları mərhələli şəkildə dövriyyədən çıxarılır. Bu barədə Energetika Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, qanuna əsasən, 2026-cı il yanvarın 1-dən etibarən 60 vatt və yuxarı gücə malik, iyulun 1-dən isə 25 vattdan (25 vatt daxil olmaqla) 60 vattadək gücə malik közərmə lampalarının istehsalı, idxalı və satışı qadağan olunur. Qadağa sənaye istehsalı proseslərində istifadə olunan, eləcə də sənaye avadanlıqlarına işıqlandırmadan başqa texnoloji funksiyalar üçün nəzərdə tutulan közərmə lampalarına şamil edilmir.




Aparılan hesablamalar göstərir ki, LED lampalar közərmə lampaları ilə müqayisədə həm enerji istehlakı, həm də iqtisadi baxımdan əhəmiyyətli üstünlüklərə malikdir. Məsələn, 15 min saat (7 il) istismar müddətinə malik 1 ədəd LED lampası 17 ədəd min saatlıq közərmə lampasını əvəz edir. Eyni işıq axınının təmin olunması üçün 60 Vt gücündə közərmə lampasına qarşılıq cəmi 7 Vt gücündə LED lampası kifayət edir. Nəticədə, LED lampasının ümumi işıqlandırma xərci 14,4 manat təşkil etdiyi halda, közərmə lampalarında bu göstərici 82,2 manata çatır.

Hesablamalara əsasən, 1 milyon ədəd 60 Vt gücündə közərmə lampasının 1 il ərzində istifadəsi 131,4 milyon kilovat-saat elektrik enerjisi istehlakına, bu enerjinin istehsalı üçün isə 29,1 milyon kubmetr təbii qaz sərfinə səbəb olur. Bunun da nəticəsində 63,6 min ton karbon emissiyası yaranır. Eyni sayda LED lampaya keçid zamanı isə elektrik enerjisi istehlakı, yanacaq sərfi və karbon emissiyası 8,6 dəfə azalır. Hazırda mövcud 2,7 milyon məişət abunəçisinin 50 faizinin közərmə lampalarından imtina edərək LED lampalara keçdiyi halda, gündəlik işıqlandırma məqsədilə elektrik enerjisi istehlakı 4,86 milyon kilovat-saatdan 567 min kilovat-saata enə bilər.

Həmçinin LED lampalar aşağı pulsasiya səviyyəsi (1 faiz) ilə göz sağlamlığı üçün daha təhlükəsiz hesab olunur. Közərmə lampalarında bu göstərici 13 faizdir. Bundan əlavə, LED lampalar civə və digər toksik maddələr ehtiva etmir, az istilik yayır, uzun istismar müddətinə malikdir və gərginlik dalğalanmalarına qarşı daha dayanıqlıdır.

Közərmə lampalarının mərhələli şəkildə dövriyyədən çıxarılması və LED texnologiyalarına keçid ölkəmizdə enerji səmərəliliyinin artırılmasına, istehlakçı xərclərinin azaldılmasına, ətraf mühitə mənfi təsirlərin minimuma endirilməsinə və dayanıqlı enerji istehlakı mədəniyyətinin formalaşmasına xidmət edir. Buna görə də vətəndaşların və təsərrüfat subyektlərinin enerji səmərəli işıqlandırma həllərinə üstünlük vermələri tövsiyə olunur.

***XQ***

# Süni intellektə hazırlıq indeksində 41 pillə irəliləyiş

**“Oxford Insights” beynəlxalq tədqiqat mərkəzi tərəfindən hazırlanan “Hökumətin Süni İntellektə Hazırlıq İndeksi”nin (Government AI Readiness Index) 2025-ci il üzrə 8-ci buraxılışı dərc olunub. Hesabata əsasən, Azərbaycan ötən illə müqayisədə 41 pillə irəliləyərək 195 ölkə arasında 70-ci yerdə qərarlaşıb.**




İndeks nəticələrinə görə, Azərbaycan 49,0 ümumi bal toplayaraq Cənubi və Mərkəzi Asiya regionu üzrə orta göstərici hesab olunan 41,4 balı üstələyib. Bununla yanaşı, ölkəmiz Cənubi Qafqaz ölkələri arasında ən yüksək nəticə göstərib. Qeyd edək ki, 2025-ci il buraxılışında qiymətləndirmənin 195 ölkə üzrə aparılması indeks tarixində ən əhatəli məlumat bazasının formalaşdırıldığını göstərir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Rəqəmsal Ticarət Qovşağının rəhbəri vəzifəsini icra edən Aygün Əhmədova bildirib ki, “Hökumətin Süni İntellektə Hazırlıq İndeksi” artıq qlobal səviyyədə hökumətlərin süni intellekt sahəsində hazırlığını ölçən və geniş istinad edilən əsas sənədlərdən biridir. Onun sözlərinə görə, indeks G20 daxil olmaqla, bir çox beynəlxalq platformalar üçün müqayisə və istiqamətləndirmə aləti rolunu oynayır.

2025-ci il buraxılışında qiymətləndirmə 6 əsas istiqamət üzrə aparılıb. Azərbaycanın göstəriciləri xüsusilə dövlət sektorunda tətbiq və dayanıqlılıq sahələrində yüksək olub. Belə ki, ölkəmiz “Dövlət sektorunda tətbiq” üzrə 66,97 bal, “Dayanıqlılıq” üzrə 58,27 bal, “Siyasət potensialı” üzrə 53,50 bal toplayıb.

Bu nəticələr Azərbaycanın süni intellekt sahəsində institusional tətbiqə və icitimai faydaya yönəlmiş yanaşmasını əks etdirir. O əlavə edib ki, qəbul edilən süni intellekt və rəqəmsal iqtisadiyyat strategiyaları Azərbaycanın qlobal mövqeyinin möhkəmlənməsinə mühüm töhfə verir.

***XQ***

# Gələn həftə Gəncə–Qəbələ qatarı ilk səfərə çıxacaq

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti (ADY) sərnişin məmnuniyyətinin daha da yüksəldilməsi məqsədilə 2026-cı il yanvarın 12-dən etibarən ilk dəfə Gəncə–Qəbələ–Gəncə marşrutu üzrə müntəzəm sərnişindaşıma xidmətinə başlayacaq.**

Bu, Gəncə–Mingəçevir–Gəncə marşrutundan sonra ADY-nin ikinci regiondaxili sərnişindaşıma marşrutu olaraq bölgələrdə nəqliyyatın əlçatanlığının təmin edilməsinə, regionlararası nəqliyyat bağlantısının və mobilliyin genişləndirilməsinə xidmət edəcək. “Azərbaycan Dəmir Yolları” QSC-nin məlumatına görə, marşrut üzrə sərnişinlərə oturacaq tipli müasir elektrik qatarları ilə xidmət göstəriləcək. Qatarlar hər gün saat 10:10-da Gəncə Dəmiryol Vağzalından Qəbələ istiqamətinə, saat 18:00-da isə Qəbələdən Gəncəyə hərəkət edəcək. Səfərin ümumi müddəti isə 1 saat 50 dəqiqə təşkil edəcək. Sərnişinlər ümumi uzunluğu 139 kilometr olan marşrut üzrə Goran, Yevlax, Ləki və Ağdaş stansiya və dayanacaqlarından da istifadə edə biləcəklər.




Qatarlarda standart, standart+, biznes və birinci siniflər üzrə səyahət imkanları təklif olunacaq. Biletlərin minimal qiyməti Gəncə–Qəbələ istiqamətində 4 manat 30 qəpik, Ləki–Qəbələ istiqamətində isə 1 manat 70 qəpik təşkil edəcək. Eyni zamanda, bu reys Bakıdan Qəbələyə və əks istiqamətə hər gün səfər etməyə də imkan verəcək.

Bakı–Qazax qatarı ilə saat 10:50-də Ləki stansiyasına çatmaqla saat 11:12-də Gəncə–Qəbələ istiqamətində hərəkət edən qatarla Qəbələyə səfər etmək mümkün olacaq. Sərnişinlər Qəbələ–Gəncə qatarından istifadə edərək saat 18:45-də Ləki stansiyasına çataraq saat 19:02-də Qazax–Bakı qatarı ilə Bakıya gələ bilərlər. Ümumilikdə isə, yeni sərnişindaşıma marşrutu qərb və şimal-qərb bölgələri arasında əlçatanlığın artırılmasına və daxili turizmin inkişafına töhfə verəcək.

Xatırladaq ki, yanvarın 5-dən etibarən ADY-nin rəsmi veb-saytı və “ADY Mobile” tətbiqi vasitəsilə biletlərin satışına başlanılıb.

***XQ***

# Rəqəmsal transformasiya TRIPP-in önəmini yüksəldir

## *Cenevrə Təhlükəsizlik Siyasəti Mərkəzi marşrut barədə belə yazır*

**Qurumun yazılı açıqlamasında qeyd edilir ki, TRIPP-in (Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu) səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılmasında rəqəmsal transformasiya mühüm rol oynayır.**

GCSP
Geneva Centre for Security Policy

Mərkəzin məqaləsində bildirilir ki, Avropa Dəmir Yolu Hərəkətinin İdarəetmə Sistemi (ERTMS) üzrə mövcud təcrübəyə əsaslanaraq, Avropa İttifaqı Ermənistan və Azərbaycanın rəsmi müraciəti əsasında rəqəmsal gömrük və tranzit platformalarının yaradılmasına dəstək göstərə bilər. Bu sistemlər məlumatların elektron mübadiləsini, kağızsız sənəd dövriyyəsini və yüklərin real vaxt rejimində izlənilməsini təmin edəcək.

Yazı müəllifin fikrincə, standartlaşdırılmış gömrük kodları, elektron plomblar və radiotezlik identifikasiyası (RFID) kimi intellektual logistika texnologiyalarının tətbiqi TRIPP-in TRACECA və Avropa rəqəmsal standartlarına uyğunlaşdırılmasına imkan verər. Eyni zamanda, Aİ-nin inteqrə olunmuş sərhəd idarəçiliyi proqramları gecikmələrin azaldılmasına, gömrük xidmətlərinin peşəkar səviyyəsinin yüksəldilməsinə və hüquqi uyğunluğun gücləndirilməsinə töhfə verə bilər.

Məqalədə Azərbaycan, Ermənistan, Türkiyə və Gürcüstan arasında Aİ və ABŞ-ın həmsədrliyi ilə texniki koordinasiya platformasının yaradılması da təklif olunur. Belə bir platforma texniki standartların sinxronlaşdırılmasına, məlumat mübadiləsinin sadələşdirilməsinə və dəhlizin effektiv idarə olunmasına xidmət edə bilər.

GCSP mina çirklənməsini TRIPP üçün əsas risklərdən biri kimi qiymətləndirir və mina təmizləmə proqramlarının genişləndirilməsini zəruri sayır. Bununla yanaşı, müəllif Aİ-nin TRIPP layihəsinə Bakı–Tbilisi–Ceyhan neft kəmərində tətbiq edilən strateji yanaşma ilə yanaşmalı olduğunu vurğulayır. Bildirilir ki, Aİ və ABŞ-ın davamlı siyasi və iqtisadi dəstəyi layihənin uğurunu təmin edə bilər, lakin proses üzərində əsas nəzarət Azərbaycan və Ermənistanın əlində qalmalıdır.

***XQ***

# Zəngəzur dəhlizi Cənubi Qafqazı qlobal məkana qovuşduracaq

**Prezident İlham Əliyev yanvarın 4-də ABŞ nümayəndə heyətini qəbul edib. Dövlət başçısı Cənubi Qafqazda sülh və iqtisadi əməkdaşlıq proseslərinin yeni mərhələyə keçdiyini göstərən mühüm hadisələrdən söhbət açıb. Ölkə başçısı bu razılaşmaların tarixi əhəmiyyət daşıdığını bildirərək, prosesdə ABŞ Prezidenti Donald Trampın rolunu xüsusi vurğulayıb. Qeyd olunub ki, Azərbaycan regional sülh gündəliyinin irəli aparılması üçün bundan sonra da ardıcıl səylərini davam etdirəcək.**



Qeyd edək ki, ötən ilin avqust ayında paraflanan sülh müqaviləsi artıq öz ilkin iqtisadi nəticələrini göstərib. Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan və Ermənistan arasında ticarət münasibətlərinin formalaşdırılması istiqamətində konkret addımlar atılıb. Azərbaycanın neft məhsullarının Ermənistana ixracı, eləcə də Qazaxıstan və Rusiyadan buğdanın Azərbaycan ərazisindən tranzit keçməklə Ermənistana çatdırılması regionda kommunikasiya xətlərinin real iqtisadi dəyərə çevrildiyini nümayiş etdirir. Bu proseslər uzun illər blokada və qarşıdurma şəraitində qalmış Cənubi Qafqaz üçün tamamilə yeni iqtisadi reallıq yaradır.

Ümumiyyətlə, sülh müqaviləsinin əsas üstünlüklərindən biri qarşılıqlı ticarət və tranzit imkanlarının genişlənməsidir. Bu, nəqliyyat xərclərinin azalmasına, tədarük zəncirlərinin qısalmasına və region ölkələrinin beynəlxalq bazarlara daha rahat çıxış əldə etməsinə şərait yaradır. Xüsusilə Azərbaycan üçün bu proses ölkənin artıq formalaşmış logistika imkanlarını daha da gücləndirərək onu regional iqtisadi mərkəzə çevirir.

Bu kontekstdə ölkə başçısının TRIPP (Zəngəzur dəhlizi) ilə bağlı səsləndirdiyi fikirlər xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçısı bu dəhlizin regional nəqliyyat bağlantıları baxımından yeni imkanlar yaradacağına ümidvarlığını ifadə edib. Zəngəzur dəhlizi layihəsi bütövlükdə Cənubi Qafqazı Avrasiyanın əsas ticarət marşrutlarına bağlayan strateji nəqliyyat xətti kimi nəzərdə tutulur. Dəhliz Asiya ilə Avropa arasında yükdaşımaların daha təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsinə imkan verməklə Orta Dəhlizin iqtisadi potensialını əhəmiyyətli dərəcədə artıracaq.

İqtisadi baxımdan Zəngəzur dəhlizi region ölkələri üçün mühüm dividendlər vəd edir. Tranzit gəlirlərinin artması, yeni investisiyaların cəlb olunması və sənaye ilə kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının genişlənməsi bu layihənin əsas üstünlükləri sırasında yer alır. Əgər qarşıdakı illərdə Azərbaycan və Ermənistan arasında ticarət dövriyyəsi daha genişlənərsə, proses bütövlükdə regionun iqtisadi arxitekturasını dəyişəcək.

Qeyd edək ki, mövcud iqtisadi potensial nəzərə alındıqda, Azərbaycanın Ermənistana ixrac edə biləcəyi məhsulların dairəsi kifayət qədər genişdir. İlk növbədə enerji amili ön plana çıxır. Azərbaycan neft məhsulları, neft-kimya xammalı, maye qaz və elektrik enerjisi baxımından regionun aparıcı təchizatçısıdır. Ermənistanın enerji təhlükəsizliyinin diversifikasiyası baxımından Azərbaycan mənşəli məhsulların payı arta bilər. Bununla yanaşı, Azərbaycan tikinti materialları, sement, metal məmulatları, gübrələr, plastik və kimya sənayesi məhsulları, eləcə də kənd təsərrüfatı və ərzaq məhsulları ilə Ermənistan bazarında mövqeyini gücləndirə bilər.

Bəs Ermənistan Azərbaycana nə sata bilər?

Ermənistanın Azərbaycan bazarına çıxara biləcəyi məhsullara gəlincə, bura əsasən emal və yüngül sənaye sahələri aid ola bilər. Ermənistan hazırda mis və molibden konsentratları, qızıl, zinət əşyaları, alüminium və bəzi metal məhsulları ixrac edir. Bundan əlavə, alkoqollu içkilər, xüsusilə konyak və şərab, tütün məmulatları, tekstil və ayaqqabı məhsulları Ermənistanın ixrac portfelində mühüm yer tutur. Ermənistanı iqtisadiyyat naziri Gevorq Papoyan bildirib ki, yaxın gələcəkdə həm də Ermənistandan Azərbaycana ixrac mümkündür. Onun sözlərinə görə, ölkəsi potensial olaraq Azərbaycana alüminium, alüminium folqası, ferromolibden, mal-qara, meyvə-tərəvəz, müəyyən növ içkilər və toxuma mallar ixrac edə bilər. Xarici işlər naziri Ceyhun Bayramov ötən il dekabrın 26-da keçirdiyi mətbuat konfransında bildirib ki, hərbi kimi həssas sahələr istisna olmaqla, digər sahələrdə ticarətin genişlənməsi mümkündür.

***Ekspert rəyi***



**Asif İBRAHİMOV, iqtisadçı-ekspert**

ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevə xüsusi rəğbətini açıq şəkildə nümayiş etdirir. Bu münasibətlər qarşılıqlı etimad və tərəfdaşlıq niyyətinə əsaslanır və bunu açıq formada müşahidə etmək mümkündür. Məlumdur ki, TRIPP layihəsinin müəllifi məhz Donald Trampdır və bu təşəbbüsün mərkəzində Azərbaycanın geostrateji mövqeyi dayanır.

İlk növbədə, qeyd etmək lazımdır ki, Azərbaycan Şərq–Qərb, eyni zamanda, Şimal–Cənub nəqliyyat marşrutlarının kəsişdiyi nöqtədə yerləşir. Bu isə ölkəmizin təkcə enerji ixracatçısı deyil, eyni zamanda, güclü logistika mərkəzinə çevrilməsi deməkdir. Xüsusilə Çinlə Mərkəzi Asiya üzərindən Avropaya uzanan marşrutda – Çin, Mərkəzi Asiya, Xəzər hövzəsi, Azərbaycan və oradan Avropa istiqamətində – Azərbaycan ən strateji açar ölkələrdən biri hesab olunur.

Digər tərəfdən, ABŞ yaxşı dərk edir ki, Cənubi Qafqazda sabitliyin təmin olunmaması son 30 il ərzində müharibələr, münaqişələr və qarşıdurmalar vasitəsilə qlobal ticarətə ciddi mənfi təsir göstərib. Donald Tramp həm də bir biznesmen kimi bu reallığı yaxşı anlayır ki, Çindən Avropaya uzanan ticarət yolları üzərində yerləşən ölkələr arasında müharibə və qarşıdurmalar olmamalıdır, çünki bu, dünya ticarətinə ciddi zərər vurur.

Bu gün reallıq ondan ibarətdir ki, Çindən Avropaya daşınan yüklərin çatdırılmasında gecikmələr müşahidə olunur. Bəzən yüklərin mənzil başına çatması 20 gündən bir aya qədər vaxt aparır. TRIPP dəhlizinin işə düşməsi isə Çindən Avropaya yüklərin problemsiz şəkildə 6–11 gün ərzində çatdırılmasına imkan yaradacaq. Bu, həm zaman baxımından, həm maliyyə xərcləri, həm də etibarlılıq nöqteyi-nəzərindən ticarəti daha səmərəli edəcək.

Aparılan ilkin hesablamalara əsasən, dəhliz vasitəsilə yalnız logistika sahəsindən illik təqribən 15–23 milyard dollar həcmində gəlir əldə olunacağı proqnozlaşdırılır. Məhz bu baxımdan Azərbaycan həm Amerika Birləşmiş Ştatlarının, həm də şəxsən Donald Trampın xüsusi diqqət mərkəzindədir.

ABŞ üçün Cənubi Qafqazda etibarlı tərəfdaş Azərbaycandır. Cənubi Qafqazda sabitlik, əməkdaşlıq və qarşılıqlı etimad qlobal ticarət və iqtisadi təhlükəsizlik üçün əsas şərtdir.

Prezident İlham Əliyevin ABŞ nümayəndə heyəti ilə görüşündə bir məsələ xüsusilə maraqlıdır. Diqqət yetirsək, görərik ki, Ermənistana ixrac olunan ərzaq məhsullarının əhəmiyyətli hissəsi həm Qazaxıstandan, həm də Rusiyadan tədarük olunur. Bu kontekstdə Donald Trampın irəli sürdüyü ideoloji və iqtisadi yanaşmanın mahiyyəti ondan ibarətdir ki, Ermənistan Azərbaycanla əməkdaşlıq edərsə, mövcud blokadadan çıxa və eyni zamanda, Azərbaycan vasitəsilə öz strateji tərəfdaşları ilə birbaşa ticarət əlaqələri qura bilər. Bununla yanaşı, bu məsələ ilə bağlı bir məqamı da vurğulamaq lazımdır ki, Azərbaycan burada yalnız tranzit funksiyasını yerinə yetirmir. Ölkəmiz, eyni zamanda, həm özünün, həm də regionda yerləşən digər dövlətlərin ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm logistika qovşağı rolunu oynadığını beynəlxalq ictimaiyyətə nümayiş etdirir.

***Musa BAĞIRLI***
***XQ***

# Valyuta ehtiyatlarına və müsbət reytinqə əsaslanan sabitlik

**İqtisadi potensialı və təbii ehtiyatlarından strateji şəkildə faydalanan Azərbaycan sabitlik və rifah ölkəsi statusunun daşıyıcısıdır. Ölkənin valyuta ehtiyatları tarixi maksimuma çataraq 80 milyard ABŞ dollarını ötüb və ilin sonuna doğru 83,5 milyard dollara yüksəlib. Xarici dövlət borcu isə cəmi 4,89 milyard dollar səviyyəsindədir – yəni ÜDM-in təxminən 6 faizi. Beləliklə, valyuta ehtiyatlarımız xarici borcumuzu 16 dəfədən çox üstələyir. Bu nisbət dünyada nadir rast gəlinən, olduqca sağlam bir maliyyə mövqeyini ifadə edir və ölkənin xarici şoklara qarşı yüksək dayanıqlılığının göstəricisidir.**

Azərbaycanın valyuta ehtiyatlarının bu səviyyədə zənginliyi bir neçə strateji amilin nəticəsidir. İlk növbədə, Dövlət Neft Fondu (ARDNF) və Mərkəzi Bank ehtiyatlarının sistemli toplanması sayəsində ölkə güclü maliyyə "yastığı" formalaşdırıb. Beynəlxalq mütəxəssislər qeyd edirlər ki, Azərbaycan müstəsna xarici və fiskal buferlərə malikdir – yəni böyük həcmdə suveren fond aktivləri və çox aşağı dövlət borcu sayəsində maliyyə baxımından risklərə qarşı dayanıqlıdır.

"S&P Global Ratings" agentliyi də Azərbaycanın məhz əlamətdar həcmdə fiskal və xarici ehtiyatlar saxladığını vurğulayır. Ehtiyatların ÜDM-dən də böyük olması və borcu dəfələrlə üstələməsi iqtisadiyyatın qlobal təlatümlər zamanı özünü sığortalaya bilməsi deməkdir. Məhz bu sayədə son illərdə neft qiymətlərində dalğalanmalar və geosiyasi gərginliklər fonunda belə Azərbaycan makroiqtisadi sabitliyini qoruyub saxlaya bilmişdir.

Toplanmış böyük ehtiyatlar, eyni zamanda, ölkənin kredit reytinqinə müsbət təsir göstərən əsas amillərdəndir. Yüksək valyuta ehtiyatları və aşağı borc yükü Azərbaycanın beynəlxalq öhdəliklərini rahatlıqla yerinə yetirə biləcəyinə işarədir. Bu da xarici investorların etimadını artırır və ölkəmizin etibarlı borcalan imicini




gücləndirir. "Moody's" reytinq agentliyi qeyd edir ki, Azərbaycanın minimal borc yükü və müsbət xalis aktiv mövqeyi ilə xarakterizə olunan güclü maliyyə çərçivəsi, çox yüksək borc ödəmə qabiliyyəti ilə birləşərək ölkənin dayanıqlılığını təmin edir. Yəni dövlətin borcu az, ehtiyatı çox olması Azərbaycanın maliyyə sistemini potensial sarsıntılardan qoruyur.

Belə güclü makroiqtisadi göstəricilər nəticəsində aparıcı qlobal reytinq agentlikləri son dövrdə Azərbaycanla bağlı qiymətləndirmələrini yüksəldiblər. "Fitch Ratings" 2024-cü ildə Azərbaycanın suveren kredit reytinqini "BB+" səviyyəsindən "BBB-" səviyyəsinə qaldıraraq investisiya dərəcəsinə yüksəltdi. 2025-ci ilin iyulunda isə "Moody's" Azərbaycanın reytinqini "Ba1"dən "Baa3" səviyyəsinə (investisiya dərəcəsi) yüksəldib proqnozunu müsbət etdi. Nəticədə, 3 böyük agentlikdən ikisi artıq Azərbaycana investisiya səviyyəli kredit reytinqi verir ki, bu da tarixi bir nailiyyətdir. "Standard & Poor's (S&P) Global Ratings" hələlik Azərbaycanın reytinqini "BB+" səviyyəsində saxlayır. Bununla belə, S&P 2025-ci ilin dekabrında ölkəmiz üzrə reytinq proqnozunu "sabit"dən "müsbət"ə yüksəldib. Bu, agentliyin yaxın gələcəkdə Azərbaycanın reytinqini artırmaq ehtimalını göstərməsidir. S&P, həmçinin Azərbaycanın əlamətdar həcmdə valyuta aktivlərinə, xalis kreditor mövqeyinə və aşağı dövlət borcuna malik olmasını ölkənin kredit etibarını gücləndirən əsas amillərdən biri kimi qeyd edib.

Bu reytinqlər arasında "Fitch" və "Moody's"in verdiyi investisiya dərəcəli qiymətlər Azərbaycanın kredit etibarlılığının beynəlxalq aləmdə təsdiqi deməkdir. Ölkə artıq qlobal investorlar üçün etibarlı borcalan statusunu qazanıb. Maliyyə Nazirliyi bildirir ki, agentliklərin bu müsbət qərarları ölkənin dayanıqlı iqtisadi artımına və fundamental makroiqtisadi trendlərinə əsaslanır. Həqiqətən də "Fitch" və "Moody's" Azərbaycanın güclü büdcə göstəricilərini, valyuta ehtiyatlarındakı əhəmiyyətli artımı və aşağı dövlət borcunu xüsusilə vurğulayır – bu amillər iqtisadiyyatın xarici şoklara qarşı davamlılığını təmin edir.

Prezident İlham Əliyev 31 dekabr 2025-ci il tarixli Yeni il müraciətində əldə olunmuş iqtisadi nailiyyətlərin hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyi olduğunu bildirib. Valyuta ehtiyatlarımızın rekord səviyyəyə çatması və borcun minimuma enməsi ölkənin maliyyə müstəqilliyini gücləndirir, gələcək nəsillər üçün möhkəm iqtisadi təməl yaradır. Aparıcı reytinq agentliklərinin müsbət rəyləri isə Azərbaycanın düzgün yolda olduğuna dair beynəlxalq təsdiqdir. Bu reytinqlər həm də xarici investorlar, kredit qurumları və beynəlxalq ictimaiyyət üçün önəmli siqnaldır. Azərbaycan iqtisadiyyatı etibarlı, dayanıqlı və sərmayə üçün cəlbedicidir.

Beləliklə, 2025-ci ilin yekunlarına əsasən Azərbaycan həm misilsiz valyuta ehtiyatlarına, həm də beynəlxalq maliyyə qurumlarının yüksək etimadına malikdir. Neft gəlirlərinin ağıllı idarə olunması, borc yükünün aşağı saxlanılması və iqtisadiyyatın şaxələndirilməsi kimi strateji yanaşmalar öz bəhrəsini verir. Gələcək illərdə də bu müsbət meyillərin davam etməsi və reytinqlərin daha da yüksəlməsi gözlənilir. İctimaiyyət üçün isə bu, ölkənin iqtisadi sabitliyinin və beynəlxalq nüfuzunun getdikcə möhkəmlənməsi deməkdir. Bu isə hər bir vətəndaşın rifahına dolayı yolla öz töhfəsini verir.

***Nurlan ABDALOV***
***XQ***

***Ekspert rəyi***



**Xalid KƏRİMLİ, iqtisadçı-ekspert**

Azərbaycanın valyuta ehtiyatları 80 milyard dolları ötüb və hazırda təxminən 80–84 milyard dollar aralığında qiymətləndirilir. Son bir il ərzində ehtiyatlarda 12–13 milyard dollar həcmində artım müşahidə olunub. Dekabr ayı üzrə yekun məlumatlar açıqlanandan sonra bu rəqəmlər daha dəqiq bəlli olacaq. Neft Fondu və Mərkəzi Bank tərəfindən rəsmi göstəricilər təqdim edildikdən sonra yekun nəticələr formalaşacaq.

Bu artımın əsas səbəblərindən biri Dövlət Neft Fondunun investisiya portfelinin uğurlu nəticələr göstərməsidir. Xüsusilə qızıla və səhm bazarlarına yönəldilən investisiyalar əhəmiyyətli gəlir gətirib.

Eyni zamanda, makromaliyyə sabitliyinin qorunması Mərkəzi Bankın ehtiyatlarının da artmasına şərait yaradıb. Təbii ki, valyuta ehtiyatlarının artması və xarici valyutada olan dövlət borcunun aşağı səviyyədə qalması ölkə üçün ciddi maliyyə rahatlığı yaradır. Çünki dövlət borcunun daxili ehtiyatlar hesabına ödənilməsi ölkənin maliyyə sağlamlığının əsas göstəricilərindən biridir.

Digər mühüm məqam ondan ibarətdir ki, beynəlxalq reytinq agentliklərinin Azərbaycanın kredit reytinqini yüksəltməsi ölkəmiz üçün yeni maliyyə imkanları açır. Yüksək kredit reytinqi həm dövlət müəssisələrinə, həm investisiya layihələrinə, həm də borc cəlbetmə prosesinə müsbət təsir göstərir. Risk səviyyəsi aşağı olduqda borcverən tərəflər daha münasib faiz dərəcələri təklif edirlər. Bu baxımdan investisiya reytinqimizin yüksəlməsi dövlət və dövlətə məxsus müəssisələrin daha aşağı faizlə maliyyə resursları cəlbetmə imkanlarını genişləndirir.

*AMB-dən XQ-yə özəl*

# "Yaşıl maliyyə təşəbbüsləri"

## *Pul siyasətinin gələcək düzənində bu çağırışlar nəyi dəyişə bilər?*

**AMB dayanıqlı maliyyə və "yaşıl" maliyyənin inkişafını öz strateji gündəliyinə daxil edib. Bu məqsədlə 2023–2026-cı illəri əhatə edən Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsində açıqlanan strateji prioritetlərin reallaşdırılması istiqamətində icra edilmiş və planlanan çoxşaxəli təşəbbüslər aşağıdakı kimidir:**

* *Dayanıqlı maliyyə üzrə institusional potensialın artırılması;*
* *Dayanıqlı maliyyə axınları üçün ekosistemin formalaşdırılması;*
* *İqlim dəyişmələri və ESİ faktorlarının risklərin idarə edilməsinə inteqrasiyası;*
* *Maliyyə bazarlarında şəffaflığın və bazar intizamının təmin edilməsi.*




Mərkəzi Bank "yaşıl" meyarların pul siyasəti çərçivəsinə inteqrasiyası üzrə beynəlxalq trendləri yaxından izləyir. Bu alətlərin uzunmüddətli perspektivdə pul siyasəti çərçivəsinə mərhələli şəkildə daxil edilməsini nəzərdən keçirilir. Təcrübədə bu cür inteqrasiya birbaşa iqlim məqsədlərinin hədəflənməsindən daha çox, iqlim risklərinin qiymət və maliyyə sabitliyinə təsirinin nəzərə alınmasına yönəlir.

Hazırda Mərkəzi Bank rəqəmsal valyutanın iqtisadiyyat üçün çağırış və faydalarını nəzərə alaraq siyasət məqsədini və tətbiqi üzrə yol xəritəsini formalaşdırmağa çalışır. Məqsəd rəqəmsal valyutanın tətbiqi ilə ödənişlərin səmərəliliyinin artırılması, maliyyə inklüzivliyinin genişləndirilməsi, dövlət ödənişlərinin optimallaşdırılması və xüsusilə ölkələrarası ödənişlərdə xərclərin azaldılması və əməliyyatların sürətləndirilməsidir.

Rəqəmsal valyuta, eyni zamanda, nağd dövriyyənin məhdudlaşmasına və nağdsız dövriyyənin daha da artırılmasına, habelə, pul siyasətinin ötürücülüyünün yaxşılaşmasına və fiskal gəlir bazasının genişlənməsinə təkan verəcəkdir.

***XQ***

# Yeni ilin uğur hədəfləri

## *2026-cı ildə iqtisadi yüksəlişin əhatə dairəsi genişlənəcək*

**Müasir dövrdə qlobal iqtisadi proseslər getdikcə daha mürəkkəb və çoxşaxəli xarakter alır. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və digər nüfuzlu beynəlxalq maliyyə institutlarının 2026-cı il üçün hazırladığı hesabatlarda enerji bazarlarında qeyri-müəyyənliklərin davam edəcəyi, geosiyasi risklərin artacağı, ticarət münasibətlərində isə proteksionist meyillərin (milli iqtisadiyyatın stimullaşdırılması, daxili bazarın xarici rəqabətdən qorunması) güclənəcəyi xüsusi vurğulanır. Ekspertlərin fikrincə, bu tendensiyalar dünya iqtisadiyyatına, eyni zamanda, enerji ixracatçısı və regional nəqliyyat-logistika mərkəzinə çevrilməkdə olan Azərbaycanın inkişaf dinamikasına da müəyyən təsir göstərə bilər.**



### Aqrar sahənin qeyri-neft sektorunda payı yüksələcək

Belə şəraitdə əsas suallardan biri qlobal risklər fonunda Azərbaycan iqtisadiyyatının hansı sahələr hesabına dayanıqlılığını qoruyacağı və inkişafını davam etdirəcəyi ilə bağlıdır. Ekspertlərin, eləcə də proqnoz mərkəzlərinin ümumi qənaətinə görə, məhz kənd təsərrüfatının 2026-cı ildə ölkənin sosial-iqtisadi sabitliyini qoruyan əsas dayaqlardan biri olacağı gözlənilir. Çünki bu sahə ərzaq təminatı ilə bərabər, həm də məşğulluğun artırılması, regionların sosial dirçəlişi, idxaldan asılılığın azaldılması və ixrac potensialının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Buna görə də 2026-cı ildə qeyri-neft sektorunun inkişaf tempinin qorunub saxlanması və hətta sürətlənməsi üçün kənd təsərrüfatının lokomotiv rolunun güclənəcəyi proqnozlaşdırılır.

Azərbaycan iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatı respublikamızın ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsində, eləcə də iqtisadi inkişafın təşviqində mühüm rol oynayır. Bununla bərabər, ölkədə aqrar sektorun yeni qabaqcıl texnologiyalar əsasında inkişaf etdirilməsi istiqamətində həyata keçirilən layihələr də mühüm önəm daşıyır. Bu baxımdan respublikada torpaq və su ehtiyatlarının məhdud olması şəraitində kənd təsərrüfatında qarşıya qoyulan əsas vəzifələrdən biri də məhsuldarlığı artırmaqla daha böyük istehsal həcmləri yaratmaqdan ibarətdir.

Hazırda ölkənin taxılçılıq regionlarında 15 min hektara qədər sahədə innovativ texnologiyaların tətbiqinə, rəqəmsal həllərə üstünlük verilməsi məhsuldarlığın və səmərəliliyin artmasına müsbət təsir göstərir. Bu, eyni zamanda, əkin vaxtının dəqiq müəyyənləşdirilməsi, lazımi gübrələrdən geniş istifadə olunması, torpağın nəmliyinin saxlanılması və məhsul yığımı üçün optimal vaxta nəzarət edilməsi məsələlərini reallaşdırır.

### Zəngəzur dəhlizinin addım səsləri güclənəcək

Cari il icrasının daha da sürətlənəcəyi və mərhələli şəkildə başa çatdırılacağı gözlənilən Zəngəzur dəhlizi ilə bağlı nəqliyyat-logistika layihələri də Azərbaycanın iqtisadi gələcəyində xüsusi yer tutur. Bu infrastruktur ölkəmizin tranzit imkanlarını artırmaqla yanaşı, kənd təsərrüfatı məhsullarının bazara çıxışında uzun illər mövcud olmuş məhdudiyyətləri aradan qaldıracaq. Ekspertlərin fikrincə, Zəngəzur dəhlizi regionlar arasında logistika xərclərini azaldacaq, məhsulun tarladan istehlakçıya çatdırılma müddətini qısaldacaq və itkiləri minimuma endirəcək. Bu isə birbaşa olaraq ərzaq təhlükəsizliyinə əlavə dəyər deməkdir. Adıçəkilən layihə xüsusilə də daxili bazarın sabit məhsul axını ilə təmin olunması və ixrac üçün rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının formalaşdırılması baxımından strateji önəm daşıyır.

2026-cı ildə respublikamızın kənd təsərrüfatında əsas istiqamətlərdən biri olan "ağıllı" aqrar sistemlər geniş tətbiq olunacaq. Damcı suvarma texnologiyaları, rəqəmsal nəzarət mexanizmləri, məhsuldarlığın proqnozlaşdırılması və texnologiya əsaslı istehsal modelləri fermerlərin xərclərini azaltmaqla yanaşı, məhsulun keyfiyyətini və həcmini də artıracaq.

İqlim dəyişmələrinin təsirləri fonunda su resurslarından səmərəli istifadə amili xüsusi aktuallıq kəsb edir. Bu baxımdan, müasir suvarma sistemlərinin tətbiqi həm ekoloji, həm də iqtisadi baxımdan mühüm üstünlüklər yaradır. Nəticədə kənd təsərrüfatı daha dayanıqlı və risklərə davamlı bir sektora çevrilir.

Proqnozlara görə, 2026-cı ildə istixana təsərrüfatlarının və aqrar emal müəssisələrinin genişləndirilməsi əsas istiqamətlərdən biri olacaq. Bu, fermerlərin məhsulu xammal kimi ucuz qiymətə satmaq əvəzinə, emal edərək daha baha və rəqabətqabiliyyətli şəkildə bazara çıxarmasına imkan verəcək. Aqrar emal sənayesinin inkişafı, eyni zamanda, kənd yerlərində yeni iş yerlərinin yaradılmasına, regionların iqtisadi fəallığının artmasına və daxili bazarda qiymət sabitliyinin qorunmasına xidmət edəcək. Beləliklə, kənd təsərrüfatı bütöv bir iqtisadi dəyər zənciri kimi formalaşacaq.

### Qarabağ və Şərqi Zəngəzurun ərzaq təhlükəsizliyinə töhfəsi artacaq

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir. Bu məqsədlə aqrar sahəyə dövlət dəstəyi mexanizmləri təkmilləşdirilir və beynəlxalq təcrübəyə əsaslanan müasir dəstək tədbirləri həyata keçirilir.

Son dövrlər ölkədə kənd təsərrüfatının inkişafı sahəsində formalaşmış potensial, xüsusilə müasir texnologiyaların tətbiqinə əsaslanmaqla taxılçılıq təsərrüfatlarının yaradılması, həmçinin uzun illər ərzində düşmən tapdağında qalan torpaqların işğaldan azad olunması ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin daha da artırılması məqsədilə yeni hədəflərin müəyyənləşdirilməsinə imkan verir.

Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzur bölgələri 2026-cı ildə kənd təsərrüfatının inkişafında xüsusi rol oynayacaq. Həmin ərazilərdə taxılçılıq, heyvandarlıq, meyvə-tərəvəz və üzümçülük üzrə yeni təsərrüfatların qurulması, müasir infrastrukturun yaradılması və "ağıllı" kənd konsepsiyasının tətbiqi aqrar bərpanın qarşısının alınmasında əsas sütun rolu oynayacaq. Eyni zamanda, adları çəkilən iqtisadi rayonların zəngin potensialı daxili bazarın təminatı ilə bərabər, ixracyönümlü məhsul istehsalına da geniş imkanlar yaradacaq. Bu isə Azərbaycanın ərzaq təhlükəsizliyini gücləndirməklə yanaşı, valyuta gəlirlərinin artmasına əhəmiyyətli töhfə verəcək.

### "Yaşıl enerji"nin coğrafiyası genişlənəcək

2026-cı ildə günəş və külək stansiyalarının fəaliyyət istiqamətlərinin genişlənməsi, enerji şəbəkəsinə inteqrasiyanın dərinləşməsi və yerli podrat zəncirinin formalaşması mühüm iqtisadi istiqamət kimi qiymətləndirilir. Bərpaolunan enerjinin payının artması ilə kənd təsərrüfatının emal sektorunda, logistika və sənaye parklarında enerji təminatının daha sabit və əlçatan olacağı da proqnozlaşdırılır. Bütün bunlarla bərabər, enerji xərclərinin optimallaşması ilə aqrar məhsulların maya dəyərinin azalacağı, nəticədə həm daxili, həm də xarici bazarlarda rəqabət qabiliyyətinin yüksələcəyi, beləliklə, enerji siyasəti ilə aqrar siyasət arasında sinerjinin formalaşacağı gözlənilir.

Yeri gəlmişkən, son 5 ildə işğaldan azad edilən ərazilərdə enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpaolunan enerji potensialından səmərəli istifadə çərçivəsində sistemli layihələr həyata keçirilib. Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurun "yaşıl" enerji zonasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq savaşdan ötən müddətdə 270 MVt gücündə 30-dan çox su elektrik stansiyası istismara buraxılıb. Ümumilikdə isə növbəti illərdə əlavə olaraq 200 MVt-lıq su elektrik stansiyalarının tikilməsi nəzərdə tutulub.

Beləliklə, bütün qlobal qeyri-müəyyənliklərə baxmayaraq, Azərbaycan 2026-cı ildə kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsi üçün real və əsaslı imkanlara malikdir. İnfrastruktur layihələri, logistikanın genişlənməsi, müasir texnologiyaların tətbiqi, bərpaolunan enerji mənbələrinin artan rolu və azad edilən ərazilərin aqrar potensialı bu sahəni iqtisadi inkişafın əsas dayaqlarından birinə çevirir.

***Vaqif BAYRAMOV***
***XQ***

#### *Ekspert rəyi*



**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru, professor**

Dünya Bankı 2026-cı ildə qlobal iqtisadiyyatın orta hesabla 2,7 faiz artacağını və bu göstəricinin ölkələr üzrə fərqli olacağını proqnozlaşdırır. Məsələn, adıçəkilən maliyyə qurumu bu il ABŞ-da iqtisadiyyatın 1,6-2,6 faiz, Çində 4,4-4,8 faiz, Avropada isə 1-1,5 faiz arasında yüksələcəyi gözlənilir. Lakin bu proqnozlar hər zaman özünü doğrultmur. 2026-cı il üçün nəzərdə tutulan göstəricilərin bundan daha artıq olması da inandırıcı deyil. Cari il bəşəriyyətin üzləşəcəyi ən böyük problem ərzaq təminatı ilə bağlı olacaq. Verilən proqnozlar göstərir ki, bu il dünya müasir tarixin ən ciddi qlobal ərzaq təhlükəsizliyi böhranlarından biri ilə qarşılaşacaq və yüz milyonlarla insan kifayət qədər ciddi ərzaq qıtlığı yaşayacaq.

BMT-nin 2026-cı il üçün proqnozuna görə, bu il dünyada 318 milyon insan aclıq vəziyyətində və ya bundan daha ağır bir durumda olacaq. Bu da aclığın 2019-cu illə müqayisədə 2 dəfədən çox insanı əhatə edəcəyi anlamına gəlir. Nə qədər acınacaqlı olsa da, deməliyik ki, hazırda müasir dünyada aclığın qlobal humanitar maliyyələşdirilməsi sahəsində ciddi problemlər yaşanır. Qlobal humanitar maliyyələşmənin kəskin azaldılması səbəbindən yaxın perspektivdə BMT-nin Ərzaq Proqramı çərçivəsində aclıqdan əziyyət çəkən insanların yalnız az bir qisminə yardım göstərmək mümkün olacaq.

BMT 2026-cı ildə Ümumdünya Ərzaq Proqramı çərçivəsində aclıqdan əziyyət çəkən 318 milyon insanın ən həssas təbəqəsi hesab edilən 110 milyon insana yardım etməyi planlaşdırsa da, bunu gerçəkləşdirmək mümkün olmayacaq. Bu qədər insanı aclıqdan xilas etmək üçün, təqribən, 13 milyard ABŞ dolları məbləğində vəsait tələb olunur. Lakin mövcud proqnozlar onu göstərir ki, BMT-nin Ümumdünya Ərzaq Proqramı çərçivəsində bu il ən yaxşı halda həmin məbləğin, təxminən, yarısını reallaşdırmaq mümkündür.

Dünyada aclığın yaranmasının əsas səbəblərindən biri münaqişələr və müharibələrdir. Bu gün Sudan, Yəmən, Haiti, Fələstin, Əfqanıstan, Konqo Demokratik Respublikası kimi ölkələrdə milyonlarla insan aclıq həddindədir. Qəzza zolağında 1,6 milyondan çox insan kəskin qida çatışmazlığı ilə üzləşir. Əgər bölgədə döyüşlər yenidən başlayarsa, aclıq təhlükəsi də böyüyəcək.

Ərzaq təminatı sahəsində Azərbaycan hökumətinin qarşısında ciddi vəzifələr durur. Respublikamız aqrar-sənaye ölkəsi olsa da, hazırda əhalinin tələbatı üçün zəruri ərzağın 3/4 hissəsindən çox hissəsi idxal yolu ilə əldə edilir. Ərzaq təminatı sahəsində xaricdən bu qədər asılılıq hökuməti ciddi düşündürməlidir. Bu problemin tezliklə həll olunması yolunda strateji, qlobal miqyaslı və uzunmüddətli nəticələrə istiqamətlənən addımlar atılmasa, ölkənin ərzaq təhlükəsizliyi məsələsi dünya bazarlarında baş verən proseslərdən asılı vəziyyətdə qalacaq.

---

**Günün ağrısı**

# Ev tikənlər, yoxsa tifaq dağıdanlar?

## *Mənzil dələduzluğu kütləviləşir, cəzasızlıq ictimai bəlaya çevrilir*

**Azərbaycanda mənzil dələduzluğu artıq illərdir ki, formalaşan, minlərlə ailənin taleyinə toxunan, cəmiyyətin dövlətə və hüquq sisteminə inamını sarsıdan ciddi sosial problemə çevrilib. Mənzil sahibi olmaq arzusu ilə uzun müddət topladığı vəsaitini tikinti şirkətlərinə etibar edən vətəndaşların ümidlərinin puç olması, eyni mənzilin bir neçə şəxsə satılması, yarımçıq qalan binalar və təhlükəli tikililər problemin yalnız görünən tərəfidir.**



Məsələdə ən narahatedici məqam isə odur ki, mənzil dələduzluğu halları azalmaq əvəzinə, ildən-ilə çoxalır, mövcud sahədə faktlar mediada geniş işıqlandırılsa da, problemin kökündə duran səbəblər aradan qaldırılmır. Nəticədə, eyni ssenari, eyni mənzərə fərqli ünvanlarda təkrarlanır: Yenə də vətəndaşların pullarını mənimsəyən tikinti şirkətləri ilə bağlı cinayət işi açılır, həbslərə başlanılır, lakin az bir müddət sonra mənzil dələduzları sirli bir əlin işarəsi ilə azadlığa buraxılır, nəhayət, onlar fəaliyyətlərini yeni hüquqi ünvanda davam etdirirlər.

Fikrimizin təsdiqi kimi, bir faktı diqqətə çatdırmaq istərdik. Qeyd edək ki, "İnşaat Konstruksiyaları" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) vəzifəli şəxsləri son illərdə paytaxtda bir mənzili bir neçə nəfərə sataraq dələduzluq əməlləri törədiblər. Yüzlərlə vətəndaşın külli məbləğdə vəsaitini talamaqda təqsirləndirilən adıçəkilən MMC-nin sahibi Rauf Əliyev, onun yaxın qohumu Rəsul Əhmədov və Zahir Nəcəfov Cinayət Məcəlləsinin 177-189-178.4-cü maddələri ilə ittiham olunublar. Bununla belə onlar, eyni zamanda, paytaxtın müxtəlif ərazilərində, hazırda isə Yasamal, Nəsimi rayonlarında yeni binaların tikintisini davam etdirərək yenə də eyni fırıldaqlarla diqqət çəkiblər.

Dələduzlar barəsində yekun ittiham elan edilərək cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. İşin bu yerə gəlib çıxmasına, məhkəmə prosesinin başlanmasına baxmayaraq, Rauf Əliyev və dəstəsi vətəndaşları yenə də aldadıb, yüzlərlə belə mənzil alan şəxslərin ümidlərini puç ediblər. Günahlarını, qanunsuz hərəkətlərə yol vermələrini isə guya dövlət sifarişi ilə Pirallahı rayonunda şəhid ailələri üçün tikdikləri binalara xərclənən pulu ala bilməmələri və itirdikləri məbləği kompensasiya etmək məqsədilə bu cür əyri yola əl atmaları ilə əlaqələndiriblər.

Dələduzluqda ittiham olunan şəxslərin diqqətə çatdırılan arqumentləri də cəmiyyət üçün tanışdır. Lakin bu, hüquqi dövlətdə maddi çətinlik cinayətə bəraət qazandırmır. Əgər belə bir yanaşma qəbul edilərsə, istənilən sahibkar maliyyə problemi yaşadığını əsas gətirərək dələduzluğa haqq qazandıra bilər. Bu isə hüquq sisteminin iflası deməkdir.

Mənzil dələduzluğu yalnız maliyyə fırıldağı ilə bitmir. Son illər Bakının müxtəlif rayonlarında, xüsusilə Yasamal, Nizami və Nəsimi ərazilərində qanunsuz mərtəbə artırılması halları da geniş yayılıb. Pilot layihə çərçivəsində dövlət tərəfindən 14 mərtəbəyə icazə verilən binaların 17 mərtəbəyədək yüksəldilməsi, texniki mərtəbələrin yaşayış sahəsi kimi istifadəsi artıq hüquq pozuntusu olmaqla bərabər, həm də insan həyatı üçün real təhlükəyə çevrilib.

Məsələn, Yasamal rayonu, Zahid Xəlilov küçəsi, 107 ünvanında yerləşən və 2010-2011-ci illərdə tikilən 15 mərtəbəli binanın üzərinə əlavə mərtəbə artırılması sakinlərin haqlı narazılığına səbəb olub. Ekspertiza rəyi ilə bina üzərində sonradan aparılan əlavə tikinti işlərinin mövcud normativlərə zidd olması təsdiqlənib. Fövqəladə Hallar Nazirliyinin araşdırması zamanı da bu faktlar sübuta yetirilib: texniki sahələrin böyüdülərək mənzil kimi istismar olunduğu müəyyən edilib. Lakin əsas sual açıq qalıb, yəni nə üçün bu tikililər dərhal dayandırılmayıb və yaxud sökülməyib?

### Qanun var, amma boşluqlar olmasa...

**Əmlak eksperti Vidadi Hüseynovun** sözlərinə görə, Mənzil Məcəlləsinin 123.04-cü maddəsinə əsasən, istismarda olan çoxmərtəbəli binalarda ümumi əmlakın texniki vəziyyətinə görə məsuliyyət idarəedici təşkilatın üzərinə düşür. Lakin praktikada bu idarəedici qurumlar çox vaxt tikinti şirkətinin özü ilə əlaqəli olur və faktiki nəzarət mexanizmi işləmir. Digər əsas çatışmazlıqlar isə tikinti şirkətləri üçün vahid nəzarət reyestrinin yaradılmaması, cinayət işi olan şirkətlərin fəaliyyətini davam etdirməsinin qanunvericilikdəki ciddi boşluqla bağlı olmasıdır.

V.Hüseynov təklif edir ki, mənzil dələduzluğu üzrə istintaqı aparılan şirkətlər üçün tikinti fəaliyyəti müvəqqəti dayandırılmalı, benefisiarların (müəssisənin fəaliyyətindən maliyyə-iqtisadi gəlir əldə edən fiziki şəxs və şəxslər) gizlədilməsinin qarşısını alan vahid dövlət reyestri hazırlanmalıdır. Bu məsələdə "Bir mənzil – bir alıcı" mexanizminin olmaması da müəyyən çətinliklər yaradır. Məsələn, belə bir şərait ilkin müqavilələrin nəzarətsiz qalmasını və eyni mənzilin dəfələrlə satılmasını şərtləndirir. Eyni zamanda, yaradılan elektron payçı reyestrdə qeydiyyatsız müqavilələrin hüquqi qüvvəsinin tanınmaması da neqativ hallara yol verilməsinə əlverişli şərait yaradır.

Preventiv, yəni problem ortaya çıxmadan onu məhdudlaşdırmaq məqsədi daşıyan addımların atılmaması da mənzil dələduzluğuna yol açır. Başqa sözlə, hazırkı cəzalar dələduzluğun qarşısını almır. Buna görə də külli miqdar vəsaitlə nəzərəçarpan mənzil dələduzluğuna görə minimum həbs həddinin artırılması zəruridir. Zərərin ödənilmədiyi halda şərti azadlığa buraxılmanın istisna edilməsi də diqqətdə saxlanılmalıdır.

### Beynəlxalq təcrübə nə deyir?

Türkiyənin inşaat sektorunda tətbiq olunan "Yapı Denetim Sistemi"nə əsasən, qardaş ölkədə fəaliyyət göstərən hər hansı bir tikinti şirkəti müstəqil nəzarət qurumları ilə müqavilə bağlamadan fəaliyyət göstərə bilmir. Qanunsuz mərtəbə dərhal sökülür və məsul şəxslər inşaat sektorundan uzun müddətə uzaqlaşdırılır.

Gürcüstanda isə tikinti icazələri tam elektronlaşdırılıb. Eyni mənzilin ikinci dəfə satılması texniki baxımdan mümkünsüzdür. Cinayət işi açılan şirkətlərin lisenziyası dondurulur. Avropa İttifaqı ölkələrində payçıların pulları birbaşa tikinti şirkətinə yox, daim nəzarətdə saxlanılan xüsusi hesablara köçürülür. İnşaat mərhələləri tamamlandıqca, vəsait hissə-hissə açılır. Bu mexanizm dələduzluq riskini minimuma endirir.

Azərbaycanda isə haqqında danışılan problemin həlli məqsədilə, ilk növbədə, sərt və birmənalı hüquqi mexanizmlər tətbiq edilməli, şəffaf rəqəmsal nəzarət diqqətdə saxlanılmalı, məsələyə ictimaiyyət və media tərəfindən xüsusi önəm verilməlidir. Əks halda, "başımızın üstündə təhlükə var" ifadəsi yalnız metafora yox, acı reallıq olaraq qala bilər.

***V.BİNYATOĞLU***
***XQ***

#### *Ekspert rəyi*



**Ramil OSMANLI,**
**əmlak eksperti**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollegiyası "Yüksək binalar və komplekslər. Layihələndirmə normaları"nı təsdiqləyib. Qərara əsasən, binaların layihələndirilməsi layihə tapşırığı üzrə yerinə yetirilməlidir. Belə ki, layihələndirilən binalar yüksək məsuliyyət səviyyəsinə aiddir və konstruksiyalarının hesablama-istismar müddəti 100 ildən az olmayaraq qəbul edilməlidir. Bu, o deməkdir ki, artıq binaların istismar müddəti 100 il olacaq. Bəs hazırda Bakıda mövcud olan binaların ömrü nə qədərdir? Yeni qanun necə tətbiq olunacaq?

Qeyd edim ki, bu qanundan sonra binalara nəzarət daha da güclənəcək. Layihələndirmə normalarının təsdiqlənməsi gözlənilən idi. Əslində, deyə bilmərik ki, əvvəllər belə qaydalar, ümumiyyətlə, olmayıb. Hündürmərtəbəli binalarla bağlı normativ qaydalar həmişə olub. Sadəcə indi yüksək binalar və komplekslər üçün layihələndirmə normalarının bilavasitə yüksək məsuliyyət zonası daxilində qəbul edilməsi, müəyyən əmsalların tətbiq olunması, istismar müddətinin minimum 100 ilə qaldırılması onu deməyə əsas verir ki, bundan sonra bu istiqamətdə nəzarət daha da güclənəcək.

Əvvəlki dövrdə inşa olunan binaların, xüsusilə də sovet dövründən qalmış köhnə tikililərin bir çoxunun istismar müddəti artıq başa çatıb. Onlarda müəyyən bərkitmə işlərinin aparılmasına baxmayaraq, əslində, istismar müddətini başa vurublar. Çünki əksəriyyəti beton konstruksiyalardan ibarətdir. Ötən əsrin əvvəllərində inşa olunub və müəyyən tikinti standartlarının tələblərinə cavab vermir.

Binaların tez sıradan çıxmasının səbəbi düzgün qulluq edilməməsidir. 2000-ci ildən bəri inşa olunmuş yeni tikililərlə bağlı da müxtəlif zamanlarda monitorinqlər həyata keçirilir. Onların keyfiyyəti, dayanıqlığı istiqamətində müzakirələr aparılır. Həmin binaların sırasında keyfiyyətsiz olanlar da var. Amma əksəriyyəti, xüsusilə monolit beton binalar keyfiyyətlidir. Sadəcə istismar qaydalarına diqqət yetirilmədiyini, standartlara cavab vermədiyini söyləmək olar. Çünki çoxmənzilli binaların idarə olunması dövlətin deyil, sahə mülkiyyətçilərinin nəzarətindədir. Bir çox hallarda bina bir neçə il istismar olunduqdan sonra mənzil-tikinti kooperativləri müəyyən qurğu və avadanlıqların köhnəldiyini nəzərə alaraq həmin binaları tərk edirlər.

Binalar zaman-zaman təmir olunmalıdır. Orada müəyyən fasad işləri, qurğuların vaxtında dəyişdirilməsi həyata keçirilməlidir. Amma bir çox hallarda bu layihələr standartdan kənar həyata keçirilir və yaxud heç aparılmır. Bu səbəbdən 15 il bundan öncə inşa olunmuş bina elə görünür ki, elə bil 100 ildir mövcuddur.

Yeni qərar əsasında reallaşdırılacaq digər dəyişiklərdən bəhs edərkən onu da deyim ki, inşaat normaları ilə bağlı qaydaların tətbiq olunmasından sonra binalarda keyfiyyət göstəricilərinin daha da artırılmasına, eləcə də tikilən binaların ərazi planlaşması zamanı qeyd olunan tələblərə əməl olunmasına, yaşıllıq zonalarının salınması, ərazi üzrə müvafiq infrastrukturun yaradılması məsələlərinə də ciddi nəzarət olacaq. Hətta 9 hektardan artıq sahəsi olan binalar üçün də ayrıca tələblər var. Bu səbəbdən düşünürəm ki, qanunlar mövcud sahədə keyfiyyəti bir qədər də artıracaq.

*Azərbaycan Radiosu – 100*

# Milli musiqimizin 50 yaşlı səs ensiklopediyası

## *“Axşam görüşləri” radio məkanının ən uzunömürlü verilişlərindən biridir*




**Azərbaycan Radiosunda 50 ildir ki, davam edən populyar “Axşam görüşləri” verilişinin ən yaşlı dinləyicilərindən biriyəm. Təbii ki, verilişin məndən başqa da çoxlu daimi dinləyiciləri var. Ancaq mənim “Axşam görüşləri”nin digər bir çox köhnə dinləyicilərindən fərqim bundan ibarətdir ki, bu verilişə həmişə, sadəcə, musiqi həvəskarı kimi yox, həm də bir musiqişünas kimi qulaq asmışam.**

Bu verilişin efirdə səslənməyə başladığı 1970-ci illərin ortalarından indiyə kimi “Axşam görüşləri” həm də maarifçilik səciyyəsi daşıyıb. Onun hər buraxılışında yalnız dinləyib zövq almaq üçün deyil, öyrənməkdən, biliklərini genişləndirməkdən ötrü də kifayət qədər material olub və indi də var. Təsadüfi deyil ki, mən bu verilişi özüm müntəzəm dinləməkdən əlavə, Bakı Musiqi Akademiyasında da həmişə tələbələrimə qulaq asaraq qeydlər aparmağı tövsiyə etmişəm.

Beləliklə, mənim müxtəlif dövrlərdə dərs dediyim tələbələr də “Axşam görüşləri”nin sabit dinləyicilərinə çevrilmişlər. Mən vaxtaşırı Musiqi Akademiyasındakı dərslərimdə verilişin ayrı-ayrı buraxılışlarının tələbələrimlə müzakirəsini aparmışam və bununla da “Axşam görüşləri” Bakı Musiqi Akademiyasında bizim dərs vəsaitlərimizdən birinə çevrilib. Belə qeyri-rəsmi dərs vəsaitinin rəsmən təsdiqlənmiş mənbələrdən fərqi ondan ibarətdir ki, bu “dərslik” – “Axşam görüşləri” daim yenilənir.

Üstəlik, onun hər buraxılışında biz daim təzə məlumat daşıyıcıları, yeni sanballı ekspertlərlə qarşılaşırıq. Məsləhət bilərdim ki, bu gün həm Bakı Musiqi Akademiyasında, həm Milli Konservatoriyada, həm də orta ixtisas musiqi məktəblərində “Axşam görüşləri” verilişinə məhz bu nöqteyi-nəzərdən yanaşılsın. İnanıram ki, faydasını hökmən görəcəklər.

“Axşam görüşləri” tariximizin, mədəniyyətimizin, elmimizin ayrı-ayrı istiqamətləri haqda mütəmadi söhbətlər açsa da, musiqi əvvəldən bu verilişin başlıca mövzusu olub və digər mövzular da nəticə etibarilə musiqi ilə əlaqələndirilib. Bu verilişin bir üstünlüyü də tanınmağa və xatırlanmağa layiq, ancaq uzun müddət diqqətdən uzaqda qalmış, yada salınmayan sənətkarları işıqlandırmaq, onların haqqında söz açmaq, ifalarını bərpa edərək səsləndirməkdir. Lakin “Axşam görüşləri” məlumları, hətta çox məşhurları belə tamam yeni bir şəkildə, indiyədək geniş ictimaiyyətə bəlli olmayan tərəfləri ilə təqdim etməkdə xüsusi seçilir.

Konservatoriyada təhsil aldığım illərdə dahi bəstəkarımız Qara Qarayevin sinfində oxumuşam, Sankt-Peterburq Dövlət Konservatoriyasının aspiranturasında elmi iş aparanda da mənə himayədarlıq edib. Sonralar konservatoriyada Qara müəllimin rəhbərliyi altında işlədim. Düşünürdüm ki, onu məndən yaxşı tanıyan olmaz. Lakin ötən illərdə “Axşam görüşləri”ndə Qara Qarayevlə bağlı səsləndirilən verilişlər və aparılan təhlillər, həmkarlarının, tələbələrinin və tanıyanların bir-birindən maraqlı xatirələri ilə, elə bil ki, əziz Qara müəllimi yenidən kəşf etmişəm.

Rəssam molbertin üzərində yerləşdirdiyi kətan üzərində günlər, bəzənsə illər ərzində fırçası ilə gəzişərək nəhayətdə kamil bir portret yaratdığı kimi, sanki, “Axşam görüşləri” də onlarla belə portreti uzun müddət ərzində ayrı-ayrı cizgiləriylə işləyir, illər, hərdənsə onillər sonra həmin lövhə bütün dolğunluğu və cazibəsiylə üzə çıxır. “Axşam görüşləri”nin verilişlərində mən dahi Niyazinin, Fikrət Əmirovun, Rəşid Behbudovun, həm baba, həm nəvə Müslüm Maqomayevin və onlarla başqa belə qüdrətli sənətkarın bir deyil, onlarla verilişə səpilmiş epizodlar əsasında çox kamil və insanı həm heyran qoyan, həm də heyrətləndirən misilsiz portretlərini görə bilmişəm.

1960, 1970 və 1980-ci illərdə Azərbaycan Radiosunda da, Azərbaycan Televiziyasında da sanballı musiqi verilişləri var idi və onlar həm də öyrədici məzmun daşıyırdı. Lakin həmin verilişlər müəyyən illərdə efirdə oldu və sonra fəaliyyətini dayandırdı. “Axşam görüşləri” isə yeganə verilişdir ki, yarım əsr əvvəldən bu günə qədər hər bazar günü dinləyicilərlə birlikdədir.

Ötən yarım əsrdə bu nadir verilişin yeganə müəllifi və aparıcısı akademik Rafael Hüseynov olub. Söz yox ki, belə uzun vaxt ərzində “Axşam görüşləri”ni hazırlayan Rafael Hüseynov arxivlərdə işlədikcə, bir çox nəsillərin musiqiçiləri ilə yaxın təmaslar əsnasında özü də zənginləşmiş, təcrübəsi artmış, musiqimizin tarixi və problemlərinə dair hərtərəfli dərin biliyə malik musiqişünas kimi yetişmişdir.

Məsələ burasındadır ki, “Axşam görüşləri”nə qonaq gələnlər, adətən, elə yüksək səviyyəli sənətkarlar olur ki, onlarla söhbətləri lazımi şəkildə qurmaq və müsahiblərdən arzulanan məlumatları ala bilmək üçün gərək sual verməyi, nəyi soruşmağı düzgün müəyyənləşdirəydin. Bunun üçünsə, əlbəttə, müvafiq bilik və səriştələrə malik olmaq lazımdır. Bu baxımdan, Rafael Hüseynovun hər qonaqla söhbəti elə onun özünün də hansı yüksək və universal elmi səviyyənin sahibi olmasına uyğun qurulur.

“Axşam görüşləri”ndə məmnunluq doğuran əsas cəhətlərdən biri də budur ki, eyni peşəkarlıq səviyyəsi və səriştəlilik Rafael Hüseynovun istər muğam, istər aşıq sənəti ilə bağlı açdığı söhbətlərdə və apardığı müsahibələrdə aydın duyulur. Onun istər caz və estrada musiqisi ifaçıları və bəstəkarları ilə görüşlərində, istər simfonik musiqi sahəsində çalışanlarla mükalimələrində, istərsə də vokal sənətinin ustaları ilə müzakirələrində bu cəhət qabarıq müşahidə edilir.

Azərbaycan muğamının uzunəsrlik tarixi, məşhur xanəndələr və sazəndələrin sənət taleyi daim “Axşam görüşləri”ndə baş mövzular sırasındadır. “Axşam görüşləri”ni özünəməxsus nadir səslər ensiklopediyası kimi təsəvvür etsək, muğamat və muğamatçılar onun ən əhəmiyyətli fəsillərindən biri hesab oluna bilər.

“Axşam görüşləri” elə ilk vaxtlardan həm Azərbaycan muğam ifaçılarının köhnə təmsilçilərinə, həm də həyatda olan muğamatçılara geniş yer ayırmağa başladı. Xatirimdədir ki, 1976–77-ci illərdə Rafael Hüseynovun “Axşam görüşləri”ndə unudulmuş və həmin dövrdə az adamın adını eşitdiyi xanəndə Mirtağı Mirbabayev haqqında hazırladığı süjetlər necə geniş əks-səda doğurmuşdu. XX əsrin əvvəllərində məşhurlaşmış xanəndə Mirtağı Mirbabayev sonralar neft milyonçusuna çevrilərək sənətdən ayrılmışdı, bolşeviklər gələndən sonra Azərbaycanı tərk edərək bütün ömrünü İranda, mühacirətdə yaşamışdı. Sovet dövründə isə mühacirlərin adı, adətən, çəkilməz, onlar sosialist cəmiyyətinə yad ünsür kimi qəbul edilərdilər. Belə bir yanaşmanın ortada olduğu vaxtlarda Mirtağı Mirbabayev haqqında verilişdən sonra onun qrammofon vallarından köçürülmüş oxuları ilk dəfə səsləndi. Bununla da yaddan çıxmış xanəndənin irsi bəraət qazandı, onun adı da, səsi də mədəni dövriyyəyə təzədən qayıtdı.

1970-ci illərin sonlarından başlayaraq “Axşam görüşləri”ndə köhnə vallardan köçürmələrə getdikcə daha artıq yer ayrılmağa başlandı. Bunun muğam irsimizi xalqa çatdırmağa daha çox cəhd etməkdən başqa bir mənası da ondan ibarət idi ki, radioda yeni musiqi əsərləri səslənirdi. Vaxt dəyişdiyindən müasirlərə bu məqamı izah etməyə ehtiyac var. Sovet dövründə radioda yalnız fonotekada saxlanan, rəsmən təsdiqlənmiş musiqi nömrələri verilərdi. Vallardan köçürülüb “Axşam görüşləri”nə daxil edilən oxular və çalğılar faktik olaraq radioda ilk dəfə eşidilirdi və bunun özü radionun musiqi repertuarına əlavə bir rəng qatırdı.

“Axşam görüşləri”ndə Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Ələsgər Abdullayev, Cabbar Qaryağdıoğlu, İslam Abdullayev, Qurban Primov, Mirzə Məhəmmədhəsən, Seyid Şuşinski haqqındakı silsilə süjetlər unudulmazdır. 1970–80-ci illərdə bu verilişə tez-tez qonaq dəvət olunan Yavər Kələntərlinin, Mütəllim Mütəllimovun, Bəhram Mansurovun, Habil Əliyevin, Hacı Məmmədovun, Əbülfət Əliyevin və digərlərinin söhbət və xatirələri “Axşam görüşləri”nə xüsusi canlılıq gətirirdi.

Xatirimdədir ki, 1940-50-ci illərdə, mənim yeniyetməlik, gənclik dövrümdə müğənni Töhfə Əliyevanın adı həm muğam, həm xalq mahnılarının mahir ifaçısı kimi məşhur idi. Lakin birdən-birə o səs yoxa çıxdı, nə radiodan eşidildi, nə də konsert salonlarından gəldi. 1970-ci illərin sonlarında isə məhz Rafael Hüseynovun səyləri ilə Töhfə Əliyeva yenidən musiqiyə qayıtdı.

Sən demə, o, ailə həyatı qurduqdan sonra əri səhnəyə çıxmasına, ümumiyyətlə, oxumasına icazə verməyibmiş. Hətta radioda da tanışları vasitəsilə Töhfə xanımın lent yazılarının bir daha səsləndirilməməsinə nail olubmuş. Rafael Hüseynov çoxdan musiqidən ayrılmış bu dəyərli sənətkar haqqında ayrıca veriliş hazırladı, “Axşam görüşləri”ndə Töhfə Əliyevanın yalnız köhnə lent yazıları deyil, yeni oxuları da səslənməyə başladı. Bu, əlbəttə ki, çox xeyirxah bir missiya idi və “Axşam görüşləri”nin efirdə olduğu yarım əsr ərzində musiqimizə qayıdışına səbəb olduğu bu qəbildən olan səslər və əsərlər az deyil.

Aşıq musiqisinin Qaraçı oğlu İbrahim, Mirzə Bilal, Kalvalı Əli klassikləri ilə yanaşı Azərbaycanın fərqli aşıq məktəbləri və mühitlərinin nümayəndələri olan Aşıq Həsrət Hüseynov, Aşıq Barat, Aşıq Əhməd Rüstəmov, Aşıq Kamandar Əfəndiyev, Aşıq Hüseyn Saraclı, Aşıq Əmrah Gülməmmədov və başqaları ilə söhbətlər musiqimizin bu sevilən qanadı ilə bağlı təsəvvürləri dərinləşdirməklə yanaşı, Azərbaycan aşıq sənətinin bir bütöv olması düşüncəsinin daha artıq bərqərar olmasına, bu sahədəki bölgəçilik baxışlarının yanlışlığının daha aydın dərk edilməsinə səbəb olurdu.

Azərbaycan caz musiqisinin enişli-yoxuşlu tarixinin və ayrı-ayrı ifaçılarının sənət bioqrafiyalarının təqdimində də “Axşam görüşləri”nin xidmətləri əvəzsizdir. Azərbaycanda caz musiqisi tarixinin, ilk dövlət caz orkestrimizin yaranmasının bizim ailəyə birbaşa aidiyyəti var. Mənim atam Məmmədsadıq Əfəndiyev hələ 1939-cu ildə Azərbaycanda xalq maarif komissarı olanda bu məsələlərin həllində birbaşa iştirak etmişdi. O, 1941-ci ildə Filarmoniyaya direktorluq edəndə də caz orkestrinin qurucuları Niyazinin, Tofiq Quliyevin yanında idi. Bu haqda hələ 1980-ci illərin əvvəllərində “Axşam görüşləri”nə müsahibəsində Xalq artisti Tofiq Quliyev söhbət açır, 1941-45-ci illər müharibəsi ərəfəsində yeni yaradılacaq ilk Dövlət Caz Orkestrimiz üçün respublikadan kənardan musiqi alətləri alınıb gətirilməsində atamın nə qədər fədakar köməklər göstərməsindən minnətdarlıqla bəhs edirdi.

Elə həmin vaxtlarda Rafael Hüseynovun ilk peşəkar cazmenlərimizdən olmuş, sovet siyasi repressiyalarının qurbanlarından biri, alt saksafonçu Pərviz Rüstəmbəyov, ilk caz orkestrimiz və onun üzvləri haqqında “Axşam görüşləri”ndə söhbət və müsahibələri musiqi dairələrində təqdirlə qarşılanmış, Bakıda caz musiqisinin keçmişi ilə əlaqədar müfəssəl fikir mübadilələri doğurmuşdu. “Axşam görüşləri”ndə Bakının caz həyatının müxtəlif onillərində izləri qalan Məmməd Cavadov, Dilara Bağırbəyova, Tofiq Əhmədov, Vaqif Mustafazadə, Rafiq Babayev, Vaqif Sadıqov, Rafiq Seyidzadə və digərləri haqda söhbətləri və müsahibələri caz salnaməmizin dəyərli səhifələri cərgəsindədir.

Musiqi mədəniyyətimizin elə görkəmli şəxsiyyətləri və abidə əsərləri var ki, onlarla bağlı “Axşam görüşləri” verilişində sistemli şəkildə təqdim edilmiş süjetlər həm də musiqişünaslığımızdakı bir sıra “ağ ləkələr”in aradan götürülməsinə gətirib çıxarmışdır.

Bəstəkar Asəf Zeynallının həyatı və yaradıcılığı ilə bağlı Rafael Hüseynovun apardığı tədqiqat, əldə etdiyi əlyazmalar və açdığı söhbətlər, Niyazi, Tofiq Quliyev, Məmmədrza Bakıxanov, Nigar Qasımova, Sevda Pepinova kimi şahidlərdən aldığı müsahibələr 23 il ömür sürmüş bu istedadlı insanın şəxsiyyətini də, irsini də bizə yenidən, daha təhrifsiz və tam halda tanıtmışdır. Üzeyir bəyin silahdaşı Müslüm Maqomayevin gündəlikləri, məktublaşmaları əsasında aşkarladığı tarixi həqiqətlər XX əsrin ilk onilliklərindəki musiqi həyatımız haqqında biliklərin dairəsini xeyli genişləndirmişdir.

Musiqi tariximizin elə açar şəxsiyyətləri və hadisələri var ki, onları Rafael Hüseynov “Axşam görüşləri”ni hazırladığı bütün illərdə izləməkdə davam edib. Orta əsrlər müsəlman Şərqində ərəb, fars, türk dillərində yaradılmış musiqi risalələri, Əbdülqadir Marağayinin sözlərini də, musiqisini də özünün yazdığı təsnifləri, Azərbaycan xalq rəqsləri, Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Bülbül, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinskinin şəxsiyyəti və irsi, “Leyli və Məcnun”, “Koroğlu”, “Şah İsmayıl” və digər məşhur operalarımızın surətlər qalereyası, Güney Azərbaycanın musiqi həyatı və digər belə mövzulara dəfələrlə qayıdılması, hər dəfə yeni tapıntılar, yeni cizgilərlə əvvəlki ayların və illərin “Axşam görüşləri”ndə bəhs edilmişlərin üstünə yeni məlumatların əlavə edilməsi tədricən bir-birindən qiymətli kitabların yazılması üçün bünövrəyə çevrilmişdir.

Rafael Hüseynovun musiqi ədəbiyyatı kitabxanamızı zənginləşdirən “Min ikinci gecə”, “Hamısı ulduz”, “İmzamız” kimi mükəmməl kitablarının əsasında, zənnimcə, elə “Axşam görüşləri”nin münbit təsiri dayanır. Ancaq çox yaxşı olardı ki, Rafael Hüseynov “Axşam görüşləri”nin 50 illik yolunun yazılarını bir neçə cilddə birləşdirərək kitablaşdıraydı. Bu, musiqişünaslığımıza, bütövlükdə mədəniyyətimizə çox böyük töhfə olardı.

Azərbaycan Radiosunun “Axşam görüşləri” verilişinin, onun yarım əsr ərzindəki sabit müəllifi akademik Rafael Hüseynovun xidmətləri ən yüksək təriflərə layiqdir. Əslində işini yaxşı bilən və vicdanla yerinə yetirən böyük bir kollektivin öhdəsindən gəlməyə qadir olacağı belə əhatəli və əhəmiyyətli vəzifəni bircə nəfərin bu qədər parlaqlıqda, bunca uzun müddətdə icra etməsi həm minnətdarlıq, həm ehtiram duyğusu oyadır.

Mən artıq 90 yaşımı arxada qoymuşam və bu ömrün yarısından çoxunu “Axşam görüşləri”ni ardıcıl dinləmişəm. Milli mədəniyyətimizin və Azərbaycan teleradio məkanının iftixarı olan “Axşam görüşləri” verilişinə, ən azı, mənim yaşıma çatmağı arzulayıram!

***İmruz ƏFƏNDİYEVA,***
***sənətşünaslıq doktoru,***
***professor, Əməkdar incəsənət xadimi***

*Əcəmi Naxçıvani – 900*

# Orta əsrlər intibahı memarlığımızın atası

**Prezident İlham Əliyevin ötən ilin sonunda – dekabrın 30-da imzaladığı Sərəncamla Azərbaycan memarlığının görkəmli siması, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Naxçıvaninin 900 illik yubileyinin qeyd olunması qərara alınıb.**

Xatırlayırıq ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Əcəmi Naxçıvaninin 850 illik yubileyi respublikamızda təntənəli şəkildə keçirilib. Ondan 25 il sonra isə Ümummilli lider onun Möminə Xatun abidəsini ziyarəti zamanı deyib: “...Bu abidənin qiyməti yoxdur. Möminə Xatun türbəsi XII əsrdə, orta əsrlərdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, doğrudan da, böyük memarlıq məktəbi olduğunu göstərir. Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün, bəlkə, daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir”.



Ötən ay Parisdə UNESCO-nun mənzil-qərargahında yubileylər proqramı çərçivəsində Əcəmiyə həsr olunan sərgi açılıb. Dahi memarın həyat və yaradıcılığı haqqında məlumat verilib. Bildirilib ki, onun 900 illiyi UNESCO-nun rəsmi Yubileylər Siyahısına daxil edilib və bu, Azərbaycan mədəni irsinin dünya miqyasında tanıdılmasının növbəti nümunəsidir və ölkəmizin qlobal səviyyədə mədəni irsin qorunmasına sadiqliyini bir daha nümayiş etdirir.

Hələ 1983-cü ildə Bakıda keçirilən Şərq Xalça Sənəti üzrə Beynəlxalq Simpozium zamanı görkəmli xalça ustası Lətif Kərimovun toxuduğu “Əcəmi Naxçıvani” təsvir xalçası UNESCO-ya hədiyyə edilib. Bu gün həmin xalça UNESCO-nun divarlarını bəzəyərək mədəni mübadilənin rəmzinə çevrilib. Sözügedən sərgidə isə Əcəmi Naxçıvaniyə aid şəkillərdən əlavə, Türk Mədəni İrsi Fondu tərəfindən hazırlanmış yeni kitab və broşürlər təqdim olunub. Bir fakt da xatırladılıb ki, XIII əsr mənbələri Əcəminin “Şeyxül-mühəndis” (mühəndislərin başçısı) rütbəsi daşıdığından xəbər verir.





Göründüyü kimi, dünya da etiraf edir ki, Əcəmi Şərqdə riyazi dəqiqliyi bədii təxəyyüllə birləşdirən memarlıq məktəbinin yaradıcısıdır. Onun fəaliyyəti Azərbaycanın dövlətçilik tarixində xüsusi yer tutan qüdrətli Atabəylər dövlətinin paytaxtı, Yaxın Şərqin mədəniyyət, elm, ticarət və sənət mərkəzlərindən biri – Naxçıvan şəhəri ilə bağlı olub. XII əsrin nadir inciləri olan Möminə Xatun və Yusif ibn Küseyr türbələri onun dahiliyinə dəlalət edir. Əcəmi məkan quruluşunda yeni prinsiplər tətbiq edərək, nadir ornamental üslub yaradıb və həndəsi dili dövrü üçün misilsiz səviyyəyə yüksəldib. Memarın monumental tikililəri incə kompozisiyası və estetik mükəmməlliyi ilə seçilən ölməz sənət inciləridir.

Əcəminin parlaq irsi ondan sonrakı dövrlərdə Azərbaycan və Yaxın Şərq ölkələrinin memarlığına güclü təsir göstərib. Marağadakı Göy Günbəzdə (XII əsr), Naxçıvan yaxınlığındakı Gülüstan türbəsində (XIII əsr), Qarabağlar, Bərdə və Salmas abidələrində (XIV əsr), türk sənətkarı Memar Sinanın (XVI əsr) İstanbulda ucaltdığı türbələrdə Əcəmi sənətinin ənənələri yaşayır.

...Xalq arasında Atabəy Günbəzi kimi məşhur olan xatirə abidəsi – Möminə Xatun məqbərəsi Şəmsəddin Eldənizin birinci arvadı, Azərbaycan Atabəylər dövlətinin yaranması və möhkəmləndirilməsi üçün çox böyük işlər görmüş xanımın adını əbədiləşdirib. Formasına görə kəsik onbucaqlını xatırladan bu tarix yadigarının naxışları, üzərində kufi xətti ilə yazılmış Quran ayələrindən ibarət haşiyələr istər-istəməz Hindistandakı məşhur Tac-Mahalı, Səmərqəndin, İsfahanın möhtəşəm abidələrini xatırladır. Məsələ burasındadır ki, Möminə Xatun məqbərəsinin yaranma tarixi onları neçə əsr qabaqlayır. 1186-cı ildə Şərqdə ilk dəfə qadının şərəfinə ucaldılan bu abidəni anaya, qadına hörmət və ehtiramın ifadəsi kimi bu gün də Naxçıvana gələn xarici qonaqlar böyük maraqla ziyarət edirlər. Yusif ibn Küseyrin məqbərəsi, Naxçıvan Cümə məscidi, dağıdılmış bir memarlıq abidəsinin qoşaminarəli piştağı və sair də Memar Əcəminin yadigarlarıdır.

Əcəminin həyatı haqqında tarixi mənbələr yox dərəcəsindədir. İstinad yalnız onun ölməz əsərlərinə edilir. Dahi memar, sanki, belə olacağını qabaqcadan duyubmuş kimi, öz şah əsərinin – Möminə Xatun türbəsinin üzərində belə yazıb: “Biz gedəriyik. Dünya əbədi qalandır. Biz gedəcəyik, dünya qalacaq. Biz ölərik – bu, bizdən xatirə qalar. İlahi, bəd nəzərdən uzaq elə”.

Böyük Əcəminin xatirəsi daim qəlbimizdə yaşayır. Naxçıvanda irsi qorunan, dünyaya səsi-sədası yayılan memarın yubileyi oldu-olmadı, adı hər gün yüz dəfələrlə Bakıda çəkilir: Paytaxtımızdakı metro stansiyalarından biri onun xatirəsinə “Memar Əcəmi” adlandırılıb və yeraltı rahat nəqliyyatdan istifadə edənlər üçün dönə-dönə xatırladılır. Binəqədi rayonu, 8-ci mikrorayonda isə yaraşıqlı küçələrdən biri böyük şəxsiyyətin adını daşıyır.

***Ə.DOSTƏLİ***
***XQ***

# Şuşa Musiqi Məktəbinə piano hədiyyəsi

**Rusiyanın dünyaca məşhur ədəbi nəşri “Literaturnaya qazeta”nın Azərbaycan təmsilçisi, tanınmış şair-tərcüməçi, Prezident mükafatçısı Akif Əhmədgil Şuşada fəaliyyətini bərpa edən Musiqi Məktəbinə ailə pianosunu hədiyyə edib.**

Həmkarımız bu barədə XQ-yə açıqlamasında bildirdi ki, dünyada Azərbaycanın musiqi konservatoriyası kimi tanınmış, xalqımıza Üzeyir Hacıbəyli, Bülbül, Fikrət Əmirov, Rəşid Behbudov kimi sənət korifeyləri bəxş etmiş Şuşada musiqi ocağının yenidən dirçəldilməsi onu ürəkdən sevindirib. Şəhərdə ezamiyyətdə olarkən musiqi məktəbinə də gedən qələm sahibi bu sənət ocağına öz töhfəsini verməyi qərara alıb və əlavə pianoya ehtiyac olduğunu öyrənib.

Bakıya qayıdandan sonra Akif Əhmədgil vaxtilə qiymətli musiqi alətini Şuşaya göndərməyi özünə mənəvi borc bilib. Ağır çəkili hədiyyəni məktəbə çatdırmaqda jurnalistə tələbəlik dostu, Milli Məclisin deputatı, professor Bəxtiyar Əliyev yardımçı olub.

Akif Əhmədgil bildirdi ki, erməni vandalları Qarabağın şəhər və kəndlərinin mədəniyyət obyektlərini məhv etdiklərinə görə, yeni yaradılan təhsil və sənət ocaqlarının fəaliyyətinə bacardığımız köməyi göstərməliyik. Musiqiçilərimiz istifadəsiz alətlərini, ziyalılarımız öz kitablarını və onlara lazım olmayan nəşrləri Qarabağın bərpa edilən, məskunlaşdırılan məntəqələrinə göndərə bilərlər.



Müsahibimiz sonda qeyd etdi ki, o, növbəti addım olaraq Xankəndidə açıq kitabxana yaratmağı qərara alıb və ziyalılarımızı bu təşəbbüsə qoşulmağa çağırır.

***Ə.ƏLİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 01 (30970) 6 yanvar 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### Şahmat çempionatına start!



**Bu gün şahmat üzrə Azərbaycan I Dəstəsinə start veriləcək. Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, artıq çempionatda iştirak edəcək şahmatçıların sayı və yarışların ümumi mükafat fondu da təsdiqlənib.**

Kişilərin yarışında mükafat fondu 7000 manat, qadınlarda isə 3000 manat müəyyən edilib. Kişilərdə 40, qadınların mübarizəsində isə 20 nəfər iştirak edəcək. Kişilər arasında ilk 9 pilləni tutanlar yüksək liqada iştirak etmək hüququ qazanacaqlar. Federasiyadan bildirilib ki, bu addım daha böyük rəqabət yaratmaq məqsədilə atılıb. Çünki kişilərdə rəqabət güclüdür. Qadınların mübarizəsində isə ilk 2 yerin sahibi Azərbaycan çempionatına yüksələcək.

Qeyd edək ki, Azərbaycan I Dəstəsi yanvarın 6-14-ü aralığında keçiriləcək.

### Azərbaycanda 3 beynəlxalq boks turniri keçiriləcək




**Cari ildə ölkəmizdə üç beynəlxalq boks turniri keçiriləcək. Bu barədə Azərbaycan Boks Federasiyası məlumat yayıb.**

Bakı Boks Mərkəzində təşkil olunacaq yarışlara ilk olaraq aprelin 2-dən 8-dək "Böyük İpək Yolu" turniri (böyüklər) ilə start veriləcək.

Mayın 2-dən 8-dək 17 yaşadək boksçular arasında Heydər Əliyev Kuboku, dekabrın 4-dən 10-dək isə Abbas Ağalarovun xatirəsinə həsr olunan turnir keçiriləcək.

### Güləş üzrə Azərbaycan çempionatı başlayır



**Yanvarın 7-dən 11-dək Yunan-Roma və sərbəst güləş üzrə Azərbaycan çempionatı baş tutacaq. İlk olaraq yunan-Roma güləşçiləri xalça üzərinə çıxacaqlar. Güləş üzrə Azərbaycan çempionatının görüşlərini yerli hakimlərlə yanaşı, ölkə xaricindən dəvət edilmiş altı referi də idarə edəcək.**

Bu barədə Azərbaycan Güləş Federasiyasının (AGF) mətbuat xidmətinin rəhbəri Sərxan Musalı məlumat verib.

O, Ukrayna, Qazaxıstan, Belarus və Rumıniyadan olan ədalət təmsilçilərinin turnirdə iştirak edəcəyini söyləyib.

AGF rəsmisi Bakı İdman Sarayında baş tutacaq yarışın açılış mərasiminin yanvarın 8-də keçiriləcəyini diqqətə çatdırıb. S.Musalı Azərbaycan millisinin üzvlərinin əksəriyyətinin turnirə qatılacağını vurğulayıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ Lənkəran rayonu Girdəni kənd sakini Kərimov Kamran Burhan oğlunun adına verilmiş FE seriyalı 864161 nömrəli xarici pasport itdiyi üçün etibarsız sayılır.*

*Epidemioloji durum*

# Z-virusu iqlimlə bağlıdır

## *Bu infeksiya qorxulu deyil və uşaqlara təsir etmir*



**Ötən payızın elə ilk günlərindən insanların narahatlığına səbəb olan daha bir virusun yayılması xəbəri gündəmə gəldi. Poliklinikalara gəlişlərin sayı artdı, təcili yardımlara müraciətlər çoxaldı. Yüksək temperatur, boğaz ağrısı, səs tutulması, əzələ və oynaqlarda ağrı və əzginlik kimi klinik əlamətlərlə keçən virus infeksiyasında sıçrayışlı artım müşahidə olunur.**

Pandemiya yaşamış cəmiyyətin narahatlığı təbiidir. Koronavirus qorxusunun insanlar arasında hələ də davam etdiyi dövrdə sosial şəbəkələrdə və bəzi saytlarda xəstəliyi, hətta, yeni virus ştammının törədə bilməsi ehtimalı kimi dəyərləndirənlər də var.

**Virus və xəstəliyə yoluxma ilə bağlı daha düzgün məlumat almaq üçün səhiyyə eksperti, tibb elmləri doktoru Musa Qəniyevə müraciət etdik. Professor infeksiyanın yoluxma və yayılma səbəblərini, gedişini və virusun mutasiyalarını ətraflı şərh etdi:**



– Gəzən söz–söhbətlərdən fərqli olaraq, deyə bilərik ki, təhlükəli heç bir yeni virus ştammı yaranmayıb. Düşünürük ki, yaxın 7–10 il ərzində belə bir virusun yaranması ehtimalı da yoxdur.

Dekabr ayında virus infeksiyasının kəskin artmasının əsas səbəbi isə, iqlim şəraitində kəskin disbalansın (sürətlə dəyişən temperatur fərqliliyi) nəticəsi olaraq, fəsli infeksiyalarda müşahidə olunan hiperaktiv fəallıqdır. Nisbi olaraq, nuklein ardıcıllığını dəyişərək, hazırda potensial fəallığı olan və 90–95 faiz məlum klinik əlamətləri törədən yalnız iki virus ştammı mövcuddur.

Bunlardan biri qripin A/H3N2 ştammı, digəri isə koronavirusun Stratus (XFG) ştammıdır. Hər iki virus ştammında müşahidə olunan mutasiyalar, əsasən virusun hüceyrəyə bağlanma sahəsində – spayka zülalında baş verdiyindən, yalnız xəstəliyə yoluxma riskini artırır. Bu mutasiyaların virusun aqressivliyi və ya letallığına (ölüm törətməsi) birbaşa təsiri yoxdur.

Mütəxəssislərin Honkonq qripi adlandırdıqları, yüksək temperatur, kəskin boğaz ağrısı, quru, tutmaşəkilli və sürəkli öskürəklə (traxeit) müşahidə olunan A/H3N2 ştammında aşağıdakı nöqtə mutasiyaları baş vermişdir: HA zülalında (hemaqqlyutin) 156-cı sırada serin histidinlə, 190-cı vəziyyətdə asparagin turşusu asparaginlə əvəz olunmuş, 160-cı sahədə şəkərlə yüklənmə baş vermişdir. NA zülalı (neyraminidaza) genində 122V və S247N nukleotid dəyişikliyi yaranmış (infeksiyadan sağalma dövrünün uzanmasının əsas səbəblərindən biri), virusdaxili zülal–polimeraza PB2 kompleksində E627K mutasiyası (qlütamin turşusunun lizinlə əvəz olunması) baş vermişdir. Qeyd edək ki, bu dəyişiklik virusun törətdiyi pirogen hiperaktivliyi tətiklədiyindən, virus bədənə daxıl olduğu ilk saatlarda belə, temperaturun 39–40 dərəcəyə qədər yüksəlməsinə səbəb olur.

**Müsahibimiz hazırkı mutasiyanın koronavirusun əvvəlki mutasiyalarından fərqli olduğunu vurğuladı:**

– Koronavirusun Stratus ştammı A/H3N2 ştammından fərqli olaraq, əvvəlcə boğazda "qaşınma" hissi verən ağrı, "qrippoz" əlamətlər, əksər hallarda "xırıltılı" səs və ya səsin tam tutulması, sonrakı günlərdə isə yüksək temperaturla müşahidə olunur. Bu ştammda törənən bütün nöqtə mutasiyaları S-spayka zülalında, yəni hüceyrəyə (ACE2 reseptoruna) bağlanan sahədə baş verdiyindən təhlükəli vəziyyət gözlənilmir.

Bunlar antitellərdən yayınmaya xidmət edən (T478K, N487D), virusun dözümlülüyünü (R346 və F456L), spayka zülalının stabilliyi və qırtlaq epitelisinə keçməsini təmin edən (S31P və K182R) mutasiyalardır. Odur ki, xəstələrin 70 faizdən çoxu, ilkin klinik əlamət kimi səsin tutulmasından əziyyət çəkirlər.

Digər tərəfdən, Stratus (XFG) ştammı Omikronun iki yarımvariantının–LF.7 və LP.8.1.2.–nin hibridi (rekombinat) olduğundan, "bədbəxt mutantlar" sinfinə aiddir və potensial letallıq fəallığı sıfra bərabərdir. Nəzərə almaq lazımdır ki, uşaqlarda ATE2 reseptorları tam formalaşmadığından, onların bu virusa yoluxma ehtimalı yoxdur.

İstər A/H3N2 qrup, istərsə də XFG koronavirusa yoluxma zamanı sağalmanın çox uzun– 20–25 gün çəkməsi, antiviral interferon fəallığının formalaşmasında ləngimə səbəbindən, hüceyrələrin uzun müddət özünü təmizləmə rejiminə keçə bilməməsidir. Koronavirusun digər (məsələn, Delta) ştammlarından fərqli olaraq, Stratus ştammı ağ ciyər alveollarına deyil, yalnız yuxarı tənəffüs yolu (burun–udlaq və qırtlaq) epitelisinə tropluq göstərməklə, həmin nahiyələrdə toplanır. Odur ki, bu ştammların ağciyərləri zədələmək və pnevmoniya kimi ağırlaşmalar törətmək ehtimalı, demək olar ki, yoxdur.

**Professor hazırda insanları ən çox narahat edən və qorxuya salan əsas səbəbə – klinik əlamətlərin 7 gün deyil, 20–25 gün, hətta daha çox davam etməsinə də aydınlıq gətirdi:**

– Bunun səbəbi mutatik spesifikliyə görə, orqanizm bu virusları daha gec tanıdığından, özünümüdafiə reaksiyalarının ləngiməsi, uzun müddət davam edən pandemiyaya görə "immun sistemin yorğunluğu", yuxarı tənəffüs yollarında davamlı iltihabi proses səbəbindən, virus orqanizmdən tam xaric olduğu halda belə, ödəm, iltihablı proses və öskürəyin qalması, yüksək bədən temperaturunun neyromediator ehtiyatını tükəndirməsi, eləcə də 2–4 həftə müddətinə davam edən "virus sonu asteniya"dır.

Odur ki, hazırkı virus infeksiyası zamanı yüksək bədən temperaturunun 7 günə qədər, əzginlik və öskürəyin 14–21 gün, hətta daha uzun müddət davam etməsi, tamamilə normal haldır və heç bir xüsusi narahatlığa əsas vermir. Yoluxma baş verərsə, yalnız bədən temperaturu və su itkisi nəzarətdə saxlanılmaqla, simptomatik müalicə tədbirləri görülməlidir.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

*Yurdumuzu gəzə-gəzə*

# Hacıkəndin qışı da gözəldir!



**Hacıkəndə bu dəfə fotomüxbir Rövşən Əmiraslanoğlu ilə gəlmişdik. Bu mövsümün qışı artıq öz sözünü demişdi: hər tərəf qar içində idi.**

Maşından düşən kimi üzümüzü üşüdən soyuq, alatorana bənzər ağ duman bizə dağ yerinin qış özəlliyini anlatdı. Adətən, bütün əzəməti ilə görünən Kəpəz bu gün yalnız dumanın arasından çətinliklə seçilirdi. Rövşənin dağın tutqun siluetini görüb lentə alması da bir özgə məharət idi. Adama elə gəlirdi ki, Kəpəz çən-duman arxasından nazlana-nazlana bizə baxır...

Hacıkənd qışda tamam başqa bir mənzərə ilə görünür. Qar ağacların budaqlarına, damların üstünə, yol kənarlarına səssizcə qonub. Addım atdıqca, ayaqların altında yastılanan qar ətrafda hökm sürən sükuta xəfif bir xışıltı qatır. Bu sakitlik adamı yormur, əksinə, sanki, ruhun dincəlir.

Hər yerə qar yağsa da, yol açıqdır. Bu, ilk baxışdan diqqətçəkən bir təzaddır. Dağlıq ərazi, sərt qış, amma hərəkət var, həyat dayanmayıb. Yoldan keçən avtomobillər, ara-sıra görünən insanlar Hacıkəndin qış günlərində də əlçatan olduğunu göstərir.

Rövşən fotoaparatını yenə işə salır. Dumanın içindən seçilən ağaclar, gözqamaşdıran bəyazlıq, qara lent kimi uzanan yol qışın obrazı kimi kadrların yaddaşına köçürülür. Hər çəkilən şəkil məhz bu anların canlı şahididir. Günəş isə hələ ki, özünü, nurlu üzünü göstərmir. Yolun hər iki tərəfindəki qar topaları isə, sanki, günəş işığını əvəz edərək ətrafı süd rənginə qərq edir.

Kəpəz bütün bu qış nağılının görüntülərini əvvəlki əzəməti ilə deyil, qışın yaratdığı qəribə bir küskünlüklə seyr edir.

…Bu səfərimiz bir daha göstərdi ki, Hacıkənd təkcə yay istirahətinin ünvanı deyil. Qışda da buranın öz cazibəsi, özgə bir gözəlliyi var. Qarın ağlığı, dumanın bəyaz toru, gediş-gəlişli yollar və dağın müdrik sükutu – bütün bunlar Hacıkəndin qış portretini tamamlayan cizgilərdir.

Mən bu portreti sözlə rəsm etməyə çalışdım, Rövşən isə şəkillərlə canlandırdı. Və hər iki təsvir eyni gerçəyi sakitcə pıçıldayır: Hacıkəndin qışı da gözəldir!

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*
*Fotolar Rövşən ƏMİRASLANOĞLUNUNDUR.*



## HAVA

# Yağmursuz və dumanlı qış günü

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 2-4, gündüz 9-12 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunu, nisbi rütubət 70-80 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 11-16 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti olacaq.

Gecə bəzi dağlıq ərazilərdə yolların buz bağlamaq ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2352
SİFARİŞ 13
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00